

**“Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz – bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq”.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül
yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi,
3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 4-cü nömrəsi*

*Oktyabr - Dekabr (2021-ci il)*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanmışdır: 12.01.2022
60x84 1/8 formatda 198 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2022

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**4** İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər
**7** Azərbaycan və Türkiyə prezidentləri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlini qoyublar
**10** İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoyublar
**14** Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar
**16** Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər
**20** İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib
**27** İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş olub
**29** Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib
**33** Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər
**36** İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər
**39** İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edib
**49** İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti
**53** Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevi yubileyi münasibətilə təbrik edib
**55** K.B. Əliyevə I dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı


## BAŞ PROKURORLUQDA


**56** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev pensiyaya çıxmış prokurorluq işçiləri ilə görüşmüşdür
**57** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstana səfər etmişdir
**58** Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş naziri ilə görüşmüşdür
**59** Baş Prokurorluğun Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlığı uğurla davam etdirilir
**61** Oktyabrın 27-də Baş prokuror Kamran Əliyev Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratlığının rəhbəri Xristos Cakumopulosun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir
**62** Türkdilli Dövlətlərin Baş Prokurorları Şurası təsis edilmişdir
**69** 5 noyabr 2021-ci il tarixdə "8 Noyabr – Zəfər Günü" münasibətilə Baş Prokurorluqda tədbir keçirilmişdir
**62** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev noyabrın 5-də ölkəmizdə işgüzar səfərdə olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevlə görüşüb
**74** Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında işgüzar əlaqələr uğurla davam etdirilir
**77** Belarus İstintaq Komitəsinin nümayəndə heyətinin iştirakı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının geniş tərkibdə iclası keçirilmişdir
**77** Türkiyə Respublikası İstanbul şəhər Baş prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti 23-26 noyabr 2021-ci il tarixlərində Azərbaycan Respublikasına rəsmi səfər etmişdir
**80** Azərbaycanın Baş prokuroru və İstanbul şəhərinin Baş prokuroru Füzuliyə və Şuşaya səfər ediblər
**82** Türkiyə Respublikası İstanbul şəhər Baş prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri başa çatıb
**86** Ukraynanın Baş prokuroru İrina Venediktovanın dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynada işgüzar səfərdə olub
**89** Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir
**92** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş yüksək səviyyəli sessiyasında iştirak etmişdir
**94** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir
**96** Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Baş prokuror veteran və pensiyaya çıxmış prokurorluq əməkdaşları ilə görüşmüşdür
**99** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində dövlət ittihamçıları üçün qısamüddətli kurs təşkil edilib
**100** Baş Prokurorluğun və MEDİA-nın birgə təşkilatçılığı ilə "Media və hüquqi maarifləndirmə" mövzusunda tədbir keçirilib
**102** Baş Prokurorluğun əməkdaşları forumda iştirak etmişlər
**103** Baş Prokurorluğun əməkdaşları 1-ci Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı - Rebuild Karabakh" adlı sərgidə olublar
**106** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində növbəti tədris tədbiri keçirilmişdir
**104** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) "Şəhid Dindirmə Müsabiqəsinin" hazırlıq (təlim) mərhələsi keçirilmişdir
**105** Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korrupsiya və şəffaflıq" işçi qrupunun növbəti iclası keçirilmişdir
**106** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzində prokurorluq əməkdaşlarının iştirakı ilə təlim keçirilmişdir
**107** "Davam" Gənc Hüquqşünaslar Klubunun üzvləri Baş Prokurorluğun yeni inzibati bina kompleksi ilə tanış olmuşlar
**108** Baş Prokurorluğun əməkdaşları Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilmiş sənədli filmlərin təqdimatında iştirak etmişlər
**109** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Şəhid Dindirmə Müsabiqəsinin" final mərhələsi keçirilmişdir
**110** Prokurorluq əməkdaşları "Zəfər" Yarmarkasında olub
**113** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçiləri üçün qısamüddətli təlim təşkil edilib
**114** Azərbaycan Respublikası Baş Prokurorluğunun Elektron Kitabxanası fəaliyyətə başlamışdır
**115** "İşğaldan azad olunmuş ərazilərin innovativ iqtisadi inkişaf imkanları" mövzusunda elmi-praktiki konfransda prokurorluğun nümayəndəsi iştirak etmişdir
**116** Azərbaycan Respublikası Baş Prokurorluğunda brifinq keçirilmişdir
**117** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluğa qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş 83 namizədin icbari təliminə başlanılmışdır
**118** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Özəl sektorda anti-korrupsiya standartları" mövzusunda seminar-müşavirə keçirilmişdir
**119** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Bakı Dövlət Universiteti tərəfindən təşkil edilən beynəlxalq konfransın "Cinayət hüququnun inkişafının yeni tendensiyaları" sessiyası keçirilmişdir
**120** Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korrupsiya və şəffaflıq" işçi qrupunun növbəti iclası keçirirlmişdir
**121** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün silsiləi tədris tədbirləri keçirilmişdir
**122** 24.12.2021-ci il tarixində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində dəyirmi masa keçirilmişdir
**123** Hərbi Prokurorluqda Azərbaycan Prokurorluğunun yaranmasının 103 illiyinə həsr olunmuş mərasim keçirilib
**125** Ümummilli lider Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə bağlı Hərbi Prokurorluqda anım mərasimi keçirilib
**128** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103 illiyinə həsr olunmuş tədbir keçirilib
**130** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Xatirə Muzeyində olmuşlar
**131** Naxçıvan Dövlət Universitetinin tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar
**132** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi yad edilib
**134** Mətbuat xidmətinin məlumatları


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**141** Baş prokuror Litvanın ölkəmizdəki səfiri ilə görüşüb
**142** Baş prokuror Koreya Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb
**143** Türkiyə Respublikasının Ankara şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dəstəyi ilə təşkilata üzv dövlətlərin hakim və prokurorlarının tədris müəssisələrinin ilk iclası keçirilmişdir
**144** Beynəlxalq Anti-Korrupsiya Akademiyası beynəlxalq təşkilatının Üzv Dövlətlərinin Onuncu Sessiyasının növbəti iclası keçirilmişdir
**145** Prokurorluq əməkdaşları Türkiyənin Ankara şəhərində 10 günlük təcrübə mübadiləsində olub
**148** Ukrayna Baş Prokurorunun Ofisi ilə əməkdaşlıq uğurla davam etdirilir
**149** Azərbaycan Respublikası Baş Prokurorluğunun bir qrup əməkdaşı Rusiya Federasiyasında səfərdə olmuşdur
**150** Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin əməkdaşları Brüssel şəhərində keçirilmiş tədris proqramında iştirak etmişlər
**151** Azərbaycan Prokurorluğu əldə etdiyi nailiyyətlərə görə beynəlxalq təşkilatın mükafatına layiq görülmüşdür
**152** Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşı Bolqarıstan Respublikasında səfərdə olmuşdur
**152** Prokurorluq orqanlarının öz xarici tərəfdaşları ilə beynəlxalq əməkdaşlığı davam etdirilir
**154** Baş Prokurorluğun idarə rəisi digər ölkələrin qiymətləndirilməsində iştirak etmişdir
**155** Baş Prokurorluğun nümayəndəsi Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən təşkil edilmiş tədbirdə iştirak etmişdir
**156** Özbəkistanın prokurorluq orqanları ilə əməkdaşlıq uğurla davam etdirilir
**157** Nüfuzlu beynəlxalq təşkilat tərəfindən Azərbaycan Prokurorluğunun istintaq təcrübəsinə maraq ifadə olunmuşdur
**158** Prokurorluq BMT-nin qurumları ilə əlaqələri genişləndirir


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**159** Vüqar Əliyev. "Azərbaycan iqtisadiyyatının inkişafında Ulu öndər Heydər Əliyevin rolu"
**164** Fərid Dadaşov, Çingiz Əli-zadə. Müstəqil Azərbaycanın Zəfər amnistiyası
**168** Faiq Səfərov. Hüquqi maarifləndirmə günün tələbidir
**172** Balahüseyn Şabanov. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı başlanan cinayət işləri üzrə istintaqın aparılması zamanı istintaq situasiyalarının, versiyaların işlənməsi və araşdırmanın planlaşdırılmasının xüsusiyyətləri, istintaqın gedişatında yaranan çətinliklərin həlli yolları
**176** Ceyhun Quliyev. Hərbi xidmət Azərbaycan gəncinin şərəf işidir


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**179** Xəyalə Aslanova. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə istintaqı tamamlanmış cinayət işləri üzrə çıxarılmış bəraət hökmlərinin təhlili və aşkar edilən nöqsanların aradan qaldırılması üçün görülmüş tədbirlər


## PROKURORLUĞUN VETERANLARI


**183** Prokurorluğun veteranı Firudin Məmmədov 85 illik yubileyini qeyd edir
**185** Prokurorluğun veteranı Qənimət Səfərovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi


## HÜQUQİ AKTLAR


**190** Qanunvericiliyə dəyişikliklər
**191** Prokurorluq üzrə normativ xarakterli hüquqi aktlar

# İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər




Oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər.

Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular.

AZAL-ın prezidenti Cahangir Əsgərov dövlət başçılarına görülən işlər barədə məlumat verdi.



Bildirildi ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN İKİ QARDAŞ ÖLKƏ KİMİ HƏR ZAMAN BİR-BİRİNİN YANINDADIR:



☑ Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha Türkiyə ilə birliyimizi, gücümüzü göstərir. Hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak edib. **Bu, bizim birgə uğurumuzdur.**

☑ **Azad edilmiş torpaqlarımızda fəaliyyət göstərən Türkiyə şirkətlərinin yorulmaz səyləri nəticəsində** bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir.

☑ **Zəngilanda təməli qoyulan birinci özəl sərmayə layihəsi də Türkiyə və Azərbaycanın birgə layihəsidir.** Biz bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də çiyin-çiyinə bir yerdə irəliləyirik.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz









Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

O da qeyd olundu ki, hazırda Zəngilan və Laçında beynəlxalq hava limanları tikilir və onların inşası ilə regionun nəqliyyat imkanları daha da genişləndiriləcək.

Daha sonra dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə məlumat verildi. "Cocuq Mərcanlının İnkişafı" Fondu, "TÜİB" və "TİKA"nın maliyyə dəstəyi ilə yaradılacaq müəssisədə Cocuq Mərcanlı kəndinin 25 sakini işlə təmin olunacaq. Burada hədiyyəlik saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər məhsullar istehsal ediləcək. Müəssisənin tikintisinə dövlət də öz dəstəyini verib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin operatorluğu ilə şirkət təsis olunub, istehsal avadanlıqları alınıb və istehsalın təşkili üçün Türkiyədən mütəxəssislər cəlb edilib. Bundan əlavə, "TİKA"nın dəstəyi ilə 15 istixana yaradılıb. 15 ailənin çalışdığı istixanalarda lavanda və bibəriyyə bitkiləri, tərəvəz yetişdiriləcək.

Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, nəinki Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

Daha sonra dövlət başçıları söhbət etdilər.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Yaxından çəkin. Əziz qardaşım mənə bu gözəl saatları hədiyyə edib. "Xarıbülbül" təsviri də üstündə.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Şuşaya gəlmişdik. Buradan Şuşa yaxındır. "Xarıbülbül" də Şuşanın simvoludur.

# Azərbaycan və Türkiyə prezidentləri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlini qoyublar



Oktyabrın 26-da Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçılarına məlumat verdi.

**Saleh Məmmədov dedi:** Möhtərəm cənab Prezident, hərəkət etdiyiniz bu yol Əhmədbəyli-Füzuli-Şuşa yoludur. Bu yol altı-dörd cərgədən ibarət olacaq. Yolun uzunluğu 81 kilometrdir. Bu yolun başlanğıcdan 50-ci kilometrədək 51 kilometrlik hissəsini Azərbaycan şirkətləri, əllinci kilometrdən 81-ci kilometrə qədər hissəni isə Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətləri işləyir. Türkiyə şirkətlərinin işlədiyi hissədə 6 kilometr uzunluqda tunel tikilir və 7 yol ötürücüsü tikiləcək. Tunellərin ümumi uzunluğu 6500 metrdir. Hazırda Şuşa şəhərinin girişində olan 4-cü və 5-ci tunellər artıq tikilmişdir. Biri 431 metr, digəri isə 530 metr uzunluğundadır.

**Prezident İlham Əliyev:** Kəlbəcərdə tunellər inşa edilir, 12 kilometr.

**Saleh Məmmədov:** Bəli, Azərbaycanda ən böyük tuneli "Çingiz İnşaat" inşa edir, Toğanalı-Kəlbəcər yolundakı Murovdağ tuneli. Bu, Azərbaycanda ən böyük tuneldir, 11 min 600 metrdir. Artıq o tunelin 350 metri qazılmışdır. Şəkilləri var, mən Sizə göstərəcəyəm.

**Prezident İlham Əliyev:** Bir də Laçın-Kəlbəcər tuneli.

**Saleh Məmmədov:** Bəli, Qorçu aeroportunun 3,5 kilometrlik Laçın-Kəlbəcər tuneli də var.

**Prezident İlham Əliyev:** Tunellərin toplam uzunluğu nə qədərdir?

**Saleh Məmmədov:** Azərbaycanın Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir. Hazırda Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Ümumilikdə Qarabağ zonasında işləyən şirkətlərdə toplam 13 min 280 nəfər çalışır.

Bu gün təməli qoyulacaq yol isə Zəngəzur dəhlizi yoludur. Başlanğıcını dayandığımız bu yerdən götürəcək. Birinci qovşaq budur. Buradan Ağbəndə, Ermənistan sərhədinə qədər məsafə 123,6 kilometrdir.

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN İKİ QARDAŞ ÖLKƏ KİMİ HƏR ZAMAN BİR-BİRİNİN YANINDADIR:



☑ Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha Türkiyə ilə birliyimizi, gücümüzü göstərir. Hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak edib. **Bu, bizim birgə uğurumuzdur.**

☑ **Azad edilmiş torpaqlarımızda fəaliyyət göstərən Türkiyə şirkətlərinin yorulmaz səyləri nəticəsində** bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir.

☑ **Zəngilanda təməli qoyulan birinci özəl sərmayə layihəsi də Türkiyə və Azərbaycanın birgə layihəsidir.** Biz bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də çiyin-çiyinə bir yerdə irəliləyirik.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Ermənistan sərhədinə qədər gedirsiniz, elədirmi? Daha irəli gedəcəksiniz.

**Saleh Məmmədov:** Bəli, oradan da o tərəfə keçəcəyik. Allahın köməyi ilə düz İstanbula qədər gedəcəyik, Avropaya qədər gedəcəyik. Allah Sizləri qorusun.

Bu yolun üzərində də 3 tunelimiz var. Uzunluğu toplam 3610 metrdir. Hazırda Zəngilan ərazisində dördüncü tunel tikilir. Tuneldə artıq 160 metr iş görülüb. Bu hissədə bütün yolu "Kalyon" şirkəti tikir. Həmin yolun üzərində Zəngilan hava limanı da yerləşir. Hava limanına gedən yolun 20 kilometrlik hissəsini "Kalyon" şirkəti ilə birlikdə Azərbaycan şirkəti tikir. Bu yolun üzərində rayon mərkəzləri ilə hava limanını birləşdirən 7 qovşaq tikiləcək. Bu qovşaq təməli qoyulan yolun sıfırıncı kilometrində olacaq.

Bu, bizim dayandığımız 6-4 cərgəli Əhmədbəyli-Füzuli ana yoludur. Bu isə, həmin bu qovşaqdan çıxıntılarla Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan da İstanbula gedən yol olacaq, İnşallah. Bu da Əhmədbəyli-Füzuli-Şuşa yolunda gedən tikinti işlərinin şəkilləridir, "Çingiz İnşaat"ın işlədiyi tunellərdir. Burada işlər həm partlatma üsulu ilə gedir, həm də sıxma üsulu ilə.

Hazırda qısa tunellərdə işlərin 45-50 faizi yerinə yetirilib. Bunlar da tikinti vaxtı görülən işlərdir. Biz möhtərəm cənab Prezidentin göstərişi ilə orada tikintiyə qışda başlamışdıq. Bunlar həmin dövrdə çəkilən şəkillərdir. Ümumiyyətlə, Qarabağ zonasında heç vaxt 4-6 cərgəli avtomobil yolu olmamışdır. İlk dəfədir Qarabağda belə yollar tikilir. Bu isə Zəngəzur dəhlizi üzrə "Kalyon" şirkətinin çəkdiyi yollardır. Burada da həyat olmayıb. Bu yolun mövcud Horadiz yoluna ən uzaq məsafəsi 1,6 kilometr, ən yaxın məsafəsi 200 metrdir. Böyük işlər görülüb, "Kalyon" şirkəti tərəfindən işin demək olar ki, 45 faizdən çoxu yerinə yetirilib. Allahın köməyi ilə gələcəkdə, yaqin ki, 2023-cü ilə qədər bu yolun açılışında da iştirak edərsiniz.

Sonra Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoydular.









# İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoyublar





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoyublar.

Dövlət başçıları əvvəlcə aqroparkın ərazisində çinar ağacı əkdilər.

Sonra prezidentlər Anadolu Agentliyinin Vətən müharibəsini özündə əks etdirən fotosərgisinə baxdılar.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ön sözünü yazdığı və Anadolu Agentliyi tərəfindən hazırlanan "Qarabağ Zəfəri" kitabını Prezident İlham Əliyevə təqdim etdi.

**Tədbirin aparıcısı Günel Mönsümova dedi:** Bəli, zəngilanlılar bu ili 27 il idi gözləyirdi. 27 il biz bunun xəyalları ilə yaşadıq. Bu xəyallarla yaşayan keçmiş məcburi köçkünlərdən biri də mən idim. 27 il idi mən Zəngilanın işğaldan azad olunma xəbərini bir jurnalist olaraq səsləndirmək xəyalı ilə yaşadım və xəyallar gerçək oldu. Bəli, bu gün tarixi gündür. Bu gün Zəngilanın torpaqlarına can verilən gündür. Bu gün o torpaqları cənnət məkana çevirdiyimiz gündür. İndi Zəngilan yenidən qurulur və əvvəlkindən də gözəl əzəmətə qovuşur.



Cənab prezidentlər və əziz qonaqlar. Bildiyimiz kimi, bu torpaqlar 27 il ərzində erməni vandalları tərəfindən tar-mar olundu, daş üstündə daş qalmadı. Evlərimiz talan olundu. O evlərdən biri də mənim evim idi. 27 ildən sonra öz torpağıma qayıdarkən evimin bir daşını belə tapa bilmədim. Nəinki evlərimiz, meşələrimiz, ağaclarımız tar-mar olundu. 27 ildən sonra biz qardaş Türkiyə ilə əl-ələ verib bu torpaqları yenidən ayağa qaldırırıq. Bu torpaqlara yenidən can verməyə gəlmişik, viran qalmış torpaqlarımızı cənnətə çevirməyə gəlmişik.

İndi icazə verin, “Dost Aqropark” ilə tanış olaq.

Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti həyatin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar







Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Dövlət başçıları "Dost Aqropark"ın təməlini qoydular.

Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qab-






laşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək.

Daha sonra aqroparkda əkinə start verildi.

Prezidentlər "Dost Aqropark"ın fəaliyyətinə xeyir-dua verdilər.

Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. "Dost Aqropark" kompleksində ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.


Bu gün regional işlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib.
TÜRKİYƏ İLƏ AZƏRBAYCANIN BİRGƏ GÜCÜ DAHA DA TƏSİRLİ OLACAQ.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar







Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçılarına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.



# Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər

Oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.





## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Prezident, Əziz qardaşım.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, Əziz qardaşım, Sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizin çox böyük önəmi var. Siz işğaldan azad edilmiş torpaqlara ikinci dəfədir ki, səfər edirsiniz. Dörd ay bundan əvvəl Sizinlə bərabər Şuşa şəhərində olmuşuq, bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu Bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi. Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur.

Eyni zamanda, bu gün Zəngilan rayonunda birinci özəl sərmayə layihəsinin də təməlini qoyduq. Bu sərmayə layihəsi də Türkiyə və Azərbaycanın birgə layihəsidir. Yəni, bu, bir daha onu göstərir ki, bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də biz çiyin-çiyinə bir yerdə irəliləyirik.

Bu gün Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq. Adətən rəsmi mərasimlər paytaxtlarda keçirilir. Ancaq biz rəsmi mərasimləri bütün görüşlər zamanı keçiririk. Həm Şuşada, həm də bu gün Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik.

Biz İkinci Qarabağ savaşının birinci ildönümünü yaşayırıq. Dünən Qubadlı şəhərinin azad olunmasının birinci ildönümünü qeyd edirdik. İki həftə bundan sonra Şuşanın azad olunmasını qeyd edəcəyik, böyük Zəfər bayramı kimi qeyd edəcəyik.

İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi. Əziz qardaşım, bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə öz təşəkkürünü bildirir. Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz.

Mən bilirəm ki, Sizin çox gərgin iş qrafikiniz var. Siz bu yaxınlarda Afrikanın dörd ölkəsində rəsmi ziyarətdə olmusunuz. Ondan sonra Türkiyədə bir önəmli tədbirdə olmusunuz. Ondan sonra vaxt tapıb buraya gəlmisiniz ki, bizimlə bərabər, Azərbaycan xalqı ilə bərabər bu gözəl gündə bir yerdə olasınız. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Bu, həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik, bizim birliyimiz sarsılmazdır və əbədidir.

Bu gün regional işlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Türkiyə Əziz qardaşımın liderliyi ilə artıq dünya çapında böyük gücə çevrilib və heç kim Türkiyəyə öz iradəsini diktə edə bilməz. Bu yaxınlarda Əziz qardaşım Türkiyənin daxili məsələlərinə müdaxilə etmək istəyənlərə elə cavab vermişdi ki, hesab edirəm bu, bütün siyasətçilər üçün örnəkdir. Öz milli ləyaqətini qoruyan, öz xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən Lider bu gün buradadır, Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Biz bunu qiymətləndirməliyik. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan amili ən önəmli amillərdən biridir.

Onu da bildirməliyəm ki, gələn ay Azərbaycan Türk Şurasında sədrliyi Türkiyəyə təhvil verəcək. Əminəm ki, Türkiyə Əziz qardaşımın rəhbərliyi ilə Şuraya uğurlu sədrlik edəcək. Türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq əlaqələri daha da

güclənəcək, beləliklə, bütün Türk dünyası üçün yeni imkanlar açılacaq.

Bu gün burada, Zəngilanda olarkən təbii ki, biz Zəngəzur dəhlizi haqqında danışmasaq düzgün olmaz. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.

Bu gün Əziz qardaşımla və qonaqlarla birlikdə böyük avtomobil yolunun təməlini qoyduq. Bu avtomobil yolu da Zəngəzur dəhlizinin bir hissəsidir. Bu avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində biz istədiyimizə nail olacağıq.

Mən bu gün fürsətdən istifadə edərək Azərbaycanın azad edilmiş torpaqlarında fəaliyyət göstərən bir çox Türkiyə şirkətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onların yorulmaz səyləri nəticəsində bu gün bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir. Bu, bir daha bizim birliyimizin, qardaşlığımızın təcəssümüdür. Tam əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq, dövlətlərimiz bundan sonra da uğurlu əməkdaşlıq edəcək. Beləliklə, Türkiyə ilə Azərbaycanın birgə gücü daha da təsirli olacaq.

Əziz qardaşım, Sizə bir daha “Azərbaycana xoş gəlmisiniz!” deyirəm, bütün qonaqlara “Xoş gəlmisiniz!” deyirəm. Sizə və qardaş Türkiyə xalqına daim tərəqqi, firavanlıq, xoşbəxtlik diləyirəm. Sağ olun.

***

Sonra Türkiyə dövlətinin başçısı bəyanatla çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı



– Hörmətli Prezident, Əziz qardaşım.

Hörmətli nazirlər.

Hörmətli mətbuat nümayəndələri.

Əvvəlcə sizləri ən səmimi hisslərimlə salamlayıram.

İşğaldan azad edilən bu gözəl bölgəyə - Füzuliyə səfərimdən dörd ay yarımdan sonra bu dəfə Zəngilanda olmaqdan böyük məmnunluq duyuram.

Əziz qardaşım Prezident Əliyevə lütfkar dəvətə görə öz adımdan, heyətim və millətim adından bir daha təşəkkür edirəm.

Bugünkü səfərimiz zamanı Azərbaycanın işğaldan azad edilən bu bölgələrinin qısa müddət ərzində həqiqətən necə dirçəldiyini, necə sürətlə inkişaf etdiyini gördük. Bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək, inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarım üçün buradan bir müjdə vermək imkanı yaradır. Çünki azərbaycanlı qardaşlarım ayrıldıqları torpaqlara, inanıram ki, ən qısa vaxtda son dərəcə gözəl şəkildə inşa edilən, canlandırılan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər. Burada qarşımızdakı binaya, sol tərəfimizdəki binalara baxırıq. Bu binalar orijinal, tarixi üslubda son dərəcə gözəl bir şəkildə inşa edilir.

Buraya gəlməzdən əvvəl Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən də cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə, İnşallah, Naxçıvan ilə birləşdirəcək yolların inşa edildiyini gördük, işçi qardaşlarımızla görüşdük. Bu yollar bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək. Füzulidə də bildirdiyim kimi, bu qədər qısa müddətdə bölgənin bərpası istiqamətində görülən işlər həm Azərbaycan, həm də regionumuz üçün qürurverici və ümidvericidir.

Azərbaycan bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin inkişafı üçün fəaliyyətini davam etdirir. Burada hər şeydən əvvəl təməlini qoyduğumuz, - bir az əvvəl cənab Prezidentin də dediyi kimi, - istər tunellər, istər yol ötürücüləri, istər avtomobil yolları bərpa işlərinin sürətlə həyata keçirilməsi baxımından çox önəmlidir. Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm. Podratçı firmaları təbrik edirəm. Bütün texnika parkları ilə podratçı firmaların ürəkdən çalışması ən yüksək təqdirə layiqdir. Türkiyə olaraq, biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməkdə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik.



Hörmətli mətbuat nümayəndələri, bu gün İlham qardaşımla keçirdiyimiz görüşlərdə ikitərəfli əlaqələrimizi və regional prosesləri ətraflı müzakirə etdik. İqtisadi və ticari sahələrdəki əməkdaşlığımızın genişləndirilməsi ilə enerji, nəqliyyat və Qarabağın inkişafı ilə bağlı layihələrdə mövcud durumu və gələcəklə bağlı planları da dəyərləndirmək imkanı əldə etdik. Ən önəmlisi, Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdığımız əlaqələrimizi daha necə inkişaf etdirə biləcəyimizi müzakirə etdik. Bir millət, iki dövlət olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edirik.

Azərbaycan bölgənin əsl potensialının həyata keçirilməsinə mane olan işğalı şanlı Zəfəri ilə sona çatdırdı, BMT Təhlükəsizlik Şurasının illərdir tətbiq olunmayan qətnamələrini özü həyata keçirdi. Davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyişin olması üçün şərait bu gün əvvəllər olmadığı qədər əlverişlidir. Bunun üçün bölgədəki yeni duruma uyğun hərəkət edilməlidir. Biz bölgədə davamlı sülhün və əhatəli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək torpaq yollar və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qarşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir.

Bu məsələlərdə Ermənistan Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün bir maneə qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək. Dünyanın bu gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək, əlbəttə ki, mümkündür. Türkiyənin də davamlı sülhün yaradılması istiqamətində atılacaq hər müsbət addımın qarşılığını eyni konstruktiv anlayışla verəcəyini bir daha xüsusi vurğulayıram.

Səfərim çərçivəsində mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə Prezident, qardaşım Əliyevə və qardaş Azərbaycan xalqına bir daha təşəkkürlərimi bildirirəm.

Fürsətdən istifadə edərək öz adımdan və heyətim adından xüsusilə Qardaşım Əliyev və bütün nazirlərə də təşəkkürlərimizi bildiririk. Təşəkkür edirəm. Sağ olun, var olun.

# İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib






Noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları gəmi ilə İstanbulun Demokratiya və Azadlıqlar Adasına gəldilər.

Qeyd edək ki, əvvəllər Yassıada kimi tanınan adanın adı 2013-cü ildə Demokratiya və Azadlıqlar Adası olaraq dəyişdirilib və 2015-ci ildən burada yenidənqurma işləri aparılıb. Yenidənqurma işləri başa çatdıqdan sonra ötən ilin may ayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış mərasimi keçirilib. Türkiyə demokratiyasının rəmzi hesab edilən 18 hektarlıq adada "Adnan Menderes" konqres mərkəzi, "27 May Tarix Yaylası", "Demokratiya və insan haqları" muzeyləri, beynəlxalq toplantılar üçün salonlar və digər binalar inşa edilib. Adada demokratiyanın rəmzi olan mayak ucaldılıb.

Sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Dövlət Başçıları Şurasının iclasını açan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bütün qonaqları İstanbulda salamladı, Zirvə Görüşünün əlaqələrimizdə yeni mərhələ açacağına əminliyini ifadə edərək dedi: "Sədrliyi təhvil aldığımız Can Azərbaycana, pandemiyaya baxmayaraq, həyata keçirdiyi uğurlu fəaliyyətlər münasibətilə təbriklərimi çatdırıram".

"Siyasi və ictimai həmrəylik kimi, iqtisadi və ticari əlaqələri də gücləndirmək lazımdır", - deyən Türkiyə Prezidenti hazırda türkdilli ölkələr arasındakı ticarət dövriyyəsinin 21 milyard dollar təşkil etdiyini bildirdi,




qarşılıqlı sərmayələrin əhəmiyyətini, bu sahədəki maneələrin aradan qaldırılmasının vacibliyini vurğuladı. Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında nəqliyyat və logistika sahələrində əlaqələrin möhkəmləndirilməsinin vacibliyindən də danışaraq dedi: "Bu çərçivədə "Beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş"i ən qısa zamanda imzalamalıyıq. Beləliklə, Xəzərdən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi başda olmaqla aramızdakı bütün yolları bu coğrafiyanın əsas arteriyalarına çevirə bilərik. Azərbaycan-Naxçıvan bağlantısı da bu mənada həyati əhəmiyyət daşıyır".

Zirvə Görüşünün "Rəqəmsal dövrdə yaşıl texnologiyalar və ağıllı şəhərlər" mövzusuna həsr olunduğunu deyən Rəcəb Tayyib Ərdoğan bu baxımdan Zəngilanda görülən quruculuq işlərindən bəhs etdi. "Ağıllı şəhərləşmə sahəsində işğaldan azad edilən Zəngilanda başladılan təşəbbüs, Türkistanın inkişafı, Ahaldakı intensiv fəaliyyətlər, Budapeştdə görülən işlər, Qırğızıstanda və Özbəkistandakı fəaliyyətlər təqdirəlayiqdir", - deyə Türkiyə Prezidenti vurğuladı.

Prezident Rəcəb Tayyib Ərdoğan qlobal istiləşmə, həmçinin terrorizmlə mübarizədə səylərin birləşdirilməsinin əhəmiyyətini də qeyd etdi.

Türkiyə dövlətinin başçısı dedi: "İndi qardaşım cənab Əliyevə Ordenin təqdim olunması mərasiminə başlayırıq".

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim edərək dedi:

– Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev.

Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır.

Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir.

Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb.

Fürsətdən istifadə edərək əziz Qardaşım cənab İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim etməkdən dərin məmnunluq duyur, azadlıq yolunda şəhid zirvəsinə ucalan qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm.

***

Dövlətimizin başçısı Zirvə Görüşündə çıxış etdi.

# Türk ölkələrinin Zirvə Görüşünün çox böyük tarixi əhəmiyyəti var:



- Biz Şuramızı təşkilata çeviririk. Bu təşkilatın çox gözəl gələcəyi var.
- Bu təşkilatın təməlində təbii müttəfiqlik durur. Həm tarix, həm mədəniyyət, həm adət-ənənələrimiz bu birliyi diktə edir.
- İndiki dünyada təhlükələr günü-gündən artır.
- Əminəm ki, Türk Dövlətləri Təşkilatının yalnız ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız bir-birimizə qardaşıq, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev · presidentaz
azpresident · presidentaz




## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

– Əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan,

Əziz dövlət-hökumət başçıları,

İlk növbədə, bu yüksək mükafata görə, Türk Dünyasının Ali Ordeninə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır.




İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik. Çünki hörmətli Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi. Bu, bəzi qüvvələri - Ermənistan himayədarlarını bu savaşdan kənarda tutdu və bizə imkan verdi ki, biz bu şərəfli missiyamızı yerinə yetirək.

Əziz Qardaşım, hörmətli Prezident, əziz dövlət və hökumət başçıları, mən bir daha buna görə sizin hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Rəmzi hal ondan ibarətdir ki, bu mükafatı Azərbaycan Türk Şurasına sədrliyi Türkiyəyə təhvil verən zaman alır. Eyni zamanda, bu, son iki il ərzindəki bizim işlərimizə də verilən qiymətdir və bu şərəfli missiyanı Türk Şurasındakı və bundan sonra Türk Dövlətləri Təşkilatındakı sədrlik müddətini artıq əziz Qardaşım Rəcəb Tayyib Ərdoğan öz üzərinə götürür. Əminəm ki, onun liderliyi ilə bizim ölkələrimiz arasındakı birlik, həmrəylik, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulmuş əlaqələr daha da möhkəmlənəcək və türk dünyasının lideri olan hörmətli Cümhurbaşqanının bu işdə uğur qazanacağına heç şübhəm yoxdur. Çünki onun siyasəti və liderliyi sa-




# BU GÜN BİZ TÜRK DÖVLƏTLƏRİ ARASINDAKI BİRLİKDƏN DANIŞARKƏN GƏLƏCƏYƏ BAXIRIQ:

- Bizim birgə gələcəyimiz üçün çox möhkəm zəmin, möhkəm təməl var. Bu, bizim ortaq köklərimiz, dilimiz, dinimiz və ortaq maraqlarımızdır.
- Azərbaycan sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir.
- Biz hazırda daha bütöv, daha birləşmiş şəkildə gələcəyə addımlamalıyıq.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

yəsində Türkiyə son illər ərzində böyük və şərəfli yol keçmiş, dünya miqyasında güc mərkəzinə çevrilmiş və təkcə bölgədə yox, dünya miqyasında söz sahibinə çevrilmişdir. Hesab edirəm ki, Türkiyənin gücünü – siyasi, iqtisadi, hərbi gücünü, indi dünyada bilməyən yoxdur və əziz Qardaşımın liderliyi sayəsində Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir. Çünki türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir. Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir və buna görə hər birimiz əziz Qardaşıma minnətdar olmalıyıq. Azərbaycan xalqı adından bu gün böyük şərəflə danışaraq əziz Qardaşıma Azərbaycan xalqının hədsiz məhəbbətini çatdırıram. Tayyib bəyi Azərbaycanda savaşa qədər hər kəs sevirdi, savaşda bizə göstərdiyi bu böyük dəstəyə görə isə Tayyib bəy Azərbaycan xalqının qəlbində yaşayır və əbədi yaşayacaq.

Mən çox şadam ki, bu gün biz türk dövlətləri arasındakı birlikdən danışarkən gələcəyə baxırıq. Çünki bizim gələcəyimiz, birgə gələcəyimiz üçün çox möhkəm zəmin var, möhkəm təməl var. Bu, bizim ortaq köklərimizdir, dilimizdir, dinimizdir və ortaq maraqlarımızdır.

Azərbaycan ikiillik sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir. Bir çox tədbirlər keçirilmişdir. Hesab edirəm ki, biz hazırda daha bütöv, daha birləşmiş şəkildə gələcəyə addımlayırıq. Bugünkü Zirvə Görüşünün çox böyük tarixi əhəmiyyəti var. İlk növbədə, ona görə ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var. Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk. Bizim xalqlarımız arasındakı birlik, qardaşlıq gündən-günə möhkəmlənir və biz bu gün böyük coğrafiyanı əhatə edirik, böyük iqtisadi, siyasi, hərbi gücü bu coğrafiyada ehtiva edirik. Bizim ölkələrimizdə zəngin təbii qaynaqlar var, müasir infrastruktur var, nəqliyyat yolları var. Türkiyə hərbi, iqtisadi və sənaye gücə malik olan ölkədir. Təkcə onu demək kifayətdir ki, Türkiyə NATO-nun ikinci ən güclü ölkəsidir və bunu öz maraqlarını və dünyada sülhü təmin etməklə dəfələrlə göstərmişdir. Ona görə mən çox ümidliyəm ki, bizim təşkilatımız qarşıda duran bütün vəzifələri icra edəcəkdir.

Son iki il ərzində önəmli hadisələrdən biri Türkmənistanın bizim təşkilata müşahidəçi qismində qoşulmasıdır. Bu da təbiidir və mən böyük məmnuniyyətlə bu haqda bu gün hələ ki, təşkilata sədrlik edən şəxs kimi deyirəm. Bizim türkmən qardaşlarımızı da ürəkdən salamlayırıq və bu, çox önəmli addımdır. Eyni zamanda, Bakı Zirvəsində Özbəkistan bizim Şuraya üzv oldu, bu da çox önəmli hadisədir. Mən xatırlayıram, 2009-cu ildə Naxçıvan Zirvə Görüşündə o vaxt Naxçıvan sazişi imzalanmışdı. Onu dörd lider imzalamışdı. Amma bu gün bizim sayımız 7-yə çatıb. Bu, onu göstərir ki, bizim təşkilatımız çox cəlbedicidir və əminəm ki, hər bir üzv və hər bir müşahidəçi bundan sonra da bir nöqtəyə vuraraq bizim gücümüzü artıracaqdır.

Eyni zamanda, bu gün dünyanı bürüyən pandemiyaya qarşı biz birgə cavab verdik. Keçən ilin aprel ayında videokonfrans şəklində Zirvə Görüşü keçirilmişdir və bizim təşkilatımız həm üzv ölkələr bir-birinə kömək göstərirlər, başqa ölkələrə kömək göstəririk.

Dörd gün əvvəl Azərbaycan xalqı Qarabağın azad olunmasının birinci ildönümünü sevinclə və qürurla qeyd edirdi. Biz təxminən 30 illik işğala son qoyduq. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi və kağızda qaldığı qətnamələri yerinə yetirdik, icra etdik. Tarixi ədaləti bərpa etdik, beynəlxalq hüququ bərpa etdik, milli ləyaqətimizi bərpa etdik. Bu Zəfər tarixi əhəmiyyət daşıyır. Çünki bu, ədalətli müharibə idi. Biz öz torpağımızda vuruşurduq, qan töküdük, şəhidlər verirdik. Bizim başqa ölkələrin torpağında heç vaxt gözümüz olmayıb və İkinci Qarabağ savaşının nəticələri bunu göstərir. Çünki müharibə dayanan gün artıq bütün atışmalara, bütün xoşagəlməz hallara son qoyuldu. Müharibənin ilk günlərindən mən açıq bəyan edirdim ki, əgər Ermənistan bizə torpaqlarımızdan öz qoşunlarının çıxarılma tarixini, təqvimini verərsə, biz hər an həmin müharibəni dayandırmağa hazırıq və sözümüzə əməl etdik. 44 gündən sonra Ermənistan təslim aktını imzalayaraq o vaxta qədər azad edilməmiş torpaqlardan da özü çıxmağa məcbur olmuşdur və beləliklə, İkinci Qarabağ savaşı başa çatmışdır. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kəndi işğalçılardan azad etdik və yüzlərlə şəhər və kənd artıq sülh prosesi nəticəsində azad edilmişdir və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir.

Azad edilmiş torpaqlarda hər şey dağıdılıb. Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı azad edilmiş torpaqlara iki dəfə səfər edib. İyun ayında Şuşaya və bu yaxınlarda – oktyabr ayında Füzuli və Zəngilana səfər edərkən bunu əyani şəkildə görüb. Bu bölgələrin – Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün bu gün bizə ən çox dəstək verən yenə də qardaş Türkiyəmizdir. Türkiyənin bir çox şirkətləri bu gün bizim üçün çox önəmli infrastruktur layihələrində çalışırlar, – körpülər, tunellər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanları, – bütün bu işlərdə fəal iştirak edirlər. Hörmətli Cümhurbaşqanı ilə birlikdə

bu yaxınlarda açdığımız Füzuli Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə bərabər, 12 türk şirkəti iştirak etmişdir. Hesab edirəm, məhz buna görə biz rekord müddət ərzində, cəmi 8 ay ərzində inşa edə bildik. Hazırda Türkiyə şirkətləri, eyni zamanda, Zəngilan Hava Limanının inşasında iştirak edirlər və bizim digər layihələrimizdə iştirak edəcəklər.

Eyni zamanda, mən Şavkat Miramanoviç Mirziyoyevə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Şəxsən onun təşəbbüsü ilə Füzuli rayonunda Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcəkdir. Məktəbin layihəsi bizə təqdim edildi və bu, növbəti həmrəylik, dostluq, qardaşlıq addımıdır və Azərbaycan xalqı bunu çox qiymətləndirir.

Biz indi böyük bərpa işləri ilə məşğuluq. Eyni zamanda, İkinci Qarabağ savaşının nəticələri bölgə üçün yeni imkanlar açır. O cümlədən hesab edirəm ki, nəqliyyat baxımından Zəngəzur koridorunun açılması bütün bölgə üçün yeni imkanlar açacaqdır. Ümid edirəm, öz işğalçılıq siyasətinə görə məğlub vəziyyətdə olan Ermənistan da gec-tez anlayacaq ki, heç bir ölkəyə ərazi iddiası onlara xeyir və şərəf gətirməyəcək. Ümid edirəm ki, yaxın gələcəkdə Ermənistanın həm Türkiyəyə, həm Azərbaycana ərazi iddialarına son qoyulacaq. Əks təqdirdə onlar daha da pis duruma düşə bilərlər. Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir və bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlər gedir.

Zəngəzura gəldikdə, mən Naxçıvan zirvəsindəki çıxışımı xatırlatmaq istəyirəm. O zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq.

Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı, hörmətli dövlət və hökumət başçıları, bu yüksək mükafata görə sizə bir daha minnətdaram. Əminəm ki, mən bundan sonrakı fəaliyyətimdə bu yüksək ada layiq olmağa çalışacağam.

Sağ olun.




***

Prezident Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına minnətdarlıq edərək dedi: Hörmətli İlham qardaşıma dəyərli fikirlərinə və töhfələrinə görə çox təşəkkür edirəm.

***

Sonra çıxış edən Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Nazarbayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbə, son illərdə əldə etdiyi nailiyyətlər, həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına ikiillik uğurlu sədrliyi münasibətilə Prezident İlham Əliyevi təbrik etdilər.

Daha sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar, Türk Dövlətləri Təşkilatında tərəfdaşlıq statusunun təsis edilməsi haqqında Qərar, Türk Dövlətləri Təşkilatının fəxri sədrinin hüquqları haqqında Qaydalara dair Qərar, Türk Şurası Baş katibinin fəaliyyət müddətinin uzadılması və Baş katibin müavinlərinin təyinatları haqqında Qərar, Türk Dövlətləri Təşkilatının İnvestisiya Fondunun yaradılmasının tamamlanması haqqında Qərar imzalandı.

# İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş olub



Noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş olub.

Prezident İlham Əliyevi salamlayan **Prezident Vladimir Putin dedi:**

– Hər vaxtınız xeyir, hörmətli İlham Heydər oğlu. Sağ olun ki, gəlməyə razılıq verdiniz. Çoxlu suallar yığılıb qalıb. Əlbəttə, Dağlıq Qarabağ probleminin nizamlaması ilə əlaqədar bizim üçtərəfli görüşümüz diqqət mərkəzində olacaq. Mən indicə öz həmkarlarımla - Sizin yaxşı tanıdığınız və iqtisadiyyat problemləri, nəqliyyat dəhlizlərinin açılması məsələləri ilə məşğul olan Rusiya hökumətinin Baş nazirinin müavini, müdafiə naziri, məlum olduğu kimi nizamlanma işinə əhəmiyyətli töhfə verən Sərhəd Xidmətinin tabe olduğu Federal Təhlükəsizlik Xidmətinin direktoru ilə söhbət edirdim.

Ümumiyyətlə, orada suallar çoxdur, lakin hər halda bizim ikitərəfli görüşümüzü ondan başlamaq istərdim ki, gələn il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının 30 illiyi tamam olur. Şübhəsiz, bu elə bir hadisədir ki, onu müvafiq şəkildə qeyd etməli olacağıq. Bununla əlaqədar demək istərdim ki, bizim strateji tərəfdaşlığımız çox uğurla inkişaf edir. Bunu demək kifayətdir ki, pandemiya ilə bağlı bütün məsələlərə və bununla əlaqədar iqtisadiyyatda məhdudiyyətlərə baxmayaraq, hər halda bu ilin 9 ayı ərzində bizdə əmtəə dövriyyəsinin həcmi 11 faiz artıb. Bu, yaxşı göstəricidir. Rusiyanın 900 müəssisəsi Azərbaycanda işləyir. Azərbaycan iqtisadiyyatına Rusiya tərəfindən 4,5 milyard birbaşa investisiya qoyulub. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biridir. Əlbəttə, humanitar əlaqələr bu fonda davam edir. Mən bizim görüşlərimizdə həmişə ilk növbədə bu barədə danışıram. Rus dilinin inkişafına, dəstəklənməsinə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istəyirəm. Sizdə 304, hətta mən bilən daha çox - 340 məktəbdə rus dili tədris edilir. Azərbaycan məktəblilərinin 34 faizi bu və ya digər şəkildə rus dilində oxuyur və bu dili öyrənilirlər. Bu da yaxşı göstəricidir, Azərbaycan rəhbərliyinin, Azərbaycan xalqının yaxın və çoxtərəfli əlaqələr saxlamaq cəhdinə dəlalət edir. Bu əlaqələr həqiqətən çoxtərəfli xarakter daşıyır. Humanitar sahədə münasibətlər də, gənclərin əlaqələri də inkişaf edir. Bizdə bu cür ümumbəşəri səviyyədə dəstəklənən tədbirlər çoxdur. Bu, gələcəkdə münasibətlərimizin inkişafı üçün yaxşı şərait yaradır.

Dağlıq Qarabağ məsələsinin nizamlanmasına gəldikdə isə, bu barədə üçtərəfli formatda danışarıq. Bir azdan Ermənistanın baş naziri bizə qoşulacaq və biz bu diskussiyanı davam etdirəcəyik. Lakin mənə belə gəlir ki, burada bizim sülhməramlılar da müsbət rol oynayırlar. Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə mərkəzi fəal iş aparır. Təəssüf ki, problemlər, insidentlər var. Təəssüf ki, hələ də insan tələfatı olur. Biz də bundan ötrü toplaşmışıq ki, baxaq, nəinki buna oxşar heç bir hadisə baş verməməsi, əksinə, vəziyyətin sakitləşməsi və regionda insanların rahat yaşamasına, ölkələrin inkişaf etməsinə imkan verəcək şərait yaradılması üçün nə edilib və hamı nə etməlidir.

Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz.

***

**Prezident İlham Əliyev dedi:**

– Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç.

İlk növbədə dəvətə görə sağ olun. Yenidən görüşməyimizə şadam. Bu il ərzində biz çox fəal dialoq aparmışıq – həm görüşmüşük, həm də tez-tez telefonla danışmışıq. İkitərəfli münasibətlərimizin inkişaf dinamikası bizi çox sevindirir. Lakin mən əvvəlcə Kemerova vilayətində kömür şaxtasında baş vermiş faciə ilə əlaqədar Sizə şəxsən başsağlığı vermək istərdim. Təəssüf ki, xeyli insan həlak olub. Dünən Sizə teleqram göndərmişəm. Bu gün Azərbaycan xalqı adından bir daha Sizə, bütün Rusiya xalqına başsağlığı vermək istəyirəm.

Biz ikitərəfli formatda çox məsələləri həll etmişik və bu gün münasibətlərimizi strateji tərəfdaşların münasibətləri kimi səciyyələndiririk. Bu, sadəcə söz birləşməsi deyil, həqiqətən belədir və bütün istiqamətlər üzrə qarşılıqlı münasibətlərimizin səviyyəsini daha da yüksəltmək əzmindəyik. Sizin qeyd etdiyiniz kimi, əmtəə dövriyyəsi artır. İqtisadi sahədə əməkdaşlığa, o cümlədən biznes dairələri arasında qarşılıqlı maraq çox güclüdür. Əlbəttə, münasibətlərimizin çoxlu sahələri ehtiva etməsi bizi çox sevindirir. Hazırda biz iqtisadiyyatın, nəqliyyatın əksər sahələrinə, humanitar əməkdaşlığa aid 7 yol xəritəsini reallaşdırırıq.



Azərbaycanda rus dilinin, o cümlədən təhsil prosesləri vasitəsilə populyarlaşdırılması və qorunub saxlanması üzrə bizim fəaliyyətimizi qiymətləndirdiyinizə görə sağ olun. Sizə həm də ona görə təşəkkür etmək istərdim ki, Azərbaycan tələbələrinin Rusiyada təhsil almaları üçün gözəl şərait yaradılıb. Bu səfərdən əvvəl son məlumatları gözdən keçirdim, 15 mindən çox azərbaycanlı, Azərbaycan vətəndaşı Rusiyanın ali məktəblərində təhsil alır. Əslində bu, bütöv bir ali məktəb deməkdir. Burada çox yaxşı təhsil verilir və bu, avtomatik olaraq ölkələrimiz arasında körpü olur. Bizim münasibətlərimizin inkişafı işində bu həftə çox əlamətdar olub. Mən bu həftə Rusiya Federasiyası hökumətinin sədrinin müavinini qəbul etmişəm, dünən axşam Rusiya Elmlər Akademiyasının prezidentini qəbul etdim. Sizin humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəniz Azərbaycanın və Ermənistanın intellektualları, mədəniyyət xadimləri arasında Rusiya tərəfin fəal iştirakı ilə əlaqələrin nizamlanması kimi çox mühüm bir missiya ilə bütün həftə ərzində Bakıda olub. Bu günlərdə, bu həftə Rusiyanın ixrac mərkəzi və "Roseksimbank"ın böyük biznes konfransı keçirilib. Bu konfransda Rusiyanın 30-dan çox şirkəti iştirak edirdi. Yəni, bu bir həftə bizim qarşılıqlı fəaliyyətimizin istiqamətlərinin yalnız bir hissəsini səciyyələndirmək üçün kifayət qədər əlamətdardır.

Əlbəttə, bu gün biz Ermənistan-Azərbaycan problematikası barədə ətraflı söhbət edəcəyik. Qeyd etməliyəm ki, keçən il noyabrın 10-dan etibarən Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətə başlaması ilə əlaqədar o vaxtdan bəri bir il ərzində Rusiya sülhməramlılarının məsuliyyəti zonasında ciddi insidentlər olmayıb. Silahlı toqquşmalar olmayıb, hər hansı ciddi hadisələr olmayıb, sistemli böhran xarakteri daşımayan müəyyən təsadüfi insidentlər olub. Azərbaycan və Ermənistan sərhədində silahlı toqquşmalar



olub, lakin bu, Rusiya sülhməramlılarının məsuliyyət zonası deyil. Bununla belə, əlbəttə, bu, bizi bütün bunlara çox diqqətlə yanaşmağa, risklərə necə nəzarət etmək, onları necə minimallaşdırmağın mümkün olması barədə, o cümlədən üçtərəfli formatda söhbət aparmağa və Ermənistan-Azərbaycan münasibətlərinin hərtərəfli nizamlanması üzərində işləməyə vadar edir. Biz bu məsələdə şəxsən Sizin rolunuzu, Rusiya Federasiya hökumətinin yüksəkvəzifəli nümayəndələrinin rolunu və əlbəttə, Qarabağda sülhün saxlanması üçün Rusiya sülhməramlılarının rolunu çox yüksək qiymətləndiririk və ümid edirik ki, gələn il bu iş davam etdiriləcək və yenə yaxşı nəticələr alınacaq.

Dəvət üçün bir daha çox sağ olun, təkcə Rusiyanın deyil, bütün dünyanın incisi olan bu diyarın gözəl təbiətinə heyran olduğumu bir daha bildirmək istərdim.

**Vladimir Putin:** Çox sağ olun.

# Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib



Noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib.

Görüşdə çıxış edən **Rusiya Prezidenti Vladimir Putin dedi:**

– Hörmətli həmkarlar, dostlar.

İlk növbədə, sizə təşəkkür etmək istərdim ki, mənim dəvətimə cavab verməyi və atəşkəs haqqında bəyanat qəbul ediləndən sonra bir il ərzində görülmüş işə müəyyən yekun vurmaq üçün Rusiyaya gəlməyi mümkün hesab etmisiniz. Sonra biz artıq cari ilin yanvarında atəşkəs və normal həyatın bərpa edilməsi haqqında razılaşmalarımızı təsdiq etdik. Bu müddətdə həqiqətən az iş görülməyib.

Əfsuslar olsun ki, məsələlərin hamısı hələ də nizamlanmayıb. Sərhəddə baş verən insidentlərdən, faciəli insidentlərdən, hər iki tərəfdən insanların həlak olmasından və yaralanmasından xəbərim var. Bütün bunlar bizim tərəfimizdən xüsusi diqqət tələb edir. Əslində, biz sizinlə bu gün onun üçün toplaşmışıq ki, gələcəkdə buna bənzər insidentlər baş verməsin.

Lakin bütövlükdə il ərzində az iş görülməyib. Birincisi, heç bir irimiqyaslı döyüş əməliyyatları baş vermir, bu da özlüyündə çox yaxşı haldır. Bu müddət ərzində və bizim tərəfin köməyi ilə qaçqınların qaytarılması ilə bağlı böyük iş aparılıb, 53 min insan daimi yaşayış yerlərinə qayıdıb. Yaxşı monitorinq qrupu yaradılıb, bizim kontingent fəaliyyət göstərir, hər iki tərəfin dəyərləndirməsindən belə başa düşürəm ki, layiqincə işləyir, insanların həyatı üçün təhlükəsiz şərait təmin edir. Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə mərkəzi fəaliyyət göstərir. Ən əsası odur ki, gələcəkdə normal dinc həyat üçün şərait yaradılır. Bu, çox vacibdir.

Ermənistan, Azərbaycan və Rusiya hökumət-

# ÜÇTƏRƏFLİ GÖRÜŞ **OLDUQCA SƏMƏRƏLİ KEÇDİ.**



Ermənistan tərəfindən dərhal həyata keçiriləcək fəaliyyətə dair mühüm qərarlar qəbul edildi ki, dəmir yolu layihəsinin praktiki reallaşdırılmasına start verilsin. **Biz isə artıq işlərə başlamışıq.**

**Azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır.**

**Ümid edirik ki, o vaxta qədər Ermənistan özünün ev tapşırığını yerinə yetirəcək.**

**Minaların təmizlənməsi və digər humanitar məsələlər də müzakirə edildi.**

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

lərinin Baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli komissiya yaradılıb. Mənim həmkarlarım işin necə getməsi barədə məruzə etdilər. Asan deyil. Lakin buna baxmayaraq, bu iş irəliləmə vəziyyətindədir və elə düşünməyə əsas var ki, yaxın vaxtlarda biz nəqliyyat kommunikasiyalarının işə salınması üzrə müvafiq qrupun işini nəinki təsdiqləyəcək, həm də hamı üçün uyğun zəruri tədbirlər görəcəyik.

Mənə elə gəlir ki, bütün səylərimizin məqsədi bundan ibarətdir, yəni regionun dirçəldilməsi üçün şəraitin yaradılması, insanların orada özlərini təhlükəsiz hiss etmələri və təsərrüfat fəaliyyəti ilə normal məşğul olmaları, iqtisadiyyatı inkişaf etdirə bilmələri üçün bütün bunlar, sözsüz ki, hər iki ölkənin vətəndaşlarının həyat səviyyəsində ən əlverişli şəkildə əksini tapmalıdır.

Ermənistan və Azərbaycan ilə münasibətlərin xüsusi xarakterini nəzərə alsaq, bu, Rusiya üçün böyük əhəmiyyət kəsb edir. Biz yüzilliklər boyu vahid dövlətin tərkibində olmuşuq, bizim çox dərin tarixi əlaqələrimiz var. Bu əlaqələrin kəsilməsini istəməzdik. Əksinə, biz onları bərpa etməyə və gələcəkdə də dəstəkləməyə səy göstərməliyik.

Əvvəldə mənim demək istədiklərim bunlardır.

Biz indi İlham Heydər oğlu ilə birgə işlərin gedişində razılaşdırmalı olacağımız məsələləri qabaqcadan müzakirə etdik. Ermənistan tərəfi ilə biz bunu qabaqcadan, vaxtında etmişik, Ermənistanın baş naziri ilə son vaxtlar dəfələrlə bu barədə danışmışıq. İndi, görüş yerinə gələndə də bu barədə fikirlərimizi bölüşdük. Bizim üçtərəfli görüşümüzdən sonra Nikol Vovayeviç qalacaq, biz hələ onunla ikitərəfli görüş də keçirəcəyik.

Görüşümüzün əvvəlində mənim demək istədiklərim bunlardır. Əgər görüşümüzün əvvəlində həmkarlarımın deməyə sözü və istəyi varsa, buyursunlar.

***

**Azərbaycan Prezidenti İlham Əliyev:** Dəvət üçün çox sağ olun, Vladimir Vladimiroviç. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin nizamlanması məsələsində Sizin şəxsi iştirakınızı və əlbəttə, keçən il Bəyanatın mətninin razılaşdırılması işində fəal iştirakınızı Azərbaycanda yüksək qiymətləndiririk. Siz qeyd etdiyiniz kimi, biz ilin əvvəlində bu formatda görüşmüşdük, indi artıq ilin sonunda görüşürük. Yekun vurmaq olar. Əlbəttə, Rusiya sülhməramlı qüvvələrinin məsuliyyəti zonasında vəziyyət bütövlükdə sabitdir. Ciddi insidentlər olmayıb. Qəsdən törədilmiş təxribatlar olmayıb. Müşahidə olunan ayrı-ayrı hallar sistemli xarakter daşımırdı. Buna görə də Rusiya sülhməramlı kontingentinin yaxşı xidmətinə görə, uzun illər boyu dondurulmuş münaqişə, keçən il tammiqyaslı müharibə vəziyyətində olan regionda təhlükəsizliyi təmin etmələrinə görə təşəkkürümü bildirmək istərdim.

Bu il ərzində Azərbaycan müharibənin nəticələrinin aradan qaldırılması və kommunikasiyaların bərpası işində maksimum konstruktivlik nümayiş etdirib. Hesab edirəm ki, bu, hələlik yerinə yetirilməmiş mühüm məsələlərdən biridir. Ona görə ki, keçən il noyabr ayında qəbul edilmiş və imzalanmış üçtərəfli Bəyanatın praktiki olaraq bütün bəndləri yerinə yetirilib. Buna görə düşünürəm ki, - bu gün biz Sizinlə təbii ki, bu barədə əvvəlcə söhbət etmişik, - bu mövzu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sərhədlərin müəyyən edilməsi mövzusu müzakirə ediləcək. Biz, bu məsələdə Rusiya tərəfinin dəstəyini, o cümlədən məsləhət dəstəyini də çox yüksək qiymətləndiririk.

Ermənistan ilə Azərbaycan arasında sərhəd delimitasiya edilməyib. Buna görə biz dəfələrlə açıq bildirmişik ki, delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazırıq. Üstəlik, biz Ermənistan tərəfinə açıq təklif etmişik ki, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşular kimi yaşamağı, yenidən qonşular kimi yaşamağı təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlayaq.

Əlbəttə, bir sıra başqa məsələlər də qarşıya çıxır, lakin onlar operativ şəkildə, o cümlədən Rusiya tərəfinin, şəxsən Sizin, Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, hökumətin və digər strukturların fəal iştirakı ilə həll edilir.

Dəvət üçün, yenidən belə bir görüş keçirmək imkanı üçün bir daha təşəkkür edirəm.

***

**Ermənistanın baş naziri Nikol Paşinyan:** Vladimir Vladimiroviç, icazə verin, əvvəlcə dəvətə, bu görüşün təşkilinə görə Sizə təşəkkür edim. Bugünkü görüşün gündəliyinə keçməzdən əvvəl icazə verin, Kuzbasda çoxsaylı insanın həlak olması ilə nəticələnmiş partlayışla əlaqədar öz adımdan, erməni xalqı adından Sizə başsağlığı verim. Həlak olmuş şaxtaçıların bütün doğmalarına və yaxınlarına başsağlığı vermək istəyirəm.

**Prezident Vladimir Putin:** Sağ olun.

**Nikol Paşinyan:** Keçən il müharibənin dayandırılmasında Sizin rolunuz və Rusiya Federa-

siyasının rolu aşkardır. Noyabrın 9-dan sonra Dağlıq Qarabağda, Laçın dəhlizi boyunca Rusiya sülhməramlı qüvvələri yerləşdirilib. Aşkardır ki, Dağlıq Qarabağda və regionda vəziyyətin sabitləşməsində Rusiya sülhməramlıları, Rusiya Federasiyası mühüm rol oynayır. Lakin təəssüflə vurğulamaq istəyirəm ki, vəziyyət istənilən qədər sabit deyil. Keçən il noyabrın 9-dan sonra hər iki tərəfdən onlarca insan həlak olub və hadisələr Dağlıq Qarabağda da baş verir. Bu il mayın 12-dən bəri Ermənistan-Azərbaycan sərhədində faktiki olaraq böhranlı vəziyyətdir və bizim rəyimiz belədir ki, Azərbaycan qoşunları Ermənistanın suveren ərazisinə soxulub. Əlbəttə, Ermənistan və Azərbaycan arasında sərhədlər delimitasiya və demarkasiya edilməyib, lakin dövlət sərhədi mövcuddur və bu, Ermənistan Respublikasının suveren ərazisidir.

Mən Azərbaycan Prezidentinin bu fikri ilə razılaşmıram ki, kommunikasiyaların bərpasından başqa Bəyanatın faktiki olaraq bütün bəndləri yerinə yetirilib. Bilirsiniz ki, biz bu məsələni Sizinlə dəfələrlə, həm əyani şəkildə, həm də telefonla müzakirə etmişik ki, girovlar və digər saxlanılan şəxslər, hərbi əsirlər problemi də var. Bu, çox mühüm humanitar məsələdir. Lakin demək istəyirəm ki, mənim fikrimcə bu gün biz təkcə problemləri səsləndirmək üçün deyil, söhbət etmək, məsələləri müzakirə etmək və mövcud problemləri həll etmək üçün toplaşmışıq. Mən də dəfələrlə elan etmişəm ki, Ermənistan sərhədlərin demarkasiyası və delimitasiyası prosesinə başlamağa hazırdır. Bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılması, blokadadan çıxarılması mövzusu da bizim üçün çox vacibdir. Biz bu məsələlərin həll edilməsində həqiqətən maraqlıyıq. Ümid edirəm ki, bu gün biz bütün bu məsələləri müzakirə edəcəyik. Mən gördüm, Siz Azərbaycan Prezidenti ilə ikitərəfli görüş zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması problemini də xatırlatdınız. Azərbaycan Prezidenti də indicə Ermənistan ilə Azərbaycan arasında sülh danışıqları məsələsini xatırlatdı. Əlbəttə, biz də bunda maraqlıyıq və hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində aparılmalıdır. Düşünürəm ki, çox məsələləri üçtərəfli formatda, ikitərəfli formatda müzakirə və həll etmək lazımdır və mümkündür.

Deməliyəm ki, Azərbaycanın və Ermənistanın rəsmi şəxsləri arasında birbaşa əlaqələr də nəzərdə tutulur. Mənim fikrimcə, o qədər də yaxşı və pozitiv olmayan nüanslar fonunda bu müsbət nüansları da vurğulamaq lazımdır. Ən başlıcası, təkrar etmək istəyirəm, üzr istəyirəm, düşünürəm ki, bugünkü görüşün əsas mənası hansısa problemlərin mövcud olmasını və ya mövcud olmamasını, sadəcə, səsləndirmək deyil. Əsas odur ki, bu gün biz regionda, Cənubi Qafqazda vəziyyətin sabitləşməsinə dair konkret və ya mümkün qədər konkret qərarlara gələ bilək. Buna görə bizim məsuliyyətimiz, sülh, sabitlik və insanların təhlükəsizliyidir. Sağ olun.

***

**Prezident Vladimir Putin:** Mənə belə gəlir ki, sizin indicə dedikləriniz - həm Azərbaycan Prezidenti tərəfindən, həm də Ermənistanın baş naziri tərəfindən deyilənlər, əslində, çox vacibdir. Vəziyyətin normallaşdırılmasının inkişafında, vəziyyətin müsbət həllinin inkişafında hər iki tərəfin marağı var. Siz indicə kommunikasiyalar barədə, kommunikasiyaların açılması barədə xatırlatdınız. İlham Heydər oğlu da bu barədə danışıb. Bu məsələdə hamı maraqlıdır. O cümlədən Rusiya da. Mən onu nəzərdə tuturam ki, biz bütün yaxın ölkələr, - biz qonşuyuq, biz böyük əmtəə dövriyyəsinə malikik, - hamımız bu məsələdə maraqlıyıq. Birincisi də, ikincisi də, biz yenə də o barədə razılığa gəlirik ki, yaxın vaxtlarda sərhədlərin demarkasiyası və delimitasiyası üzrə işləri, əvvəlcə delimitasiya, daha sonra demarkasiya işlərini sahmana salaq. Əlbəttə, biz bu barədə də bu gün danışacağıq. Baxmayaraq ki, məsələnin mürəkkəb olması aydındır. O, hələ Sovet İttifaqından qalıb. Orada dəqiq sərhədlər olmayıb. Lakin bütün bunlar barədə danışmaq imkanı var. Həmkarlarımla razıyam ki, nə qədər çox əlaqə, o cümlədən birbaşa əlaqələr olarsa, daha yaxşıdır. Birbaşa ikitərəfli əlaqələr ümumiyyətlə prioritetdir. Mən bilirəm ki, yaxın vaxtlarda sizin Brüsseldə görüşünüz nəzərdə tutulub. Siz oraya getməyə və orada görüş keçirməyə razılıq vermisiniz. Biz bunu da alqışlayırıq. Nə qədər birbaşa ünsiyyət olarsa, bir o qədər yaxşıdır. Mən bu yaxınlarda bu barədə Avropa İttifaqı Şurasının Prezidenti cənab Mişellə də danışmışam. O, sizi gözləyir. Ümidvaram ki, biz irəliyə doğru hansısa addım atacağıq. Bundan sonrakı addımları digər platformalarda da atmaq mümkün olacaq. Bir daha təkrar edirəm, tərəfdaşlarımızın bu dialoqa cəlb edilməsini biz yalnız alqışlayırıq. Əsas odur ki, bu dialoq faydalı olsun. Çox sağ olun.

# Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər

Noyabrın 26-da Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər.



## Rusiya Prezidenti Vladimir Putinin bəyanatı

– Bizim üçtərəfli görüşün yekununda mən öz həmkarlarım – Azərbaycan Prezidentinə və Ermənistanın baş nazirinə bir daha təşəkkür etmək istərdim ki, onlar Rusiyaya gəlməyə və Qarabağ problemi ətrafında və bütövlükdə, hazırda regionda nizamlama məsələlərində yaranan vəziyyəti müzakirə etməyə razılaşıblar. Əvvəlcədən deməliyəm ki, bu gün biz çox konstruktiv şəkildə işləmişik. Bu gün üçün yaranmış vəziyyət dərindən təhlil edilib. Biz Rusiya sülhməramlılarının, sərhədçilərin, ərazilərin minalardan təmizlənməsi ilə məşğul olan, insanların daimi yaşayış yerlərinə qayıtmalarını təmin edən mütəxəssislərin işini yüksək qiymətləndirdik.

Onu da qeyd etmək istərdim ki, mənim fikrimcə biz mühüm olan bir sıra məsələlər barədə razılığa gəldik. Onlardan birincisi bu ilin sonuna qədər mexanizmlər yaradılmasıdır. Biz iki dövlət arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizmlərini yaratmaq barədə razılığa gəldik. Ümidvaram ki, bu, tezliklə baş verəcək. Bu mexanizmlərin yaradılması üçün heç bir maneə yoxdur.

Diqqəti cəlb etmək istədiyim ikinci məsələ humanitar xarakterli məsələlərlə bağlı çox mühüm, həssas məqamdır. Biz burada da nəzərəçarpacaq dərəcədə irəlilədik.

Nəhayət, üçüncü məsələ ondan ibarətdir ki, biz iqtisadi xarakterli məsələlər, iqtisadi əlaqələrin inkişafı barədə çox ətraflı söhbət etdik, birinci addım kimi nəqliyyat dəhlizlərinin açılması barədə danışdıq, bu, həm dəmir yoluna, həm də avtomobil yollarına aiddir. Düşünürəm ki, biz artıq xeyli müddət ərzində bu məsələ üzərində işləyən baş nazirlərimizin müavinlərinə təşəkkür etməliyik. Gələn həftə, - bu, bizim növbəti razılaşmadır, - onlar müəyyən yekunlar vurmaq və bu gün razılaşdırdığımız və qəbul etdiyimiz qərarları elan etmək üçün Moskvada toplaşacaqlar. Bugünkü işə görə bir daha çox sağ olun. Həm Azərbaycan Prezidentinə, həm də Ermənistanın baş nazirinə təşəkkürlərimi bildirmək istəyirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

– Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, icazə verin, bugünkü görüşə görə, həmçinin Azərbaycan ilə Ermənistan arasında mövcud məsələlərin həlli işində əlverişli şərait yaradılması üçün səylərinizə görə Sizə bir daha təşəkkürümü bildirim. İki ölkə arasında müharibəyə son qoymuş məlum Üçtərəfli Bəyanatın qəbul edilməsindən bir il keçib və biz bu ili bütövlükdə, müsbət səciyyələndirə bilərik.



Vladimir Vladimiroviç, fürsətdən istifadə edib Sizə, habelə Rusiya Federasiyasının Müdafiə Nazirliyinə Qarabağda sülhməramlı fəaliyyətə görə bir daha təşəkkür etmək istərdim. Bu bir ildə Rusiya sülhməramlı qüvvələrinin məsuliyyəti zonasında ciddi insidentlər olmayıb. Əlbəttə, bu il ərzində çox mühüm hadisələr baş verib. Biz bu formatda artıq ikinci dəfə görüşürük – ilin əvvəlində və ilin sonunda. Sərhədlərin delimitasiyası, demarkasiyası, nəqliyyat arteriyalarının bərpası ilə bağlı məsələlər barədə Vladimir Vladimiroviçin dediklərini təkrar etmək istəmirəm. Bu gün bu məsələlər barədə çox ətraflı, mən deyərdim, səmimi söhbət oldu. Biz öz planlarımızı, hər iki tərəfi narahat edən məsələləri açıq müzakirə etdik. Ən başlıcası, mübahisələrin, fikir ayrılıqlarının nizamlanması işində qəbul etdiyimiz qərarlar, zənnimcə, Cənubi Qafqazda vəziyyətin daha təhlükəsiz və proqnozlaşdırıla bilən olmasına şərait yaradacaq. Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, humanitar xarakterli məsələlər də müzakirə edilib. Azərbaycan həmişə, - istər döyüş əməliyyatları dövründə, istər onlardan sonra, - bütün humanitar normalara riayət edilməsinə ardıcıl tərəfdar olub. Deməliyəm ki, hərbi əməliyyatlar bitəndən sonra saxlanılmış 100 nəfərdən çox erməni hərbi qulluqçu, o cümlədən bir nəfər bu gün səhər Ermənistan tərəfə verilib. Yaralanmış hərbi qulluqçuya azərbaycanlı həkimlər tərəfindən tibbi yardım göstərilib, bir nəfər mülki şəxs yolu azaraq bizim əraziyə keçib. Yəni, biz həmişə humanizm prinsipinin aliliyini əsas götürmüşük və bundan sonra da işi bu istiqamətdə davam etdirmək niyyətindəyik. Biz Ermənistan tərəfindən də regionda vəziyyətin daha artıq dərəcədə proqnozlaşdırıla bilən olması üçün şərait yaradılması niyyətini görürük. Mən dəfələrlə demişəm, biz Azərbaycanda Ermənistan ilə çoxillik qarşıdurma səhifəsini çevirmək, normal qarşılıqlı fəaliyyət mərhələsinə başlamaq əzmindəyik və düşünürəm ki, məhz bu formatda öz məqsədlərimizə çatacağıq.

Azərbaycan üçün Rusiya dostdur, strateji tərəfdaşdır. Mən deyərdim ki, hətta strateji tərəfdaşdan da artıqdır. Azərbaycan ilə Rusiya arasında etimada əsaslanan münasibətlərin səviyyəsi, o cümlədən ən həssas məsələlər barəsində Ermənistan ilə ortaq fikrə gəlməyimizə şərait yaradır. Düşünürəm ki, görüşümüzün yekununun nəticələri yaxşı olacaq, bu nəticələri çox gözləmək lazım gəlməyəcək, regionda vəziyyət daha təhlükəsiz və proqnozlaşdırılan olacaq.

Vladimir Vladimiroviç, dəvətə və bugünkü görüşə görə Sizə bir daha təşəkkür edirəm.

### Ermənistanın baş naziri Nikol Paşinyanın bəyanatı

– Vladimir Vladimiroviç, icazə verin, dəvətə görə və əlbəttə, pozitiv iş şəraiti yaradılmasına görə Sizə bir daha təşəkkür edim. Mən təsdiqləmək istəyirəm ki, bizim çox müsbət görüşümüz, müsbət söhbətimiz oldu. Biz faktiki olaraq, gündəlikdəki bütün məsələləri müzakirə etdik. Bu görüş problemi gizlətmək üçün deyildi. Bu görüşdə biz bütün məsələləri açıq müzakirə etdik. Qeyd etmək istəyirəm ki, bir çox məsələlər üzrə mövqelərimizi çox pozitiv dəqiqləşdirdik və məlum oldu ki, bəzi məsələlər barədə bu görüşə qədər güman edildiyi kimi, bizdə heç bir fikir ayrılığı yoxdur. Demək istəyirəm ki, biz regionda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılması məsələsi barədə həqiqətən qeyd etdik ki, bu kommunikasiyaların necə işləyəcəyi barədə təsəvvürümüz ortaqdır. Delimitasiya və demarkasiya prosesinə başlamaq mövzusu təzə deyil. Biz bu məsələni müzakirə etdik. Biz həm də Üçtərəfli Bəyanat qəbul etdik, orada qeyd etdik ki, bundan əvvəl zəruri şərait yaratmaq, yəni Ermənistan ilə Azərbaycan arasında sərhəddə müəyyən təhlükəsizlik və sabitlik mexanizmləri yaratmaq lazımdır.

Əlbəttə, humanitar məsələlərə də toxunuldu. Bugünkü söhbətləri, bugünkü görüşü mən də bütövlükdə çox müsbət qiymətləndirirəm. Bizim strateji müttəfiqimiz olan Rusiya Federasiyasına bu təşəbbüsə görə bir daha təşəkkür etmək istəyirəm. Fikrimcə, əgər bu görüşün bazasında bizim söhbətimizin müəyyən dinamikasını yarada bilsək, onda konkret nəticələr də gözləmək olar. Mən Ermənistanın və Ermənistan xalqından mandat almış Ermənistan hökumətinin ölkəmiz üçün, bizim region üçün dinc inkişaf erasının başlanmasına hazır olduğunu təsdiq edirəm və bizim hədəfimiz budur. Əlbəttə, bugünkü görüşümüz bu gündəliyin reallaşmasının xeyrinə oldu. Sağ olun.

Prezident Vladimir Putin: Son olaraq bir daha vurğulamaq istəyirəm ki, görüş yüksək dərəcədə faydalı və vaxtında oldu. Artıq deyildiyi kimi, biz bugünkü birgə işimizin nəticələrinə əsasən Bəyanat imzaladıq. İctimaiyyət və kütləvi informasiya vasitələri bu bəyanatla tanış ola bilərlər. Orada bizim məşğul olduğumuz və razılığa gəldiyimiz bütün məsələlər ətraflı şərh edilib.

Məndən sol tərəfdə bizim həm erməni dostlarımıza, həm də azərbaycanlı dostlarımıza hədiyyəmizi – sülhün və əmin-amanlığın rəmzi olan zeytun budağını görürsünüz. Mən çox ümid edirəm ki, bugünkü razılaşmalar yerinə yetiriləcək və bütövlükdə Cənubi Qafqazda münasibətlərin normallaşması işində növbəti addımlar üçün şərait yaradacaq. Sağ olun.


12 Dekabr
1923-2003
MƏNİM ÜÇÜN ÖZ HƏYATIMDAN, ÖZ CANIMDAN ARTIQ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ QORUMAQ, ONU SAXLAMAQ, ONU ƏBƏDİ ETMƏKDİR.
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASI

# İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər





Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 18 il keçir.



Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***







Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. İntibah, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, müstəqilliyimizin dönməz xarakter alması bu dövrün əsas mahiyyətini təşkil edir.

Ümummilli Liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı.

Ulu Öndərin anım günündə bu dahi şəxsiyyətin xilaskarlıq missiyası xüsusi minnətdarlıqla xatırlanır. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş xalq ötüb keçənləri unutmayıb və xilasına görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə bəslənən tükənməz sevgi və ehtiramdan xəbər verir.





# İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edib

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edib, burada hərbi hissənin açılışında iştirak ediblər.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev hərbçiləri salamladı.

Sonra Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

## Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı



– Bu gün Qarabağın Xocavənd rayonunda, Hadrutda yeni hərbi hissə açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

**Əsgərlər:** Sağ ol!

**Prezident İlham Əliyev:** Son illər ərzində Azərbaycan ərazisində bir çox yerlərdə yeni hərbi hissələr, hərbi şəhərciklər salınmışdır. Onların böyük əksəriyyəti yeni inşa edilmiş hərbi hissələrdir. Bir hissəsi isə əsaslı təmir edilmiş hərbi hissələrdir. Biz bu sahəyə çox böyük diqqət yetirirdik, çünki hərbçilərin xidmət şəraiti elə olmalıdır ki, onlar istənilən vəzifəni icra edə bilsin, hazırlıq üçün, məşq üçün yaxşı şərait olsun. Ordu quruculuğu istiqamətində aparılan işlər arasında hərbi hissələrin yaradılması xüsusi yer tuturdu və deyə bilərəm ki, bu gün Azərbaycanın bütün bölgələrində əksər hərbi hissələr bizim standartlarımıza cavab verir.

Bu hərbi hissənin açılması çox böyük əhəmiyyət daşıyır. Çünki bu hərbi hissə işğaldan azad edilmiş ərazidə - Xocavənd rayonunda açılır və ordumuzun sərəncamına verilir. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzində idi. Bildiyiniz kimi, 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə mənim Fərmanımla dövlət tərəfindən mənzillər verilir və bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunmuşdur. Bu ilin sonuna qədər 130 hərbçi ailəsinə yeni mənzillər veriləcəkdir. Yəni, ordu dövlət tərəfindən, Prezident, Ali Baş Komandan tərəfindən daim diqqətlə əhatə olunub. Bu diqqət və qayğının nəticəsində bu gün Azərbaycanın müzəffər Ordusu dünyada məhz müzəffər, döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır.

Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsində xüsusi əhəmiyyətə malik olan bir əməliyyat idi. İlk növbədə ona görə ki, bu strateji qəsəbəni işğaldan azad etmək bizim gələcək planlarımıza əlavə dəstək



qəhrəmanlığımız, Vətənə olan bağlılığımız, fədakarlığımız bütün dünyada Azərbaycan Ordusu, Azərbaycan xalqı haqqında dəqiq təsəvvür yaratdı. Göstərdi ki, biz böyük xalqıq, göstərdi ki, biz özümüzə məxsus olan torpaqları nəyin bahasına olursa-olsun azad edən xalqıq.

Bu gün Hadrut əməliyyatı haqqında və bütövlükdə İkinci Qarabağ müharibəsi haqqında danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Əsgərlər:** Amin!

**Prezident İlham Əliyev:** verdi. Çünki əgər biz Hadrutu işğalçılardan azad etməsəydik, gələcək əməliyyatlarımız daha böyük çətinliklərlə üzləşə bilərdi. Təsadüfi deyil ki, işğaldan ilk azad edilmiş şəhər olan Cəbrayıldan sonra ikinci böyük yaşayış məntəqəsi Hadrut olmuşdur. Müzəffər Azərbaycan Ordusu ötən il oktyabrın 9-da bu qəsəbəni işğalçılardan azad etmişdir. Burada olan hər bir insan bu qəsəbəni əhatə edən dağları görərkən başa düşə bilər ki, bu, nə qədər böyük, çətin və şərəfli missiya idi. Çünki mənfur düşmən 30 il ərzində işğal altında olan bütün torpaqlarda güclü istehkamlar qurmuşdu, bir neçə xətdən ibarət müdafiə sədləri qurmuşdu. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin təbii relyefi də düşmən üçün əlverişli idi. Çünki bu dağlarda, təpələrdə yerləşərək onlar böyük hərbi üstünlüyə malik idilər. Ona görə bizim hərbçilərimizin həm peşəkarlığı, həm fiziki gücü, mənəvi hazırlığı, vətənpərvərliyi, fədakarlığı bu şərəfli Qələbəmizə nail olmaq üçün bizə imkan yaratdı.

Əminəm ki, Hadrut əməliyyatı müasir dünya müharibələri tarixində öz layiqli yerini tutacaq. Ermənistan hər vəchlə çalışırdı ki, Hadrutu öz nəzarəti altında saxlasın. Hətta Hadrut işğalçılardan azad ediləndən bir neçə gün sonra onlar özlərinə xas yalanlar yayaraq Hadrutun sanki onların əlində olması haqqında iftiralar uydururdular. Artıq müzəffər Azərbaycan Ordusu Hadrutda dövlət bayrağımızı qaldırmışdı. Hadrut və bütün ətraf yüksəkliklər bizim əlimizdə idi. Ermənistan öz ordusunun mənəvi-psixoloji vəziyyətini anlayaraq Hadrut haqqında yalanlar yayırdı. Onu da bildirməliyəm ki, Hadrut azad ediləndən sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət almışdır və onların özlərinin etirafına görə müharibə zamanı 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda isə bir nəfər də fərari olmamışdır. Bizim vətənpərvərlik ruhumuz, Onların canı bahasına, qazilərimizin, hərbçilərimizin qanı bahasına biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpaqlarımızdan qovduq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağını ucaltdıq, tarixi ədaləti və milli qürurumuzu bərpa etdik.

Mən işğal dövründə dəfələrlə deyirdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Ermənistan rəhbərlərinə dəfələrlə deyirdim ki, hələ gec deyil, öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar, rədd olsunlar. Ancaq əfsuslar olsun ki, onların uzun illər ərzində yaydıqları yalana özləri də inanmağa başlamışdılar. Dünyaya Azərbaycan xalqı haqqında, Azərbaycan Ordusu haqqında həqiqətə uyğun olmayan böhtan və uydurma xarakterli məlumatlar yayırdılar. İkinci Qarabağ müharibəsi göstərdi kim-kimdir. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun, Azərbaycan xalqının əyilməz iradəsini göstərdi. Ermənistan ordusu bu gün artıq məğlub edilmiş ordudur. Azərbaycan Ordusu isə müzəffər ordudur!

Hadrut əməliyyatından sonra bizim şərəfli missiyamız davam etdi. Hələ müharibənin başa çatmasına bir ay qalmışdı və əlbəttə ki, biz daha böyük inamla, daha böyük iradə ilə öz şərəfli missiyamızı davam etdirdik. Hadrutdan 8 gün sonra Füzuli azad edildi. Füzulidən bir neçə gün sonra Zəngilan, Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi. Biz faktiki olaraq Laçın dəhlizinə çıxmışdıq və Laçın dəhlizini nəzarətdə saxlayırdıq. Artıq Ermənistan başa düşməli idi ki, onlar məğlub olacaqlar, məğlubiyyət qaçılmazdır. Ancaq buna baxmayaraq, öz namərd əməllərindən əl çəkmədilər. Bizim dinc şəhərlərimizi uzaqmənzilli ballistik raketlərlə atəşə tutdular. Bunun nəticəsində 100-dən çox günahsız insan, onların arasında uşaqlar, qadınlar həlak oldular. Azərbaycan Ordusu isə bütün


ŞƏHİDLƏRİN
CANI BAHASINA,
QAZİLƏRİMİZİN,
HƏRBÇİLƏRİMİZİN
QANI BAHASINA
biz tarixi ədaləti və milli qürurumuzu bərpa etdik,
düşməni öz torpaqlarımızdan qovduq,
azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağını ucaltdıq.
İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz


BİZ HEÇ VAXT
İMKAN VERƏ
BİLMƏRİK Kİ,
xalqımıza, dövlətimizə,
ərazi bütövlüyümüzə hər
hansı bir təhdid yaradılsın.
İLHAM
ƏLİYEV

# ORDU QURUCULUĞU İSTİQAMƏTİNDƏ APARILAN İŞLƏR ARASINDA **HƏRBİ HİSSƏLƏRİN YARADILMASI XÜSUSİ YER TUTUR.**



- Xocavənd rayonunda, Hadrutda hərbi hissənin açılması ölkəmizin təhlükəsizliyi üçün çox böyük strateji əhəmiyyət daşıyır.
- Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzindədir.
- Bu diqqət və qayğının nəticəsində bu gün Azərbaycanın müzəffər Ordusu dünyada məhz müzəffər, döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır.
- Bizim hərbçilərimizin peşəkarlığı, fiziki gücü, mənəvi hazırlığı, vətənpərvərliyi, fədakarlığı Qələbəyə nail olmaq üçün bizə imkan yaratdı.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

müharibə dövründə müharibə qanunlarına əməl edərək müharibəni ləyaqətlə apardı. Biz dinc əhaliyə qarşı heç vaxt müharibə aparmadıq və bir daha xalqımızın böyüklüyünü göstərdik. Bizim hədəflərimiz ancaq düşmənin hərbi birləşmələri, silahları, texnikaları və silah anbarları idi.

İndi azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin şahidi olur. Bütün şəhərlər, bütün kəndlər ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb. Bunu artıq dünya görür. Ancaq baxın Hadrut qəsəbəsinə, bir dənə də dağılmış bina yoxdur. Bu, nəyi göstərir? Onu göstərir ki, biz dinc əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bir daha bütün dünyaya xalqımızın yüksək mənəvi keyfiyyətini göstərir.

Hadrutdan sonra Şuşaya yolumuz açıldı. Hadrut işğalçılardan azad edilməsəydi, Şuşaya gedib çatmaq daha çətin olardı. Halbuki, Şuşa əməliyyatı artıq bir dastana çevrilib. Dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Şuşa əməliyyatı haqqında indi müzakirələr gedir, təhlillər aparılır və bir çoxları, xüsusilə Şuşada olmuş insanlar inana bilmirlər ki, Azərbaycanın qəhrəman övladları yüngül silahlarla qayalara dırmaşaraq bizim mədəniyyət paytaxtımız olan, Qarabağın tacı olan Şuşanı işğalçılardan azad etdilər. Biz məhz Hadrut meşələrindən keçərək, yüksək dağları aşaraq Şuşaya yaxınlaşmışdıq və Şuşa uğrunda gedən döyüşlər artıq heç kimə sirr deyil.

44 günlük İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsinə gətirib çıxardı. Bu gün Ermənistan ordusu yoxdur. Mən dəfələrlə demişəm, bax, burada - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin bir rayonu olan Hadrutda, Xocavənd rayonunun qəsəbəsi olan Hadrutda bunu bir daha deyə bilərəm ki, bu gün Ermənistan ordusu yoxdur. Əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır. Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər, heç kim bizi dayandıra bilmədi. Mən bütün bu 44 gün ərzində deyirdim ki, heç kim bizi dayandıra bilməz, Ermənistan rəhbərliyi bizə tarix versin nə vaxt bizim torpağımızdan rədd olur, ondan sonra biz müharibəni dayandıracağıq. Elə də etdik, sözümüzə əməl etdik. İndi də Ermənistanda əgər kimsə revanş haqqında düşünürsə, əgər kimsə düşünür ki, bir neçə ildən sonra vəziyyət dəyişəcək, nəsə baş verəcək və yenidən onların hərbi imkanı yaranacaq və onlar yenidən bizə ərazi iddiası ilə çıxış edəcəklər, bəri başdan bilsinlər, biz heç nəyi gözləməyəcəyik, heç kim bizi dayandıra bilməz, heç nəyə baxmadan lazımi addımları atacağıq. Bunu etmək üçün siyasi iradəmiz də var, gücümüz də var. Azərbaycan Ordusunun gücünü bütün dünya gördü. Bütün dünya gördü ki, Azərbaycanın qəhrəman övladları nəyə qadirdir.

Bu gün Hadrutda yeni hərbi hissənin açılması bir daha demək istəyirəm ki, çox əlamətdar hadisədir. Həm ona görə ki, bu bölgə strateji əhəmiyyət daşıyır; Hadrutda bizim güclü silahlı birləşməmiz təhlükəsizliyimizi, ölkəmizin təhlükəsizliyini qoruyacaq, - digər tərəfdən ona görə ki, bu, azad edilmiş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olmuş yerdə yerləşir. Eyni zamanda, bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq. Müharibədən sonra imzalanmış yeni kontraktlar icra edilir. Yeni kontraktlar əsasında artıq Azərbaycana Ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar gətirilir. Biz bunu heç vaxt gizlətmirdik və işğal dövründə hərbi paradlarda dəfələrlə nümayiş etdirmişdik. Həm hərbi texnikanın alınması, həm hərbi xərclərin artırılması, eyni zamanda, hərbçilərin maaşlarının artırılması, – bütün bunlar göz qabağındadır, - onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Əksinə, müharibə təcrübəsi bizə göstərdi ki, güclü yerlərimiz haradadır və qüsurlarımız haradadır. Müharibə dövründə qüsurlarımız çox deyildi, amma olub. Ona görə müharibə bizim üçün əvəzolunmaz təcrübə idi. Müharibədən sonra həm müasir tələbələrə cavab verən silah-sursat, texnikalar alınır, eyni zamanda, yeni silahlı birləşmələr yaradılır. Bax, bu gün Hadrutda bu hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando Briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır.

İşğal dövründə ermənilər bizim bütün şəhər və kəndlərimizi dağıdıblar. Bizim tarixi, dini abidələrimizi dağıdıblar, təhqir ediblər, xalqımız, ordumuz haqqında aşağılayıcı ifadələr işlədiblər. Hətta deyirdilər ki, Ermənistan "yeni torpaqlar uğrunda yeni müharibə"yə hazırlaşır. Deyirdilər ki, əgər müharibə başlayarsa erməni tankları Bakının küçələrində olacaq. Bütün bu







təkəbbürlü ifadələrin hamısı zibil yeşiyinə atıldı. Bəli, erməni tankları gəldi Bakıya, onları biz gətirdik. Azadlıq meydanında hərbi paradda, Qələbə paradında onları nümayiş etdirdik. Bu gün onlar Azərbaycan Ordusunun gücünün və Ermənistan ordusunun məğlubiyyətinin təzahürü kimi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz bundan sonra həmişə müzəffər xalq və qalib dövlət kimi yaşayacağıq.

Əziz hərbçilər, mən bir daha bu hərbi hissənin açılması münasibətilə sizi ürəkdən təbrik edirəm,

**Hərbçilər:** Sağ ol!

**Prezident İlham Əliyev:** Azərbaycan Ordusuna yeni uğurlar arzulayıram!

**Hərbçilər:** Sağ ol!

**Prezident İlham Əliyev:** Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

***

Sonra Azərbaycan Respublikası Prezidentinin Komando Briqadasına döyüş bayrağının verilməsi haqqında təqdimatı oxundu. Təqdimatda deyilir:

"Əsgəri şərəf, şücaət və şöhrət rəmzi kimi hərbi hissənin hər bir hərbi qulluqçusuna Vətənə sədaqətlə xidmət etmək, öz qanını və canını belə əsirgəmədən onu mərdlik və bacarıqla müdafiə etmək, qoşunlara həvalə olunmuş xidməti döyüş tapşırıqlarını əzmlə yerinə yetirmək, doğma torpağın hər qarışını düşməndən qorumaq borcunu xatırlatmaq üçün təqdim olunur.

İlham Əliyev,

Azərbaycan Respublikasının Prezidenti,

Silahlı Qüvvələrin Ali Baş Komandanı.

Bakı şəhəri, 1 oktyabr 2021-ci il".





***

**Briqada komandiri:** Cənab Azərbaycan Respublikasının Prezidenti, Komando Briqadasının komandiri polkovnik Sanayev döyüş bayrağını almaq üçün gəldi.

Müzəffər Ali Baş Komandan hərbi hissəyə döyüş bayrağını təqdim etdi.

**Briqada komandiri:** Cənab Azərbaycan Respublikasının Prezidenti, and içirəm ki, bu müqəddəs keşikdən bir an da olsun gözümü ayırmayacağam, babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağını öz canımdan da əziz bilib daim yüksəkliklərdə tutacağam. Ulu öndər Heydər Əliyevin ruhunu yaşadan bu şanlı döyüş bayrağını məndən sonra sağ qalana təhvil vermədən ölmək mənə haram olsun. İçdiyim bu anda sadiq qalacağımı və ehtiramımı bildirmək üçün bayrağımı öpür və təhvil alıram.

***




Hərbçilər təntənəli marşın sədaları altında döyüş bayrağı ilə tribunanın önündən keçdilər.

***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev hərbi hissənin ərazisində ağac əkdilər.











Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev şəhidlərin xatirə guşəsinin önünə gül qoydular, hərbi hissənin qərargahında, idman zalında, yeməkxanada, zabitlər üçün evlərdə yaradılan şəraitlə tanış oldular.

***

Daha sonra dövlətimizin başçısı, birinci xanım və oğulları təlim mərkəzi ilə tanış oldular və hərbçilərin nümunəvi çıxışlarına, "pusqu", "basqı", "sızma" əməliyyatlarına baxdılar. Əsgərlərin universal bacarıqlarını nümayiş etdirdilər.

***

Sonda xatirə şəkli çəkdirildi.





# İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



– Əziz həmvətənlər.

2021-ci il arxada qaldı. 2021-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İl ərzində qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Azərbaycan uğurla inkişaf etdi və bu gün daha güclü Azərbaycan dünyada tanınır.

Biz beynəlxalq arenada öz mövqelərimizi möhkəmləndirdik. Bizim beynəlxalq nüfuzumuz artdı, bir neçə beynəlxalq təşkilat çərçivəsində uğurla fəaliyyət aparmışıq. Bildiyiniz kimi, Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını müdafiə etmişik, beynəlxalq hüququn norma və prinsiplərini müdafiə etmişik və təsadüfi deyil ki, Qoşulmama Hərəkatına üzv ölkələrin hamısı yekdilliklə Azərbaycanın sədrliyini daha bir il uzadaraq bizə böyük etimad göstərdi. BMT-dən sonra ikinci ən böyük təsisat, 120 üzvü olan təsisat Azərbaycana yekdilliklə bir daha öz dəstəyini ifadə etmişdir.

Bu il biz Türk Şurasına sədrliyimizi uğurla başa vurduq. Bildiyiniz kimi, noyabr ayında keçirilmiş Zirvə görüşündə Türk Dövlətləri Təşkilatı yaradılmışdır və bu təşkilat Qoşulmama Hərəkatı kimi Azərbaycanın haqlı işində daim bizə dəstək olmuşdur, Ermənistan-Azərbaycan münaqişəsi dönəmində daim dəstək ifadə etmişdir və son Zirvə görüşündə bütün üzv ölkələrin adından Azərbaycana torpaqlarımızın azad edilməsi ilə əlaqədar təbriklər ifadə olunmuşdur.

İslam Əməkdaşlıq Təşkilatı ənənəvi olaraq Azərbaycanın haqlı mövqeyini dəstəkləyən beynəlxalq təşkilatdır. Bu il də bu dəstəyi biz hiss etmişik, müharibədən sonra müharibənin nəticələrinin qəbul etdirilməsi üçün İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirirəm.

Eyni zamanda, dekabr ayında NATO və Avropa İttifaqına mənim uğurlu səfərlərim olub. NATO öz zirvə görüşlərində daim Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişdir. Doqquz zirvə görüşündə bu qətnamələr qəbul edilmişdir. Bu dəfə də bu dəstək ifadə olundu. Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşünün yekununda qəbul edilmiş yekun sənəddə ölkələrin ərazi bütövlüyü, suverenliyi bir daha dəstəklənir.

Yəni, bütün dünya İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul etdi. Hesab edirəm ki, müharibədən sonra cərəyan edən proseslər bizim haqlı olduğumuzu bütün dünyaya bir daha sübut etdi. Bunun çox böyük əhəmiyyəti var. Çünki İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı əsassız ittihamlar səsləndirilirdi. Bu əsassız ittihamların heç birinin real təsdiqi olmadı və müharibədən sonrakı dövr bunu bir daha göstərdi. Ona görə, müharibə reallıqlarını, müharibədən sonrakı reallıqları qəbul etdirmək, hesab edirəm ki, siyasi baxımdan çox önəmli hadisə kimi sayıla bilər.

Beynəlxalq arenadakı fəaliyyətimizə gəldikdə, bildirməliyəm ki, bizim qonşu dövlətlərlə əlaqələrimiz uğurla inkişaf etdi. Bu əlaqələr ənənəvi olaraq dostluq, əməkdaşlıq üzərində qurulubdur.


Biz bütün dünyaya kimin kim olduğunu, böyük xalq olduğumuzu göstərdik.
Biz müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

Türkiyə ilə bu il imzalanmış Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan əlaqələrini rəsmən müttəfiqlik səviyyəsinə qaldırır, halbuki faktiki olaraq bu, müttəfiqlik əlaqələri idi, amma bu, artıq rəsmən təsdiqləndi və əlbəttə ki, bu bəyannamənin Şuşa şəhərində imzalanmasının xüsusi mənası var idi.

Rusiya ilə əlaqələrimiz uğurla inkişaf edir. Əminəm ki, növbəti dövrdə Rusiya ilə də bizim əlaqələrimiz daha yüksək səviyyəyə rəsmən qaldırılacaqdır.

Digər qonşularla, İran və Gürcüstanla daim təmaslar əsnasında, fikir mübadiləsi əsnasında dostluq və tərəfdaşlıq əlaqələri daha da inkişaf etmişdir. Artıq regionda çoxtərəfli əməkdaşlıq platformu formalaşır və əlbəttə ki, bu, bizim maraqlarımıza cavab verir.

Qonşular haqqında danışanda təbii olaraq Ermənistanı mən heç vaxt bu kateqoriyadan olan ölkələrə daxil etmirdim. Bu gün də hələ ki, daxil etmirəm. Amma ümid edirəm ki, nə vaxtsa Ermənistanla da bizim qonşuluq əlaqələrimiz qurulacaq. Hər halda İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul edərək Ermənistan da regional çərçivədə öz rolunu artıra bilər. Hər halda noyabr və dekabr aylarında Soçi və Brüssel şəhərlərində keçirilmiş görüşlər ümidvericidir və ümid edirəm ki, bu görüşlərdə əldə edilmiş razılaşmalar 2022-ci ildə real həyatda öz əksini tapacaqdır.

Biz İkinci Qarabağ müharibəsini heç vaxt unutmamalıyıq. İşğal dövründə törədilmiş vəhşilikləri unutmamalıyıq və unutmayacağıq. Biz şəhidlərimizin xatirəsini daim öz qəlbimizdə yaşadacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qəhrəmanlığı və minlərlə, on minlərlə Azərbaycan əsgər-zabitinin qəhrəmanlığı, peşəkarlığı sayəsində biz işğala son qoyduq, doğma torpaqlarımızı azad etdik, tarixi Zəfər çaldıq və bu Zəfər bizim tariximizdə əbədi qalacaq. Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimin tanınır. Onu da bildirməliyəm ki, bu il Azərbaycana olan ənənəvi dəstək və hörmət daha da artdı və bunun başlıca səbəbi İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, müharibə dövründə bütün müharibə qaydalarına riayət etməyimiz və müharibədən sonra özümüzü ləyaqətlə aparmağımız idi.

Bununla paralel olaraq, biz hərbi gücümüzü bundan sonra da artıracağıq. 2021-ci ildə də bu istiqamətdə əməli addımlar atılıb, yeni silahlar, texnikalar alınıb və alınacaqdır. Eyni zamanda, hərbi birləşmələrimizin hazırlıq işinə də böyük əhəmiyyət verilir. İkinci Qarabağ müharibəsində bütün dünya Azərbaycanın hərbi gücünü gördü, Müdafiə Nazirliyinin xüsusi təyinatlıları artıq bütün dünya tərəfindən tanındı, onların qəhrəmanlığı, fədakarlığı, peşəkarlığı dastana çevrildi. Onu da bildirməliyəm ki, bu il artıq Azərbaycanda yeni hərbi birləşmə yaradılmışdır - Komando Qüvvələri. Bu Komando Qüvvələri istənilən hərbi vəzifəni icra etməyə hazırdırlar, onların sayı durmadan artır və artacaq. Beləliklə yeni çevik, peşəkar və çox böyük imkanlara malik olan silahlı birləşmənin yaradılması onu deməyə əsas verir ki, biz hər an öz torpaqlarımızı, öz sərhədlərimizi qorumağa hazır olmalıyıq. 2021-ci ildə Ermənistan-Azərbaycan sərhədində baş vermiş bəzi insidentlər onu göstərdi ki, Azərbaycan üstünlüyü tam öz əllərində saxlayır.

Azad edilmiş torpaqlarda bu il geniş quruculuq-bərpa işlərinə start verildi. Deyə bilərəm ki, dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb. Bu işlər haqqında Azərbaycan vətəndaşları müntəzəm olaraq məlumatlandırılır. Əgər mən bu haqda danışmağa başlasam, yəqin ki, bir neçə saat vaxt lazım olacaq, hər şey göz qabağındadır. Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq.

Eyni zamanda, Azərbaycanın bütün yerlərində inkişaf müşahidə olunur. Regional inkişaf proqramı uğurla icra edilir. Bu il mən bölgələrə çoxsaylı səfərlər sayəsində əlavə imkanların aşkar edilməsi üçün səylər göstərmişəm və mənim səfərlərim müntəzəm xarakter daşıyır. Azərbaycanın bölgələrinə bu il 47 dəfə səfər etmişəm, bu səfərlərin 32-si azad edilmiş torpaqlara olan səfərlərdir. Təkcə Şuşa şəhərinə 7 dəfə getmişəm. Biz Şuşada böyük quruculuq işlərinə start verdik və azad edilmiş torpaqlar arasında təbii olaraq ən genişmiqyaslı bərpa işləri Şuşa şəhərində aparılır. Eyni zamanda, digər şəhər və kəndlərdə çox genişmiqyaslı işlər aparılır və aparılacaq.

Əlbəttə ki, bütün bu işlərə nail olmaq üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir. Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük. Əlbəttə, əgər iqtisadi inkişaf sürətlə getməsə, bu işləri bu sürətlə aparmaq mümkün olmayacaq. Görülmüş işlər nəticəsində demək olar ki, biz artıq postböhran dövrünə qədəm qoyduq. Azərbaycan iqtisadiyyatı bu ilin 11 ayında 5,3 faiz, qeyri-neft iqtisadiyyatı isə 6,4 faiz artıb. Sənaye istehsalı 5,5 faiz, qeyri-neft sektorunda sənaye 20,7 faiz artıb. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artıb. Ticarət əlaqələrimizin müsbət saldosu 9,4 milyard dollardır. Xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 17 faizini təşkil edir və bu il ərzində həm mütləq rəqəmlərdə, həm ümumi daxili məhsula nisbətdə xarici dövlət borcu azalıb.

Yəni, bu göstəricilərlə hər bir ölkə öyünə bilər. Amma bizim üçün bu, təbiidir. Çünki Azərbaycan xalqı görür ki, uzunmüddətli, düzgün strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadi inkişaf göz önündədir. Eyni zamanda, iqtisadi sahədə aparılan islahatlar, şəffaflıq, korrupsiya və rüşvətxorluqla mübarizə öz nəticələrini verməkdədir. Təkcə vergi orqanları sayəsində xəzinəyə proqnozdan əlavə 1,4 milyard manat pul daxil edilib və bu puldan istifadə edərək biz geniş sosial paket tədbirlərini keçiririk. Yanvarın 1-dən maaşlar, pensiyalar, təqaüdlər əhəmiyyətli dərəcədə artırılacaq. İki milyon yüz min insanı əhatə edən bu sosial paketin ümumi həcmi 1,5 milyard manatdır. Baxın, vergi orqanları xəzinəyə ancaq proqnozdan əlavə 1,4 milyard manat pul cəlb ediblər, onun hamısı və artıqlaması ilə sosial məsələlərin həllinə yönəldilib. Mən əvvəllər də demişəm ki, əlavə vəsait toplandıqca, ilk növbədə, biz bu vəsaiti sosial layihələrə yönəldəcəyik. Eyni zamanda, azad edilmiş torpaqlarda görülən işlər də sosialyönümlü işlərdir. Çünki o işlərin mütləq əksəriyyəti sosial xarakter daşıyır, keçmiş məcburi köçkünlərin tezliklə o ərazilərə qaytarılmasına hesablanıbdır.

Hesab edirəm ki, bu il COVID-lə mübarizədə yaxşı nəticələr əldə edilib, pandemiya tam nəzarət altındadır. Azərbaycan nadir ölkələrdəndir ki, bu sahədə vəziyyət qəbuledilləndir. Eyni zamanda, aparılan genişmiqyaslı peyvəndlənmə siyasəti, peyvəndlənmə işləri bizə kömək göstərir. Əhalinin təxminən 50 faizi artıq 2 doz peyvənd alıb. 18 yaşdan yuxarı olan əhaliyə gəldikdə isə, bu rəqəm 62 faizə çatır. Ümumilikdə 11 milyondan çox doz vaksin vurulubdur və bu bəla ilə biz yeni ildə də ciddi mübarizə aparacağıq.

Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm.

Bildiyiniz kimi, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm ki, dünya azərbaycanlıları bu bayramı ruh yüksəkliyi ilə qeyd edirlər. Artıq ikinci ildir ki, ruh yüksəkliyi ilə qeyd edirlər. Çünki mən bilirəm ki, bu işğal dövrü və işğalla bağlı olan məsələlər xaricdə yaşayan azərbaycanlılara da böyük əzab-əziyyət verirdi. Çünki ermənilərlə müxtəlif ölkələrdə ünsiyyətdə olarkən onların təkəbbürlü baxışları əminəm ki, dünya azərbaycanlılarını incidirdi. İndi isə vəziyyət tam fərqlidir. Biz heç vaxt təkəbbürlü olmamışıq, amma hər zaman öz gücümüzü hiss etmişik. Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər.

Əziz həmvətənlər, qeyd etdiyim kimi, bu il ölkəmiz üçün uğurlu olub. Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Mən sizi ürəkdən təbrik edirəm. Bayramınız mübarək olsun!

# Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevi yubileyi münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevi yubileyi münasibətilə təbrik edib.



Birinci vitse-prezidentin bununla bağlı rəsmi instaqram səhifəsində etdiyi paylaşımda deyilir:

"Hörmətli cənab Prezident!

Bu gün mən milyonlarla Azərbaycan vətəndaşı kimi Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bizə – Azərbaycan xalqına milli qürur və birlik hissi bəxş etdiyinizə görə Sizə təşəkkür edirik. Uzun illərdir ki, hər bir azərbaycanlının qəlbində yaşayan istəyini və müqəddəs arzusunu çin etdiyinizə görə Sizə minnətdarıq. Azərbaycan xalqı – müzəffər xalqdır!

Böyük işlər bir anda baş tutmur. İstənilən tarixi nailiyyətə aparan yol uzun, mürəkkəb və çətin olur. Sizin tarixi xidmətiniz ondadır ki, bu yola qədəm qoydunuz və onu şərəflə keçdiniz. Misilsiz xidmətiniz ondadır ki, bütün bu illər ərzində ölkəyə başçılıq edərək verdiyiniz qərarlarla Azərbaycan xalqının Zəfər qazanmasını təmin etdiniz.

Sizin gücünüz ondadır ki, bu yolda Siz xalqın etimadını qazanmağı bacardınız və məhz xalqın inam və sevgisinə arxalanaraq bu dəyərli etimadı doğrulda bildiniz. Tarixi xidmətiniz ondadır ki, bu illər ərzində bütün çətinliklərə, təzyiqlərə, bəzən əsassız və ədalətsiz fikirlərlə üzləşdiyinizə baxmayaraq bir an belə inamınızı, ümidinizi və iradənizi itirmədiniz. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi böyük missiyanın yerinə yetirilməsi də məhz Sizin yenilməz iradəniz sayəsində mümkün oldu.

Mən bilirəm ki, Siz həmişə öz xalqınıza inanmısınız. Məhz bu inam Sizin bütün şəxsi keyfiyyətlərinizlə birgə qazandığınız və qazanacağınız qələbələrin mənbəyidir.

Sizə ən səmimi təşəkkürlər!

İcazənizlə, yubiley gününüzdə Sizə və bütün Azərbaycan xalqına uzun ömür, möhkəm cansağlığı və bütün arzularınızın yerinə yetməsini diləyirəm.

Sizin uğur yolunuz davam etməkdədir və qarşıda hələ Vətənimiz naminə görəcəyiniz çoxlu işlər var.

Tanrı Sizə güc və səbir versin! Uca Allah Sizi və Azərbaycan xalqını bu müqəddəs yolda qorusun!

Biz Sizinlə fəxr edir və Sizi çox sevirik!

**Mehriban Əliyeva".**


Əziz bacılar və qardaşlar,
bütün xoş sözlərə və təbriklərə
görə sizə bir daha öz dərin
təşəkkürümü bildirmək istəyirəm.
Sizi əmin etmək istəyirəm ki, bundan sonra da eyni əzmkarlıqla, eyni qətiyyətlə ölkə maraqlarının keşiyində duracağam, sizin dəstəyinizlə biz yeni böyük uğurlara imza atacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!
İLHAM
ƏLİYEV


Mən xalqımın dəstəyini
2003-cü ildən
- PREZİDENT VƏZİFƏSİNƏ
SEÇİLƏNDƏN BU GÜNƏ
QƏDƏR HİSS EDİRƏM.
✓ Bu dəstək mənə güc verir.
✓ Bu dəstək iradəmi möhkəmləndirir.
✓ Bu dəstək nəticəsində biz hamımız – bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq.
PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz
İLHAM
ƏLİYEV

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## K.B. Əliyevə I dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Bayram oğlu Əliyevə I dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 23 noyabr 2021-ci il
№ 3004



# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev pensiyaya çıxmış prokurorluq işçiləri ilə görüşmüşdür











Oktyabrın 6-da Baş prokuror Kamran Əliyevlə pensiyaya çıxmış Xızı rayon prokuroru İlham Məmmədov, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin prokuroru Tahir Vəliyev və İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi Mehdi Mirzəyevin arasında görüş keçirilmişdir.

Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə təltif edilmiş prokurorluğun pensiyaya çıxmış işçilərinə Fəxri fərman və medallar təqdim edilmişdir.

Tədbirdə iştirak edənlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya prokurorluğun pensiyaya çıxmış işçilərinə göstərilən diqqət və qayğıya görə dərin minətdarlıqlarını bildirmişlər.

Görüşün yekununda xatirə fotoşəkli çəkilmişdir.

# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstana səfər etmişdir





Oktyabrın 15-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanın Baş prokuroru İrakli Şotadzenin dəvəti ilə Tbilisiyə səfər etmişdir.

Gürcüstan Prokurorluğunda nümayəndə heyətləri arasında ikitərəfli görüş keçirilmişdir. Kamran Əliyev səmimi qəbula görə təşəkkürünü bildirərək ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən mehriban dostluq və qardaşlıq münasibətlərinin mövcudluğunu vurğulamaqla bu münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyini qeyd etmişdir. Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat vermişdir.

Həmçinin, görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən yetkinlik yaşına çatmamış şəxslər barəsində cinayət mühakiməsinin aparılması, nifrət zəminində törədilmiş cinayətlər, məişət zorakılığı, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, korrupsiya cinayətləri, habelə prokurorluq fəaliyyətinin rəqəmsallaşdırılması mövzuları üzrə səmərəli fikir mübadiləsi aparılmışdır.

Ölkələrimizin prokurorluq qurumları arasında ikitərəfli hüquqi əməkdaşlığın gücləndirilməsi və





mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanmışdır.

Nümayəndə heyətimiz tərəfindən Tbilisidə Ulu öndər Heydər Əliyevin adına park ziyarət edilmiş, abidəsi önünə əklil qoyularaq Ümummilli liderin xatirəsi ehtiramla yad edilmişdir.

Görüşlərdə Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev iştirak etmişdir.

## Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş naziri ilə görüşmüşdür



Gürcüstana səfəri çərçivəsində Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hüquq mühafizə sahəsində də uğurla inkişaf etdiyi, qarşılıqlı hüquqi yardım və ekstradisiya sahəsində nailiyyətlərin əldə olunduğu vurğulanmış, əlaqələrimizin daha da möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olunmuşdur.

# Baş Prokurorluğun Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlığı uğurla davam etdirilir







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir.

20-21 oktyabr tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində hibrid formatda BPA-nın İcraiyyə Komitəsinin 52-ci iclası və 26-cı illik ümumi yığıncağı keçirilib. Tədbirlərdə Baş prokurorlar daxil olmaqla, prokurorluq orqanlarının rəhbər şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak etmişlər.

Hər iki iclasda ölkəmiz Azərbaycan Respublikasının Baş prokuroru, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü və vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən təmsil olunmuşdur.

Oktyabrın 20-də İcraiyyə Komitəsinin açılış iclasında Assosiasiyanın müvafiq komitələrinə yeni üzvlərin qəbulu həyata keçirilmiş, dünya prokurorlarının fəaliyyətini təkmilləşdirmək məqsədi daşıyan bir sıra təşkilati məsələlər, həmçinin qurumun fəaliyyətinin təşkili üçün zəruri olan hesabat və sənədlər müzakirə olunmuşdur.

İclasda çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat vermişdir.

BPA-nın İcraçı Direktoru xanım Yanne Holst Hübner tərəfindən ölkəmizin Assosiasiyanın işində fəal iştirakı, təşəbbüskarlığı və səmərəli təmsilçiliyi qeyd olunmaqla Respublika Baş Prokurorluğunun BPA-nın fəaliyyətində verdiyi dəyərli töhvələrə görə təşəkkür ifadə olunmuşdur.

Bundan əlavə, BPA-nın Baş konsulu Qari Len Balç tərəfindən Assosiasiyanın elektron səhifəsinin mühüm bölümü olan Korrupsiyaya qarşı Mübarizə aparan Prokurorlar Şəbəkəsinin (NACP) fəaliyyətinin təkmilləşdirilməsində Azərbaycan Prokurorluğunun aparıcı rolunu və hərtərəfli dəstəyini vurğulamaqla bu sahədə tərəfdaşlığın uğurla davam etdiyini bildirmişdir.

İcraiyyə Komitəsinin iclası çərçivəsində, Türkiyə Respublikasının Baş Prokurorluğu tərəfindən 2023-cü ildə BPA-nın 10-cu Şərqi Avropa və Orta Asiya Regional Konfransının İstanbulda keçirilməsinə dair irəli sürülmüş təklif müzakirəyə çıxarılaraq sözügedən Konfransın 2023-cü ilin may ayında Türkiyədə keçi-

rilməsinə dair müvafiq qərar qəbul edilmişdir.

Oktyabrın 21-də keçirilmiş Assosiasiyanın 26-cı Ümumi Yığıncağında BPA-nın prioritet istiqamətləri üzrə görülən işlər nəzərdən keçirilmiş, habelə qurumun Maliyyə nəzarəti və Çətin vəziyyətdə olan prokurorlar komitələrinin protokolları qəbul edilmişdir. Eyni zamanda, həmin komitələrin tərkibi ilə bağlı səsvermə aparılmaqla, BPA-nın İcraiyyə Komitəsinə hazırda müvafiq regionlarda fəaliyyət göstərən və vakant olan regionlar üzrə yeni üzvlərin qəbulu həyata keçirilmişdir.

Ümumi Yığıncaq zamanı keçirilmiş müvafiq seçkilər nəticəsində 2010-cu ildən etibarən BPA-nın İcrayyə Komitəsinin üzvü, 2018-ci ildən etibarən isə vitse-prezidenti vəzifəsini daşıyan Baş prokuror Kamran Əliyev növbəti dəfə 3 illik müddətə BPA-nın Vitse-prezidenti vəzifəsinə yekdilliklə seçilmişdir.

Göstərilənlərlə yanaşı, nümayəndə heyətinin üzvləri tədbir çərçivəsində təşkil edilmiş müxtəlif iclas və sessiyalara qatılaraq müzakirələrdə fəal və səmərəli iştirak etmiş, eləcə də bir sıra xarici ölkələrin prokurorluq əməkdaşları və beynəlxalq təşkilatların üzvləri ilə ikitərəfli və çoxtərəfli görüşlər keçirmişdir.








# Oktyabrın 27-də Baş prokuror Kamran Əliyev Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratlığının rəhbəri Xristos Cakumopulosun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir







Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, müxtəlif sahələrdə, o cümlədən insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində Avropa Şurasının qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu bildirmişdir.

Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, prokurorluq orqanlarında struktur dəyişikliyi ilə əlaqədar yeni yaradılmış idarələrin, o cümlədən Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirmə idarələrinin fəaliyyət istiqamətləri barədə məlumat verərək, bu sahədə Avropa Şurasının uğurlu təcrübəsindən geniş istifadə olunduğunu diqqətə çatdırmışdır.

Ölkəmizlə bağlı xoş təəssuratlarından danışan Xristos Cakumopulos Avropa Şurasının İnsan hüquqları və Qanunun Aliliyi üzrə Direktoratlığının rəhbəri qismində Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək, məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatların Avropa Şurası tərəfindən təqdir edildiyini və dəstəkləndiyini bildirmişdir.

X.Cakumopulos Avropa Şurası ekspertlərinin azərbaycanlı həmkarları ilə bundan sonra da sıx qarşılıqlı əməkdaşlıq şəraitində işləmək niyyətini ifadə edərək ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülən işləri yüksək qiymətləndirmişdir.

Görüş zamanı İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının ölkəmizdə icra vəziyyəti, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə səmərəli fikir mübadiləsi aparılmışdır.

Görüşdə, həmçinin, Avropa Şurasının Bakı Ofisinin rəhbəri – səfir Zoltan Hernyeş də iştirak etmişdir.

# Türkdilli Dövlətlərin Baş Prokurorları Şurası təsis edilmişdir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla və nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlığını həyata keçirməklə yanaşı çoxsaylı qlobal və regional təşəbbüslərdə fəal iştirak edir.

Regionumuzda baş verən çağırışlara və təhdidlərə qarşı mübarizədə, mövcud potensialın inkişafında və qarşılıqlı təcrübə mübadiləsində qardaş və dost türkdilli ölkələrin prokurorluq orqanları ilə əlaqələrin yeni formatda təşkili cinayətkarlığa qarşı mübarizə üzrə birgə səylərin gücləndirilməsinə və daha effektiv təşkili üçün mühüm amil hesab edilmişdir.

3 oktyabr 2009-cu il tarixdə Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvan şəhərində keçirilən 9-cu zirvə toplantısında türkdilli ölkələr arasında ortaq tarix, dil, mənsubiyyət və mədəniyyətə əsaslanan qarşılıqlı maraqları və münasibətləri daha da inkişaf etdirmək və həmrəyliyi gücləndirmək məqsədilə təməli qoyulmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində üzv ölkələrin Baş Prokurorları Şurasının təsis edilməsi qərara alınmışdır.

Bununla əlaqədar noyabrın 1-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ilk iclası keçirilmişdir.

Tədbirdən əvvəl iştirakçılar Fəxri Xiyabana gələrək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül-çiçək dəstələri düzən qonaqlar daha sonra Şəhidlər Xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarları üzərinə tər çiçək dəstələri düzmüş, “Əbədi Məşəl” abidəsinin önünə əklil qoymuşlar.



Yüksək səviyyəli iclasa Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğız Respublikalarının Baş Prokurorları, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibinin müavini, Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti və digər nümayəndələri qatılıblar. Tədbirdə, həmçinin iştirakçı dövlətlərin və Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri iştirak ediblər.



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iclası açaraq böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla dostluq və qardaşlıq təməlləri əsasında yaradılacaq Şuranın regional təhlükəsizlik, sül-










hə və sabitliyə yeni, daha təhlükəli təhdidlər üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirmişdir.

Bundan sonra, Baş prokuror Kamran Əliyev dövlətimizin başçısı cənab İlham Əliyevin iclas iştirakçılarına salamlarını və Şuranın yaradılması ilə bağlı təbriklərini çatdırıb.

Daha sonra Türkiyə Cumhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iclas iştirakçılarına ünvanlanmış videomüraciəti nümayiş olunmuşdur.

İclasda çıxış edən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Baş Katibinin müavini Mirvoxid Azimov türkdilli ölkələr arasında əməkdaşlığın inkişafında, xüsusən cinayətkarlığa və terrorçuluğa qarşı mübarizədə təsis ediləcək Şuranın mühüm əhəmiyyət malik olacağını vurğulamışdır.

Tədbirə qonaq qismində dəvət olunmuş Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti cənab Çol-Kyu Hvan çıxış edərək qlobal, o cümlədən regional təhdidlərə qarşı mübarizədə birgə platformaların önəminə diqqət çəkərək Şura üzvlərinin əldə edilmiş təcrübədən və məlumat mübadiləsindən fəal faydalanmaq imkanına malik olacaqlarını bildirmişdir.

Açılış çıxışlarından sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının Əsasnaməsinin imzalanması mərasimi baş tutmuşdur.

Fasilədən sonra tədbir işini "Türkdilli dövlətlərin prokurorlarının cinayətkarlığa qarşı mübarizədə rolu: real imkanlar və müasir çağırışlar" mövzusunda beynəlxalq konfransla davam etdirib.

Konfransda çıxış edən Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin, Özbəkistan Respublikasının Baş prokuroru Niqmatilla Yuldoşev, Qırğız Respublikasının Baş prokuroru Kurmankul Zuluşev, Qazaxıstan Respublikası Baş prokurorunun birinci müavini Berik Asılov və Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Viktor Sederkenyin tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirərək Şuranın regional sülhün və sabitliyin təmin olunmasında öz xidmətlərini göstərəcəyinə əminliklərini bildirmişlər.

İclasda məruzə ilə çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, qazanılan nailiyyətlər barədə iştirakçılara məlumat verərək, Azərbaycanın qardaş türkdilli dövlətlərlə




əməkdaşlığa mühüm önəm verdiyini diqqətə çatdırmışdır.

Baş prokuror qeyd etmişdir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının təsis edilməsi ölkələrimiz arasında möhkəm təməllər üzərində qurulmuş, dərin tarixi köklərə əsaslanan yüksək səviyyəli dostluq və qardaşlıq münasibətlərinin inkişafına yeni impuls verməklə əməkdaşlığın keyfiyyətcə yeni, qarşılıqlı əlverişli olan səviyyəyə yüksəlməsinə xidmət edəcək, müasir çağırışlara adekvat şəkildə, sistemli yanaşmalar əsasında cavab verməklə cinayətkarlığa qarşı mübarizənin, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə mühüm töhfə olacaqdır.

Çıxışlardan sonra məruzələr ətrafında, eləcə də qurumun gələcək perspektivləri barədə geniş müzakirələr aparılmış, həmçinin Şuranın növbəti-2-ci iclasının 2023-cü ildə Türkiyə Cümhuriyyətində keçirilməsi qərara alınmışdır.




Beynəlxalq konfransın yekununda nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilmişdir.

İlk öncə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Baş prokuroru Bekir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş prokuror iki qardaş ölkənin dövlət başçılarının siyasi iradələri ilə reallaşan nəhəng enerji və nəqliyyat layihələrinin bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasına, xalqlarımızın rifahına xidmət etdiyini vurğulamışdır.

Səmimi qəbul üçün minnətdarlığını ifadə edən Bekir Şahin dövlətlərimiz arasında strateji münasibətlərin mövcudluğu və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə hərtərəfli dəstək verməsini xüsusi qeyd etmişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Özbəkistan Respublikasının Baş prokuroru Niqmatilla Yuldoşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilmiş görüşdə eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malik ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olunmuşdur.

Azərbaycan və Özbəkistan prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayan Baş prokuror bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışmışdır.






Görüş çərçivəsində prokurorluq orqanları arasında münasibətlərin məzmunca yeni müstəviyə qaldırılması məqsədilə iki ölkənin prokurorluq orqanları arasında Əməkdaşlığa dair Razılaşma və 2022-23-cü illər üzrə Əməkdaşlıq Proqramı imzalanmışdır.

Qırğız Respublikasının Baş prokuroru cənab Kurmankul Zuluşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilmiş görüşdə xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin əhəmiyyəti qeyd edilmişdir.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin müvafiq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Konfrans çərçivəsində Qazaxıstan Respublikası Baş prokurorunun birinci müavini Berik Asılovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilmiş görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib, gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında, o cümlədən prokurorluqlarımız arasında imzalanıb bir sıra sənədlərin icrası mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Baş Katibinin müavini Mirvoxid Azimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşən Baş prokuror Şura üzvü olan ölkələrin regional sabitlik və təhlükəsizliyin qorunması səylərini bölüşərək əldə edilmiş təcrübədən və məlumat mübadiləsindən fəal faydalanmaq yolu ilə yeni təsis edilmiş qurumun verdiyi üstünlüklərdən bəhrələnmək imkanına malik olacaqlarını diqqətə çatdırmışdır.

Türkdilli dövlətlərin əməkdaşlığı çərçivəsində prokurorluq orqanlarının əlaqələrinin yeni formatda təşkilinin önəminə toxunan Mirvoxid Azimov qurumun işinə hər cür dəstək olacaqlarını bildirməklə Şuranın təsisindən məmnunluğunu bildirmişdir.

Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti Çol-Kyu Hvanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilmiş görüşdə Baş prokuror Kamran Əliyev ölkəmizin təşkilatla fəaliyyətə başladığı vaxtdan etibarən uğurla əməkdaşlıq etdiyini, qarşılıqlı münasibətlərin bundan sonra da artan xətlə davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.







Assosiasiyanın prezidenti Çol-Kyu Hvan Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulamış, təşkilatın gələcək fəaliyyətinə dair faydalı fikir mübadiləsi aparılmışdır.

Bu gün bütün Azərbaycan şanlı Zəfər Gününü qeyd edir.



**Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.**

- Bu şanlı bayramı xalqımıza on minlərlə hərbçimiz bəxş etmişdir. Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizə Allah rəhmət eləsin. Azərbaycan Ordusuna yeni qələbələr, Azərbaycan xalqına yeni uğurlar arzulayıram.
- Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına! **Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# 5 noyabr 2021-ci il tarixdə “8 Noyabr – Zəfər Günü” münasibətilə Baş Prokurorluqda tədbir keçirilmişdir





8 Noyabr - Zəfər Günü münasibətilə Baş Prokurorluğun kollektivi noyabrın 5-də I və II Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyub, “Əbədi məşəl” abidəsini ziyarət etmişlər.




Zəfər Günü rəşadət
bayramıdır,
ədalət bayramıdır, milli qürur,
milli ləyaqət bayramıdır!
İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz






Daha sonra Baş Prokurorluqda "8 Noyabr – Zəfər Günü"nə həsr olunmuş tədbir keçirilmişdir.

İlk öncə şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında çalışan bütün prokurorluq əməkdaşlarını və xalqımızı "8 Noyabr – Zəfər Günü" münasibətilə təbrik etmişdir.

Tədbirdə çıxış edən Kamran Əliyev bildirmişdir ki, Ermənistan silahlı qüvvələrinin 27 sentyabr 2020-ci il tarixdə təcvüzkar təxribatlara yenidən başlamasına cavab olaraq Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Ordumuz torpaqlarımızın işğaldan azad edilməsi, Ermənistanın sülhə məcbur edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başlamışdır. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

Kamran Əliyev qeyd etmişdir ki, 44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi azad etməklə yanaşı Ermənistanı öz məğlubiyyətini etiraf etməsinə və kapitulyasiya aktını imzalamasına məcbur etmişdir.

Tədbirdə həmçinin, 44 Günlük Vətən Müharibəsi zamanı xidməti vəzifəsini yerinə yetirərkən Ermənistan silahlı qüvvələri tərəfindən atılan raket zərbələri nəticəsində xəsarət alan, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilən Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı Ozal Həsənov, eləcə də müharibə zamanı dinc mülki əhalimizə qarşı törədilən cinayətlərin istintaqının aparılmasında fəal iştirak etmiş Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqi Orxan Rzayevin çıxışları dinlənilmişdir.

Sonda isə 44 günlük Vətən Müharibəsinə həsr olunmuş Bakı Media Mərkəzi tərəfindən hazırlanan "Zəfər Meydanı" adlı sənədli film nümayiş etdirilmişdir.





## Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev noyabrın 5-də ölkəmizdə işgüzar səfərdə olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevlə görüşüb







Qonağı səmimi salamlayan Baş prokuror Azərbaycanla Türk Şurası arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, regionumuzda baş verən çağırışlara və təhdidlərə qarşı mübarizədə, mövcud potensialın inkişafında və qarşılıqlı təcrübə mübadiləsində qardaş və dost türkdilli ölkələrin prokurorluq orqanları ilə əlaqələrin gücləndirilməsinin və həmin ölkələrin təcrübəsinin öyrənilməsinin önəmli olduğunu bildirdi.



Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarında aparılmış hərtərəfli və institusional tədbirlər barədə məlumat verdi.

Baş prokuror qonağı cari ilin noyabrın 1-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ilk iclası və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində üzv ölkələrin Baş Prokurorları Şurasının təsis edilməsi haqda məlumatlandırdı.

Bağdad Amreyev yeni yaradılmış platformanın Türk Şurası tərəfindən təqdir edildiyini və dəstəkləndiyini bildirərək türkdilli ölkələr arasında əməkdaşlığın inkişafında, xüsusən cinayətkarlığa və terrorçuluğa qarşı mübarizədə təsis edilmiş Şuranın mühüm əhəmiyyətə malik olacağını vurğuladı.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər üzrə də səmərəli fikir mübadiləsi aparıldı.



# Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında işgüzar əlaqələr uğurla davam etdirilir







Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Belarus İstintaq Komitəsinin sədri Dmitri Qoranın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir.

Noyabrın 16-da Belarus Respublikası İstintaq Komitəsinin nümayəndə heyəti Fəxri Xiyabana gələrək Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuş, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmişdir.

Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzmüş, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilmişdir.

Qonaqları salamlayan Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin dövlət başçıları İlham Əliyev və Aleksandr Lukaşenkonun birgə səyləri və siyasi iradələri sayəsində bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd etmişdir.

Dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi hüquqi sahədə də aparılan islahatlar, o cümlədən səmərəli dövlət idarəetməsi, əhalinin həyat səviyyəsinin və sosial rifahının yüksəldilməsi üzrə tədbirlər və əldə olunmuş nailiyyətləri haqda geniş məlumat verilmişdir.

Belarusun Azərbaycanla hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini









tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

Səfər çərçivəsində, heyət, paytaxtın Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsində yerləşən Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni inzibati bina kompleksində olmuşlar. Qonaqlar inzibati bina kompleksində prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, tədris auditoriyaları və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.

Baş Prokurorluğun İstintaq İdarəsinin fəaliyyəti ilə yaxından tanış olan heyət üzvlərinə cinayətlərin istintaq metodikasına dair məlumatları əks etdirən lövhələr, əyani vəsaitlər təqdim olunmuş, habelə qonaqlara istintaq hərəkətlərinin keçirilməsi üçün müasir tələblərə cavab verən avadanlıq və texniki vasitələr nümayiş etdirilmişdir.

deyən Dmitri Qora iki ölkənin dövlət qurumları arasında münasibətlərin dərinləşməsi üçün böyük perspektivlərin olduğunu bildirərək, qarşılıqlı səmərəli əlaqələrin daha da genişlənməsində ümumi marağın mövcudluğunu vurğulamışdır.

Görüşdə hər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə, o cümlədən internet şəbəkəsindən istifadə edilməklə törədilən cinayətlərin açılması və araşdırılması, bu sahədə qanunvericilik mövzusunda geniş fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış,

Bundan sonra, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə "Belarus Respublikası İstintaq Komitəsinin İxtisasartırma və yenidən hazırlıq institutu" təhsil müəssisəsi arasında qurumlararası əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən əməkdaşlıq haqqında memorandum imzalanmış və bu istiqamətdə fəaliyyətin davam etdirilməsində əminlik ifadə edilmişdir.

# Belarus İstintaq Komitəsinin nümayəndə heyətinin iştirakı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının geniş tərkibdə iclası keçirilmisdir



Noyabrın 16-da Baş prokuror Kamran Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Belarus İstintaq Komitəsinin sədri Dmitri Qoranın rəhbərlik etdiyi nümayəndə heyəti hüquq sistemimizə daxil olan müxtəlif dövlət orqanları, eləcə də ölkəmizin aparıcı elm və təhsil müəssisələri, hüquq mühafizə orqanları akademiyaları nümayəndələrinin təmsil olunduğu Azərbaycan Respublikasının Baş prokuroru yanında məşvərətçi orqan olan Elmi-Məsləhət Şurasının növbəti iclasında iştirak etmişlər.

Elmi-Məsləhət Şurasının iclasını açan Baş prokuror ölkəmizin geosiyasi, diplomatik, hüquqi müstəvidə əldə etdiyi uğurlar, Şuranın fəaliyyəti ilə bağlı qarşıya qoyulan hədəflər, prokurorluq orqanlarının beynəlxalq əlaqələrinin, o cümlədən Belarus İstintaq Komitəsi ilə qurulan səmərəli əməkdaşlığın açdığı yeni imkanlar barədə məlumat vermişdir.

Belarus İstintaq Komitəsinin sədri Dmitri Qora öz çıxışında hər iki qurum arasında olan əməkdaşlıq əlaqələrinin hazırki vəziyyətindən razılığını ifadə edərək, istintaq və məhkəmə təcrübəsinə aid aktual hüquqi problemlərin müzakirəsi üçün əlverişli platforma olan Elmi-Məsləhət Şurasının fəaliyyətinə uğurlar arzu etmişdir.

Daha sonra yerli və xarici həmkarlar İnternet şəbəkəsindən istifadə edilməklə törədilən cinayətlərin açılması və araşdırılması ilə bağlı perspektiv istiqamətlər, milli qanunvericilik kontekstində qanunsuz varlanmanın kriminallaşdırılması imkanları, kompüter təhlükəsizliyi sistemi ilə bağlı cinayət və cinayət prosessual qanunvericilikdə yeniliklər, habelə informatorların müdafiəsi ilə bağlı çıxış və təqdimatlar etmişlər.

Həmçinin, Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış Baş Prokurorluğun Elektron Kitabxanasının təqdimatı həyata keçirilmişdir.

Qeyd edilmişdir ki, Elektron Kitabxananın imkanlarından prokurorluq əməkdaşları ilə yanaşı, internet məkanı üzərindən geniş oxucu kütləsi, o cümlədən müxtəlif dövlət orqanları, elm-təhsil müəssisələri əməkdaşları, tələbələr tərəfindən istifadə edilməsi nəzərdə tutulmuşdur.

Elektron Kitabxanada nəşrlərin təsnifat bölgüsünün prokurorluğun fəaliyyətinə uyğun olması, nəşrlərin ətraflı axtarış sisteminin olması, yeni nəşr edilmiş və ən çox oxunan nəşrlərin ayrıca təsvir olunması, tərəfdaş kitabxanalara və digər faydalı saytlara keçid üçün linklərin qoyulması bu resursun səmərəliliyini daha da artırmış olur.

Daha sonra, Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi tərəfindən yaradılmış İnsan Hüquqları üzrə Sənədlərin Axtarış Portalı-nın (İHSAP) təqdimatı həyata keçirilmişdir.

Axtarış Portalında "Qərarlar" "Konvensiyalar", "Ədəbiyyatlar", "Metodiki Sənədlər", "Prokurorluq və insan hüquqları", "Faydalı Məlumatlar" və "Faydalı Linklər" tematikaları üzrə bölmələr müəyyən edilmişdir.

Axtarış Portalında həm sözə görə, həm də ki, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyasının maddələri, Avropa Şurasına üzv olan ölkələrin adları, eləcə də xüsusi dairəsi müəyyən edilmiş açar sözlər üzrə axtarış aparılması imkanları da yaradılmışdır.

Yekunda vahid istintaq və məhkəmə təcrübəsinin formalaşması ilə bağlı müxtəlif hüquqi məsələləri özündə əks etdirən mövzular üzrə Şuranın üzvləri tərəfindən ətraflı və faydalı müzakirələr aparılmış, qarşıda duran vəzifələr müəyyən edilmişdir.












# Türkiyə Respublikası İstanbul şəhər Baş Prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti 23-26 noyabr 2021-ci il tarixlərində Azərbaycan Respublikasına rəsmi səfər etmişdir







Türkiyə Respublikası İstanbul şəhər Baş Prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti 23 noyabr 2021-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərə gəlib.

İlk öncə nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuş, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmişlər.

Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə tər gül dəstələri qoyublar.

Həmçinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət edilib.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.

Görüş zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi xüsusilə qeyd olunub, tarixən xalqlarımızın milli köklərə söykənən bu münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanıb.

Kamran Əliyev 2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqının ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirdiyini minnətdarlıqla qeyd edib, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərində türk şirkətlərinin fəal iştirak etməsinin iki ölkə arasında mövcud strateji əməkdaşlığın təzahürü olduğunu vurğulamışdır.









Baş prokuror qonağı cari ilin noyabrın 1-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ilk iclası haqda məlumatlandıraraq, yaradılmış platformanın türkdilli ölkələr arasında əməkdaşlığın inkişafında, xüsusən cinayətkarlığa və terrorçuluğa qarşı mübarizədə mühüm əhəmiyyətə malik olacağını vurğulamışdır.

Beynəlxalq Prokurorlar Assosiasiyasının Vitse-prezidenti olan Baş Prokuror Kamran Əliyev həmin qurumun növbəti yığıncağının 2023-cü ildə Türkiyə Respublikasının İstanbul şəhərində keçiriləcəyindən məmnunluğunu ifadə edərək, Türkiyənin ən gözəl şəkildə ev sahibliyi edəcəyinə əmin olduğunu bildirmişdir.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Şaban Yılmaz ilk öncə ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik edib, Vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət diləyib.

Şaban Yılmaz tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirərək bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “bir millət, iki dövlət”, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir” kəlamları ilə dəqiq ifadə edildiyini vurğulamışdır.

İstanbul şəhər Baş Prokuroru hər iki ölkənin prokurorluq orqanları arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmini xüsusilə diqqətə çatdırmışdır.

Görüş zamanı həmçinin, qarşılıqlı maraq doğuran digər məsələlər üzrə də səmərəli fikir mübadiləsi aparılmışdır.





Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

Səfər çərçivəsində, heyət, paytaxtın Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsində yerləşən Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni inzibati bina kompleksində olmuş, prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, tədris auditoriyaları və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.

Qeyd edilməlidir ki, Türkiyə nümayəndə heyətinin 2015-ci ildə şəhid olmuş İstanbul şəhər Baş Prokurorluğunun prokuroru Mehmet Selim Kirazın valideynləri - Saadet Kiraz və Hakkı Kiraz da gəlmişlər.



# Azərbaycanın Baş prokuroru və İstanbul şəhərinin Baş prokuroru Füzuliyə və Şuşaya səfər ediblər





Türkiyə Respublikası İstanbul şəhər Baş prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 24-də Azərbaycanın işğaldan azad edilmiş Füzuli rayonuna səfər edib.

Qonaqlar ilk öncə İkinci Qarabağ müharibəsində Qələbəmizin daha bir rəmzi hesab edilən Azərbaycan Ordusunun çətin relyef şəraitində irəlilədiyi Zəfər yolu ilə tanış olmuş, türk şirkətlərinin də inşasında yaxından iştirak etdiyi yolun strateji əhəmiyyəti qeyd edilmişdir.

Daha sonra, nümayəndə heyəti "Qarabağın hava qapısı" hesab olunan Füzuli Beynəlxalq Hava Limanı ilə yaxından tanış olmuş, qonaqlara bütün müasir tələblərə cavab verən aeroportda yaradılmış şərait barədə geniş məlumat verilmişdir.

Qonaqlar həmçinin, Füzuli şəhərinin təməl daşının qoyulduğu ərazi ilə tanış olmuş, aparılan abadlıq-quruculuq işlərinin əsas hədəfinin "Böyük Qayıdış"a hazırlaşan ərazilərdə keçmiş məcburi köçkünlər üçün yüksək yaşayış şəraitinin yaradılması diqqətə çatdırılmışdır.

İşğala qədər Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olan Füzulidə ermənilərin yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıtdıqları, salamat tikili saxlamadıqları qeyd edilmişdir.


ŞUŞA ŞƏHƏRİNDƏ İMZALANAN BƏYANNAMƏ TARİXİ SƏNƏDDİR
və bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz tarixi birlikdə yazırıq. İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Necə ki, müharibə dövründə biz birlikdə idik, bu gün də bir yerdəyik. Bizim birliyimiz sarsılmazdır və əbədidir!
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz



Qonaqlar yol boyu düşmənin viran qoyduğu məkanların, insanlığı dəhşətə gətirən erməni vandalizminin şahidi olmuşlar.

Daha sonra nümayəndə heyəti Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər etmişdir.

Qonaqlara Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı sayəsində işğaldan azad edilmiş mədəniyyət beşiyimiz Şuşa şəhərində dövlət başçısının tapşırığı ilə həyata keçirilən genişmiqyaslı təmir-bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verilmişdir.

Bildirilib ki, müstəsna mənəvi dəyərə malik olması səbəbindən Şuşada aparılan yenidənqurma işlərinə xüsusi qayğı və həssaslıqla yanaşılmış, qısa zaman kəsiyində şəhər ərazisində zəruri infrastruktur layihələri icra edilməklə yanaşı tarixi, mədəni və dini abidələrin bərpası istiqamətində işlər aparılmışdır.

Qonaqlar ilk öncə Ümummilli Lider Heydər Əliyevin









müdaxiləsi ilə qorunub saxlanmış, erməni vandalizminin vəhşi xislətinin daha bir sübutu olan görkəmli sənət xadimləri – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini ziyarət etmişlər.

Daha sonra, qonaqlar iki qardaş ölkə üçün mühüm tarixi əhəmiyyətə malik Şuşa Bəyannaməsinin imzalandığı ərazidə olmuşlar.

Cıdır düzünü ziyarət edən qonaqlara heyrətamiz mənzərəyə malik ərazinin şuşalıların və Şuşaya təşrif buyuran qonaqların ən sevimli məkanı, çövkən oyunları, Novruz və digər el şənliklərinin keçirildiyi seyrəngahı olduğu bildirilib.

Nümayəndə heyəti sonra bütün digər tarixi abidələrimiz kimi erməni vandalizminə məruz qalmış və işğal bitdikdən sonra ölkə başçısının rəhbərliyi ilə əvvəlki görkəmində tam bərpa edilmiş Vaqifin məqbərəsini, həmçinin tarixi Qala divarlarını, Yuxarı Gövhərağa məscidini, Azərbaycan vokal sənətinin banisi Bülbülün ev muzeyini ziyarət etmişlər.

Qonaqlar qısa vaxtda görülmüş genişmiqyaslı işlərin onlarda böyük təəssürat yaratdığını, Türkiyənin Vətən müharibəsində ölkəmizə göstərdiyi mənəvi-siyasi dəstəyin davamı olaraq quruculuq işlərində də qardaş ölkənin yaxından iştirakının önəmini vurğulamışlar.

# Türkiyə Respublikası İstanbul şəhər Baş Prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri başa çatıb

Türkiyə Respublikası İstanbul şəhər Baş Prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 25-də 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin və Ermənistan ordusu tərəfindən qurulmuş müdafiə sədlərinin nümayiş olunduğu “Hərbi Qənimətlər Parkı” və İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olmuş, daha sonra qonaqlar Heydər Əliyev Mərkəzinə gedərək orada sərgilənən eksponatlara baxmışlar.



Noyabrın 26-də İstanbul şəhər Baş Prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri başa çatmış və nümayəndə heyəti Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola salınmışdır.















# Ərazilərin azad olunmasından dərhal sonra biz

**genişmiqyaslı yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var.**




- Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır.
- Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaqdır.
- Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib. Azad edilmiş ərazilərin təsdiq edilmiş potensialı 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev · presidentaz
azpresident · presidentaz

## Ukraynanın Baş prokuroru İrina Venediktovanın dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 30 noyabr–02 dekabr 2021-ci il tarixlərində Ukraynada işgüzar səfərdə olub





Nümayəndə heyətini səmimi salamlayan Baş prokuror İrina Venediktova noyabrın 30-da ölkəmizdə baş vermiş helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı başsağlığını bildirib, həlak olanların ailə üzvlərinə səbr diləyib, yaralananların tezliklə sağalmasını arzulayıb.

Kamran Əliyev ukraynalı həmkarına başsağlığına görə minnətdarlığını bildirib. Keçirilmiş ikitərəfli görüşdə Baş prokuror səmimi qəbula görə təşəkkürünü bildirərək ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən mehriban dostluq münasibətlərinin mövcudluğunu vurğulamaqla bu münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyini qeyd etdi. Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat vermişdir.

Həmçinin görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən yetkinlik yaşına çatmamış şəxslər barəsində cinayət mühakiməsinin aparılması, nifrət zəminində törədilmiş cinayətlər, məişət zorakılığı, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, korrupsiya cinayətləri, habelə prokurorluq fəaliyyətinin rəqəmsallaşdırılması mövzuları üzrə səmərəli fikir mübadiləsi aparıldı.





Görüşdə əlaqələrin gələcək konturlarını müəyyən edən "Azərbaycan Respublikasının Baş Prokurorluğu və Ukrayna Baş prokurorunun Ofisi arasında əməkdaşlıq haqqında Razılaşma" imzalandı.

Daha sonra Ukrayna Prezidenti Volodimir Zelenskinin iştirakı ilə Ukrayna prokurorluğunun yaradılmasının 30 illiyinə həsr olunmuş yubiley tədbiri keçirildi.

Tədbir çərçivəsində «Kleptokratiya və qanunsuz maliyyə axımları» mövzusunda Beynəlxalq Antikorrupsiya Forumu öz işinə başladı. Forumda çıxış edən Baş prokuror dövlət başçısının siyasi kursuna uyğun olaraq
















ölkəmizdə korrupsiyaya qarşı aparılan hüquqi və institusional tədbirlər, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rolu barədə məlumat verərək, cinayət yolu ilə əldə olunmuş əmlakın müsadirəsi və bərpası sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini vurğuladı.

Forum çərçivəsində Litva, Bolqarıstan, Estoniya və sair ölkələrin baş prokurorları, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşlər keçirildi, mövcud əlaqələr və gələcək əməkdaşlıq perspektivləri müzakirə edildi.

Səfər çərçivəsində nümayəndə heyəti tərəfindən Kiyevdə xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin adını daşıyan park ziyarət edildi, abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad olundu.





# Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir






Dekabrın 11-də Baş Prokurorluqda Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

İlk öncə Baş Prokurorluğun rəhbərliyi Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad etmiş, məzarı önünə gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə tər çiçəklər düzülmüşdür.

Daha sonra Baş Prokurorluğun inzibati binasında baş tutmuş mərasimdə çıxış edən Baş prokuror diqqətə çatdırmışdır ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında, onun müstəqilliyinin, ölkəmizin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, dövlətçilik tarixində müstəsna xidmətləri əvəzedilməz və danılmazdır.

Bildirilmişdir ki, Azərbaycan dövlətinin banisi Heydər Əliyev bütün ömrü boyu Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır.







Qeyd edilmişdir ki, Ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyunun 15-də hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu qondarma Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli məqsədilə mötəbər hüquqi bazanın yaradılmasında, eləcə də BMT-nin və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ölkəmizin ərazi bütövlüyünün tanınmasına dair müvafiq qətnamələrin qəbul edilməsində mühüm rol oynamışdır.

Qürurla bildirilmişdir ki, həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən dahi şəxsiyyət Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olunmuşdur.

Çıxışının yekununda böyük minnətdarlıq hissi ilə Baş Prokuror

qeyd etmişdir ki, Ulu öndərin siyasi, iqtisadi, ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatlar, beynəlxalq sahədə gördüyü tədbirlər tarixə qızıl hərflərlə həkk olunmuş bugünkü zəfərin əldə edilməsinə yönəlmişdir.

Bundan sonra Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev "Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafında Ulu öndər Heydər Əliyevin rolu" mövzusunda çıxış etmişdir.

Anım mərasiminin iştirakçıları və Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun müəyyən etdiyi siyasi kursa və strateji inkişaf konsepsiyasına daim sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.







# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş yüksək səviyyəli sessiyasında iştirak etmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qəti siyasi iradəsinə uyğun olaraq prokurorluq orqanları tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində mövcud kompleks tədbirlərin ayrılmaz tərkib hissəsi olan beynəlxalq əməkdaşlıq əlaqələri daim inkişaf etdirilməkdədir.








Dekabrın 13-də Misir Ərəb Respublikasının Şarm-əl-Şeyx şəhərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Assembleyasının 9-cu Sessiyası öz işinə başlamışdır.

192 dövlətin hökumət başçıları, ali dövlət rəsmiləri və 15 nüfuzlu beynəlxalq təşkilatın rəhbər şəxslərinin bir araya gəldiyi tədbirdə sözügedən konvensiyanın üzv ölkələrdə icra vəziyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər və bu kontekstdə reallaşdırılan islahatlar, eləcə də ortaya çıxan problemlərin həlli yolları müzakirə edilmişdir.

Hibrid formatda keçirilmiş tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi Prokurorluq, Xarici İşlər və İqtisadiyyat nazirliklərinin əməkdaşlarından ibarət nümayəndə heyəti əyani, habelə video-konfrans formatında təmsil etmişlər.

Konfransda çıxış edən Kamran Əliyev korrupsiyaya qarşı mübarizədə əldə edilmiş milli təcrübənin spesifik xüsusiyyətlərini müxtəlif aspektlər üzərindən diqqətə çatdıraraq, mövcud siyasi iradəyə uyğun şəkildə ölkəmizdə icra edilmiş instusional və hüquqi yeniliklərdən bəhs etmiş, cinayət-hüquqi icraatlarda əmlak müsadirəsi və vurulmuş ziyanın ödənilməsi mexanizminin təkmilləşdirilməsinə dair nümunələr göstərmiş, bütün bunların balanslı anti-korrupsiya siyasətinin gələcək inkişafı üçün əlverişli zəmin yaratdığını bildirmişdir.

Eyni zamanda, çıxışında zəfərlə nəticələnən haqq mübarizəmizə toxunan nümayəndə heyətinin rəhbəri ötən il işğal altında olan ərazilərimizin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən azad edilməsi ilə Azərbaycanın qarşısında yeni inkişaf mərhələsinin açıldığını, belə ki, xarici və yerli investorların yeni infrastruktur layihələrinə cəlb edildiyi həmin ərzilərdə şəffaflıq və korrupsiyadan azad mühit kimi komponentlərin tam bərqərar edildiyini vurğulamışdır.









Dekabrın 14-də sessiya çərçivəsində Azərbaycan nümayəndə heyətinin təşkilatçılığı ilə "İanə toplanması fəaliyyətlərinin korrupsiya və digər cinayətkarlıq məqsədləri üçün sui-istifadəsi" adlı xüsusi tədbir baş tutmuşdur. Panel müzakirə formatında hibrid əsasda keçirilən tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) yüksək vəzifəli rəsmisi Tim Steele açılış nitqi ilə çıxış etmişlər.

Ölkəmizin korrupsiyaya qarşı mübarizədə növbəti dörd il üçün hazırlanan hədəfli milli fəaliyyət planından danışan Baş prokuror, bu istiqamətdə aparılan preventiv və cəza tədbirləri haqda məlumat vermişdir. Kamran Əliyev korrupsiyaya qarşı mübarizə və onun tərkib hissəsi olan aktivlərin bərpası sahələrində beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayaraq, müxtəlif beynəlxalq alətlərin və ikitərəfli qaydada əlaqələrin genişlənməsinin əhəmiyyətini vurğulamışdır.

Baş prokuror xüsusilə qeyd etmişdir ki, ölkəmiz ianə toplanması fəaliyyətinin cinayətkarlıq məqsədləri ilə istifadə olunması faktı ilə də üzləşmişdir. Belə ki, 44 günlük Vətən müharibəsi dövründə erməni mənşəli fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycanın suveren ərazilərində terrorçu fəaliyyətin həyata keçirilməsi məqsədilə 100 milyon ABŞ dollardan artıq qanunsuz vəsait toplanmışdır. Bununla bağlı Baş Prokurorluq tərəfindən araşdırmalar aparılaraq müvafiq sübutlar əldə edilmişdir.

Daha sonra tədbir panel müzakirələri ilə davam etmişdir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq təhlükəsizlik idarəsinin rəisi Yalçın Rəfiyev ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatı adından çıxış edərək Hərəkat üzvlərinin korrupsiyanın qarşısının alınmasında və korrupsiyaya qarşı mübarizədə BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına verdiyi önəm, korrupsiyanın təhlükəsizlik, davamlı inkişaf və insan hüquqlarının qorunmasına mənfi təsiri, eləcə də innovativ yanaşmalar və texnoloji yeniliklərdən istifadə ilə korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti barədə konfrans iştirakçılarını məlumatlandırmışdır.

İclasda panelist qismində iştirak edən tanınmış beynəlxalq mütəxəssislər, o cümlədən UNODC-nin korrupsiyaya qarşı mübarizə üzrə eksperti Vladimir Kozin, Böyük Britaniyanın Greenacre QHT-sinin həm-təsisçisi Ben Evans, Qeyri-kommersiya hüququ üzrə Avropa Mərkəzinin vitse-prezidenti Natalia Bourjalia və Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Departament direktoru Fuad Əliyev bəzi xeyriyyə fondları və digər qeyri-kommersiya təşkilatları tərəfindən həyata keçirilən ianə toplanması kampaniyalarının korrupsiya və digər cinayətkarlıq məqsədlərinə xidmət etdiyini vurğulamış və bu cür halların qarşısının alınması üçün BMT üzv dövlətlərinə praktiki tövsiyələrin hazırlanmasını təklif etmişlər.

Bu xüsusda, Azərbaycan nümayəndəsi tərəfindən 44 günlük Vətən müharibəsi dövründə xaricdə fəaliyyət göstərən erməni diaspor təşkilatları tərəfindən humanitar fəaliyyət adı ilə erməni əsilli şəxslərdən toplanan böyük həcmdə vəsaitin korrupsiya və digər cinayətkarlıq məqsədləri üçün sui-istifadə edildiyinə diqqət çəkildi.

Tədbirdə BMT üzv dövlətlərinin, beynəlxalq QHT-lərin, akademik dairələrin və beynəlxalq təşkilatların nümayəndələri fiziki və onlayn əsasda iştirak edərək panelistlərə onları maraqlandıran sualları ünvanlamışlar.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir



Dekabrın 15-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, qarşıda duran vəzifələr və digər məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilmişdir.

İclas iştirakçıları əvvəlcə Baş Prokurorluğun binasının foyesində ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoymuşlar.



Kollegiya iclasında çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun ötən ilin sentyabr ayından başlayaraq işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda apardığı haqq mübarizəsində əldə etdiyi möhtəşəm qələbənin uzun illər ərzində davam edən münaqişəyə son qoyaraq ölkəmizin regional liderliyini birmənalı təsbit etməklə yeni geosiyasi reallıqlar yaratdığını vurğulamışdır.

Həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əlievin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirildiyi, şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə iştirakçılarının Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə əhatə olunduğu diqqətə çatdırılmışdır.

Kollegiya iclasında ölkəmizdə pandemiyaya qarşı mübarizə sahəsində dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən tədbirlərin əhəmiyyəti vurğulanmaqla son günlərdə ölkədə sağalanların sayının artması ilə yanaşı vaksinasiyanın uğurla aparılması nəticəsində əhalimizin çox hissəsinin peyvənd olunduğunu bildirilmiş, COVID-19 infeksiyasının Azər-









baycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilmişdir.

Ötən Kollegiya iclasından keçən müddətdə bir çox ölkələrin Baş prokurorlarının rəhbərlik etdikləri nümayəndə heyətlərinin, beynəlxalq təşkilat və qurumların rəhbərlərinin ölkəmizə işgüzar səfərlərinin önəmi barədə iclas iştirakçılarına məlumat verilmişdir.

İclasda Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanı ilə yaradılmış "Elektron prokurorluq" informasiya sisteminin tətbiqindən irəli gələn vəzifələrin icrası ilə əlaqədar Baş Prokurorluq üzrə yaradılmış İşçi qrup tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələrə dair Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Normativ hüquqi aktların rəsmi şərhinin verilməsinə dair Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilən sorğuların və qanunvericilik təşəbbüsü qaydasında hazırlanan qanun layihələri ilə bağlı Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, Vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə cinayət və cinayət-prosessual hüquq normalarının tətbiqi vəziyyətinin ümumiləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilən sorğularla bağlı Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi Orxan İsayev, "Prokurorluq orqanlarının sosial media siyasəti haqqında" Təlimatın layihəsi ilə bağlı Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi və həmçinin Prokurorluğa qulluğa qəbul barədə 31 may 2021-ci il tarixdə elan olunmuş müsabiqə üzrə müəyyən edilmiş yerlərin sayının artırılması ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış etmişlər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirmişlər.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli tərəqqisi istiqamətində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə etmişdir.

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Baş prokuror veteran və pensiyaya çıxmış prokurorluq əməkdaşları ilə görüşmüşdür



22 aprel 2021-ci il tarixdə 24 nəfərdən ibarət Azərbaycan Respublikası prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri tərəfindən yığıncaq keçirilərək "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" ictimai birliyinin təsis edilməsi barədə qərar qəbul olunmaqla, yığıncaqda birliyin İdarə heyəti formalaşdırılaraq hüquqi ünvanı müəyyən edilmişdir.

Dekabrın 28-də Baş Prokurorluğun rəhbərliyi ilə "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" ictimai birliyinin idarə heyətinin üzvləri və prokurorluğun digər veteranları arasında görüş keçirilmişdir.

Görüş iştirakçıları əvvəlcə Baş Prokurorluğun binasının foyesində ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoymuşlar.

Tədbirin əvvəlində ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, qazilərə şəfa dilənmişdir.

Tədbirdə çıxış edən Kamran Əliyev birliyin İdarə heyətini və onların ailə üzvlərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik etmiş, onlara sağlam və xoşbəxt həyat arzulamışdır.

Baş Prokuror Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun ötən ilin sentyabr ayından başlayaraq işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda apardığı haqq mübarizəsində əldə etdiyi möhtəşəm qələbənin uzun illər ərzində davam edən münaqişəyə son qoyaraq ölkəmizin regional liderliyini birmənalı təsbit etməklə yeni geosiyasi reallıqlar yaratdığını vurğulamışdır.

Həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad





olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirildiyi, şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə iştirakçılarının Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə əhatə olunduğu diqqətə çatdırılmışdır.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəal hüquq mühafizə siyasəti və yüksək dövlət qayğısı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirildiyi, infrastrukturunun yaxşılaşdırıldığı vurğulanmış, prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar, əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verilmişdir.

Tədbirdə Baş Prokurorluğun rəhbərliyi tərəfindən veteran və pensiyaya çıxmış prokurorluq işçilərinə daimi diqqətin əsas prioritet məsələlərdən biri olduğu qeyd edilməklə, Birliyin fəaliyyəti nəticəsində bundan sonra da veteran və pensiyaya çıxmış işçilərin hər cür sosial və məişət problemlərinə xüsusi qayğının göstəriləcəyinə əminlik ifadə olunmuşdur.

Təbrikə görə prokurorluğun veteran və pensiyaçıları adından minnətdarlığını bildirən Birliyin sədri Seyfulla Aslanov ölkəmizdə möhkəm təməllər üzərində qurulmuş ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında fəal iştirak edərək prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində fəallıq göstərəcəklərini ifadə etmiş, bundan sonra da prokurorluğun fəaliyyətində səmərəliliyinin artırılması və ölkədə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində iştirak edəcəklərini vurğulamışdır.

Tədbirdə həmçinin Mircavan Kazımov, Ruslan Hacıyev, Elxan Əsgərov, İlham Məmmədov, Zahid Vəliyev, Roza Şıxsəidova və prokurorluğun digər veteranları da çıxış edərək bu kimi görüşlərin gələcəkdə də keçirilməsinin zəruriliyini qeyd etmişlər.

Sonda xatirə fotoşəkli çəkdirilmişdir.






# GENİŞMİQYASLI İSLAHATLAR NƏTİCƏSİNDƏ

Son 18 ildə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, **ümumdaxili məhsul üç dəfədən çox artmışdır.**

Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. **Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir.**

**Bizim strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur.** Azərbaycanın xarici borcu ölkənin ümumdaxili məhsulunun sadəcə 17,3 faizini təşkil edir. Biz 2030-cu ilin sonuna qədər bu rəqəmi 10 faizə endirməyi planlaşdırırıq.

Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enib. **Ölkədə işsizlik təqribən 6 faiz səviyyəsindədir.**

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində dövlət ittihamçıları üçün qısamüddətli kurs təşkil edilib







Azərbaycan Respublikası Baş Prokurorluğun 2021-ci ilin ikinci yarımilliyinə dair Fəaliyyət Planının 20-ci bəndinə əsasən Elm-Tədris Mərkəzində dövlət ittihamçıları üçün "Vahid məhkəmə təcrübəsi: hüquq normalarının tətbiqinə sabit yanaşmada dövlət ittihamının əhəmiyyəti" mövzusu üzrə qısamüddətli kurs təşkil edilmişdir.

Azərbaycan Respublikası Baş prokurorunun 04.10.2021-ci il tarixli 16 №-li Sərəncamına uyğun olaraq bu tədbir dinləyiciləri iş yerindən ayırmadan, günün ikinci yarısında distant formada canlı vaxt rejimində carı ilin oktyabr ayının 11-dən 15-dək həyata keçirilmişdir. Kursda təlimçi qismində Mərkəzin və Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin işçiləri iştirak etmiş, təlimlərdə təhlil materiallarından və müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə olunmuş, eləcə də tədris edilmiş məşğələlərin elektron mətni dinləyicilərə təqdim edilmişdir.

Kurs çərçivəsində dinləyicilərə "Vahid məhkəmə təcrübəsi və bu təcrübənin formalaşmasında prokurorluq orqanlarının rolu", "Müxtəlif hüquq sistemlərində vahid məhkəmə təcrübəsi və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi", "Cinayət işinin baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması zamanı hazırlıq iclasının hədlərindən çıxan məsələlərə istinad olunması halları", "Qanuni qüvvəyə minmiş bəraət hökmlərində sübutların qiymətləndirilməsinə dair qanun normalarının, elmi-nəzəri və metodiki biliklərin tətbiqi metodikası", "Ayrı-ayrı cinayət işləri üzrə məhkəmə təcrübəsində maddi və prosessual hüquq normalarının tətbiqində fərqli yanaşmalar" və sair mövzular üzrə PowerPoint proqramı vasitəsilə hazırlanmış təqdimatların müşayiəti ilə məşğələlər keçirilmişdir.

Kursa dinləyici qismində cəlb edilmiş 17 nəfər dövlət ittihamçısı məşğələlər zamanı tədris olunan materiallara maraq göstərmiş, təlimçilərlə ünsiyyətdə aktiv olmuş, kursların yekunu üzrə müzakirələr zamanı əldə etdikləri bilik və bacarıqlardan razı qaldıqlarını bildirmişlər. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə əsasən işçinin tutduğu vəzifəyə uyğun olub-olmaması, mükafatlandırılması və vəzifədə irəli çəkilməsi məsələlərinin həlli zamanı onun təhsilə münasibəti, nəzəri və peşə hazırlığı nəzərə alındığı üçün, kurslarda dinləyici qismində iştirak etmiş prokurorluq işçiləri barədə məlumatları onların şəxsi işlərinə əlavə edilməsi məqsədilə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 248.4-cü bəndinə uyğun olaraq Baş Prokurorluğun Kadrlar idarəsinə göndərilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun və MEDİA-nın birgə təşkilatçılığı ilə “Media və hüquqi maarifləndirmə” mövzusunda tədbir keçirilib








Ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvatlaşdırılması, o cümlədən prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlığın, hesabatlılığın və şəffaflığın təmin olunması məqsədilə mühüm əhəmiyyətli tədbirlər davam etdirilir.

Bu tədbirlərin davamı kimi, prokurorluq orqanları ilə kütləvi informasiya vasitələri arasında işgüzar əlaqələrin möhkəmləndirilməsini, fəaliyyət istiqamətləri üzrə keyfiyyət və səmərəliliyin daha da artırılmasını, habelə məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə oktyabrın 13-də Baş Prokurorluğun inzibati binasında “Media və Hüquqi Maarifləndirmə” mövzusunda tədbir keçirilmişdir.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Baş prokurorun müavini Heydər Məmmədov tədbiri açıq elan edərək qonaqları salamlamışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarımızın 44 gün ərzində yenilməz Azərbaycan Ordusu tərəfindən azad olunmasından söz açan Baş prokurorun müavini, qısa müddətdə həmin bölgələrdə həyata keçirilən infrastrukturun bərpası ilə bağlı quruculuq işlərinin sürətlə davam etdirildiyini, I və II Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, qazilərə və veteranlara xüsusi dövlət qayğısının göstərildiyini vurğulamış, daha sonra Heydər Məmmədov, iştirakçılara prokurorluq orqanlarında həyata keçirimiş müasir məzmunlu islahatlar barədə məlumat vermişdir.

Prokurorluq orqanları və kütləvi informasiya vasitələri arasında mövcud işgüzar əlaqələrdən bəhs edən Heydər Məmmədov media ilə kommunikasiyanın gücləndirilməsinin zəruriliyi vurğulamış, zamanın tələbinə uyğun olaraq prokurorluq orqanlarının sosial media fəaliyyətinin gücləndirilməsi istiqamətində mühüm addımlarım atıldığını, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ






şəkildə çatdırılmasının əhəmiyyətli olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Tədbir zamanı çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Baş Prokurorluq və Medianın İnkişafı Agentliyi arasında mövcud sıx əməkdaşlıqdan məmnunluğunu bildirərək prokurorluq əməkdaşlarının iştirakı ilə gələcəkdə də dəyirmi masa və görüşlərin təşkilinin əhəmiyyətli olacağını qeyd etmişdir.

Media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac olduğunu qeyd edən Əhməd İsmayılov dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında kommunikasiyanın modern tələblər səviyyəsinə çatdırılması ilə bağlı kompleks tədbirlər görüldüyünü, prokurorluq orqanlarının bu fəaliyyətdə aktiv iştirak etdiyini nəzərə çatdırmışdır.

Mərasim zamanı Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə “Prokurorluq orqanları ilə kütləvi informasiya vasitələri arasında mövcud münasibətlər və perspektivlər”, Medianın İnkişafı Agentliyinin Hüquq və insan resurslarının idarə edilməsi departamentinin direktoru Rəqsanə Kərimova “İstintaq prosesinin mediada obyektiv işıqlandırılması və balanslı təqdimatı” mövzusunda çıxışlar etmişdir.

Tədbir zamanı, həmçinin, Baş Prokurorluq və Medianın İnkişafı Agentliyinin ilk birgə layihəsi olan “Media və Hüquqi Maarifləndirmə” vəsaiti Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov tərəfindən iştirakçılara təqdim edilmişdir.

Daha sonra prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulması ilə bağlı fikir mübadiləsi aparılmış, iştirakçılar tərəfindən mühüm təkliflər səsləndirilməklə, bu məzmunlu tədbirlərin informasiya mübadiləsində mühüm irəliləyişlərə səbəb olacağı qeyd edilmişdir.

Sonda xatirə fotoşəkli çəkdirilmişdir.



# Baş Prokurorluğun əməkdaşları forumda iştirak etmişlər






Baş Prokurorluğun əməkdaşları oktyabrın 19-da Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Azərbaycanda reklam bazarı: Mövcud vəziyyət və perspektivlər" mövzusunda keçirilən forumda iştirak etmişlər.



# Baş Prokurorluğun əməkdaşları 1-ci Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı - Rebuild Karabakh" adlı sərgidə olublar








Ölkəmizdə uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, onlara peşə vərdişlərini aşılamaq və praktiki biliklərini artırmaq, yaradıcı və innovativ potensialının inkişaf etdirilməsini dəstəkləmək məqsədilə prokurorluq orqanlarında kompleks tədbirlər həyata keçirilir.

Bununla yanaşı, Respublika Baş Prokurorluğu tərəfindən milli ruhlu kadrların yetişdirilməsi, gənclərin mənəvi-estetik dünyagörüşünün formalaşdırılması, onların milli-mənəvi dəyərlərimiz haqqında maarifləndirilməsi kimi məsələlər də xüsusilə diqqət mərkəzində saxlanılır.

Oktyabrın 22-də "Bakı Ekspo Mərkəzi"-ndə Qarabağ Dirçəliş Fondu, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə keçirilmiş 1-ci Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı- Rebuild Karabakh” adlı sərgisinə prokurorluq əməkdaşlarının ziyarəti təşkil olunub.

Dövlət qurumları və həm yerli, həm də xarici şirkətlərdən ibarət olan sərgi iştirakçıları Qarabağ ərazisində həyata keçirməyi planlaşdırdıqları və artıq həyata keçirdikləri layihələri, eləcə də regionu təmin etmək üçün çatdırmağa hazır olduqları məhsulları, habelə, yerli istehsalın təşkili, infrastruktur obyektlərinin inşası üzrə planları və s. bir platformada təqdim etmək üçün unikal imkan qazanıblar.

Sərginin əsas sektorları arasında banklar və investisiyalar, təhlükəsizlik, hasilat sənayesi, səhiyyə, informasiya texnologiyalar, təhsil, qida sənayesi, kənd təsərrüfatı, inşaat, yol tikintisi və infrastruktur, nəqliyyat, turizm və mədəni irs, energetika və ekologiya sektorları yer alıblar.

İştirakçılara məlumat verilib ki, sərgidə təqdim olunmuş sektorların müxtəlifliyi bu tədbiri xüsusən əhəmiyyətli edir və Qarabağda birgə layihələrin həyata keçirilməsi üçün müxtəlif sənaye nümayəndələri arasında yeni müqavilələrin imzalanmasına şərait yaradır.

Qarabağda həyata keçiriləcək yenidənqurma və bərpa işləri ilə vizual tanış olan prokurorluq əməkdaşları Qarabağın gözəl gələcəyinin xoş təəssüratları ilə oradan ayrılmışlar.






# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) "Şahid Dindirmə Müsabiqəsinin" hazırlıq (təlim) mərhələsi keçirilmişdir







Gənc hüquqşünasların hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq onlarda cinayət, cinayət-prosessual hüquq sahəsində hüquqi biliklərin artmasına, praktiki bacarıqlarının formalaşmasına töhfə verilməsi, eləcə də prokurorluq orqanları ilə hüquq ictimaiyyəti, ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə Baş Prokurorluq tərəfindən ardıcıl tədbirlər davam etməkdədir.

Bu tədbirlərin davamı olaraq, 23 oktyabr 2021-ci il tarixdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyi tərəfindən təşkil olunan, dindirmə prosesinin simulyasiyasını nəzərdə tutan "Şahid Dindirmə Müsabiqəsinin" hazırlıq (təlim) mərhələsi keçirilmişdir.

"Şahidi dindirmə prosesi" mövzusunda təşkil edilən təlimdə dinləyici qismində Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və "ADA" Universitetinin hüquq fakültələrində təhsil alan tələbələr iştirak etmişlər.

Təlim zamanı müvafiq sahələr üzrə ixtisaslaşmış və təcrübəsi olan Baş Prokurorluğun əməkdaşları tərəfindən dinləyicilərə təlimlər keçirilmiş və onları maraqlandıran suallar cavablandırılmışdır.

Təlimin sonunda iştirakçılara müvafiq sertifikatlar verilmiş, təlimçilərə isə təşəkkürnamə təqdim olunmuşdur.






# Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Korrupsiya və şəffaflıq” işçi qrupunun növbəti iclası keçirilmişdir







Oktyabrın 29-da Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Korrupsiya və şəffaflıq” işçi qrupunun “Zoom” onlayn platforması vasitəsilə növbəti iclası keçirilmişdir.

Qlobal pandemiya statusu olan COVID-19 virusu ilə əlaqədar onlayn platforma qaydasında təşkil edilən iclasda Azərbaycan Respublikasının Baş Prokurorluğu, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Hesablama Palatası, “Şəffaflıq–Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə” İctimai Birliyi, “Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyi, “PricewaterhouseCoopers Azerbaijan”, “Deloitte Azerbaijan”, “Ekvita” şirkətləri və “KPMG Azərbaycan Limited”, “Azercell”, “Azerconnect”, “Agro Diary” MMC-lərinin nümayəndələri iştirak etmişlər.

İşçi qrupunun rəhbəri – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyevin giriş nitqi ilə başlayan iclasda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Azranking.az” portalının təqdimatı keçirilmiş, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev tərəfindən portalın funksionallığı və mövcud platformaları barədə ətraflı məlumat verilmişdir.

İclasın gündəliyinə uyğun olaraq, aidiyyəti qurumların nümayəndələri tərəfindən “Özəl sektorda korporativ idarəetmə qaydalarının tətbiqi” mövzusu üzrə çıxışlar edilmiş, işçi qrupunun ötən iclasının protokolu ilə qərara alınmış tədbirlərin icra vəziyyəti barədə məlumat verilmiş, eləcə də işçi qrupun yeni üzvləri olan özəl sektor nümayəndələrinin təqdimatı həyata keçirilmişdir.

Qarşılıqlı müzakirələr formatında keçən görüşün sonunda İşçi qrupun 2022-ci il üçün Fəaliyyət Planının layihəsinin hazırlanmasına dair fikir mübadiləsi aparılmış, layihənin ötən illər üzrə fəaliyyət planlarının icrası zamanı əldə edilmiş təcrübə nəzərə alınmaqla müasir yanaşmaların tətbiqi ilə formalaşdırılmasının əhəmiyyəti qeyd edilmişdir.

# Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzində prokurorluq əməkdaşlarının iştirakı ilə təlim keçirilmişdir



Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi arasında birgə əməkdaşlıq haqqında memoranduma əsasən, 2021-ci il oktyabr ayının 12-dən 21-dək müddətdə DVX-nin Tədris Mərkəzində Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin əməkdaşları üçün “Aktivlərin qiymətləndirilməsi və onların xüsusiyyətləri” mövzusunda təlim keçirilmişdir.

Təlim Tədris Mərkəzinin, Əmlak Məsələləri Dövlət Xidməti yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin, qiymətləndirmə üzrə beynəlxalq sertifikata malik mütəxəssislər tərəfindən aparılmışdır.

Aktivlərin qiymətləndirilməsi və onun xüsusiyyətlərini kompleks şəkildə özündə əks etdirən proqram əsasında həyata keçirilmiş təlimin modulu qiymətləndirmənin normativ əsası, əsas növləri, standartları, qiymətləndirmə mühiti və obyekti, qiymətləndirmədə tətbiq olunan metod və yanaşmalar, biznesin qiymətləndirilməsi və sair bu kimi aktual mövzuları əhatə etmişdir.

Təlimi müvəffəqiyyətlə başa vurmuş Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin əməkdaşlarına 2021-ci il oktyabrın 27-də müvafiq şəhadətnamə təqdim edilmişdir.

# "Davam" Gənc Hüquqşünaslar Klubunun üzvləri Baş Prokurorluğun yeni inzibati bina kompleksi ilə tanış olmuşlar

Gənc hüquqşünaslarda cinayət, cinayət-prosessual hüquq sahələrində hüquqi biliklərinin artmasına, praktiki bacarıqlarının formalaşmasına töhfə verilməsi, eləcə də prokurorluq orqanları ilə hüquq ictimaiyyəti arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə Baş Prokurorluq tərəfindən müvafiq tədbirlərin görülməsi davam etməkdədir.

Bu tədbirlər çərçivəsində cari ilin 4 noyabrında "Davam" Gənclər Hərəkatının nəzdində olan "Davam" Gənc Hüquqşünaslar Klubu üzvlərinin Baş Prokurorluğun yeni inzibati bina kompleksinə tanışlıq səfəri təşkil edilmiş, əyani şəkildə onlara prokurorluğunun fəaliyyəti ilə bağlı ətraflı məlumatların verilməsi təmin olunmuşdur.

Qeyd edilməlidir ki, "Davam" Gənc Hüquqşünaslar Klubunun məqsədi həm gənc hüquqşünasları, həm də qeyri-hüquq ixtisasında olan gəncləri Azərbaycanın hüquq sistemi ilə tanış etmək və onları bu sahə ilə bağlı maarifləndirməkdir.

Qonaqlar ilk öncə yeni inzibati binada Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş guşə və kitabxana ilə yaxından tanış olmuşlar.

44 günlük Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, Elm-Tədris Mərkəzinin mühazirə, praktiki məşğələlər və iclas zalları, kriminalistika otaqları ilə tanışlıq qonaqlarda zəngin təəssüratlar yaratmışdır.

Daha sonra Hərəkatın üzvləri cinayət prosesi iştirakçılarının dindirilməsi üçün nəzərdə tutulmuş, müasir tələblərə cavab verən dindirmə otaqları, cinayət prosesual qanunvericiliyin tələblərinə müvafiq olaraq tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tanınmanı vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı ilə tanış olmuşlar.

Tanışlıq səfəri çərçivəsində qonaqlara prokurorluq orqanlarının əsas fəaliyyət istiqamətləri, həyata keçirilən islahatlar, habelə qarşıda duran prioritet məqsədlər barədə ətraflı məlumat verilmişdir.

Tədbirin yekununda xatirə fotoşəkili çəkilmişdir.











# Baş Prokurorluğun əməkdaşları Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilmiş sənədli filmlərin təqdimatında iştirak etmişlər

Noyabrın 5-də Baş Prokurorluğun əməkdaşları Heydər Əliyev Sarayında keçirilmiş Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi, "Azərbaycanfilm" və "Salnaməfilm" kinostudiyalarının birgə istehsal etdiyi "Biz" və "Şuşa sən azadsan!" sənədli filmlərinin təqdimatında iştirak etmişlər.





# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Şahid Dindirmə Müsabiqəsinin" final mərhələsi keçirilmişdir

Gənc hüquqşünasların hüquqi biliklərinin artmasına, habelə praktiki bacarıqlarının formalaşmasına töhfə verilməsi məqsədilə Baş Prokurorluq tərəfindən ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Bu tədbirlərin davamı olaraq, 05 noyabr 2021-ci il tarixdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyi tərəfindən təşkil olunan "Şahid Dindirmə Müsabiqəsinin" final mərhələsi keçirilmişdir.

Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və "ADA" Universitetinin hüquq fakültələrində təhsil alan tələbələrin iştirakı ilə 34 komanda arasında keçirilən müsabiqənin ilkin və yarımfinal mərhələlərində qalib olmuş iki komanda müsabiqənin final mərhələsində iştirak etmişdir.

Müsabiqənin final mərhələsinə həmçinin, Baş Prokurorluğun təcrübəli əməkdaşları hakim qismində cəlb edilmiş və müsabiqə iştirakçılarının fəaliyyəti onlar tərəfindən qiymətləndirilmişdir.

Əvvəlcədən hazırlanmış cinayət və cinayət-prosessual sahələr üzrə kazus əsasında iki nəfərdən ibarət müstəntiq qismində çıxış edən komandalarla xəyali şahid arasında cinayət işi üzrə həqiqətin üzə çıxarılması üçün əhəmiyyətli olan hallara dair məlumatların şahiddən alınması və cinayətin təsvirinin verilməsi məqsədi ilə həyata keçirilən dindirmə prosesinin simulyasiyasını nəzərdə tutan müsabiqənin sonunda qiymətləndirmə nəticəsində verilmiş yekun bala əsasən qalib komanda müəyyənləşdirilmişdir.





Tədbirin sonunda qalib komandanın üzvləri mükafatlandırılmış və onlara sertifikatlar verilmiş, eyni zamanda müsabiqəyə hakim qismində cəlb edilmiş Baş Prokurorluğun əməkdaşlarına təşəkkürnamə təqdim olunmuşdur.





# Prokurorluq əməkdaşları “Zəfər” Yarmarkasında olub

Prokurorluq orqanlarında milli ruhlu kadrların yetişdirilməsi, gənclərin mənəvi-estetik dünyagörüşünün formalaşdırılması, onların milli-mənəvi dəyərlərimiz haqqında maarifləndirilməsi kimi məsələlər də xüsusilə diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə həyata keçirilən kompleks tədbirlərin davamı olaraq, noyabrın 6-da Baş Prokurorluğun əməkdaşlarının Dənizkənarı Milli Parkda Vətən müharibəsində qazanılan qələbəyə həsr olunan “YAŞAT” Fondunun “Zəfər” Yarmarkasına səfəri təşkil edilmişdir.

“Qarabağ qəhrəmanlarının izi ilə” mövzusunda təşkil edilmiş Yarmarkada prokurorluq əməkdaşları Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi uğrunda gedən döyüşlərdə istifadə olunmuş hərbi texnikalar, Müdafiə Nazirliyinin təqdim etdiyi çadırlarda təqdim olunan müxtəlif silah-sursat nümunələri,






Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi olmalıdır.
Üçtərəfli Bəyanatda aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir.
Bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də, Zəngəzur dəhlizində də gömrük olmamalıdır.
Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
#WEARENATO
NATO
OTAN









hərbi geyim və hərbçilərin qida təminatı ilə yaxından tanış olmuşdur.

Zəfərin qazanılmasında mühüm amillərdən olan birliyimizi və həmrəyliyimizi bir daha nümayiş etdirmək, xalqımıza qürur və qələbə sevinci yaşadanlara arzuların çatdırılması məqsədilə təşkil olunmuş "#ZəfərArzuları" adlı guşədə prokurorluq əməkdaşları öz arzularını müəyyən olunmuş lövhəyə yazmışlar.

29 oktyabr - 9 noyabr tarixini əhatə edəcək Yarmarka prokurorluq əməkdaşlarının böyük marağına səbəb olmuşdur.

Sonda xatirə fotoşəkli çəkdirilmişdir.






## Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçiləri üçün qısamüddətli təlim təşkil edilib





Azərbaycan Respublikası Baş prokurorunun 10.11.2021-ci il tarixli 17 №-li Sərəncamına əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçiləri üçün cari ilin noyabr ayının 15-dən 19-dək distant formada canlı vaxt rejimində "Vergi hüquqpozmaları üzrə məhkəməyədək icraat zamanı sübutların əldə olunmasının, yoxlanılmasının və rəsmiləşdirilməsinin aktual problemləri" mövzusunda növbəti təlim təşkil edilmişdir.

Tədbirə təlimçi qismində Mərkəzin işçiləri ilə yanaşı, Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının, habelə Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarələrinin əməkdaşları cəlb edilmişlər. Dinləyicilərin sayı 25 nəfər olmaqla, onlar İqtisadiyyat Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin, habelə Dövlət Vergi Xidmətinin Yerli qurumların fəaliyyətinin əlaqələndirilməsi, Milli gəlirlər, Bakı şəhəri Lokal gəlirlər baş idarələrinin və Tədris Mərkəzinin işçiləri olmuşlar.

Tədbirin keçirilməsi ilə əlaqədar təlimin keçirilmə qaydası barədə dinləyicilər əvvəlcədən təlimatlandırılmış, sınaq formasında Zoom proqramından istifadə qaydası onlara izah edilmişdir. Təlimin Tədris Proqramına uyğun olaraq 16 mövzu üzrə məşğələlər keçirilmiş, tədris zamanı təhlil materiallarından və müasir informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunmuş, eləcə də tədris edilmiş əksər məşğələlərin elektron mətni təcrübədə istifadə olunması üçün dinləyicilərə təqdim edilmişdir. Həmçinin təlim çərçivəsində vahid istintaq təcrübəsinin formalaşması məqsədilə Baş prokurorun 14.09.2020-ci il tarixli 15/3 №-li Əmri ilə prokurorluq orqanlarında tətbiq edilən prosessual sənədlərin nümunəvi formalarından istifadə olunması dinləyicilərə tövsiyə edilərək, formaların prokurorluğun rəsmi saytı vasitəsilə əldə olunma qaydası onlara izah edilmişdir.

Məşğələlər zamanı dinləyicilər tədris olunan materiallara maraq göstərmişlər, təlimçilərlə ünsiyyətdə aktiv olmuşlar, təlimin yekunu üzrə müzakirələr zamanı əldə etdikləri bilik və bacarıqlardan razı qaldıqlarını ifadə etmişlər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Elektron Kitabxanası fəaliyyətə başlamışdır




Baş Prokurorluğun Elektron Kitabxanası Baş prokuror tərəfindən 22.06.2021-ci il tarixdə təsdiq edilmiş Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin iş planına əsasən hazırlanmış və Baş prokuror yanında Elmi-Məsləhət Şurasının 16.11.2021-ci il tarixli iclasında təqdimatı keçirilmişdir.

Kitabxananın yaradılması ilə əlaqədar ilk öncə ölkəmizdə və qabaqcıl xarici dövlətlərdə fəaliyyət göstərən müasir elektron kitabxanalarının quruluşu və fəaliyyət prinsipləri öyrənilmiş, Baş Prokurorluğun kitabxanasının kitab fondunda kağız formatında saxlanılan nadir nəşrlərin rəqəmli daşıyıcılara köçürülməsinə, eləcə də internet və digər vasitələrlə yeni elektron nəşrlərin əldə olunmasına start verilmişdir. Növbəti mərhələdə Mərkəzin İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektoru tərəfindən müasir tələblər və Azərbaycan Respublikası keçmiş Mədəniyyət və Turizm Nazirliyinin tövsiyə etdiyi kitabxana-biblioqrafiya təsnifatı nəzərə alınaraq, Elektron Kitabxananın texniki tapşırığı müəyyən edilmiş, onun proqram təminatı yaradılmış, interfeys dizaynı, menyusu, təsnifat bölgüsü, axtarış parametrləri və digər komponentləri müəyyənləşdirilmişdir. Baş Prokurorluğun Elektron Kitabxanası bir çox elektron kitabxanalardan aşağıdakı imkanlarına görə fərqlənir:

– nəşrlərin təsnifat bölgüsünün prokurorluğun fəaliyyətinə uyğun olması;

– nəşrlərin ətraflı axtarış sisteminin olması;

– nəşrlərin annotasiyasının və ya bütöv mətninin birbaşa oxunulması və yüklənməsi;

– nəşrlərin annotasiya mətnlərində olan sözlər üzrə və müəlliflərin soyadı üzrə nəşrlərin sistemləşdirilmiş axtarışının aparılması;

– interfeysdə son daxil edilmiş, yeni nəşr edilmiş və ən çox oxunan nəşrlərin ayrıca təsvir olunması;

– interfeysdə kitab və maarifləndirmə ilə bağlı dahi insanların sitatlarının yer alması;

– interfeysdə statistik məlumatların, o cümlədən nəşrlərin, müəlliflərin və oxucuların sayının göstərilməsi;

– interfeysdə tərəfdaş kitabxanalara və digər faydalı saytlara keçid üçün linklərin qoyulması.

Hazırda Elektron Kitabxananın bazasına artıq 400-dən çox nəşr daxil edilib və bu proses davam etməkdədir. Bu kitabxanadan prokurorluq işçiləri ilə yanaşı digər istifadəçilərin faydalanması üçün Baş Prokurorluğun rəsmi saytında ona keçid linkinin qoyulması planlaşdırılır. Kitabxanada olan idarədaxili məqsədlər üçün nəzərdə tutulmuş və istifadəsi açıq olmayan nəşrlərə buraxılış əldə olunması isə qeydiyyat proseduru əsasında həyata keçiriləcəkdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# "İşğaldan azad olunmuş ərazilərin innovativ iqtisadi inkişaf imkanları" mövzusunda elmi-praktiki konfransda prokurorluğun nümayəndəsi iştirak etmişdir



Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin Şamaxı rayonunda yerləşən kompleksində 2021-ci ilin dekabr ayının 6-da keçirilmiş "İşğaldan azad olunmuş ərazilərin innovativ iqtisadi inkişaf imkanları" mövzusunda elmi-praktiki konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Talıb Cəfərov iştirak etmişdir.

Konfrans AMEA İqtisadiyyat İnstitutu və ADA Universiteti ilə birgə təşkil olunaraq, tədbirə Milli Məclisin deputatları, dövlət qurumlarının və ali təhsil müəssisələrinin vəzifəli şəxsləri ilə yanaşı, aparıcı elm-təhsil müəssisələrinin nümayəndələri də dəvət edilmislər. Konfransın məqsədi – Azərbaycanın post-konflikt ərazilərində iqtisadi potensialın qiymətləndirilməsi və müqayisəli üstünlük sahələrinin seçilməsi olmuşdur.

AMEA İqtisadiyyat İnstitutunun Baş direktoru, professor Nazim İmanov konfransı açıq elan etdikdən sonra konfrans iştirakçılarına Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafı istiqamətində dövlətimiz tərəfindən artıq görülmüş və planlaşdırılmış tədbirlərdən geniş məlumat vermiş, Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov rayonda tətbiq edilən innovativ işlərdən xəbər vermiş, Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəhbəri Mirəli Kazımov isə bu sahədə görülmüş tədris tədbirləri diqqətə çatdırmışdır. Həmçinin tədbirin mövzusu ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Ağdam rayonu üzrə xüsusi nümayəndəsi, AMEA-nın birinci vitse-prezidenti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müşaviri, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru və digər vəzifəli şəxslər çıxış etmişlər.

İşğaldan azad olunmuş ərazilərin innovativ iqtisadi inkişaf imkanlarına xidmət edəcək fikirlər və təkliflər ətrafında müzakirələr aparılmış, konfransın nəticələrinin




Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sifarişi ilə yerinə yetirilən kompleks tədqiqatda istifadə olunması qərara alınmışdır.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Azərbaycan Respublikası Baş Prokurorluğunda brifinq keçirilmişdir





2021-ci il dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş 2021-ci il noyabrın 5-də “8 noyabr-Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında” Qərarın prokurorluq orqanları tərəfindən icra vəziyyətinə dair brifinq keçirilmişdir.

Brifinqdə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə və Baş prokurorun böyük köməkçisi Mahir Abbasov  iştirak etmişlər.

Brifinqdə çıxış edən Elnur Musayev Amnistiya Aktının tətbiqində prokurorluğun rolu, aidiyyəti dövlət qurumları tərəfindən qəbul edilən qərarların prokuror ilə razılaşdırılması proseduru və məhkəmə baxışlarında prokurorun iştirakı barədə məlumat vermişdir.

Həmçinin, Amnistiya Aktının tətbiq olunması müddətində aidiyyəti qurumlar tərəfindən təhqiqat, istintaq, məhkəmə baxışı və cəzaların icrası mərhələsində cinayət törətmiş və cinayətin törədilməsinə görə məhkum edilmiş şəxslərin ümumi sayı, şəxslərin cinsi və yaş qrupları üzrə, həmçinin cinayətlərin təsnifatı üzrə statistik məlumatlar diqqətə çatdırılmışdır.

Sonda media nümayəndələrin çoxsaylı sualları cavablandırılmışdır.





# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluğa qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş 83 namizədin icbari təliminə başlanılmışdır

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi prokurorluq orqanlarında nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi və müasir dövrün tələbləri baxımından qurulması üçün ardıcıl tədbirlər həyata keçirilməkdədir.






Bu tədbirlərin ən mühüm nəticələri sırasında prokurorluğa qulluğa qəbul olunmaq üçün müvəffəqiyyət qazanmış namizədlərin icbari təliminin məhz Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin maddi-texniki, resurs bazası hesabına təşkil edilməsi xüsusi olaraq qeyd olunmalıdır.

Belə ki, cari ilin dekabr ayının 16-da Mərkəzdə 2021-ci ildə prokurorluğa ilk dəfə qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş 83 namizədin əyani şəkildə icbari təliminə başlanılmışdır.

Tədbirin keçirilməsi ilə əlaqədar Mərkəz tərəfindən aktuallığı ilə seçilən, dinləyicilərdə ilkin peşə vərdişlərinin formalaşmasına töhfə verəcək mövzuları əhatə edən təlimin tədris proqramı və tədris-tematik planı tərtib edilmişdir.

Tədris proqramı cinayət hüququ, cinayət prosesi, inzibati hüquq, kriminalistika, prokuror nəzarətinin təşkili, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ sahələrini, habelə Baş Prokurorluqda işin təşkili məsələlərini əhatə edən 50-dən artıq mühazirə və praktiki məşğələləri özündə ehtiva edir.

Təlimə prokurorluq, ədliyyə və səhiyyə orqanlarının təcrübəli işçiləri ilə yanaşı Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvlərinin təlimçi qismində cəlb edilməsi nəzərdə tutulmuşdur.

Pandemiya ilə əlaqədar karantin tədbirlərini və istehsalat təqvimini nəzərə almaqla təlimin 2021-ci ilin dekabr ayının 16-dan 2022-ci ilin yanvar ayının 12-dək Baş Prokurorluğun yeni inzibati binalar kompleksinin Konfrans zalında keçirilməsi təmin olunacaqdır.

Tədbirin ilk günü Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin rəhbəri cənab Kamal Cəfərov namizədlər qarşısında "Dövlət qulluğunda etik dəyərlər və davranış standartları" mövzusunda məruzə ilə çıxış etmişdir.

Eyni zamanda, Elm-Tədris Mərkəzinin əməkdaşları tərəfindən namizədlərə "Müasir Azərbaycan Prokurorluğu: islahatlar və qarşıda duran yeni vəzifələr", "Cinayət təqibi ilə bağlı azadlıq hüququnun məhdudlaşdırılması zamanı beynəlxalq standartlara əməl edilməsi metodikası" mövzularında da təqdimatlar edilmişdir.







# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə “Özəl sektorda anti-korrupsiya standartları" mövzusunda seminar-müşavirə keçirilmişdir









Ölkəmizdə biznes və investisiya mühitinin inkişafı istiqamətində görülən sistemli tədbirlərinin məntiqi davamı olaraq bu sahədə sahibkarların və digər aidiyyəti hədəf qruplarının hüquqi maarifləndirilməsi işinə də xüsusi əhəmiyyət verilir.

Belə ki, cari ilin 17 dekabr tarixində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Auditorlar Palatasının birgə təşkilatçılığı və Maliyyə Monitorinqi Xidməti, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, vətəndaş cəmiyyəti institutları, ali təhsil ocaqları, sahibkarlıq subyektləri, o cümlədən digər qurumların 300-dən artıq nümayəndəsinin iştirakı ilə hibrid formatda "Özəl sektorda anti-korrupsiya standartları" mövzusunda seminar-müşavirə keçirilmişdir.

Tədbirin açılışında çıxış edən Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasət nəticəsində maliyyə şəffaflığının və azad rəqabətin tam bərqərar olunduğunu, bürokratik əngəllərin aradan qaldırıldığını qeyd edərək, mövcud nailiyyətlərin əldə edilməsində vahid strateji yanaşmanın ayrılmaz tərkib hissəsi kimi effektiv korrupsiyaya qarşı mübarizə siyasətinin də önəmli payı olduğunu bildirmiş, eləcə də bu istiqamətdə prokurorluq orqanları tərəfindən digər qurumlarla əlaqəli şəkildə aparılan belə maarifləndirici tədbirlərin qabaqlayıcı əhəmiyyətindən bəhs etmişdir.

Daha sonra çıxış edən Auditorlar Palatasının sədri Vahid Novruzov ölkəmizdə sahibkarlığın inkişafına və fəaliyyətinə hər hansı formada müdaxilənin qarşısının alınması ilə bağlı görülən tədbirlərin iqtisadi islahatların yeni mərhələsinə təkan verməsinə, habelə kölgə iqtisadiyyatı və korrupsiyaya qarşı daha kəsərli mübarizəyə zəmin yaratdığını bildirmiş, auditorların özəl sektordakı rolundan, eləcə də cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılmasına qarşı mübarizə sahəsindəki əhəmiyyətindən bəhs etmişdir.

Tədbirin davamında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hazırlanmış “Özəl sektorda anti-korrupsiya standartları” vəsaitinin təqdimatı həyata keçirilərək materialda əks etdirilmiş sahibkarlıq subyektlərində korrupsiyaya qarşı mübarizə, korrupsiya risklərinin idarə edilməsi, maraqlar toqquşması hallarının qarşısının alınması, qeyd olunan sahədə audit yoxlamalarının əhəmiyyəti və hüquqi şəxslərin cinayət məsuliyyəti kimi mövzular üzrə geniş məlumat verilmişdir.

Bundan sonra müvafiq olaraq Auditorlar Palatasının nümayəndələri Altay Cəfərov, Elnur İbrahimov, Nəcəf Talıbov, Vəli Rəhimov və Səftər Vəlizadə, habelə prokurorluq əməkdaşları Tural Vəlibəyov, Pirayə Səmədzadə-Əliyeva, Anar Əliyev, Kamil Kamilli, Vasif Musayev və Vəlixan Allahverdov korrupsiyaya qarşı mübarizədə beynəlxalq audit standartlarının rolu, risklərin qiymətləndirilməsi, auditor sübutu və onlardan istifadə kimi əlaqədar mövzular üzrə ətraflı çıxışlar etmişdir.

Tədbir zamanı səmərəli fikir mübadiləsi aparılmaqla iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Bakı Dövlət Universiteti tərəfindən təşkil edilən beynəlxalq konfransın "Cinayət hüququnun inkişafının yeni tendensiyaları" sessiyası keçirilmişdir

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında tədrisin və peşə hazırlığının təşkili sahəsində prioritet fəaliyyət istiqamətlərindən olan ölkənin aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinə, birgə elmi tədqiqatların aparılmasına, elmi konfransların və görüşlərin keçirilməsinə xüsusi önəm verilir.




Qeyd edilməlidir ki, cari ilin 21 dekabrında Bakı Dövlət Universiteti tərəfindən təşkil edilən, 10-dan artıq ölkənin nüfuzlu ali təhsil müəssisələri və ölkəmizin 20-dən artıq dövlət orqanları və universitetlərinin qatıldığı "XXI əsr – yeni çağırışlar və hüququn müasir inkişaf tendensiyaları" mövzusunda beynəlxalq konfrans öz işinə başlamışdır.

Konfransda nüfuzlu Ankara Universiteti, İstanbul Universiteti (Türkiyə), Halle-Vittenberq Universiteti (Almaniya), Vilnüs Universiteti (Litva), Kazan Federal Universiteti (Rusiya), Kiyev Hüquq Universiteti (Ukrayna), Əl-Farabi adına Qazax Milli Universiteti və digər nüfuzlu ali təhsil müəssisələrinin görkəmli alimlərinin iştirakı nəzərdə tutulmuşdur.



Bakı Dövlət Universiteti ilə Baş Prokurorluğun sıx əməkdaşlığının təzahürü olaraq, 22 dekabr tarixində Bakı Dövlət Universiteti tərəfindən təşkil edilən beynəlxalq konfransın "Cinayət hüququnun inkişafının yeni tendensiyaları" sessiyası Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirilmişdir.

Tədbirdə iştirak edən cinayət hüququ üzrə ixtisaslaşmış yerli və xarici alimlər tərəfindən cinayət hüququnun aktual problemləri və müasir inkişaf istiqamətləri ilə bağlı maraqlı mühazirə və təqdimatlarla çıxışlar edilmişdir.



Tədbir çərçivəsində Elm-Tədris Mərkəzinin rəisi tərəfindən prokurorluq or-

qanlarında həyata keçirilən müasir məzmunlu islahatlar barədə ətraflı məlumat verilmiş, Mərkəzin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin böyük prokuroru Yelena Qasımova tərəfindən isə "Urbisidin sülh və insanlıq əleyhinə olan cinayət kimi tanınmasının aktual problemləri" mövzusunda təqdimatla çıxış edilmişdir.





## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korrupsiya və şəffaflıq" işçi qrupunun növbəti iclası keçirilmişdir



2021-ci il dekabrın 23-də Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korrupsiya və şəffaflıq" işçi qrupunun "Zoom" onlayn platforması vasitəsilə növbəti iclası keçirilmişdir.

İclasda Azərbaycan Respublikasının Baş Prokurorluğu, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Hesablama Palatası, "Şəffaflıq-Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə" İctimai Birliyi, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyi, "PricewaterhouseCoopers Azerbaijan", "Deloitte Azerbaijan", "Ekvita", "KPMG Azərbaycan Limited", "Azercell", "Azerconnect", "Agro Diary" şirkətləri və digər qurumların nümayəndələri iştirak etmişlər.

İşçi qrupunun rəhbəri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyev iclasın gündəliyinə uyğun olaraq, aidiyyəti qurumların nümayəndələri tərəfindən 2021-ci ilin Fəaliyyət Planına əsasən görülmüş tədbirlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir.

İclasda iştirak edən digər dövlət qurumlarının əməkdaşları, vətəndaş cəmiyyəti və özəl sektor nümayəndələri işçi qrupu tərəfindən görülmüş tədbirlərlə bağlı çıxış etmiş, işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planının hazırlanmasına dair fikir mübadiləsi aparılmış, layihənin müasir yanaşmaların tətbiqi ilə formalaşdırılması qeyd edilmiş və zəruri təkliflər irəli sürülmüşdür.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün silsilə tədris tədbirləri keçirilmişdir

Azərbaycan Respublikası Baş prokurorunun 29.07.2021-ci il tarixli 09/12 №-li Sərəncamına əsasən Elm-Tədris Mərkəzi tərəfindən prokurorluq işçiləri üçün "İstintaq, dövlət ittihamının müdafiəsi və cinayət təqibindən kənar fəaliyyət üzrə vahid təcrübənin formalaşdırılması, habelə insan hüquq və azadlıqlarının müdafiəsi problemlərinin öyrənilməsi və qanunvericiliyə edilən dəyişikliklərin mənimsənilməsi" mövzusunda təlimlər təşkil edilmişdir.









Təlimin tədris proqramına praktiki əhəmiyyət kəsb edən, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnu, qanunvericiliyə edilmiş mühüm dəyişiklikləri, qüvvəyə minmiş yeni normativ aktları, habelə Konstitusiya və Ali məhkəmələrinin plenum qərarlarını əhatə edən müxtəlif aktual mövzular daxil edilmişdir.

Qarışıq formada (əyani və distant) keçirilmiş silsilə tədris tədbirləri 13.08.2021-ci ildən 24.12.2021-ci ilədək davam etmiş, tədris proqramına əsasən 30 məşğələ tədris olunmuş, təlimdə dinləyici qismində müxtəlif vaxtlarda yuxarı və tabe prokurorluqların 829 nəfər işçisi iştirak etmiş, təlimçi qismində isə Mərkəzin işçiləri ilə yanaşı, Baş Prokurorluğun müxtəlif idarələrinin və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları cəlb edilmişlər.

Təlim üzrə tədris məşğələləri müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə etməklə həyata keçirilmiş, təlimin keçirilmə qaydası barədə dinləyicilər əvvəlcədən təlimatlandırılmış, sınaqlar keçirilmiş, dinləyicilərin və təlimçilərin bir qismi iş yerindən, digər hissəsi isə Mərkəzdə zəruri avadanlıqla təchiz edilmiş xüsusi auditoriyadan tədbirə qoşulmuşlar.

Bu təlim çərçivəsində Baş prokurorun 05.11.2021-ci il tarixli 09/20 №-li Əmrinin 14-cü bəndinə uyğun olaraq prokurorluq işçiləri tərəfindən "8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarının dərindən öyrənilməsi məqsədilə 3 seminar-məşğələ keçirilmiş, dinləyiciləri maraqlandıran sualların hüquqa və təcrübəyə əsaslanan cavablandırılması təmin edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# 24.12.2021-ci il tarixində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində dəyirmi masa keçirilmişdir

Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzində prokurorluq qurumlarının əməkdaşlarının iştirakı ilə "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksi"nin tətbiqinin dövri ümumiləşdirilməsi, habelə təkmilləşdirilməsi məsələlərinin müzakirəsi barədə dəyirmi masa keçirilmişdir.

Dəyirmi masada ilk öncə iştirakçılara prokurorluq əməkdaşlarının xidməti və xidmətdən kənar davranışlarının tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğunun 08 fevral 2008-ci il tarixli geniş Kollegiya iclasında qəbul edilmiş "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksi" və onun tətbiqi ilə bağlı məlumat verilmişdir. Daha sonra isə, Azərbaycan Respublikası Baş prokurorunun 05 avqust 2020-ci il tarixli əmri ilə prokurorluğun tarixində ilk dəfə olaraq ad hoc qurum olaraq təsis edilmiş Etik Davranış Komissiyasının fəaliyyət göstərdiyi gündən hazıradək icraatına daxil olmuş və baxılmış materiallar üzrə prokurorluq işçiləri tərəfindən vəzifələri ilə bir araya sığmayan fəaliyyətlə məşğul olma və ya belə hərəkətlərə yol vermə halları, Etik Davranış Kodeksinin tətbiqi təcrübəsi, o cümlədən Komissiyada qəbul edilmiş qərarların təhlili tədbir iştirakçılarının nəzərinə çatdırılmışdır.

Tədbir çərçivəsində prokurorluq əməkdaşlarının etik davranış qaydalarının nəzəri və tətbiqi əsaslarının təhlili, mövcud milli və beynəlxalq təcrübə öyrənilməklə bu sahədə işin təkmilləşdirilməsi istiqamətində Elm-Tədris Mərkəzinin təklifləri təqdim edilmiş, sonra isə digər qurumların əməkdaşlarının bu sahədə təklifləri dinlənilmiş və qarşılıqlı fikir mübadiləsi aparılmışdır.








# Hərbi Prokurorluqda Azərbaycan Prokurorluğunun yaranmasının 103 illiyinə həsr olunmuş mərasim keçirilib





Oktyabrın 1-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mərkəzi aparatında Respublika Hərbi Prokurorluğunun, Bakı Hərbi Prokurorluğunun əməkdaşlarının və prokurorluğun veteranlarının iştirakı ilə Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 103 illiyinə həsr olunmuş mərasim keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Azərbaycan xalqının Ümummilli Liderinin büstü önünə gül dəstələri düzərək, böyük şəxsiyyətin əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Mərasim iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, bütün qazilərə şəfa diləyiblər.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bütün prokurorluq əməkdaşlarını, o cümlədən tədbir iştirakçılarını 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə təbrik edərək onlara xoş arzularını çatdırıb.

Xanlar Vəliyev bildirib ki, Azərbaycan Prokurorluğu 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsi ilə əlaqədar dövlət səviyyəsində heç bir təşəbbüs göstərilməyib, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməyib. Məhz ulu öndər Heydər Əliyevin 1998-ci il iyulun 17-də imzaladığı Sərəncamla 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları arasında xüsusi yeri olan prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının ifadəsi və onun roluna rəsmi münasibətin təzahürü olub.

Hərbi prokuror Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış müdrik siyasətini yeni müstəvidə və dövrün tələblərinə uyğun şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən nəhəng işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən, Vətən müharibəsində əldə etdiyimiz tarixi Qələbədən, koronavirus (COVID-19) pandemiyasına qarşı aparılan uğurlu mübarizədən, xalqımızın maddi və sosial rifah halının davamlı yaxşılaşdırılmasından bəhs edib. Bildirilib ki, əldə olunan uğurlar, o cümlədən 44 günlük döyüş-







lərdə qazanılan ardıcıl zəfərlər dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, sarsılmaz qətiyyəti, yorulmaz fəaliyyəti, xalqımızın əzmkarlığı və mübarizliyi, Silahlı Qüvvələrimizin rəşadəti və qəhrəman hərbçilərimizin şücaəti sayəsində mümkün olub.

Xanlar Vəliyev vurğulayıb ki, ölkəmizin hərtərəfli inkişafında və qazanılan ardıcıl uğurlarda millətinə və dövlətinə sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi, insanpərvərliyi, xeyirxah əməlləri və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Prokurorluğa dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev tarixi torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərdə Hərbi Prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyini və operativliyini artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 aprel tarixli Sərəncamı ilə Qubadlı, Kəlbəcər Hərbi prokurorluqlarının və Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğunun yaradılmasını və hazırda adları çəkilən prokurorluqların qısa zamanda formalaşdırılmış münbit şəraitdə uğurla fəaliyyət göstərdiklərini qeyd edib. Bildirilib ki, Prezident-xalq-ordu birliyinin nəticəsi olan möhtəşəm Qələbəmiz uzun illər işğal altında qalmış tarixi torpaqlarımızda da ilk dəfə olaraq peşə bayramı gününü qeyd etməyə imkan verəcək və bundan böyük bayram sevinci ola bilməz.

Sonda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə hərbi prokuror tərəfindən təltiflər, prokurorluğun bir qrup veteranlarına isə hədiyyələr təqdim olunub.

Hərbi prokuror Xanlar Vəliyev tədbirə yekun vuraraq Hərbi Prokurorluq orqanları əməkdaşlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə görülən böyük işlərdə və həyata keçirilən məhkəmə-hüquq islahatlarında yaxından iştirak edəcəklərini, qanunçuluğun, dövlətçiliyin, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini, cinayətkarlığa eləcə də dövlətimizin qüdrətlənməsinə və milli maraqlara xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarını bildirib.

# Ümummilli lider Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə bağlı Hərbi Prokurorluqda anım mərasimi keçirilib







Dekabrın 9-da Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda xalqımızın ümummilli lideri, böyük tarixi şəxsiyyət Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dünyaşöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən geniş bəhs edib.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən söz açan Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılıb. Onun istefa verdiyi vaxtdan, yəni, 1987-ci ilin oktyabrından 1993-cü ilin iyununda növbəti dəfə hakimiyyətə qayıdışınadək olan dövrdə ölkədə yaranmış özbaşınalığın, anarxiyanın, xaosun, hakimiyyət nümayəndələrinin xalq və dövlətin deyil, ayrı-ayrı şəxslərin maraqlarına xidmət etməsinin iqtisadiyyatımızın tənəzzülə uğraması, ictimai-siyasi sabitliyin pozulması, eləcə də tarixi torpaqlarımızın işğal olunması ilə nəticələndiyini, eyni zamanda, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdığını, yalnız dahi şəxsiyyət Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayan Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alındı, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb, bununla da Azərbaycan sürətli inkişaf yoluna qədəm qoyub.





Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə son 18 ildə ölkəmizdə müstəsna əhəmiyyətli nəhəng işlər görülüb, hərtərəfli köklü islahatlar həyata keçirilib, bütün sahələrdə misli görünməmiş uğurlar əldə olunub. Prezident İlham Əliyevin dərin zəkası, zəngin bilikləri, mükəmməl rəhbərliyi, qətiyyəti və yorulmaz fəaliyyəti sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşdırılıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm Qələbəmizi şərtləndirib. Nəticədə 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız hərbi və siyasi-diplomatik yolla işğaldan azad edilib. Millətinə xidməti həyat amalına çevirmiş Prezident İlham Əliyevin verdiyi bütün vədləri əməlləri ilə doğruldaraq, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirməklə xalqın sonsuz məhəbbətini qazandığını vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev dövlətimizin başçısının növbəti dəfə də vədinə əməl etməsindən, işğal altında olan tarixi ərazilərimizin azad olunma-





sından, bu şərəfli missiyanın həyata keçirilməsi zamanı müşahidə olunan bənzərsiz lider-xalq-ordu vəhdətindən, Ali Baş Komandanın rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazdıqlarından ətraflı danışıb.

Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin mükəmməl siyasi strategiyası və gərgin əməyi ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən yer kürəsini bürüyən koronavirus (COVID-19) pandemiyasına və 44 günlük döyüş əməliyyatlarına rəğmən, dövlətimizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin edilir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, əldə olunan uğurlarda və dövlətimizin qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, mədəniyyətimizin bütün dünyaya tanıdılmasında hərtərəfli biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi və səmimiliyi ilə seçilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Mehriban xanımın respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafındakı xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü nəhəng işlər dövlətimizin tərəqqisinə və xalqın rifahının yaxşılaşdırılmasına mühüm töhfələr verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə çıxışını yekunlaşdıran ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə, Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcək.

Çıxışının sonunda Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, dəyərli və mənalı ömrünü Azərbaycana həsr edərək milləti qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının ümummilli lideri adını qazanmış dünya siyasətinin parlaq siması ulu öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq, nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman böyük ehtiramla yad ediləcək.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103 illiyinə həsr olunmuş tədbir keçirilib

Oktyabr ayının 1-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103 illiyinə həsr olunmuş tədbir keçirilib

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək bildirib ki, Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-i "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd olunur. Azərbaycan prokurorluq orqanlarının əsasının formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəməhüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. "Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir", – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

Qeyd olundu ki, qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında"Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativhüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Hüquq sisteminin inkişafında prokurorluğun rolunun gücləndirilməsi istiqamətində müntəzəm tədbirlər görülməklə, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilməsi qurumun hüquq sistemindəki yerini və rolunu daha da gücləndirmişdir.

Bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Nəticədə, hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir.

Qeyd olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya

Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək muxtar respublika prokurorluq orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon,şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasirstandartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində 2012-ci ildə Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda struktur islahatlarının həyata keçirildiyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının strukturu Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturuna uyğunlaşdırılmışdır.

Qeyd olundu ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclərsiyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğuna muxtar respublika ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: “Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir”. Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir.

Sonda əminliklə ifadə olunub ki, yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi: “Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir”.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları çıxış edərək prokurorluq orqanlarına göstərilən dövlət qayğısından danışmışlar.

Sonda bir qrup prokurorluq əməkdaşı mükafatlandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Xatirə Muzeyində olmuşlar





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşları da Muxtar Respublikada keçirilən "Muzey günləri"ndə yaxından iştirak edirlər. Prokurorluq əməkdaşları oktyabr ayının 30-da Naxçıvan şəhərində yerləşən Xatirə Muzeyində olmuşlar.

Muzeylə tanışlıq zamanı bələdçi tərəfindən məlumat verildi ki, Xatirə Muzeyi ermənilər tərəfindən törədilən soyqırım qurbanlarının, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsini əbədiləşdirmək məqsədilə 2000-ci ildə yaradılmışdır. 2015-ci ildən muzey Şəhidlər Xiyabanı yaxınlığında yeni inşa edilmiş binada fəaliyyətini davam etdirir.

Qeyd olundu ki, Xatirə Muzeyi azərbaycanlılara qarşı 1905-1907-ci, 1918-1920-ci illərdə baş verən kütləvi soyqırımı aktlarını, həmçinin 1948-1953-cü illərdə azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiyasını, 1990-cı il 20 Yanvar, 1992-ci il Xocalı faciələrini özündə əks etdirən eksponatlarla zəngindir. Muzeydə ermənilərin Bakıda, Şamaxıda, Qarabağda, Naxçıvanda və digər bölgələrimizdə törətdikləri vəhşilikləri əks etdirən sənədlər, şəkillər, hadisələri tarixi faktlarla oxuculara çatdıran qiymətli kitablar vardır.

Muzeydə Vənət Müharibəsi Şəhidlərin fotoşəkilləri, erməni qəsbkarlarına qarşı döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Milli və Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri, şəxsi əşyaları və onlara aid olan digər materiallardan ibarət ümumilikdə 2000-dən yuxarı eksponat mühafizə olunur və nümayiş etdirilir.

Sonda prokurorluq əməkdaşlarını maraqlandıran suallar kompleks bələdçisi tərəfindən cavablandırıldı.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Naxçıvan Dövlət Universitetinin tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar





Naxçıvan Dövlət Universitetinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilmiş Hüquqşünaslıq ixtisası üzrə I kurs tələbələri dekabrın 7-də Muxtar Respublika Prokurorluğunda olublar. Onlar əvvəlcə prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumat alıb, buradakı kitabxana ilə tanış olublar. Həmçinin tələbələrə Prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi haqqında məlumat verilib, hadisə yerinin müayinəsi qaydaları əyani vasitələrlə izah olunub.

Tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisaslarınmüvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul və “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb.

Bildirilib ki, sərəncamlarda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair təsdiq olunan tədbirlər planına əsasən Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların prokurorluq orqanlarında istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması həyata keçirilir. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və bu tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonra Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Pərviz Zülfüqarov, Anar Məmmədov və Turqay Həşimlinin çıxışları dinlənilib. Çıxışlarda yeni startap layihələri, cinayət təqibindən kənar icraatlar, prokurorluq orqanlarının cəmiyyətdəki rolundan danışılıb, suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi yad edilib

Dekabr ayının 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi anma mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu barədə ətraflı məlumat verərək vurğuladı ki, Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması məhz görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz işlər görmüş ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ulu öndər xalqımızı can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Buna görə də O, Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi hələ sağlığında xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Müasir müstəqil Azərbaycan dövləti məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" müddəasının salınması, 1971-ci ildə Bakıda ilk hərbi təmayüllü məktəbin açılması, paytaxt və regionlarda təhsil, mədəniyyət və səhiyyə müəssisələrinin tikilməsi, SSRİ-nin ən nüfuzlu ali məktəblərinə azərbaycanlı gənclərin göndərilməsi xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətləri, Azərbaycanın gələcək müstəqilliyinə hesablanmış uzaqgörən tədbirlər idi.

Qeyd olundu ki, dahi lider 1990-cı il iyulun 20-də Bakıya gəldi. İki gün sonra – iyulun 22-də isə doğma Naxçıvana qayıtdı, bu qədim diyardan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ümummilli lider 1990-1993-cü illərdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası və böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər gördü. Dahi şəxsiyyətin Naxçıvandan başladığı müstəqillik yolu Azərbaycanın qurtuluş mübarizəsinə çevrildi. Üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin Sədrliyi ilə Naxçıvan parlamentində qaldırıldı, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvandan başlandı, müstəqil dövlətçilik yolunda mühüm və əhəmiyyətli addımlar atıldı.

31 Dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması, sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılması, Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlərin görülməsi, nizami ordu hissələrinin təşkili, diyarımızın tarixi taleyi üçün müstəsna əhəmiyyətə malik Qars müqaviləsinin şərtlərinin beynəlxalq aləmin diqqət mərkəzinə çəkilməsi, idarəetmə strukturlarında ədalətin, demokratiyanın, operativliyin və dinamikliyin təmin olunması, aqrar islahatların, özəlləşdirmənin uğurla aparılması, yeni iqtisadi münasibətlərin formalaşdırılması, əhalinin sənaye mallarına, ərzaq məhsullarına kəskin ehtiyacının ödənilməsi, enerji təminatı sahəsində böhranlı vəziyyətin aradan qaldırılması üçün layihələrin həyata keçirilməsi, hava limanının yenidən qurulması, mədəni mühitin dirçəldilməsi, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm addımların atılması və sadalanan yüzlərlə belə böyük tədbirlər məhz bu

qısa müddətdə Naxçıvanda yüksək səviyyədə həyata keçirildi.

1993-cü il iyunun 15-də xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin respublikamızda yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı. Ulu öndər Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmağa nail oldu.

Ulu öndər Heydər Əliyev deyirdi ki, "Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq. Bu yol xalq yoludur". Dahi rəhbərimizin çox qısa müddətdə uzaqgörənliklə yaratdığı mükəmməl idarəetmə sistemiAzərbaycanın bir dövlət olaraq iqtisadi, siyasi inkişafına, dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilməsinə rəvac vermişdir. Ulu öndərimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizi uğurdan-uğura aparmışdır. Bu dövrdə Azərbaycanın əldə etdiyi nailiyyətlərin hər biri dövlətçiliyin fundamental əsaslarını müəyyənləşdirən tarixi hadisələrdir.

Tarix bir daha göstərdi ki, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yol düzgün yoldur. Belə ki, Azərbaycanın demokratik quruculuq və inkişaf yolu milli xüsusiyyətlər və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilməyə başlandı, ölkədə siyasi və milli-ideoloji birliyin təməli qoyuldu, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrildi. Bir sözlə, dövlət quruculuğu sahəsində nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və digər uğurlar ulu öndərin dövlətçilik konsepsiyasının mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir dünya dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu.

Ulu öndərin siyasi hakimiyyətə qayıdışı "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur.

Qeyd olundu ki, ümummilli lider Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən dövrdə Azərbaycan böyük inkişaf yolu keçmiş, ölkəmiz sürətli tərəqqi yoluna qədəm qoymuşdur. İqtisadi, siyasi və hərbi sahədə güclü potensial yaradılmışdır. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq müdafiə təhlükəsizliyi ilbəil möhkəmləndirilir, hərbi hissələrin madditexniki təminatı gücləndirilir, əsgəri-məişətyaşayış kompleksləri tikilir, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Görülən işlər ötən il işğal altında qalan torpaqlarımızın azad olunmasına imkan verdi. "Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, müstəqil Azərbaycan dövləti öz ərazisinin bütün hissələrinin sahibi olacaqdır", – deyən ulu öndərin uzaqgörənliyinin heç bir sübuta ehtiyacı olmadığı bir daha təsdiq edildi.

2020-ci ildə Azərbaycan Respublikasının qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi Cənubi Qafqazda yeni reallıqlar yaratdı. Bu reallıqda Azərbaycan təbii olaraq güclü, diktə edən tərəf kimi artıq yeni tarix yazmağa başlayıb. Bütün bunlar isə onu göstərir ki, ulu öndər Heydər Əliyev siyasi yolunun davam etdirilməsi təkcə Azərbaycanın deyil, bütövlükdə, dünya sivilizasiyasının tərəqqisinə xidmət edir.

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokuroluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidentı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Məruzə ətrafındakı çıxışlarda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışıldı.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Mətbuat xidmətinin məlumatları

**#dövlətittihamı** - ***Baş Prokurorluğun Mətbuat Xidməti tərəfindən növbəti videoçarx hazırlanıb.***



Dövlət ittihamının həyata keçirilməsi ilə bağlı prokurorluq orqanlarının fəaliyyətinin özündə əks etdirən videoçarxların hazırlanaraq #dövlətittihamı həştəqi altında ictimaiyyətə təqdim olunması qərara alınmışdır.

Təqdim olunan növbəti videonu izləməklə, təqsirləndirilən şəxsin Cinayət Məcəlləsinin 234.1-ci (narkotik vasitələrinin qanunsuz dövriyyəsi) maddəsi ilə təqsirləndirilməsinə dair Bakı şəhəri Binəqədi Rayon Məhkəməsində baxılan cinayət işi üzrə cəzanın təyin olunmasında dövlət ittihamçısının rolu, mövqeyi, eləcə də nəticədə təyin olunmuş cəzanın növü və müddəti ilə tanış ola bilərsiniz.

**#maariflənək – SAXTA DİPLOMLAR**

Prokurorluq orqanları tərəfindən modern dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onları məmnun edən kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.




Tədbirlərin davamı kimi, vətəndaş məmnunluğunun təmin olunması, eləcə də mühüm əhəmiyyət kəsb edən mövzularla bağlı maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən vətəndaşları narahat edən məsələlərlə bağlı maarifləndirici videoçarxların hazırlanaraq #maariflənək həştəqi altında ictimaiyyətə təqdim olunması qərara alınıb.

**#heçbilirdinizmi - "Heç bilirdinizmi qəyyumluqla himayəçiliyin arasındakı fərq nədir?"**




Prokurorluq orqanları tərəfindən modern dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onları məmnun edən kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Tədbirlərin davamı kimi, vətəndaş məmnunluğunun təmin olunması, eləcə də mühüm əhəmiyyət kəsb edən mövzularla bağlı maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən prokurorluğun fəaliyyət sferaları ilə əlaqədar vətəndaşları maraqlandıran məsələlərlə bağlı maarifləndirici videoçarxların hazırlanaraq #heçbilirdinizmi? həştəqi altında ictimaiyyətə təqdim olunması qərara alınmışdır.

Hazırda təqdim olunan videoda "Heç bilirdinizmi qəyyumluqla himayəçiliyin arasındakı fərq nədir?" mövzusu ilə bağlı cinayət prosessual qanunvericiliyin tələbləri vətəndaşlarımıza izah edilmişdir.

Təqdim olunmuş videonu Baş Prokurorluğun sosial şəbəkələrdə olan səhifələrindən, həmçinin vebsaytından izləyə bilərsiniz.

**#sözvətəndaşda – Şamaxı şəhər sakini Baş Prokurorluğa minnətdarlığını bildirib**



Şamaxı şəhər sakini fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan İsayev Rəvan Robert oğlu rayon prokurorluğuna müraciət edərək ona məxsus mağazada satıcı işləmiş şəxs tərəfindən 9 min manat məbləğində pul vəsaitinin mənimsənilməsini göstərmişdir.

Müraciət üzrə araşdırma aparılaraq Cinayət Məcəlləsinin 179.2.4-cü (mənimsəmə xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılmışdır.

İstintaq zamanı təqsirli şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və zərərçəkmiş şəxsə dəymiş ziyanın tam olaraq ödətdirilməsi təmin edilmişdir.

Prokurorluğa müraciət edərək məmnun qalan Rəvan İsayev Baş Prokurorluğun sosial şəbəkə hesabına minnətdarlığını ifadə etdiyi videoçarxı göndərməklə ictimailəşdirilməsini xahiş etmişdir.

**#gününrəqəmi - 1103**




Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə #gününrəqəmi həştəqi ilə məlumatlar yerləşdirilir.

Bu rəqəm 1103-dür.

Belə ki, 2021-ci ilin yanvar-oktyabr ayları ərzində prokurorluq orqanları tərəfindən 1103 şəxs barəsində başlanmış cinayət işinin istintaqı tamamlanmışdır.

Prokurorluq orqanlarının fəaliyyətindəki bu və ya digər yeniliklərdən xəbərdar olmaq üçün sosial şəbəkə səhifələrinin izlənilməsi tövsiyə olunur.

**#İNSANHÜQUQLARI - Özünə qarşı ifadə verməmək hüququ**




Avropa Məhkəməsinin presedent hüququna əsasən, özünə qarşı ifadə verməmək hüququ konkret olaraq onu nəzərdə tutur ki, cinayət işində ittiham tərəfi, təqsirləndirilən şəxsə qarşı mövqeyini sübut etmək üçün təqsirləndirilən şəxsin iradəsinə zidd olaraq məcburetmə və ya təzyiq vasitəsilə əldə edilmiş sübutlardan istifadə etməməlidir.

Məhkəmə prosesinin şəxsin özünə qarşı ifadə verməmək hüququna xələl gətirib-gətirmədiyini araşdırarkən Avropa Məhkəməsi konkret olaraq aşağıdakı elementləri: məcburetmənin xarakterini və dərəcəsini; araşdırılan cinayətin istintaqına və cəzalandırılmasına olan ictimai marağı; həmin prosesdə müvafiq təminatların olub-olmadığını; və məcburetmə yolu ilə əldə edilmiş hər hansı materialdan istifadə edilib-edilmədiyini nəzərə alır.

Avropa Məhkəməsi dəfələrlə qərara almışdır ki, özünə qarşı ifadə verməmək hüququ ilk növbədə, təqsirləndirilən şəxsin susmaq hüququna hörmət edilməsi ilə bağlıdır. Konvensiyanın iştirakçısı olan dövlətlərin və digər ölkələrin hüquq sistemlərində, adətən nəzərdə tutulduğu kimi, bu hüquq - cinayət prosesində şübhəli şəxsin iradəsi ilə əlaqəsi olmayan güc tətbiqindən istifadə etməklə təqsirləndirilən şəxsdən əldə edilmiş materialdan, məsələn, müsadirə barədə qərar əsasında əldə edilmiş sənədlərdən, DNT testi məqsədi ilə götürülmüş nəfəs, qan, səs nümunələrindən, bədən toxumasından və s.-dən istifadə edilməsinə şamil olunmur.

**#HÜQUQİBİLİKLƏRİNİARTIR - Konstitusiya Məhkəməsinin Plenumu İnzibati Xətalar Məcəlləsinin 135.1.5-ci və 135.2-ci maddələrini əlaqəli şəkildə şərh edib**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun növbəti məhkəmə iclasında Sumqayıt Şəhər Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 135.1.5 və 135.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılmışdır.

Konstitusiya Məhkəməsi Plenumunun 16.11.2021-ci il tarixli həmin qərarına əsasən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 6-cı maddəsinə uyğun olaraq, səlahiyyətli orqanın (vəzifəli şəxsin)

və ya məhkəmənin inzibati xəta haqqında iş üzrə qərarından verilmiş şikayətə baxılmanın predmeti həmin qərarla məhdudlaşır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəllə-sinin 135.2-ci maddəsinin mənasına görə, inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətə və ya protestə baxan hakim və ya səlahiyyətli orqan (vəzifəli şəxs), barəsində qərar qəbul edilmiş şəxsin vəziyyətini ağırlaşdıran qərarı öz təşəbbüsü ilə deyil, yalnız bununla əlaqədar zərər çəkmiş şəxsin, həmin Məcəllənin 43.2-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxsin şikayəti və ya prokurorun protesti olduqda qəbul edə bilər. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin şikayəti əsasında qəbul edilmiş qərara yenidən baxılarkən onun vəziyyətinin pisləşməsi ilə nəticələnən qərarın qəbul edilməsi yolverilməzdir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.




**#SORĞUYACAVAB - Vətəndaş Pərviz İsaqovun anasının üstünə ağac düşməsi faktı əsasında prokurorluqda araşdırma aparılır**




Baş Prokurorluğun Mətbuat xidmətindən #sorğuyacavab olaraq bildirilir ki, vətəndaş Pərviz İsaqovun anası Pərvanə İsaqovanın 10.11.2021-ci il tarixdə Yasamal rayonu, Mirəli Seyidov küçəsi 60 ünvanın yaxınlığında olarkən ağacın küləkliyin təsirindən qırılaraq üzərinə düşməsi və sonuncunun aldığı xəsarətlər nəticəsində sol ayağının amputasiya edilməsi barədə müraciət əsasında Yasamal rayon Prokurorluğunda araşdırma aparılır.

**#Amnistiya2021 - "Amnistiya nədir?"**




Amnistiya yunan sözü olub, “unutmaq”, “bağışlamaq” mənasını verir. Amnistiya cinayət hadisəsi törətmiş şəxslər barəsində dövlətin iradəsi ilə həyata keçirilən humanist tədbir olub, bir qayda olaraq ölkədə iqtisadi, sosial sahədə əldə olunan görkəmli nailiyyətlər, beynəlxalq aləmdə tarixi əhəmiyyət kəsb edən əlamətdar hadisələrlə bağlı dövlətin ali nümayəndəli orqanı və ya dövlət başçısı tərəfindən qəbul olunur. Görkəmli dövlət və ictimai xadimlərin yubileyləri şərəfinə amnistiya aktlarının verilməsi hallarına da təsadüf edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən amnistiya aktlarının qəbulu Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aid edilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər

amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər və yaxud belə şəxslər əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər.

**#buhəftə – Baş Prokurorluq 11 – 18 dekabr tarixləri ərzində baş vermiş hadisələrin icmalını təqdim edir**




11.12.2021-ci il tarixdən 18.12.2021-ci il tarixədək olan həftəlik icmal Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən videoçarx hazırlanaraq #buhəftə heşteqi altında ictimaiyyətə təqdim olunmuşdur.

**#prokurorluqdanizah – “Xuliqanlıqla xırda xuliqanlığın arasında fərq nədir?”**

Prokurorluq orqanları tərəfindən modern dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onu məmnun edən tədbirlər daim diqqət mərkəzində saxlanılır. Vətəndaş məmnunluğu və aşkarlığın təmin olunması məqsədilə prokurorluğun fəaliyyət sferaları ilə bağlı vətəndaşları maraqlandıran məsələlərin prokurorluq əməkdaşları tərəfindən videoçarxlar vasitəsilə #prokurorluqdanizah həştəqi altında cavablandırılması həyata keçirilir. Təqdim olunan video-izah vasitəsilə Baş Prokurorluğun Mətbuat xidmətinin prokuroru Mələk Əliyeva “Xuliqanlıqla xırda xuliqanlığın arasında fərq nədir?” sualını cavablandırıb.




## M Ə L U M A T L A R

**2017-ci ildə bəzi hərbiçilərə qarşı fiziki və psixi zor tətbiq edilməsi faktları ilə bağlı cinayət işləri Baş prokuror tərəfindən xüsusi nəzarətə götürüldü**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tərtər, Ağdam, Beyləqan rayonları istiqamətində yerləşən hərbi hissələrində xidmət edən bəzi hərbi qulluqçuların qanunazidd əməlləri ilə əlaqədar 2017-ci ilin may-iyun ayları ərzində həmin bölmələrin və digər hərbi hissələrin bir qrup hərbi qulluqçusu cinayət-prosessual qanunvericiliyin tələblərinə zidd olaraq müvafiq səlahiyyətlərə malik olmadıqları halda qanunsuzluqlar törətməkdə şübhəli hesab etdikləri şəxsləri sorğulama prosesinə cəlb edib onlara fiziki və psixi zor tətbiq etməklə zərərçəkmiş şəxslərin ölümünə və digər ağır nəticələrə səbəb olan işgəncəyə, qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qoymuşlar.

Həmin faktlarla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılaraq 19 təqsirləndirilən şəxs barəsində 5 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılıb aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmiş, məhkəmələrin ittiham hökmləri ilə onlar müxtəlif cəzalara məhkum edilmişlər.

Zərərçəkmiş şəxslərin, onların hüquqi varislərinin və digər şəxslərin ibtidai istintaqın gedişi və nəticələri, eləcə də məhkəmə qərarları ilə bağlı çoxsaylı müraciətləri nəzərə alınaraq Azərbaycan Respublikası Baş prokurorunun müvafiq sərəncamı ilə İşçi qrup yaradılmaqla qeyd olunan cinayət işləri Respublika Hərbi Prokurorluğundan tələb edilib ətraflı surətdə öyrənilmiş, hər bir qanunazidd əməlin baş vermə hallarının tam, hərtərəfli, obyektiv araşdırılması, bütün təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması, cinayətlərdən ziyan çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası və müdafiəsi üçün zəruri

tədbirlərin görülməsi məqsədilə 2021-ci ilin 16 dekabr tarixində Baş Prokurorluqda göstərilən faktlar üzrə cinayət işlərinin icraatının təzələnməsi haqqında qərarlar qəbul edilmişdir.

Cinayət işləri Baş Prokurorluğun icraatına qəbul edilməklə ibtidai istintaq Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən xüsusi nəzarətə götürülmüş, prokurorluq, daxili işlər və dövlət təhlükəsizliyi orqanlarının təcrübəli və peşəkar əməkdaşlarından ibarət istintaq qrupları yaradılaraq ibtidai araşdırmaya prosessual rəhbərlik Baş prokurorun birinci müavininə tapşırılmışdır.

Müvafiq istintaq-əməliyyat planları əsasında kompleks tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, kütləvi informasiya vasitələrinin nümayəndələrinin, sosial media platformaları istifadəçilərinin, eləcə də cinayət prosesi iştirakçılarının diqqətinə çatdırılır ki, ibtidai araşdırma məlumatlarının müvafiq icazə olmadan yayılması yolverilməz olmaqla cinayət qanunvericiliyinə əsasən məsuliyyət yaradır, habelə istintaqa təsir göstərmək, cəmiyyətdə qəsdən yanlış fikir formalaşdırmaq, qalib Azərbaycan Ordusunun nüfuzuna, dövlət orqanlarının fəaliyyətinə kölgə salmaq məqsədilə qərəzli surətdə təhrif olunmuş məlumatlar yayan şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcəkdir.

**Генпрокуратура возбудила уголовное дело по факту оскорбления армянскими футболистами государственного флага Азербайджанской Республики**

Военно-политическое руководство Армении, в очередной раз продемонстрировав свой агрессивный характер, продолжает осуществлять провокационные действия против нашей страны, грубо нарушая основополагающие нормы и принципы международного права с целью разжигания национальной ненависти и вражды.

Так, в некоторых СМИ и на различных страницах в социальных сетях опубликованы видеоролики, на которых армянские футболисты оскорбляют государственный флаг Азербайджанской Республики.

По факту Генеральным прокурором Азербайджанской Республики возбуждено уголовное дело по статьям 283.2.3 (Возбуждение национальной, расовой, социальной или религиозной ненависти и вражды) и 324 (Надругательство над Государственным флагом или Государственным гербом Азербайджанской Республики) Уголовного кодекса, проведение следствия по делу поручено Следственному управлению Генеральной прокуратуры.

По делу направлены ходатайства о правовой помощи, и совместно с прокуратурами зарубежных стран, а также с соответствующими государственными органами будет обеспечено принятие необходимых мер для выявления и привлечения к ответственности виновных.

**Rayon Mərkəzi Xəstəxanasının vəzifəli şəxslərinin əməlləri ilə bağlı istintaq edilmiş cinayət işi məhkəməyə göndərilmişdir**

Şəmkir rayon Mərkəzi Xəstəxanasının vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin istintaqı aparılmışdır.

Aparılmış istintaqla Şəmkir rayon Mərkəzi Xəstəxanasının baş həkimi vəzifəsində işləmiş Ayaz İbrahimovun vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Həkim məsləhət komissiyasının bütün səlahiyyətlərinin həmin xəstəxananın Terapiya şöbəsinin müdiri vəzifəsində işləmiş Fəxrəddin Quliyevə həvalə etməsi, habelə sonuncunun Həkim məsləhət komissiyasının üzvü kimi 8 nəfər şəxsə əlillik dərəcəsi təyin edilməsi üçün xəstəxananın həkim terapevti Əminə Zamanova, Qaranüy kənd tibb məntəqəsinin müdiri vəzifəsində işləyən Dünya Qarayeva, Şəmkir rayon sakinləri Kifayət Abdıyeva və Həbayət Həsənovanın köməkçiliyi ilə ümumilikdə 20 min 800 manat pul vəsaitini rüşvət qismində almasına və həmin şəxslərin adına olan göndərişlərə saxta diaqnozlar qeyd edərək müvafiq elektron sistemə daxil edilməsi nəticəsində onlara qanunsuz olaraq əlillik dərəcəsi təyin edilməklə ümumilikdə 40 min manat məbləğində pensiya ödənilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında Fəxrəddin Quliyev və digər şəxslərə müvafiq olaraq Cinayət Məcəlləsinin 311.3.2 (rüşvət alma - təkrar törədildikdə) və digər maddələri ilə ittiham elan edilərək, Fəxrəddin Quliyev barəsində həbs, digər şəxslər barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilməklə cinayət işi baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

### Mülki şəxsin minaya düşməsi faktı ilə bağlı araşdırma aparılır

29 noyabr 2021-ci il tarixdə Cəbrayıl rayonunun işğaldan azad edilmiş Mehdili kəndi ərazisində 1980-ci il təvəllüdlü Natiq Mamedovun təmir-tikinti işləri apararkən minaya düşərək xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla müəyyən edilmişdir ki, Natiq Mamedovun qeyd edilən ərazidə minaya düşməsi nəticəsində sağ ayağı travmatik amputasiya olunub.

Faktla bağlı Cəbrayıl rayon prokurorluğunda araşdırma aparılmışdır.

### Bəhmətli kənd bələdiyyəsinin sədrinin qanunsuz əməlləri ilə bağlı cinayət işi başlanmışdır

Zaqatala rayon Bəhmətli kənd bələdiyyəsinin sədrinin qanunsuz hərəkətləri barədə rayon prokurorluğuna müraciət daxil olmuşdur.

Aparılmış araşdırmalarla bələdiyyənin sədri Həsrət Musayevin öz vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2018-2021-ci illər ərzində ümumilikdə 13 min 856 manat məbləğində bələdiyyə vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Zaqatala rayon prokurorluğunda Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 313 (vəzifə saxtakarlığı), 179.2.4-cü (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla mənimsəmə) maddələri ilə cinayət işi başlanmışdır.

### Criminal cases have been instituted in connection with the next provocations committed by Armenia

On November 16, at the behest of the Armenian military-political leadership, positions of the Azerbaijani Army in Kalbajar and Lachin districts were subjected to heavy shelling by the Armenian armed forces in blatant violation of the terms of the Tripartite Declaration dated November 10, 2020, including fundamental norms and principles of international law.

As a result of measures taken by the Azerbaijani Armed Forces, the provocation committed by Armenia on the state border was completely prevented.

However, we deeply regret to inform that due to provocation, 7 of our servicemen were killed and 10 were injured.

Servicemen who have fallen:

1) Aliyev Natig Yusif, born on 22.05.1989;

2) Niftaliyev Umud Oruj, born on October 20.10.1998;

3) Jabbarov Orkhan Hatam, born on 29.09.1994;

4) Aghayev Elchin Marifat, born on 9.11.2002;

5) Khalilov Murad Galib, born on 25.01.2003;

6) Aliyev Elchin Ramil, born on 11.12.2002;

7) Alizade Elmin Samir, born on 18.03.2003.

With regard to the facts above, a criminal case has been launched by the Military Prosecution Office under Articles 120.2.12 (murder on the grounds of national, racial, religious hatred or enmity) and 29, 120.2.12 (attempted murder on the grounds of national, racial, religious hatred or enmity) of the Criminal Code.

Necessary documentation is maintained and evidence is collected by the prosecution authorities of the Republic of Azerbaijan to ensure that servicemen of the provocative Armenian armed forces who have perpetrated various crimes are brought to justice and punished within the frames of international law.

## Xırdalan şəhəri ərazisində qanunsuz olaraq ağacların kəsilməsi ilə bağlı cinayət işi başlanmışdır

Abşeron rayonunun Xırdalan şəhəri ərazisində ağac və kol bitkilərinin kəsilərək məhv edilməsi barədə ETSN-in 4 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsindən rayon prokurorluğuna daxil olmuş məlumat əsasında araşdırma aparılmışdır.

Araşdırma ila müəyyən edilmişdir ki,qeyd edilən ərazidə 6 ədəd ayland ağacı və 2 ədəd lüqustr kolu kökboğazından kəsilərək məhv edilmiş və nəticədə təbiətə 1.860 manat məbləğində ziyan dəymişdir.

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 259.2.3-cü (qanunsuz ağac kəsmə şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) maddəsi ilə cinayət işi başlanaraq istintaqın aparılması Rayon Polis İdarəsinin İstintaq şöbəsinə tapşırılmışdır.

## Ermənistan Respublikasının vətəndaşı tərəfindən törədilmiş terror faktı ilə bağlı Baş Prokuror tərəfindən cinayət işi başlandı

13 noyabr 2021-ci il tarixdə saat 07:12-də Azərbaycan Respublikasının Xankəndi şəhərindən Xankəndi-Laçın şosse yolu ilə 48-MN-048 ER dövlət qeydiyyat nişanlı “Mercedes Benz” markalı avtomobillə Laçın şəhəri istiqamətində hərəkətdə olan Ermənistan Respublikasının vətəndaşı, 1975-ci il təvəllüdlü Norayr Mirzoyan və qeyriləri cinayətkar birlik halında “RQD-5” markalı əl qumbarası və digər odlu silah, partlayıcı maddələr əldə edib gəzdirməklə Azərbaycan Respublikasının ərazisində terror aktı törətmək, habelə qəsdən adam öldürmək məqsədilə idarə etdiyi avtomobildən düşüb Şuşa şəhərinin Daşaltı kəndinin yaxınlığında xidmət aparan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin N saylı hərbi hissəsinin və Rusiya Federasiyasının sülhməramlı kontingentinin hərbi qulluqçularının həyatını təhlükəyə atmaqla əl qumbarasını onların istiqamətində atmış, nəticədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, çavuş Hafiz Nəsibova və digərlərinə (cəmi üç nəfərə) müxtəlif dərəcəli bədən xəsarətləri yetirməklə milli düşmənçilik niyyətilə qəsdən öldürülmələrinə cəhd etmişdir.

Azərbaycan Respublikası Baş Prokuroru tərəfindən fakta görə Cinayət Məcəlləsinin 29, 120.2.1 (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürməyə cəhd), 29, 120.2.3, (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməyə cəhd), 29, 120.2.4 ( xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürməyə cəhd), 214.2.3 (terrorçuluq-odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3 (qanunsuz olaraq odlu silah, partlayıcı maddə əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə mütəşəkkil dəstə tərəfindən törədildikdə) və digər maddələri ilə cinayət işi başlanmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilmişdir.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri aparılır.

## Sumqayıt ərazisində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin üstü “isti izlərlə” açılmışdır

Prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Sumqayıt ərazisində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin “isti izlərlə” açılması təmin edilmişdir.

Belə ki, noyabrın 9-u saat 20 radələrində Sumqayıt şəhər sakini 1945-ci il təvəllüdlü Züleyxa Osmanovaya məxsus üzərində xəsarət izləri olan meyitinin yaşadığı evdə aşkar edilməsi faktı ilə bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır.

İstintaq və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, Sumqayıt şəhər sakini Xanəhməd Rüstəmov oğurluq məqsədilə Züleyxa Osmanovanın evinə daxil olmuş, sonuncunun evdə olduğunu bildikdən sonra daş parçası ilə onun baş nahiyəsinə xəsarətlər yetirmiş, daha sonra isə boğaraq öldürmüşdür.

Xanəhməd Rüstəmov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir.

# Baş prokuror Litvanın ölkəmizdəki səfiri ilə görüşüb






Noyabrın 19-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Litvanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikasla görüşüb.

Görüşdə Baş prokuror ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında həyata keçirilən islahatlar, prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ-hüquqi bazanın yaradılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

Litvanın hüquq mühafizə orqanları ilə illərdir uğurla davam edən səmərəli hüquqi əməkdaşlıqdan məmnunluq ifadə edilərək Avropa İttifaqının Tvininq layihəsi çərçivəsində Litvanın Xüsusi İstintaq İdarəsi və Azərbaycan Prokurorluğu arasında cinayət yolu ilə əldə olunmuş gəlirlərin qaytarılması və əmlakın bərpası sahəsində gələcək layihələr müzakirə olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Eqidius Navikas ikitərəfli münasibətlərə toxunaraq təmsil etdiyi ölkənin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini qeyd edib. Səfir ölkələrimizin hüquq mühafizə orqanları arasında faydalı əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə edib.

# Baş prokuror Koreya Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb



Noyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opla görüşüb.

Görüşdə Baş prokuror ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında həyata keçirilən islahatlar, prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ-hüquqi bazanın yaradılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

Koreyanın hüquq mühafizə orqanları ilə illərdir uğurla davam edən səmərəli hüquqi əməkdaşlıqdan məmnunluq ifadə edilərək Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən həyata keçirilən layihələrin ölkəmizin hüquq mühafizə orqanlarının inkişafı üçün vacibliyi vurğulanmış, Kamran Əliyev tərəfindən gələcəkdə KOİCA ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlığın davam etdirilməsi və bu istiqamətdə işlərin gücləndirilməsi barədə  təklif irəli sürülmüşdür.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Kim Tonq Op ikitərəfli münasibətlərə toxunaraq təmsil etdiyi ölkənin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini qeyd etmişdir. Səfir ölkələrimizin hüquq mühafizə orqanları arasında faydalı əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə edərək Baş prokurorun irəli sürdüyü təklifi dəstəkləmiş və bu istiqamətdə zəruri tədbirlərin keçiriləcəyini qeyd etmişdir.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.









# Türkiyə Respublikasının Ankara şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dəstəyi ilə təşkilata üzv dövlətlərin hakim və prokurorlarının tədris müəssisələrinin ilk iclası keçirilmişdir






Azərbaycan Respublikası Baş Prokurorluğu ilə Türkdilli dövlətlərin hüquq mühafizə orqanları akademiyaları və təlim mərkəzləri arasında mövcud əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər davam etdirilir.

Cari ilin 5-8 oktyabr tarixlərində Türkiyə Respublikasının Ankara şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dəstəyi ilə təşkilata üzv dövlətlərin hakim və prokurorlarının tədris müəssisələrinin ilk iclası keçirilmişdir.

Türkiyə Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə təşkil edilən tədbirdə üzv dövlətlərin müvafiq ədliyyə və prokurorluq təlim müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi, Covid-19 pandemiyası dövründə ədliyyə sisteminin fəaliyyətinə dair təcrübə mübadiləsi məsələləri, ən əsası isə “Türk Ədliyyə Akademiyaları Birliyi”nin təsis edilməsi ilə bağlı ilkin təşəbbüslər müzakirə edilmişdir.

Tədbirdə Baş Prokurorluğu Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov təmsil etmişdir. Baş Prokurorluğun nümayəndəsi prokurorluq orqanlarında həyata keçirilən islahatlar, eləcə də Elm-Tədris Mərkəzinin fəaliyyəti barədə geniş məlumat vermişdir.



Tədbir iştirakçıları Türkiyə Respublikasının Ədliyyə naziri Abdulhamid Gül, Ali Məhkəmənin sədri Mehmet Akarca, Ali Məhkəmənin Baş prokuroru  Bekir Şahin, eləcə də digər dövlət rəsmiləri tərəfindən qəbul edilmiş, ədalət mühakiməsi sahəsində ən mühüm təsisatların fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Səfər çərçivəsində Türkdilli dövlətlərin ədliyyə və prokurorluq təlim müəssisələri arasında əməkdaşlığın daha da intensivləşdirilməsi istiqamətində ardıcıl tədbirlərin davam etdirilməsi barədə ümumi razılıq əldə edilmişdir.

## Beynəlxalq Anti-Korrupsiya Akademiyası beynəlxalq təşkilatının Üzv Dövlətlərinin Onuncu Sessiyasının növbəti iclası keçirilmişdir




27 oktyabr 2021-ci il tarixdə Avstriyanın paytaxtı Vyana şəhərində BMT-nin Qərargahında  Azərbaycan Respublikasının üzv olduğu Beynəlxalq Anti-Korrupsiya Akademiyası beynəlxalq təşkilatının Üzv Dövlətlərinin Onuncu Sessiyasının növbəti iclası keçirilmişdir.

Onuncu sessiyada həmin beynəlxalq təşkilatın idarə edilməsi ilə bağlı mühüm qərarlar  qəbul edilmiş, o cümlədən  Akademiyanın rəhbər qurumu olan İdarə Heyətinə seçkilər keçirilmişdir. Avropa Regionundan Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Musayev Elnur Novruz oğlunun namizədliyi irəli sürülmüşdür.

Namizədlər Beynəlxalq Anti-Korrupsiya Akademiyasının növbəti illərdə inkişafı və nüfuzunun artırılması ilə bağlı platforma xarakterli təqdimatlarla çıxış etmişlər.

Gərgin rəqabət şəraitində keçən seçkidə E.Musayev səs çoxluğu ilə Avropa regionu üzrə İdarə Heyətinə üzv seçilmişdir.

# Prokurorluq əməkdaşları Türkiyənin Ankara şəhərində 10 günlük təcrübə mübadiləsində olub






Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahinin ölkəmizə rəsmi səfəri zamanı imzalanmış Anlaşma Memorandumunun icrası çərçivəsində təcrübə mübadiləsi aparmaq üçün Azərbaycan Respublikası Baş Prokurorluğunun, Hərbi Prokurorluğun, Bakı şəhər və Naxçıvan Muxtar Respublikası prokurorluqlarının əməkdaşlarından ibarət 11 nəfərlik heyət 18-28 okyabr tarixlərində Türkiyənin paytaxtı Ankara şəhərində səfərdə olub.

Nümayəndə heyəti tərəfindən Ankarada xalqımızın Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin adını daşıyan park ziyarət edilib, abidəsi önünə tər gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad olu-nub.

Prokurorluq əməkdaşları, həmçinin, Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün Mavzoleyini - Anıtqəbirini ziyarət ediblər.









Səfər zamanı Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahin və Türkiyə Respublikasının Ali Məhkəməsinin sədri Mehmet Akarca Azərbaycan nümayəndə heyətini qəbul edib.

Azərbaycan və Türkiyə prokurorluqları arasında münasibətlərin daha intensivləşməsi və faydalı olması üçün kifayət qədər əsaslar olduğunu qeyd edən Bəkir Şahin əməkdaşlığın həm dövlətlərimiz, həm xalqlarımız və həm də hər iki dövlətin prokurorluqlarının mənafeyinə xidmət etdiyini vurğulayıb.

Prokurorluq orqanlarının müxtəlif struktur qurumlarını təmsil edən heyət üzvləri səfər çərçivəsində qardaş ölkənin Ali Məhkəməsi və Baş Prokurorluğunun yeni inzibati kompleksi ilə tanış olub, eləcə də Ankara Ədliyyəsi, Ankara Bölgə Ədliyyə Məhkəməsi, Türkiyə Ədalət Aka-

demiyasında təşkil olunmuş seminarlarda iştirak edib.

Heyət üzvləri, həmçinin Sincan Qapalı Cəza İcra Qurumuna səfər etmiş, Türkiyə hüquq sistemində cəzaların icrası zamanı prokurorluq əməkdaşlarının fəaliyyəti ilə yaxından tanış olub.

Azərbaycan Prokurorluğunun əməkdaşları ilə türkiyəli həmkarları arasında hüquqi sahədə fikir mübadilələri və müzakirələr aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.






10 günlük təcrübə mübadiləsindən sonra ölkəmizə geri qayıdan nümayəndə heyəti Baş Prokuror Kamran Əliyev tərəfindən qəbul edilib.

Heyət üzvləri səfər zamanı əldə etdikləri səmərəli təcrübə ilə bağlı Baş Prokurora məlumat vermiş, mübadilə zamanı göstərilmiş səmimi və doğma münasibətdən məmnunluq ifadə etmişlər.

Qardaş ölkələrimiz arasındakı qarşılıqlı hüquqi əməkdaşlığın genişləndirilməsinin və təcrübə mübadilələrinin aparılmasının hər iki ölkənin prokurorluq orqanlarının fəaliyyətinə müsbət töhfə verəcəyindən əminliyini ifadə edən Kamran Əliyev hüquqi sahədə beynəlxalq təcrübə mübadiləsinin hər zaman diqqət mərkəzində saxlanıldığını qeyd edib.

# Ukrayna Baş Prokurorunun Ofisi ilə əməkdaşlıq uğurla davam etdirilir

Noyabrın 18-19 tarixlərində Ukrayna Baş Prokuroru Ofisinin təşəbbüsü ilə Kiyev şəhərində Kiber Təhlükəsizlik mövzusunda Beynəlxalq Forum təşkil edilmişdir.




25 ölkədən 100-dən çox nümayəndənin iştirak etdiyi Forumda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov və Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev təmsil etmişlər.

Tədbirdə kibertəhlükəsizlik, bu sahədə hazırki vəziyyət, gələcək meyllər, kibercinayətkırlıqla mübarizə sahəsində beynəlxalq və milli təcrübə, beynəlxalq əməkdaşlıq və digər aktual məsələlər ətrafında səmərəli müzakirələr aparılmış, ekspertlər forum iştirakçıları ilə öz təcrübələrini bölüşmüşlər.

Beynəlxalq Forumda təqdimatla çıxış edən nümayəndəmiz tərəfindən ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hüquq sahəsində həyata keçirilən uğurlu siyasətin tərkib hissəsi kimi digər cinayətlərlə yanaşı kibercinayətkarlıqla mübarizə, bu sahədə müşahidə olunan aktual aspektlər, milli qanunvericilik, onunla mübarizədə yeni imkanlar, çətinliklər və başqa məsələlər barədə iştirakçılara ətraflı məlumat verilmiş, suallar cavablandırılmışdır.

Səfər çərçivəsində Baş Prokurorluğun nümayəndə heyəti ilə Ukrayna Prokurorluğunun Elm-Tədris Mərkəzinin direktoru Olesia Otradnova arasında işgüzar görüş baş tutmuşdur.

Görüş zamanı həmçinin, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyət istiqamətləri üzrə əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumat verilmiş, hər iki ölkənin prokurorluq orqanları arasında elm-tədris sahəsində əməkdaşlığın inkişafı barədə fikir mübadiləsi aparılmışdır.





# Azərbaycan Respublikası Baş Prokurorluğunun bir qrup əməkdaşı Rusiya Federasiyasında səfərdə olmuşdur



Azərbaycan və Rusiya Baş Prokurorluqları arasında imzalanmış 24 iyun 2019-cu il tarixli "Əməkdaşlıq haqqında Saziş"in icrası ilə əlaqədar 2021-2023 illəri əhatə edən Əməkdaşlıq proqramının 1-ci bəndinə uyğun olaraq "Prokurorların məhkəmələr tərəfindən baxılan mülki və arbitraj, eləcə də inzibati xətalara dair işlərdə iştiraklarının təmin edilməsi istiqamətində işin təşkili" mövzusunda Moskva şəhərində 29-30 noyabr 2021-ci il tarixlərdə keçirilmiş tədbirdə bir qrup prokurorluq əməkdaşı iştirak etmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəis müavini Şəmşir Şəmşirlinin rəhbərlik etdiyi qrupun tərkibində CTKİİ-nin prokuroru Babək Zakirzadə, Səbail rayon prokurorunun köməkçisi Hillal Abbasov və Qazax rayon prokurorunun köməkçisi Tərlan Kərimov görüşlərdə iştirak etmişlər.

Nümayəndə heyətinin üzvləri Rusiya Federasiyası Baş Prokurorluğunun Mülki Mühakimə Baş İdarəsi və onun tərkibində olan Mülki, İnzibati və Arbitraj İşlərində Məhkəmə Baxışlarında Prokurorların İştirakının Təmin Edilməsi İdarəsinin, Federal Qanunvericiliyin İcrasına Nəzarət Baş İdarəsinin Azyaşlıların Hüquq, Azadlıqlarının və Maraqlarının Təmin Edilməsi İdarəsinin, Hüquqi Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin və digər struktur qurumlarının rəhbərliyi və əməkdaşları ilə görüşlər keçirmişlər. Rusiya Federasiyasında ictimai maraqların, xüsusilə də ətraf mühitin qorunması və əhalinin həssas qruplarının maraqlarının qorunması, bu məqsədlə mülki iddiaların qaldırılması, inzibati icraatların başlanması təcrübəsi öyrənilmiş, hüquqi ədəbiyyat və informasiya resurslarından davamlı istifadə edilməsi məsələsi müzakirə olunmuşdur.

Eyni zamanda nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin ətraf mühitin qorunması, yetkinlik yaşına çatmayan şəxslərin maraqlarının qorunması məqsədilə gördüyü işlər, mövcud qanunvericiliyin tələbləri barədə rusiyalı həmkarlarına məlumat vermişlər.

Daha sonra, Rusiya Federasiyasının Baş Prokurorluğunun əməkdaşlarına cinayət təqibindən kənar icraatlar sahəsində prokuror fəaliyyəti üzrə toplanmış təcrübənin öyrənilməsinin zəruriliyi vurğulanmış, bu sahədə əməkdaşlığın perspektivləri müzakirə edilmişdir.

Azərbaycan Respublikasının prokurorluq orqanlarında həyata keçirilmiş islahatlar, xüsusilə şəffaflığın və cavabdehliyin təmin edilməsi məqsədilə mütərəqqi Avropa və dünya standartlarının tətbiqi istiqamətində görülmüş tədbirlər Rusiya Federasiyası Baş Prokurorluğunda xüsusi maraqla qarşılanmışdır.

"Əməkdaşlıq haqqında" Saziş hər iki ölkənin Baş Prokurorluqları arasında əlaqələrin daha da dərinləşməsi və möhkəmlənməsinə xidmət edir.

# Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin əməkdaşları Brüssel şəhərində keçirilmiş tədris proqramında iştirak etmişlər




Cinayət yolu ilə əldə edilmiş aktivlərin qaytarılmasının səmərəliliyinin artırılması məqsədilə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrinə dəstək proqramı çərçivəsində BMT-nin Beynəlxalq cinayətkarlıq və ədalət mühakiməsi məsələləri üzrə elmi-tədqiqat institutu (UNİCRİ) tərəfindən cari ilin 30 noyabr-1 dekabr tarixlərində Belçika Krallığının Brüssel şəhərinə tədris turu təşkil edilmişdir. Həmin tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğunu Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev və həmin idarənin prokuroru Əhməd Həsənov təmsil etmişlər.

Tədbir "Cinayət yolu ilə əldə edilmiş gəlirlərin izlənməsi, dondurulması, üzərinə həbs qoyulması, müsadirəsi və idarə olunması sahəsində ən yaxşı təcrübənin öyrənilməsi" mövzusunda olmaqla, Belçika Prokurorluğunun Əmlakın həbsi və müsadirəsi üzrə mərkəzi ofisinin (COSC) fəaliyyəti ilə tanışlıq xarakteri daşımışdır.

Tədbirin ilk günü Avropa İttifaqı tərəfindən maliyyələşdirilən aktivlərin bərpası sahəsində səylərin gücləndirilməsi istiqamətində görülən işlər və Belçika Prokurorluğunun Əmlakın həbsi və müsadirəsi üzrə mərkəzi ofisi tərəfindən təqdimatlar nümayiş etdirilmiş, Aktivlərin bərpası üzrə qurumlararası şəbəkələrlə (ARO-CARİN) beynəlxalq əməkdaşlıq və SİENA (Təhlükəsiz məlumat mübadiləsi şəbəkəsi) platformasından istifadəyə dair məlumat verilmiş, dəyirmi masa müzakirələri aparılmışdır.

Tədbirin ikinci günü müsadirə olunmuş daşınar əmlakların satışı üzrə Federal Xidmət Mərkəzinin işi ilə yerində tanışlıq olmuş, qurumun Əmlakın həbsi və müsadirəsi üzrə mərkəzi ofisi ilə qarşılıqlı əlaqəsi, müsadirə olunmuş əmlakların mərkəzə ötürülməsi, hərrac vasitəsilə onlayn və digər üsullarla satış qaydaları, əldə edilmiş vəsaitlərin sosial məqsədlər üçün yönəldilməsi barədə məlumatlar əldə edilmişdir.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə davam etdirilən islahatlar çərçivəsində Baş prokurorluğun yeni strukturunun təsdiq edilməklə Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin təsis edilməsi, idarə tərəfindən vurulmuş ziyanın ödənilməsi və xüsusi müsadirənin təmin edilməsi ilə əlaqədar prokurorluğun struktur qurumlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində görülən işlər diqqətə çatdırılmışdır. Həmçinin aktivlərin aşkar edilməsi, izlənməsi, bərpası sahəsində səmərəli mexanizm yaradılması, mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsinə yönəldilmiş "Tvinninq" layihəsi üzrə tərəfdaş seçilməklə yaxın zamanlarda icrasına başlanılacağı barədə məlumat verilmişdir.

# Azərbaycan Prokurorluğu əldə etdiyi nailiyyətlərə görə beynəlxalq təşkilatın mükafatına layiq görülmüşdür




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq milli prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN) ilə səmərəli əməkdaşlığını davam etdirməkdədir.

Belə ki, cari ilin 1-2 dekabr tarixlərində Litva Respublikasının paytaxtı Vilnüs şəhərində həmin ölkənin Xüsusi İstintaq Xidmətinin (STT) təşkilatçılığı ilə EPAC/EACN-ın 20-ci ildönümünə həsr olunmuş Peşəkar Konfransı və Baş Assambleya İclası keçirilmişdir. Avropa İttifaqı çərçivəsində fəaliyyət göstərən regional təşkilatların, habelə EPAC/EACN-a tərəfdaş olan ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlarının yüksək vəzifəli nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyev təmsil etmişdir.

Yüksək səviyyəli tədbirin açılış mərasimində çıxış edən Litva Respublikası Prezidentinin nümayəndəsi Darius Kulieşius dövlət başçısı cənab Gitanas Nausedanın müraciətini iclas iştirakçılarının diqqətinə çatdırmış, daha sonra söz alan STT-nin Direktoru Jidrunas Bartkus konfransın işini açıq elan edərək qarşıda duran məqsəd və vəzifələr barədə danışmışdır.

Ardınca tədbir iştirakçıları tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində əldə olunmuş müsbət təcrübələrə dair fikir mübadiləsi aparılmış, bu sahədə yaranan problemlər və onların həlli yolları müzakirə edilmişdir.

Tədbirin "Korrupsiya qarşı mübarizə sahəsində milli və regional təcrübəsinə dair EPAC/EACN-2021 mükafatı"na həsr olunmuş sessiyasında çıxış edən nümayəndəmiz korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin başlıca istiqamətlərindən biri olduğunu vurğulamış, həmin sahədə həyata keçirilən mütərəqqi hüquqi və institusional tədbirləri iştirakçıların diqqətinə çatdırmış, korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin uğurlu və innovativ nümunəsini təşkil edən "ASAN xidmət" və "DOST" modelləri barədə onlara geniş məlumat vermişdir.

Sessiyanın sonunda Azərbaycan Prokurorluğu korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi nailiyyətlərə görə EPAC/EACN 2021 mükafatı ilə təltif edilmişdir.

Bundan başqa, tədbirdə EPAC/EACN-ın Avropa Birliyində Dürüstlük İşçi Qrupu tərəfindən dürüstlük və anti-korrupsiya standartları üzrə hazırlanmış metodik tövsiyənin təqdimatı həyata keçirilmişdir. Qeyd olunan materialda Azərbaycan Respublikasının Prokurorluğunun metodologiyası da öz əksini tapmışdır.

Tədbirin sonunda EPAC/EACN-nin Prezidenti vəzifəsinə seçkilər keçirilmiş və həmin vəzifəyə Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin Direktoru cənab Jidrunas Bartkus seçilmişdir.









## Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşı Bolqarıstan Respublikasında səfərdə olmuşdur

Cari ilin 30 noyabr - 1 dekabr tarixlərində Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində İNTERPOL-un "Geiger" layihəsinin İşçi qrupunun Qara Dəniz, Qafqaz və Mərkəzi Asiya regionlarının müvafiq strukturlarının nümayəndələri ilə görüşü keçirilmişdir.

Radioloji və nüvə terrorçuluğu ilə mübarizə məsələlərini əhatə edən "Geiger" layihəsi üzrə işçi qrupun məqsədi, regional və qlobal səviyyələrdə məlumat mübadiləsini artırmaqla radioloji və nüvə terrorçuluğu təhlükəsinin qarşısının alınmasında üzv ölkələrə yardım etməkdən ibarətdir.

Tədbirdə təqdimatla çıxış edən Azərbaycan Respublikasının Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin  prokuroru Kamran Həsənov ölkəmizin terrorçuluğa qarşı mübarizəyə fəal töhfə verdiyi qeyd edərək, dövlətin hüquq mühafizə sistemi haqqında ətraflı məlumat vermiş, milli qanunvericilikdə terrorçuluq, radioaktiv materiallarla qanunsuz davranma, onların talanması və hədə-qorxu ilə tələb edilməsi ilə bağlı işlərin ibtidai istintaqı zamanı prokurorluğun rolu və üzərinə düşən vəzifələr haqqında danışmışdır.

Görüşün yekununda INTERPOL nümayəndələri ilə ikitərəfli görüş keçirilmiş və "Geiger" layihəsi çərçivəsində yaradılacaq Analitik altqrupun gələcək əməkdaşlıq istiqamətlərinin perspektivləri müzakirə edilmişdir.

## Prokurorluq orqanlarının öz xarici tərəfdaşları ilə beynəlxalq əməkdaşlığı davam etdirilir



Korrupsiyaya qarşı mübarizənin transmilli xüsusiyyətləri və ona qarşı qlobal mübarizənin labüdlüyü nəzərə alınmaqla prokurorluq orqanlarının beynəlxalq təşkilatlarla, habelə xarici ölkələrin bu sahədə ixtisaslaşmış qurumları ilə əməkdaşlığı davam etdirilir.

Belə tədbirlərdən biri kimi, cari ilin dekabrın 3-də Özbəkistan Respublikasında keçirilmiş "Korrupsiyaya qarşı Mübarizə və Şəffaflıq" adlı Beynəlxalq Daşkənd Forumunda Azərbaycan Respublikası




Baş prokurorunun müavini-Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi, tərkibinə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov və həmin idarənin prokuroru Kamil Kamillinin daxil olduğu nümayəndə heyəti iştirak etmişdir.

Müxtəlif beynəlxalq təşkilatların, xarici ölkələrin ixtisaslaşmış qurumlarının, habelə ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirdə çıxış edən Nazim Rəcəbov ölkəmizin korrupsiyaya qarşı mübarizə təcrübəsini iştirakçılarla bölüşərək, bu sahədə ölkəmizdə həyata keçirilmiş ardıcıl və sistemli qabaqlayıcı tədbirlər, aparılmış hüquqi və institusional islahatlar, eləcə də əldə edilmiş digər nailiyyətlər barədə geniş məlumat vermişdir.

Həmçinin, səfər çərçivəsində Baş İdarə rəisi Nazim Rəcəbovla Özbəkistan Respublikasının Baş prokuroru Niqmatilla Yuldoşev, Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanov və Baş Prokurorluğun Akademiyasının rəhbəri Yevgeniy Kolenko arasında keçirilmiş ikitərəfli görüşlərdə qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə edilmiş, habelə nümayəndə heyətinə sözügedən qurumların fəaliyyəti barədə ətraflı məlumat verilmişdir.



Bundan başqa, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Özbəkistan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyası arasında formalaşmış səmərəli əməkdaşlığın növbəti təzahürü kimi iki qurum arasında Anlaşma Memorandumu imzalanmışdır.

Səfər zamanı nümayəndə heyəti Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Mədəniyyət Mərkəzini ziyarət edərək



mərkəzin fəaliyyəti ilə yaxından tanış olmuş, Ümummilli Lider Heydər Əliyevin büstü üzərinə əklil qoyularaq, xatirəsi ehtiramla yad edilmişdir.



## Baş Prokurorluğun idarə rəisi digər ölkələrin qiymətləndirilməsində iştirak etmişdir

GRECO
Group of States against Corruption
Groupe d'États contre la corruption



Dekabrın 7-də Fransanın Strasburq şəhərində Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupu–GRECO-nun 89-cu Plenar İclası hibrid rejimdə–distant və əyani şəkildə keçirilmişdir.

İclasda iştirak edən Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev beynəlxalq antikorrupsiya mütəxəssisi qismində Litva və Moldova Respublikalarının qiymətləndirilməsini həyata keçirmişdir. Belə ki, E.Musayev İsveç, İspaniya və Latviyalı mütəxəssislər ilə birgə Litva Respublikasında "Mərkəzi İcra Hakimiyyəti və Hüquq Mühafizə orqanlarında korrupsiyanın qarşısının alınması" sahəsində qiymətləndirməni həyata keçirərək Litvanın Polisi və Sərhəd Xidmətinə dair tövsiyələr hazırlamışdır. Şəffaflığın artırılması, etik davranışın gücləndirilməsi, maraqlar toqquşmasının aradan qaldırılması sahəsində real tədbirlərin həyata keçirilməsi, qanun pozuntularına görə intizam və məsuliyyətin tətbiq edilməsinə dair ölkə üzrə vahid təcrübənin formalaşdırılması, polis əməkdaşlarının bu sahədə təlimləndirilməsi və istiqamətləndirilməsi üçün lazımi infrastrukturun təşkil edilməsi, o cümlədən mütəmadi şəkildə hazırlıq kurslarının keçirilməsinə dair tövsiyələri əks etdirən hesabat layihəsi plenar iclasda qəbul edilmişdir.

Eyni zamanda, E.Musayev "Deputatlar, hakimlər və hakimlərin fəaliyyətində korrupsiyanın qarşısının alınması" sahəsində Portuqaliyalı ekspert ilə yanaşı əvvəlki dəyərləndirmə mərhələsində verilmiş tövsiyələrin icrası ilə əlaqədar görülmüş işləri qiymətləndirmişdir. Moldovanın hakim korpusuna etimadın gücləndirilməsi, Moldovanın Məhkəmə-Hüquq Şurasının tərkibi, moldovalı hakim və prokurorlarının fəaliyyətinin qiymətləndirilməsi, şəffaflığın artırılması sahəsində görülən praktiki tədbirlərin həyata keçirilməsində müəyyən işlərin görülməsi qeyd olunmuş, bu istiqamətdə fəaliyyətin davam etdirilməsi vurğulanmışdır. Azərbaycanlı mütəxəssisin hazırladığı hesabat da Plenar iclasda qəbul edilmişdir.

GRECO-nun növbəti iclasının gələn ilin mart ayında keçirilməsi planlaşdırılır.

## Baş Prokurorluğun nümayəndəsi Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən təşkil edilmiş tədbirdə iştirak etmişdir



Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair qarşıya qoyulmuş hədəflərə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Belə ki, cari ilin 11-12 dekabr tarixlərində Misir Ərəb Respublikasının Şarm-əş-Şeyx şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən yaradılmış "Təmiz İpək Yolu Pekin Təşəbbüsü" Şəbəkəsinin ilk iclası keçirilmişdir.

Qeyd edək ki, 2019-cu ilin 14-15 noyabr tarixlərində Çin Xalq Respublikasının Pekin şəhərində təşkil olunmuş İkinci "Bir Kəmər, Bir Yol- Beynəlxalq Əməkdaşlıq Forumu" zamanı irəli sürülən "Təmiz İpək Yolu Pekin Təşəbbüsü" sözügedən region ölkələrində korrupsiyaya qarşı mübarizə və aktivlərin bərpası üzrə əməkdaşlıq, habelə effektiv və şəffaf təsisatların yaradılması çağırışlarına uyğun olaraq yaradılmış bir layihədir.

BMT-nin nümayəndələrinin, Türkiyə, Çin, İran, Albaniya, Qırğızıstan, Monqolustan, Özbəkistan və digər dövlətlərin təmsilçilərinin qatıldığı tədbirdə ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Kamil Kamilli təmsil etmişdir.

Müvafiq təşəbbüsə qoşulmuş üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi, eləcə də beynəlxalq investisiyalar sahəsində korrupsiya hüquqpozmalarının qarşısının alınması və digər aktual mövzular ətrafında geniş müzakirələrin aparıldığı görüşdə nümayəndəmiz çıxış edərək ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş effektiv tədbirlər haqqında iştirakçıları məlumatlandırmışdır.

Eyni zamanda tədbir iştirakçılarına ölkəmizdə biznesin inkişafına əlverişli şəraitin yaradılması, hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun tətbiqi vəziyyəti, eləcə də digər yeniliklər barədə də ətraflı məlumat vermişdir.



# Özbəkistanın prokurorluq orqanları ilə əməkdaşlıq uğurla davam etdirilir










Dekabrın 16-da Özbəkistan Respublikasının Daşkənd şəhərində hibrid formatda Özbəkistan Prokurorluğunun yaradılmasının 30-cu ildönümünə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Müxtəlif ölkələrin hüquq mühafizə orqanlarının rəhbərləri, həmçinin nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi konfransda Azərbaycan prokurorluğu Baş prokurorun müavini Elmar Camalovun rəhbərlik etdiyi nümayəndə heyəti videokonfrans vasitəsilə təmsil olunmuşdur.

Elmar Camalov çıxış edərək Özbəkistan Prokurorluğunun yaradılmasının 30-cu ildönümü münasibətilə təbriklərini çatdırmaqla, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi hüquq sistemində də aparılan islahatlar, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanı ilə yaradılmış “Elektron prokurorluq” informasiya sisteminin tətbiqi barədə konfrans iştirakçılarına geniş məlumat vermişdir.

Baş prokurorun müavini Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər, işğaldan azad edilən ərazilərimizdə həyata keçiriləcək geniş quruculuq-bərpa işləri və layihələr, post-müharibə dövrünün regionumuz üçün açdığı yeni imkanların əhəmiyyətindən danışmışdır.

Bundan sonra Konfrans öz işini prokurorluq orqanlarının müxtəlif sahələrdə fəaliyyətinə həsr olunmuş panel müzakirələri formatında davam etdirmişdir.

# Nüfuzlu beynəlxalq təşkilat tərəfindən Azərbaycan Prokurorluğunun istintaq təcrübəsinə maraq ifadə olunmuşdur






Prokurorluq orqanlarının başlıca fəaliyyət istiqamətləri üzrə effektivliyin tam təmin olunması məqsədi ilə görülən işlərdən biri kimi qurumun beynəlxalq tərəfdaşlarla işgüzar əlaqələri daim diqqət mərkəzində saxlanılmaqdadır.

Belə əməkdaşlıq platformalarından biri kimi çıxış edən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi (ACN) tərəfindən "COVID-19 pandemiyası və digər böhranlar zamanı korrupsiyaya qarşı mübarizə" mövzusunda vebinarın keçirilməsi ilə əlaqədar ölkəmizin bu sahədə əldə etdiyi müsbət istintaq təcrübəsi barədə Şəbəkəyə üzv olan və digər region dövlətlərinin nümayəndələrinə məlumat verilməsi xahiş edilmişdir.

Cari ilin 21 dekabr tarixində İspaniya, Latviya, Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan və digər bu kimi dövlətlərin hüquq-mühafizə orqanlarının müvafiq sahədə ixtisaslaşmış əməkdaşlarının iştirakı ilə virtual qaydada keçirilmiş sözügedən tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov geniş ictimai rezonansa səbəb olan pandemiya dövrünə xarakterik korrupsiya hüquqpozmaları ilə bağlı ölkəmizin prokurorluq orqanları tərəfindən aparılmış, cinayət işlərinin istintaqı təcrübəsi barədə təqdimatla çıxış etmişdir.

Eyni zamanda, tədbirdə Rumıniya və Qazaxıstan respublikalarının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış hüquq-mühafizə orqanlarının nümayəndləri də öz ölkələrində analoji sahədə baş verən qanunsuzluqlarla bağlı aparılmış cinayət işlərinin istintaq metodları və formalaşmış müsbət təcrübəyə dair çıxışlar etmiş, sonda aktual mövzu üzrə fikir mübadiləsi aparılmaqla iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# Prokurorluq BMT-nin qurumları ilə əlaqələri genişləndirir











Dekabrın 22-də BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin (BMTNCİ) Mərkəzi Asiya üzrə regional nümayəndəsi Aşita Mittalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Baş Prokurorluqda görüş keçirilmişdir.

Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, qurumun cinayətkarlığın müxtəlif təzahürlərinə qarşı mübarizə, ictimai maraqların qorunması, cinayət yolu ilə əldə olunmuş əmlakın bərpası və sair fəaliyyət istiqamətləri barədə məlumat verərək, bu sahədə uğurlu beynəlxalq təcrübədən geniş istifadə olunduğunu diqqətə çatdırmışdır.

44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü bərpa etməsi münasibətilə Azərbaycan tərəfini təbrik edən xanım Aşita Mittal post-müharibə dövründə beynəlxalq əməkdaşlığın müxtəlif sahələrdə olduğu kimi hüquqi sahədə də uğurlar əldə olunacağına ümidvar olduğunu bildirmişdir.

BMT rəsmisi cari ilin 13-17 dekabr tarixlərində Misirin Şarm əl-Şeyx şəhərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının 9-cu sessiyasında aktiv iştirakına görə Baş prokuror Kamran Əliyevə minnətdarlığını bildirərək qurumlar arasındakı əməkdaşlığın uğurla davam etdiriləcəyinə öz inamını ifadə etmişdir.

Daha sonra BMTNCİ-nin Mərkəzi Asiya üzrə Regional Ofisi tərəfindən hazırlanmış 2022-2025-ci illər üçün Azərbaycan Respublikası və BMTNCİ arasında Əməkdaşlıq üzrə Yol Xəritəsinin layihəsində yer alan məsələlər ətrafında səmərəli müzakirələr aparılmış, müvafiq təkliflər səsləndirilmişdir.

# "Azərbaycan iqtisadiyyatının inkişafında Ulu öndər Heydər Əliyevin rolu"



Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasət və dövlət xadimi Ulu öndər Heydər Əliyev bütün ömrünü Azərbaycanın tərəqqisinə, inkişafına, xalqımızın xoş günlərə qovuşmasına həsr etmişdir.

Heydər Əliyev həmişə hesab etmişdir ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir və istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur.

Heydər Əliyev həm sovetlər, həm də müstəqillik dövründə Azərbaycan iqtisadiyyatının inkişafına böyük önəm vermiş və bu istiqamətdə əvəzolunmaz xidmətləri olmuşdur.

Heydər Əliyev 1969-cu ildə Azərbaycanın rəhbəri seçilənə qədər respublikamızın iqtisadiyyatında ağır vəziyyət yaranmış və aqrar respublika kimi qəbul edilməklə əsas sosial-iqtisadi göstəricilərə görə ittifaqda axırıncı yeri tutmuşdur. Sovetlər zamanında ittifaqa daxil olan respublikaların rəhbərləri bir qayda olaraq mərkəzdən müəyyən edilən qaydalar əsasında fəaliyyət göstərmiş və hər bir mühüm məsələ SSRİ dövlətinin nəzarətində olmuşdur. Heydər Əliyev isə 1969-cu ildə Azərbaycanın rəhbəri seçildikdən sonra bütün məhdudiyyətlərə və çətinliklərə baxmayaraq iqtisadiyyatda yaranmış ağır vəziyyətin və onu doğuran səbəblərin sistemli təhlilini aparmış, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirmiş, qısa vaxt ərzində İttifaq hökuməti tərəfindən Azərbaycanın gələcək iqtisadi həyatı ilə bağlı inkişafına dair xüsusi qərarlarının qəbul edilməsinə nail olmuşdur. Məhz Heydər Əliyev rəhbərliyə başladıqdan sonra respublikamızda milli gəlir, sənaye, kənd təsərrüfatı məhsulları istehsalında 60-cı illərdəki gerilik aradan qaldırılmış, yeni keyfiyyətli inkişafın fundamental əsaslarının möhkəmləndirilməsi üçün xeyli iş görülmüş və gərgin əməyi sayəsində Azərbaycan digər SSRİ respublikaları arasında önə çıxmışdır.

O, hər zaman Azərbaycan xalqını, onun maraq və mənafeyini bütün maraqlardan üstün tutmuş, dəfələrlə xalqımızın və dövlətimizin əleyhinə qərar qəbul edilməsinə mane olmuş, mötəbər tribunalardan dəyərli, tutarlı və kəskin fikirləri ilə əleyhdarlarını yerində oturtmuşdur.

Heydər Əliyev respublika iqtisadiyyatının uzaq gələcəyə yönələn inkişafının elmi-texniki tərəqqini müəyyən edən sahələrin daha üstün inkişafından çox asılı olacağını bildiyi üçün, həmin strateji xətti həyata keçirmək üçün böyük səylə fəaliyyət göstərərək ciddi maneələrin aradan qaldırılmasına nail olmuş və 1976-cı ildə Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən **Azərbaycanda sənayenin təkmilləşməsinə dair çox mühüm sənəd qəbul edilmişdir.** Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə bu proqramın uğurla reallaşması üçün böyük təşkilati iş aparılmış və nəticədə sənayenin vacib proporsiyaları xeyli yaxşılaşmış, yeni tipli müəssisələr, istehsal sahələri istifadəyə verilmiş, on minlərlə yeni iş yeri yaradılmış, sənayenin ixrac potensialı xeyli artmış, istehsalın mədəni-texniki səviyyəsi yüksəlmiş, sənaye sahələrində istehsalın həcmi əvvəlki onillikdəki səviyyəyə nisbətən dəfələrlə artmış və bu səbəbdən 1976-1980-ci illərdə **Azərbaycan sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerə çıxmışdır.**

1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sənaye sahələri yaranmışdı. Sənayenin inkişafında elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqi nəticəsində 1971-1985-ci illərdə 581 adda yeni



və üzümçülük respublikasına çevrilmişdi. 1971-1975-ci illərdə kənd təsərrüfatında əvvəlki 5 ilə nisbətən məhsul istehsalı 34 faiz artmışdır, bir sıra vacib sahələrdə yüksək göstəricilərin əldə edilməsinin möhkəm təməli yaranmışdır. 1976-1980-ci illərdə Azərbaycan **kənd təsərrüfatının ümumi məhsulunun artımına görə ittifaqda birinci yerə çıxmışdı.**

Paytaxt Bakıya, Azərbaycanın rayonlarına gözəllik verən yüzlərlə yaşayış binası, mehmanxana, ölkə iqtisadiyyatında mühüm rol oynayan **iri istehsal kompleksləri, su anbarları,** yaşıllıq zonaları, istirahət ocaqları, yollar Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir.

tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı. Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

XX əsrin əvvəllərində, istərsə də sovet hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatında əsas rolu **neft sənayesi** oynayırdı. Heydər Əliyev iqtisadiyyatın maddi-texniki bazasında yaranmış geriliyin aradan qaldırılması, qeyri-neft sahələrinin üstün inkişafının təmin edilməsi üçün əsaslandırılmış təkliflər hazırlamışdır. Neft sənayesinin dinamik inkişafına nail olmuş, neft-kimya sənayesinin modernləşdirilməsini təmin etmişdir. Məhz Ulu öndərin rəhbərliyi ilə neft sənayesinin inkişafında yeni mərhələ başlanmış, "qara qızıl"ın Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsinin əsası qoyulmuşdur. Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan həmin illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, xalça və digər istehsal növləri üzrə Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu.

Heydər Əliyevin Azərbaycan iqtisadiyyatını inkişaf etdirməklə bağlı müəyyən etdiyi strategiyada **aqrar sektor** xüsusi yer tuturdu. 1960-cı illərdə Azərbaycan kəndində əhalinin yarısı yaşayırdı, kənd təsərrüfatında istehsal olunan milli gəlir də böyük çəkiyə malik idi. **Kənd təsərrüfatı** böhran vəziyyətində olmaqla, ölkəmiz əsas göstəricilər üzrə müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tuturdu. Belə ki, kənd təsərrüfatı sahəsində məhsuldarlıq aşağı idi, aqrar məsələlərin həllində elmi nailiyyətlərdən çox zəif istifadə edilirdi, bu sahədə demək olar ki, yüksək ixtisaslı kadrlar hazırlanmırdı.

Ulu öndərin uzaqgörən və müdrik siyasəti nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı, o cümlədən pambıqçılıq

1970-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı göstəriciləri tarixi inkişafın ayrı-ayrı dövrləri ilə müqayisə etdikdə, birmənalı olaraq bu nəticəni çıxarmaq olar ki, Azərbaycanın 1969-1985-ci illəri əhatə edən dövründə iqtisadiyyatda yüksək artım sürəti təmin edilmiş, onun keyfiyyət göstəriciləri əsaslı surətdə yaxşılaşmışdır. Bütün bunlar isə müstəqil Azərbaycanın iqtisadi bazasının formalaşması və inkişafında müstəsna rol oynamışdır.

Ümummilli lider sonralar o illəri xatırlayarkən demişdir: **"1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır".**

Xalqımız XX əsrin son onilliyində **müstəqilliyini yenidən bərpa edərkən** ölkədə yaranmış siyasi böhran, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunması, 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və nəticədə ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdür. Yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın qurulmaması, yerli və İttifaq miqyasında olan müəssisələr arasında mövcud əlaqələrin qırılması, ölkənin iqtisadi, siyasi, informasiya blokadasına alınması nəticəsində 1990-cı illərin əvvəllərində ümumi daxili məhsulun, sənaye



istehsalının, xarici ticarət dövriyyəsinin həcmi azalmış, inflyasiya idarəolunmaz səviyyəyə çatmışdı. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi artmış, əhalinin pul gəliri kəskin azalmışdı.

Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev Azərbaycanı bu xaos və böhrandan çıxarmış, vətəndaş müharibəsinin qarşısını almış, atəşkəsə nail olmuş, böyük xilaskar missiyasını yerinə yetirmiş, xalqımızın itirilmiş inamını özünə qaytarmış və ölkənin yeni inkişaf dövrünün əsasını qoymuşdur.

Məhz onun gərgin fəaliyyəti və qətiyyəti sayəsində Azərbaycanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edəcək kompleks inkişaf proqramlarının icrasına başlanmışdır. Ulu öndərin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparılmış, sənaye və kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olunmuş, yeni sənaye sahələri yaradılmış, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırılmışdır.

Heydər Əliyev yenidən hakimiyyətə gələn kimi ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başlamış və rəhbərliyi ilə qısa müddət ərzində bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradılmış, məqsədli dövlət proqramları qəbul edilmiş, institusional islahatlar aparılmış, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atılmışdır.

İqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər beynəlxalq təcrübəyə uyğun **qanunvericilik bazasının yaradılmasını təmin etmiş və Milli iqtisadi inkişaf konsepsiyamızı yaratmışdır.** Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı **70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir.** Beynəlxalq maliyyə institutları ilə əlaqələr yaradılmış, onların rəhbərləri Bakıya dəvət olunmuşdur.

Heydər Əliyev Azərbaycanın iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın malik olduğu zəngin **karbohidrogen ehtiyatlarından səmərəli istifadəni** vacib hesab etmişdir. Böyük təzyiqlərə baxmayaraq 1994-cü ilin sentyabrın 20-də Bakı şəhərində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış, yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın "yeni neft strategiyası" uğurla həyata keçirilməyə başlanmışdır. Bu saziş Azərbaycanın qapılarını bütün dünyanın üzünə açmış, bu sahədə yeni müqavilələrin imzalanmasını və ölkəyə investisiya qoyuluşunu təşviq etmişdir. "Əsrin müqaviləsi" üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlanmış və hasilatla bağlı yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulmuşdur ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan üçün çox vacib məsələ olmuşdur. Ölkə iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu 10 milyard dollara, xarici investisiyalı müəssisələrin sayı 1974-ə, müəssisələrdə çalışanların sayı isə 25 min nəfərə çatmışdır. Hasil edilən Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunmuş, daha sonra isə Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanına malik **Bakı-Tbilisi-Ceyhan** əsas ixrac boru kəmərinin inşası razılaşdırılmışdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə ixrac marşrutlarının diversifikasiyasına da nail olunmişdur.

Neft-qaz sənayesi iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynamış və düşünülmüş iqtisadi siyasət nəticəsində **makroiqtisadi sabitliyə nail olunmuş,** davamlı iqtisadi artımın əsası qoyulmuşdur.

Ulu öndərin həyata keçirdiyi qlobal, genişmiqyaslı iqtisadi siyasət nəticəsində neft-qaz sənayesi ilə yanaşı, **elektrotexnika, maşınqayırma, kimya, xalçaçılıq** və digər sahələrin də inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.



Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının **özəl sektorla** bağlı olduğunu vurğulayaraq demişdir ki: **"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".** Məhz Heydər Əliyevin **fərmanı ilə 2002-ci ildə təsdiq edilən kiçik və orta sahibkarlığın inkişafı dövlət proqramı ölkədə sahibkarlığın inkişafına böyük təkan vermişdir.** Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu olmuş, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirmişdir. Heydər Əliyevin rəhbərliyi ilə sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı, sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım göstərən strukturlar formalaşdı. Sahibkarların vergi yükünün azaldılması istiqamətində mənfəət və əlavə dəyər vergisinin dərəcələri aşağı salındı, kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiq edilməyə başlandı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və bu sahədə müvafiq dövlət proqramları təsdiq olundu.

Ulu öndərin rəhbərliyi ilə həyata keçirilən **nəqliyyatın inkişafı** siyasətinin mərkəzində ölkə ərazisində beynəlxalq və tranzit dəhliz və yolların, ölkənin regionlararası, şəhər və rayondaxili yolnəqliyyat infrastrukturunun inkişafı, eləcə də milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası dururdu. Bu məqsədlə TRASEKA, Şimal-Cənub nəqliyyat dəhlizi, İNOGEYT Proqramının həyata keçirilməsinə başlanıldı. Nəticədə Azərbaycan Xəzər regionunda əsas multimodal nəqliyyat qovşağına və beynəlxalq əhəmiyyətli neftqaz tranziti ölkəsinə çevrildi.

Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də **Qədim İpək yolu** nəqliyyat dəhlizində respublikamızın aktiv iştirakını təmin etmək olmuşdur. Yeni İpək yolu Azərbaycan üçün daimi kapitaldır, davamlı iqtisadi inkişaf amilidir, önəmli gəlir mənbəyidir, siyasi sabitlik mənbəyidir.

Heydər Əliyevin hakimiyyətə qayıdışı **bank sektorunun formalaşması və inkişafında** da dönüş nöqtəsi olmuş, onun birbaşa diqqət və dəstəyi ilə bank islahatları dövlət banklarının yenidən qurulması, özəl bankların kapitalizasiyası və konsolidasiyası, bank infrastrukturunun formalaşması istiqamətində həyata keçirilmişdir. Heydər Əliyev **beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa** xüsusi diqqət vermiş və bunun sayəsində ölkənin maliyyə imkanları ildən-ilə artmış, borc almağa ehtiyac azalmış, büdcə sisteminin göstəricilərində müsbət meyillər güclənmişdir.

Heydər Əliyevin **balanslaşdırılmış xarici siyasət kursu** sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın lider dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir.

Qarabağ və onun ətrafında yerləşən rayonların iqtisadi potensialının gucləndirlməsində də Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Və biz bu gun bu zəhmətin bəhrəsini gorməkdəyik. Belə ki, Ulu öndərin təşəbbüsü ilə 1976-cı ildə Tərtər rayonunun ərazisində 560 mln su tutumu olan bu gün çox böyük strateji əhəmiyyət daşıyan Sərsəng Su anbarı tikilmişdir. Su anbarı 6 rayonun 100 min hektara yaxın ərtzisini suvarma suyu ilə təmin edir.

1997-ci ildə hələ torpaqlarımız işğal altında olduğu dövrdə Ulu öndər Zəngilan rayonunda yerləşən Vejnəli və digər qızıl yataqlarının xarici investorların iştirakı ilə birgə iştismarına dair müqavilə imzalanmasına nail olmuşdur. Bu gun torpaqlarımız muzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğalçılardan azad edildikdən sonra bu yataqların yenidən istismarına başlanılmışdır.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər **sonrakı illərdə də ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratmışdır.**

Ölkəmizin son illərdə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər

məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı olmaqla yanaşı, **həm də bu gün dünyanın ən sabit və sürətlə inkişaf edən güclü iqtisadiyyatının qurucusudur.** Məhz Ulu öndərin 90-cı illərin ortalarında təməlini qoyduğu güclü sosial-iqtisadi baza bu gün Azərbaycan xalqının yüksək rifahına, onun parlaq gələcəyinə xidmət edir.

Ümummilli lider Heydər Əliyev tərəfindən 1993-2003-cü illər ərzində görülmüş genişmiqyaslı işlər Azərbaycanda siçrayışlı inkişafın başlaması üçün zəruri potensial formalaşdırmışdır.

Ulu öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən **müasir dövlət, güclü iqtisadiyyat, yüksək sosial rifah, mədəni cəmiyyətin qurulması** istiqamətində 2003-cü ildə bəyan edilmiş hədəflər artıq günümüzün reallığına çevrilmişdir. Bu gün dövlət başçısı tərəfindən təsdiq olunmuş müasir inkişaf konsepsiyası keyfiyyətcə yeni prioritetlər müəyyən edir. **İnnovasiya əsaslı inkişaf modelinə keçid, yüksək rəqabət qabiliyyətli və şaxələnmiş iqtisadiyyatın qurulması** qarşıda duran ən mühüm prioritetdir.

Möhtərəm Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxşaxəli, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Bu gün Azərbaycan dövləti alternativ neft-qaz ixracı ilə bağlı kəmərlərə və digər beynəlxalq nəqliyyat marşrutlarına malikdir. Bu isə ölkəmizin müstəqilliyinin qorunması, onun iqtisadi təhlükəsizliyi üçün çox güclü amil deməkdir. Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir və bu da öz müsbət nəticələrini verir.

Bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi və respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyatına qovuşmasına mütləq əminlik yaradır.

Bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını, qlobal dünya layihələrində iştirakını, cəmiyyətdə əldə olunmuş konsensusu, iqtisadi inkişafla sosial tərəqqi arasında tarazlığın yaradılmasını müstəqil dövlətin inkişafının Azərbaycan modelini fərqləndirən vacib keyfiyyətlər kimi qiymətləndirirlər. Çünki müstəqil dövlətimizin gələcəklə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiyası vardır. Gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır. Bu təməl Azərbaycan dövlətinin dinamik inkişafına, xalqın yaxşı yaşamasına, ölkəmizdə hüquqi, demokratik cəmiyyətin qurulmasına, Azərbaycanın sivil dövlətlər içərisində özünə layiqli yer tutmasına xidmət edir və edəcəkdir.

Bu gün Azərbaycanda iqtisadi inkişaf sürəti dünya iqtisadiyyatı üzrə olan göstəricini xeyli ötür. Bu, bizim tarixi nailiyyətimizdir.

Ulu öndərin işləyib hazırladığı müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyası onun əzəli və əbədi arzularına uyğun olaraq, ölkəmizi tərəqqiyə, xalqımızı xoş günlərə qovuşdurmuşdur.

Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.

Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, **müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması da Heydər Əliyevin adı ilə bağlıdır.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: **"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".**

**Vüqar ƏLİYEV**
**Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi**
**III dərəcəli dövlət ədliyyə müşaviri**

# Müstəqil Azərbaycanın Zəfər amnistiyası

Böyük Qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin polad iradəsi və rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində qazanılan şanlı tarixi zəfərimizdir.

Müasir tariximizin ən böyük hərbi-siyasi hadisəsi olan bu qələbə xalqımızın öz haqqı uğrunda mübarizə aparmaq əzmini bütün dünyaya nümayiş etdirdi. Qibtə ediləcək bu böyük zəfər nəticəsində torpaqlarımız Ermənistanın işğalından azad olunmaqla 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Çoxəsrlik tariximizin ən parlaq səhifəsi, milli qürur, şərəf, qəhrəmanlıq salnaməsi olan və Azərbaycan Ordusunun qətiyyətli Zəfər yürüşü ilə yekunlaşan Qələbə təkcə Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü deyil, eyni zamanda tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdi.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə 3 dekabr 2020-ci il tarixdə imzaladığı Sərəncamla Azərbaycan xalqı üçün mühüm önəm və rəmzi məna daşıyan, Qarabağın tacı və mədəniyyət paytaxtımız olan qədim Şuşa şəhərinin işğaldan azad olunduğu günü-yəni 8 noyabr tarixini ölkəmizdə Zəfər Günü kimi təsis etdi.

Qələbə ilə başa çatan 44 günlük şanlı Zəfər tarixinin birinci ildönümünü böyük qürur və təntənə ilə qarşılamağa hazırlaşan Azərbaycan Xalqına növbəti bir hədiyyə isə Prezident İlham Əliyevin amnistiya təşəbbüsü oldu və 5 noyabr 2021-ci il tarixdə Azərbaycan Respublikası Milli Məclisi "8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərar qəbul etdi.

Bütün dövrlərdə insan haqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına xidmət edən əfv və amnistiya aktları cəmiyyətdə olduqca yüksək qiymətləndirilir. Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının müdafiəsinə böyük sayğı göstərən Azərbaycan dövləti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşmışdır.

Humanizm və sosial ədalət prinsiplərinə əsaslanmaqla həyata keçirilən siyasət dövlətin öz vətəndaşlarına verdiyi yüksək dəyəri əks etdirir. Bu kontekstdə respublikamızda vaxtaşırı olaraq ölkə başçısı tərəfindən əfv sərəncamlarının imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda siyasətdə humanizm prinsipinə yer verilməsinin başlanğıcı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ümummilli liderin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda demokratikləşmə ilə yanaşı, cəmiyyətimizin bütövlüyünə xidmət edən humanizm ənənələrinin təməli qoyularaq insan hüquqlarının təmin olunması istiqamətində mühüm addımlar atılmış, ölkəmizdə ölüm hökmünün icrası dayandırılmış, 1998-ci ildə isə bu cəza növü tamamilə ləğv edilmişdir. Azərbaycanın adının şərqdə ölüm hökmünü ləğv edən ölkə kimi tarixə düşməsi də humanizm dəyərlərinə həssas yanaşmanın bariz nümunəsidir. Bu istiqamətdə atılan mühüm addımlardan biri kimi əfvetmə institutunun bərpa edilərək Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri Komissiyasının yaradılmasını xüsusi vurğulamaq zəruridir. Ölkəmizə rəhbərlik etdiyi 1995-2003-cü illərdə Ümummilli Liderin təşəbbüsü və iradəsi sayəsində 77 mindən çox məhkuma şamil edilən 7 amnistiya və 32 əfv Sərəncamı verilmişdir ki, həyata keçirilən humanist tədbirlər beynəlxalq aləmdə də daim yüksək qiymətləndirilmişdir.

2003-2021-ci illəri əhatə edən 18 il ərzində dövlət başçısı Prezident İlham Əliyev tərəfindən əfvlə bağlı 35 Sərəncamın imzalanması, həmçinin, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri ilə müxtəlif vaxtlarda 4 amnistiya aktının qəbul edilməsi də ölkəmizdə insan hüquqlarının etibarlı təminatına və demokratikləşməyə xidmət edən strateji siyasi kursun layiqli şəkildə davam etdirilməsinin təcəssümüdür.

1995-2021-ci illərdə qəbul olunmuş "Azərbaycan Respublikası günü münasibətilə amnistiya haqqında" 22 may 1996-cı il tarixli, "Hərbi cinayətlər törətmiş şəxslər barəsində Dövlət müstəqilliyi günü münasibətilə amnistiya haqqında" 17 oktyabr 1997-ci il tarixli, "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibəti ilə amnistiya haqqında" 12 may 1998-ci il tarixli, "Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə amnistiya haqqında" 29 dekabr 1998-ci il tarixli, "Avropa Şurasının 50 illiyi münasibətilə amnistiya haqqında" 10 dekabr 1999-cu il tarixli, "Azərbaycan Respublikasının Avropa Şurasının üzvlüyünə qəbul edilməsi münasibətilə amnistiya haqqında" 01.02.2001-ci il tarixli, "İkinci dünya müharibəsində faşizm üzərində qələbənin ildönümü münasibətilə amnistiya haqqında" 6 may 2003-cü il tarixli, "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" 8 may 2007-ci il tarixli, "Novruz bayramı münasibətilə

amnistiya elan edilməsi haqqında" 17 mart 2009-cu il tarixli, "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında" 7 may 2013-cü il tarixli, "28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 20 may 2016-cı il tarixli 11 amnistiya aktının icrası uğurla təmin edilmişdir.

Vətən müharibəsində qazanılmış tarixi zəfərin birinci ildönümü ilə bağlı bu qələbənin memarı olan Ali Baş Komandan İlham Əliyevin Zəfər amnistiyası təşəbbüsü də dövlət başçısının Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa və humanizm kimi ali dəyərə sadiqliyinin növbəti nümayişi idi.

Amnistiya sözü yunancadan tərcümədə "unutmaq", "bağışlamaq" mənasını verir. Amnistiya cinayət hadisəsi törətmiş şəxslər barəsində dövlətin iradəsi ilə həyata keçirilən humanist tədbirdir. Amnistiya aktları ölkə Konstitusiyasına, qüvvədə olan cinayət, cinayət-prosessual qanunvericiliklərinin tələblərinə uyğun qaydada qəbul və tətbiq olunur. Bu aktlarda amnistiyanın təsiri altına düşən şəxslərin dairəsi, tətbiqi qaydaları, amnistiyanı tətbiq etməli orqanlar, onların səlahiyyət dairəsi, icra müddəti kimi hallar öz əksini tapır. Amnistiya aktlarında həmçinin bu aktların tətbiqini məhdudlaşdıran hallar da sadalanır. Belə məhdudiyyətlər adətən törədilən cinayətlərin ictimai təhlükəlilik dərəcəsi ilə bağlı olur və amnistiya elan olunan vaxtda dövlətin cinayət-cəza siyasətinin mahiyyətini, hansı ictimai-təhlükəli əməllərə qarşı mübarizəyə daha çox üstünlük verməsini özündə əks etdirir.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən ölkəmizdə amnistiya aktlarının qəbulu Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətindədir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 81-ci maddəsinə görə Amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Amnistiya aktına əsasən cinayət törətmiş şəxslər cinayət məsuliyyətindən, cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər. Yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə, həmçinin əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər.

Preambula və 4 hissədən ibarət olan Amnistiya elan edilməsi haqqında 5 noyabr 2021-ci il tarixli Qərarda Şuşa şəhərinin işğaldan azad olunmasının müstəsna əhəmiyyəti vurğulanaraq Zəfər Günü ərəfəsində Vətən müharibəsinin birinci ildönümü ilə bağlı amnistiya təşəbbüsünün zərurəti əsaslandırılmış, amnistiya tətbiq edilən şəxslərin dairəsi, aktın hüquqi qüvvəsi və tətbiqi qaydaları öz əksini tapmışdır.





Qüvvəyə mindiyi gündən 4 ay müddətində amnistiyanın tətbiqinin təmin edilməsi nəzərdə tutulan Qərarla qəbul edilən sözügedən amnistiya aktı müstəqil Azərbaycan tarixində əvvəlkilərdən ciddi şəkildə fərqlənən, öz miqyasına və əhatə dairəsinə görə ən böyük amnistiya aktıdır. Bunu aktın şamil

olunacağı şəxslərin əhatə dairəsinə nəzər yetirdikdə aydın şəkildə görmək olar. Aktın ümumilikdə 17 min şəxsə şamil ediləcəyi gözlənilir.

Xüsusilə vurğulanmalıdır ki, dahi şəxsiyyətin möhkəm təməllər üzərində əsasını qoyduğu siyasətin varisliyini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən Zəfər Amnistiyasının bundan əvvəl qəbul edilmiş Amnistiya aktlarından fərqləndirən məqamlardan biri də onun qanuni qüvvəyə minməmiş hökmlərə və istintaq mərhələsində olan cinayət işlərinə də aid edilməsindən ibarətdir.

Belə ki, xalqımızın Vətən müharibəsindəki qələbənin təntənəsini yaşadığı ərəfədə qəbul edilən bu dəfəki amnistiya aktı istintaq olunan cinayət işləri ilə yanaşı, təhqiqat və istintaq orqanlarında aparılan araşdırmalar zamanı barəsində cinayət təqibi aparılan şəxslərə də şamil edilir. Yəni böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər (bu Qərarın 10-cu və 11-ci hissələrində nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla) haqqında təhqiqat və ibtidai istintaq orqanları tərəfindən amnistiya tətbiq olunaraq cinayət təqibi başlanmır, başlanılmış cinayət təqibinə isə xitam verilir.

Əvvəlki illərdə verilmiş amnistiyalar məhkəmələr, cəzaçəkmə müəssisələri və icra məmurları tərəfindən yalnız məhkum olunmuş şəxslər barəsində tətbiq olunduğu halda, Zəfər amnistiyası şəxslərə dövlətin həyata keçirdiyi bu humanist tədbirdən bərabər surətdə yararlanmaq imkanı yaratmışdır.

Həmçinin əvvəlki dövrlərdə qəbul edilən amnistiyalara görə digər fərqlilik isə qərarın 7-ci bəndinə əsasən əsas və əlavə cəzanı çəkməkdən azad edilən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluq götürülməsindən ibarətdir.

Sözügedən qərarın I hissəsindən məlum olur ki, burada Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə, habelə döyüş əməliyyatlarında həlak olmuş şəxslərin yaxın qohumlarına, Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslərə, Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı hərbi təxribat nəticəsində əlil və ya həlak olmuş şəxslərin yaxın qohumlarına, əhalinin həssas, xüsusi qorunmaya ehtiyacı olan təbəqəsinə o cümlədən qadınlar, on səkkiz yaşına çatmamış və altmış yaşına çatmış şəxslərə tətbiq edilməsi nəticəsində həmin şəxslərin müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından azad edilməsi nəzərdə tutulmuşdur.

Bundan başqa böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər, ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər, az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olmayan şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər, habelə az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasının Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxslər, habelə az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə intizam xarakterli hərbi hissədə saxlama cəzasının Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər, hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəza təyin edilmiş şəxslər, islah işləri növündə cəza təyin edilmiş şəxslər, ictimai işlər növündə cəza təyin edilmiş şəxslər, əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası təyin edilmiş şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə əsas cəza kimi cərimə cəzası təyin edilmiş şəxslər, habelə əsas və ya əlavə cəza kimi iki min manatdan artıq olmayan miqdarda cərimə cəzası təyin edilmiş və ya Qərar tətbiq edildiyi gün cərimə cəzasının ödənilməmiş hissəsi iki min manatdan artıq olmayan şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər, intizam xarakterli hərbi hissədə saxlama cəzasının Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olan şəxslər, azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslərin də cəzadan azad edilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda Qərarda 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum

olunmuş şəxslərin cəzalarının Amnistiya aktı qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olduqda, çəkilməmiş cəzanın müddəti 6 ay, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin cəzasının Amnistiya aktı qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olduqda, çəkilməmiş cəzanın müddətinin 1 il azaldılması, həmçinin əsas cəzadan azad edilən şəxslərin əlavə cəza kimi təyin edilmiş müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasından azad edilməsi, əsas və əlavə cəzanı çəkməkdən azad edilən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin isə üzərindən məhkumluğun götürülməsi təsbit edilmişdir.

Qərarın II hissəsinə əsasən amnistiyanın tətbiqinə məhdudiyyətlər nəzərdə tutulmuşdur ki, həmin hissədə qeyd edilən şəxslər barəsində amnistiya tətbiq edilməyəcəkdir.

Qərarın amnistiyanın tətbiqi qaydalarını müəyyənləşdirən IV hissəsində Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinin tələblərinə uyğun olaraq aidiyyəti dövlət qurumları, o cümlədən prokurorluq orqanları qarşısında mühüm vəzifələr müəyyən edilmişdir.

Belə ki, 24-cü maddəyə əsasən həmin qərarın 23.1-23.4-cü bəndlərində nəzərdə tutulan şəxslər barəsində müvafiq olaraq cəzaçəkmə müəssisələri, intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığı, icra məmurları, təhqiqat və ya ibtidai istintaq orqanları tərəfindən amnistiyanın tətbiqi barədə qəbul edilən qərarlar müvafiq prokurorlarla razılaşdırılmalıdır.

Cənab Prezidentin təşəbbüsü ilə 5 noyabr 2021-ci il tarixdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş sonuncu “8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında” Qərarın icrasına artıq başlanılmışdır.

Qərarın vaxtında və dürüst icra olunmasının təmini məqsədilə Azərbaycan Respublikası Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev tərəfindən “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsi və “İşin Təşkili Qaydaları”nın 5.1-ci bəndi rəhbər tutularaq 5 noyabr 2021-ci il tarixdə “8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 5 noyabr 2021-ci il tarixli Qərarının icrası ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə” 09/20 nömrəli əmr imzalanmış və həmin əmrlə prokurorluq orqanları qarşısına bir sıra vəzifələr qoyulmuşdur.

Əmrdə amnistiya qərarının tələblərinə müvafiq olaraq, təhqiqat və ibtidai istintaq orqanları tərəfindən barələrində cinayət təqibi aparılan cinayət törətmiş şəxslərə, məhkum olunmuş və cəza çəkən şəxslərə amnistiya aktının təxirəsalınmadan və düzgün tətbiq olunması, icra zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsi, amnistiya tətbiq edən digər orqanlarla qarşılıqlı əlaqələrin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuş və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi uğurla davam etdirilir.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən təqdim edilən statistik məlumatlara əsasən amnistiya aktı 15.12.2021-ci il tarixədək 334 nəfəri qadın, 6086 nəfəri kişi olmaqla ümumilikdə 6420 nəfər şəxs barəsində tətbiq edilmişdir.

Amnistiya tətbiq edilmiş şəxslərin 43%-i penitensiar xidmətin Bakı şəhəri ərazisində yerləşən cəzaçəkmə müəssisələri və Bakı şəhər probasiya idarəsində qeydiyyatda olan, 57 %-i isə digər bölgələrdə yerləşən penitensiar xidmət müəssisələri, icra və probasiya şöbələrində qeydiyyatda olan məhkumlardır.

Təqdim edilmiş məlumatlara əsasən amnistiya aktı 2054 nəfər barəsində cəzaçəkmə müəssisələri tərəfindən, 2119 nəfər barəsində icra məmurları tərəfindən, 1617 nəfər barəsində məhkəmələr tərəfindən, 630 nəfər barəsində isə təhqiqat və ya ibtidai istintaq orqanları tərəfindən tətbiq edilmişdir.

Sonda qeyd edilməlidir ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan və humanizm ənənələrinin möhkəmlənməsinə böyük töhfə verən bu amnistiya aktı həm də müstəqil Azərbaycan Respublikasının demokratik imicinin beynəlxalq aləmdə daha da möhkəmlənməsinə xidmət edir. Qəbul edilmiş bu akt bir daha Azərbaycan dövlətinin siyasətində insan amilinin əsas və mühüm olduğunu təsdiq edərək ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində əhəmiyyətli irəliləyişlərə nail olunduğunun göstəricisidir. Amnistiya aktının şamil olunduğu şəxslərin də öz növbələrində dövlət tərəfindən onların islah olunub cəmiyyətdə layiqli yer tutmaları üçün yaradılmış bu şəraitdən yaralanaraq bundan sonrakı həyatlarında layiqli vətəndaş kimi öz töhfələrini verəcəklərinə inanırıq.

**Fərid Dadaşov,**
**Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi kiçik ədliyyə müşaviri**

**Çingiz Əli-zadə,**
**Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin böyük prokuroru ədliyyə müşaviri**

# Hüquqi maarifləndirmə günün tələbidir

Müasir dövrdə əhalinin hüquqi maarifləndirilməsi, hüquqi düşüncə və hüquq mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşması prosesinə təkan verən ən mühüm amillərdəndir. Hüquqi maarifləndirilmə demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılmasının mühüm cəhətlərindən olmaqla yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsini daha səmərəli təmin etmək baxımından da böyük əhəmiyyət daşıyır. Məhz həyata keçirilən hüquqi maarifləndirmə tədbirləri insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi məqsədilə dövlət tərəfindən gerçəkləşdirilən səmərəli fəaliyyətin tərkib hissəsi kimi çıxış edir.

Yaşadığımız cəmiyyətdə hər bir vətəndaşın sağlam hüquqi düşüncəyə və yüksək hüquq mədəniyyətinə malik olmaları böyük əhəmiyyət kəsb edir. İnsanların hüquqa, qanunçuluğa və ədalət mühakiməsinə münasibətinin, onların nəyin hüquqi və nəyin hüquqazidd olması haqqındakı təsəvvürlərinin və ideyaların cəmi hüquq düşüncəsində ehtiva olunur. Cəmiyyətin hüquq mədəniyyətinə onun hüquq düşüncəsinin səviyyəsi, ictimai şüurun hüquqa münasibəti əhəmiyyətli dərəcədə təsir edir. Bunun üçün hüquqi maarifləndirmə yüksək səviyyədə təşkil olunmalıdır. Hər bir vətəndaşın hüquq mədəniyyəti isə onun öz hüquqlarını bilməsi, habelə öz vəzifələrini layiqincə yerinə yetirməsindən asılıdır. Hüquqi maarifləndirmənin zəif olması ilə cəmiyyətdə hüquq pozuntularının sayının artması arasında səbəbli əlaqə heç kimdə şübhə yaratmır. Bu səbəbdən hüququn təbliği və qanunvericiliyin izahı cinayətkarlığın qarşısının alınmasında ən mühüm vasitə kimi nəzərdən keçirilməlidir. Bir çox hallarda insan hüquqlarının pozulması bilavasitə məlumatsızlıqdan və hüquqi savadsızlıqdan irəli gəlir.



Cinayətkarlığın səviyyəsinin aşağı olmasında isə rol oynayan əsas amillərdən biri də cəmiyyət üzvlərinin yüksək hüquq mədəniyyətinə malik olmasıdır. Çünki belə şəxslər hər zaman qanunlara və digər şəxsin hüquqlarına hörmətlə yanaşır. Nəyin hüquqi nəyin isə hüquqazidd olduğunu bilirlər. Nə öz hüquqlarının pozulmasına imkan verir, nə də digər şəxsin hüquqlarını pozurlar. Doğrudur, qanunu bilməmək məsuliyyətdən azad etmir. Lakin insanlar tərəfindən qanunları bilmək və qanunlara əməl etmək cəmiyyətdə hüquqpozmaların azalmasına və cinayətkarlığın səviyyəsinin aşağı düşməsinə müsbət təsir göstərir.

Cinayətkarlığa qarşı mübarizə aparılması, onu yaradan səbəb və şərtlərin aradan qaldırılması, sosial ədalətin bərpası, habelə insan hüquq və azadlıqlarının təmini cəmiyyət və dövlət qarşısında duran başlıca vəzifələrdəndir.

Cinayətkarlığın profilaktikası konsepsiyasının ümumi məqsədi ictimai təhlükəli halları, istənilən hüquqpozmaları və hüquqazidd əməlləri doğuran səbəblərin aradan qaldırılmasından ibarətdir. Ona görə cinayətkarlıqla səmərəli mübarizədə müəyyən konsultativ tədbirlərin həyata keçirilməsi zəruri şərtlərdəndir. Cinayətkarlıqla mübarizə istiqamətində maarifləndirmə tədbirləri həlledici amil kimi qəbul edilir. QHT-lər, cəmiyyətin digər təbəqələri, elm və təhsil müəssisələri də bu prosesdə iştirak edirlər. Həyata keçirilən maarifləndirmə tədbirləri əhali arasında müsbət qarşılanır. Cinayətkarlığın vaxtında qarşısı alınmazsa onunla mübarizə çətinləşər. Ona görə də, profilaktika, xəbərdarlıq və maarifləndirmə tədbirləri vaxtaşırı aparılmalıdır. Cinayətlər baş verdikdən sonra isə xəbərdarlığın heç bir əhəmiyyəti qalmır.

Əsrlərlə insan ağlı cəmiyyətdə baş verən hüquqazidd əməllərin səbəblərini müəyyən etmək və bunun qarşısını almaq üçün vasitələr axtarışında olub. Ona görə də, hüquqpozmaların obyektiv səbəblərinin mövcudluğu haqda təsəvvürlərə əsaslanan sosial-profilaktik yanaşma təbii hal kimi anlaşılmalıdır.

XVIII əsrdə klassik cinayət hüququ məktəbinin hüquqşünaslarının əsərlərində hüquqi əsaslandırmaya söykənərək cinayətkarlıqla mübarizədə yeni yanaşmanın əsası "Müdrik qanunverici cinayətə görə cəza tətbiq etməkdənsə, cinayətlərin vaxtında qarşısını almağı üstün tutur" fikri ilə qoyulmuşdur.

Qədim Hind hüquq ədəbiyyatında əsas xəbərdarlıq vasitəsi kimi, cəzanın xofu-vahiməsi dururdu. Cəzanın sərtliyi cinayət törətməyə meyilli olan şəxsləri əməllərindən çəkindirməyə təsir edirdi. Manu qanunlarına görə yalnız cəzanın xofu hər bir canlını xeyirxahlığa xidmət etməyə istiqamətləndirə və zidd "vəzifələrin" icrasından yayındıra bilər. Bu borcun təmin olunması iki sistemə; bir tərəfdən etik normalara, Tanrının gücünə; digər tərəfdən isə siyasi vasitələrə əsaslanan yol ilə həyata keçirilirdi.

Əgər, qədim Hindistanda hüquqpozmalarla mübarizədə əsas vasitə kimi sərt cəzanın tətbiqindən istifadə edilirdisə, qədim Çin mütəfəkkirləri mühüm vasitə kimi tərbiyənin roluna üstünlük verirdilər. Cəzanın tətbiqi bu gün də, hüquqi metod kimi əhəmiyyətini saxlasa da, tərbiyəvi faktorlardan istifadə vacib amil olaraq qalır. Məsələn: qədim Çin mütəfəkkiri Konfutsi tərəfdarlarının nəzərinə görə əgər insanları tərbiyə etməyib, cəzalandırmağa üstünlük versək, cəzalandırılanların sayı artacaq, lakin kökü kəsilməyəcək və yaxud, tərbiyə edib cəzalandırmasaq bədnam əxlaqlı və tərbiyəsi qüsurlu olanlar (zidd darananlar) cəzasız qalacaq və sayca artacaqlar.

Antik cəmiyyət qanuna tabe olan, onu uca tutanlara hörmətlə yanaşmış, hüquqpozmaların profilaktikası istiqamətindəki ideyalara həmişə önəm vermişdir. Bizim eradan əvvəl VII əsrdə qədim yunan mütəfəkkiri Periandr qeyd edirdi ki, “cinayətkarı cəzalandırmağa yox, cinayətlərin xəbərdarlığına çalışmaq lazımdır”. Qədim Yunan və Roma müdrikləri isə bu işdə məcburetmə və inandırma metodlarının üzvi surətdə bağlılığını vurğulayırdılar.

Böyük mütəfəkkirlər hələ lap qədim zamanlardan başlayaraq cinayətsiz cəmiyyət axtarışında olmuş, müxtəlif mövqelərdən ona öz münasibətlərini bildirmişlər. Cəmiyyətdə hər zaman öz dövrünü qabaqlayan zəka sahiblərinin fikirlərinə böyük ehtiyac duyulmuşdur. Gəlin, tarixə birlikdə nəzər salaq və elm adamlarının cinayətin qarşısının alınmasında axtardıqları çıxış yollarına nəzər salaq. Sofist Protoqor həmin dövrdə yazırdı: “Dövlət qanunlarını pozmağa və həddini aşmağa görə cəzanın məqsədi islah etməkdən, əvəz almaqdan ibarət olmalıdır”. Roma hüquqşünası Ulpian isə “Xeyirxahlar təkcə cəzanın vahiməsinin təkmilləşdirilməsinə yox, cinayətlərin xəbərdarlığına da üstünlük verməlidirlər” fikrini söyləmişdir. Beləliklə, antik cəmiyyətlərdə hüquqpozmaların xəbərdarlığına bir tərəfdən dini, digər tərəfdən isə mənəvi-hüquqi aspektlərdən yanaşmanı tövsiyə edirdilər.

Cəmiyyətin hüquqi maarifləndirilməsi ilə bağlı fikirlər sonrakı dövrlər üçün də aktual olmuşdur. Məsələn, Karl Marks və Fridrix Engels qeyd edirdilər ki, ağıllı, müdrik qanunvericilər, cəzalandırmaqdan çox cinayətlərin xəbərdarlığına üstünlük verməlidirlər.

Maarifçi Jan Jak Russonun da fikirləri bu cəhətdən maraqlıdır: “Qanunların ən alisi qanuna hörmət qanunudur”. İnsan həyatını canlı və ədalətli edən qanundur. Qanun fərdlərin əsas hüquq və azadlıqlarının təhlükəsizliyini öz nəzarəti altına alır. Qanun hüquq normalarının sistemli toplusu olaraq cəmiyyətdə yaranan ictimai münasibətləri tənzimləyir və insanları hüquq pozuntusundan qoruyur. Qədim Roma mütəfəkkiri və hüquqşünası Mark Tulli Siseron da qeyd edirdi: "Azad olmaq üçün qanunun qulu olmalıyıq. Qanunları bilmək onun sözlərini xatırlamaq yox, onların mənasını dərk etməkdir". Bəs, qanunu bilməyən şəxs qanunlara necə hörmətlə yanaşa bilər?! Bu sahədə əsas iş yenə də cəmiyyət üzvlərinin hüquqi biliklərinin artırılmasının üzərinə düşür.

Yuxarıda göstərilən bütün fikirlər hələ dövlət və hüquq yaranan dövrdən başlayaraq hər bir cəmiyyət üzvünün mütləq öz dövrünün təməl qanunlarını bilməsini və qəbul olunmuş qanunlara əməl etməsini xüsusi vurğulayır. Çünki bəşəriyyət hər zaman dövrünün qanun və qaydalarını bilən insanlara və onların müdrik fikirlərinə böyük ehtiyac duymuşdur. Necə ki, biz yuxarıda həmin şəxslərin bəzi fikirləri ilə tanış olduq.

Alman kriminoloqu Josef Kürzinger qeyd edirdi ki, bu gün hər bir hüquqi dövlətin cinayət siyasətinin əsas aktual problemlərindən biri də cinayətkarlıqdan müdafiə məqsədilə sistemli tədbirlərin həyata keçirilməsi ilə bağlıdır. Cinayətkarlığın qarşısının alınması isə ümumi sosial nəzarətin bir hissəsini təşkil edir. Cinayətkarlığın qarşısının alınması ilə bağlı həyata keçirilən ictimai və dövlət tədbirləri sistemi, şübhəsiz, müəyyən bir ölçüdə törədiləcək cinayətlərin qarşısını ala bilir.

Bəzi ədəbiyyatlarda qeyd olunur ki, həyata keçirilmiş tədqiqatlar göstərir ki, bəzən insanlar qanunvericilikdə cinayət kimi xarakterizə edilən ictimai təhlükəli əməllərin hamısını bütövlükdə tanımırlar. Ötən əsrin 70-ci illərində Hollandiyada həyata keçirilmiş bir araşdırma gənclərin 43 faizinin marixuananın istifadəsinin cinayət olduğunu bilmədiyini ortaya çıxarmışdı. Bundan əlavə, müəllif qeyd edirdi ki, insanın daxili aləminin tərbiyəsi, yəni əxlaqi və hüquqi dəyərlərə hörmətlə yanaşma insanın sosial normaları pozmasının, cinayət törətməsinin qarşısını alır. Hüquq və əxlaq normalarına hörmət amili həqiqətən də cinayətkarlığın qarşısının alınmasına təsir göstərən güclü faktordur. Alman kriminoloqu Ernest Seeling bu amilin yaradılması ilə bağlı öz düşüncələrini belə açıqlamışdır ki, hüquqi və əxlaqı dəyərlər mühitin təsiri ilə formalaşır. Bu dəyərlər insanlarda uşaqlıqdan formalaşmağa başlayır. O həmçinin hesab edirdi ki, cinayətkarlığın profilaktikasının digər bir yolu da insanların əvvəlcədən cinayətkar kimi formalaşlasının qarşısını almaqdır. Azyaşlılara danışılan nağıllar,



məktəbdə öyrədilənlər onlarda (azyaşlılarda) nizamlayıcı ədalət duyğusunu yaradır.

Fransız filosofu, maarifçi, yazıçı, tarixçi, iqtisadçı və hüquqşünas olan Şarl de Monteskyo özünün "Qanunların ruhu" əsərində cinayət hüququnun əsas vəzifəsini cəzalandırmaqdan daha çox cinayətkarlığın qarşısını almağın zəruriliyində göründüyünü qeyd edirdi. Fransız maarifçiliyinin görkəmli nümayəndəsi Çezare Bekkariya isə cinayətlərin qarşısının alınmasının başlıca yolunu xalqın maariflənməsində görürdü. Özünün "Cinayətlər və cəzalar haqqında" əsərində qeyd edirdi ki, cəzalandırmaqdansa, cinayətlərin qarşısını almaq lazımdır. Fransız maarifçiliyinin digər görkəmli nümayəndəsi Volter də cinayətlərin qarşısının alınmasında xalqın maarifləndirilməsini göstərirdi.

Fransada burjua inqilabı illərində Jan Pol Marat özünün "Cinayətin qanunvericiliyi planı" əsərində cinayət hüququnun bir sıra mühüm müddəalarını işləyib hazırlamış və qeyd etmişdir ki, cinayət qanununda təsbit edilən müddəalar dəqiq olmalıdır. Hər bir şəxsin qanunu anlaması və qanunu pozmaqla özünü nəyə məruz qoyduğunu bilməsi vacibdir. Cinayətlərə görə cəzalandırmaqdan daha çox cinayətlərin qarşısının alınmasına üstünlük verilməlidir.

Hüquqşünas alim Firudin Səməndərov qeyd edir ki, ideoloji tədbirlərin köməyi ilə kriminogen amillər zəiflədilir, yaxud da aradan qaldırılır. Bu yolla cəmiyyət üzvlərində mənəvi mövqe və ümumbəşəri dəyərlərə yönəliş, cəmiyyət üzvlərində cinayətlərə qarşı dözümsüzlük ifadə edən ictimai rəy formalaşır, insanların mədəni səviyyəsi yüksəlir. Alim həmçinin hüquq normalarına riayət edilməsinin şəxsi inama çevrilməsi üçün hüquqi şüurun, cinayətkarlıqla mübarizəyə kömək etməyə hazır olmaq üçün vətəndaşlarda profilaktik fəallığın tərbiyə edilməsini hüquqi tədbirlərin mühüm tərkib hissəsi hesab edir. Göstərir ki, prokurorluğun geniş səlahiyyətləri cinayətkarlığın profilaktikasının subyekti kimi, həm də bu orqanın fəaliyyətinin spesifikliyini müəyyən edir. Prokurorluq cinayətkarlığın qarşısının alınmasında təkcə özünün bilavasitə funksiyalarını yerinə yetirməklə kifayətlənmir, həm də təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətlərində qanunlara riayət edilməsinə nəzarət etməklə profilaktik funksiyanı həyata keçirir.

Məhkəmələrdə cinayət işlərinə baxılması prosesində iştirak etməklə prokurorluq profilaktik fəaliyyəti həyata keçirir. Prokuror prosesin gedişində cinayəti doğuran səbəbləri və onun baş verməsinə kömək edən şəraiti aşkar etməli, müttəhimin davranışı mexanizmində onların yerini aydınlaşdırmalıdır. Prokurorluğun cinayətkarlığın qarşısının alınmasına yönələn fəaliyyəti müxtəlif forma və metodlarla həyata keçirilir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-siyasi formasiyanın və demokratik cəmiyyətin formalaşdırılması yeni qanunların qəbulunu tələb edirdi. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu və 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyası həm də ölkəmizin yeni qanunvericiliyinin formalaşdırılması istiqamətində mühüm addım oldu. Yeni Konstitusiyanın əsasında müstəqil Azərbaycanın müasir standartlara cavab verən qanunları qəbul edildi. Qəbul edilən qanunların ictimaiyyətə çatdırılması, bu məqsədlə hüquqi maarifləndirmə işinin aparılması və yüksək səviyyədə qurulması hər bir cəmiyyətdə vacib məsələlərdən biridir. Əvvəla, insanlar öz hüquqlarını bilməli və ondan düzgün istifadə etməlidir. Azərbaycan xalqının ümummili lideri Heydər Əliyevin "Konstitusiyanı öyrənmək lazımdır, Konstitusiyanı dərk etmək lazımdır, Konstitusiyanın maddələrini, xüsusən vətəndaşların vəzifələrinə, vətəndaşların hüquqlarına aid olan maddələrini vətəndaş bilməlidir və ona riayət etməlidir" sözləri hər kəsin başlıca fəaliyyət istiqaməti olmalıdır.

Ulu öndər Heydər Əliyevin siyasi səriştəsi, uzaqgörənliyi, dövlət idarəçiliyi sahəsindəki təcrübəsi sayəsində çox böyük uğurlar əldə edildi və həyatın bütün sahələrini əhatə edən qanunlar qəbul olundu. Qanunların qəbulu işin bir tərəfidirsə, insanların bu qanunlar haqqında təsəvvürünün, məlumatının olması işin digər tərəfidir. Bu mənada əhalinin hüquqi maarifləndirilməsi və hüquqi biliklərin təbliği istiqamətində daha böyük işlər görülməlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun əsas prinsip və müddəalarının dərindən öyrənilməsi və hər bir vətəndaşın yaşayış normasına çevrilməsidir" kimi fikirləri hər bir cəmiyyət üzvünün yüksək hüquq mədəniyyətinə malik olmalarını zəruri edir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham

Əliyevin 2011-ci il dekabrın 27-də təsdiq etdiyi "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda da əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi məsələsi qeyd olunmuşdur.

6 yanvar 2004-cü il tarixdə keçirilmiş ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında muxtar respublikanın prokurorluq orqanlarının qarşısına cinayətkarlığın qarşısının alınması üçün hüquqi maarifləndirmə, qanunvericiliyin izahı və profilaktiki tədbirlərin görülməsi işi əsas vəzifə kimi qoyulmuşdur. Hüquqi maarifləndirmə işinin əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "Hüquqi maarif işinin təşkil edildiyi bir cəmiyyətdə işləmək də, yaşamaq da rahatdır və belə cəmiyyət inkişaf edir. Ona görə də bizim əsas vəzifələrimiz hüquq maarifi işini gücləndirməkdən ibarət olmalıdır". Ali Məclis Sədrinin proqram xarakterli tapşırıqlarını muxtar respublikanın prokurorluq orqanları özləri üçün prioritet vəzifə kimi qəbul edərək əsas diqqəti həyata keçirilən profilaktik tədbirlərin təsirliliyinin artırılmasına yönəltmişdir. Çünki demokratik dövlət quruculuğunda insanların sağlam hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Həmçinin 8 iyul 2021-ci il tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Resublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarına dair məruzəsi zamanı verdiyi "Hüquq mühafizə orqanları profilaktika tədbirlərini davam etdirməli, ictimai asayişin və sabitliyin qorunması daim diqqətdə saxlanılmalıdır" tapşırığını yerinə yetirmək məqsədilə muxtar respublikanın prokurorluq orqanları digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün işlərini verilən tapşırıqlara uyğun qurmağa çalışırlar.

Respublikamızda aparılan demokratik, o cümlədən məhkəmə hüquq islahatları, hüququn aliliyinin təmini yalnız və yalnız insan amilinə xidmət edir. Demokratik cəmiyyətdə yaşamağın əsas şərtlərindən biri də vətəndaşların hüquqi cəhətdən savadlı olmasıdır. Doğrudur, cəmiyyətin hər bir üzvünün hüquqşünas olması mümkün deyil. Lakin hər bir şəxsin hüquq mədəniyyətinin yüksək olması zamanın tələbidir. Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanları həmişə cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirilməsi, hüquqi biliklərin təbliği və həyata keçirilən profilaktiki tədbirlərin kəsərliliyinin artırılmasına yönəltmişdir. Muxtar Respublikanın Prokurorluq orqanları bu sahədə tərtib olunan tədbirlər planına uyğun olaraq muxtar respublikanın yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının əməkdaşları ilə birlikdə ictimaiyyətlə görüşlər keçirərək maarifləndirici söhbətlər aparır. Lakin pandemiya (COVİD-19) ilə əlaqədar ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejiminə əsasən yerlərdə tədbirlər müvəqqəti dayandırılıb. Maarifləndirmə sahəsində kütləvi informasiya vasitələrinin gücündən səmərəli istifadə etməyə çalışılıb.

Vətəndaşları maraqlandıran suallarla bağlı maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi (əvvəlki Hüquqi təminat və informasiya şöbəsi) tərəfindən 2011-ci ildən başlayaraq Naxçıvan Televiziyasında "Qanunçuluq" televiziya proqramı hazırlanaraq ictimaiyyətə təqdim olunur. Televiziya proqramına hüquqşünaslar və mövzu ilə bağlı mütəxəssislər dəvət olunur. Proqram isə bu efir sözləri ilə yekunlaşır: "Hər birimiz xalqımızın milli dəyərlərinə hörmətlə yanaşmalı və vətəndaşı olduğumuz Azərbaycan Respublikasının qanunlarına əməl etməliyik. Və unutmamalıyıq ki, qanunların ən alisi qanuna hörmət qanunudur!"

Bundan başqa, prokurorluq əməkdaşları tərəfindən Naxçıvan Radiosunda, www.prokurorluq.nakhchivan.az saytında və "Nuhçıxan" İnformasiya Agentlyində yaradılan "Hüquq guşəsi"ndə vətəndaşlar tərəfindən onlayn qaydada təqdim olunan suallar cavablandırılır, www.naxcivanxeberleri.com saytında hüquqi maarifləndirmə materialları paylaşılır. Həmçinin "Şərq qapısı", şəhər və rayon qəzetlərində müntəzəm olaraq hüquqi mövzularda çıxışlar edilir.

Sonda qeyd etmək istəyirəm ki, "Hüquqi maarifləndirmə" ərəbcədən tərcümədə əhali arasında haqqı yaymaq üçün mütəşəkkil surətdə həyata keçirilən tədbirlər sistemi kimi bir mənaya malikdir. Bir sözlə, hüquqi maarifləndirmə tədbirləri cəmiyyətdə hüquqi mədəniyyətin formalaşmasında mühüm rola malikdir. Hüquqi maarifləndirmə insanın hüquqi şüurunu və bütövlükdə cəmiyyətin hüquqi mədəniyyətini inkişaf etdirmək məqsədi daşıyır. Bu proses isə bütövlükdə cəmiyyət tərəfindən həyata keçirilməlidir. Cinayətkarlıqla mübarizə hər kəsin işidir. Əgər təhlükəsiz cəmiyyətdə yaşayırıqsa və yaşamaq istəyiriksə hər birimizin bu missiyada xidməti və iştirakı olmalıdır.

**Faiq Səfərov**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi**
**ədliyyə müşaviri**

# Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı başlanan cinayət işləri üzrə istintaqın aparılması zamanı istintaq situasiyalarının, versiyaların işlənməsi və araşdırmanın planlaşdırılmasının xüsusiyyətləri, istintaqın gedişatında yaranan çətinliklərin həlli yolları

***Tədqiqat aparılan mövzunun aktuallığı:*** 21-ci əsrin astanasında bəşəriyyətin qarşılaşdığı başlıca problemlərdən biri narkomaniyanın iti sürətlə yayılması olmuşdur. Narkomaniya cəmiyyətin qorxunc və böyük bəlasına çevrilməklə, onun qloballığı və təhlükəliliyi Birləşmiş Millətlər Təşkilatının 1988-ci il tarixli konvensiyasında xüsusi vurğulanmışdır. Həmin Konvensiyada narkotiklərin qanunsuz istehsalı, istehlakı və dövriyyəsinin geniş yayılması qeyd edilməklə «narkotik vasitələr insanların sağlamlığı və rifahına ciddi təhlükə yaradır, cəmiyyətin iqtisadi, mədəni və siyasi dəyərlərinə mənfi təsir göstərir» kimi müddəalar öz əksini tapmışdır. Hər bir dövlət öz sərhədləri daxilində narkomaniya ilə mübarizə aparır. Lakin bu ümumbəşəri bəlanın bütövlükdə dünya ictimaiyyətinin daim nəzarətində saxlanılması zəruridir. Birləşmiş Millətlər Təşkilatının 26 iyun tarixini Narkomaniyaya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü elan etməsi də məhz bu məqsədi daşıyır.

Azərbaycanda da narkotiklərin qanunsuz dövriyyəsi və narkotiklərdən istifadə mövcuddur və dövlət tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində daim işlər aparılır. BMT-nin mövcud məsələ ilə bağlı qəbul etdiyi konvensiyalara qoşulması, yeni qanunların qəbul olunması, qanunvericilik bazasının təkmilləşdirilməsi, dünya birliyinə inteqrasiya proseslərində regional və beynəlxalq layihələrdə iştirak dövlətimizin narkomaniya ilə mübarizədə fəal və ardıcıl mövqe tutduğunu bir daha nümayiş etdirir.



Bütün cəmiyyətlərdə cinayətkarlığın artımı narkotik vasitələr və psixotrop maddələrin istehlakının artım tendensiyası ilə əlaqədardır. Son dövrlərdə narkotik vasitələrin tibb məqsədlərindən kənar məqsədlə istehlakı sürətli templə artmaqda davam edir; gizli laboratoriyalarda qanunsuz hazırlanan və istehsal olunan sintetik narkotik vasitələrdən istifadə edənlərin sayı sürətlə artır. Dünya praktikasından göründüyü kimi narkotik vasitələrin tibb məqsədlərindən kənar istifadəsi son 4-5 il ərzində təxminən 20 dəfə artmış, onlardan istifadə edənlərin üçdə ikisi 30 yaşına qədər olan şəxslərdir.

Lakin bu rəqəmlər real vəziyyəti əks etdirmir, belə ki, yerli və beynəlxalq ekspertlərin fikirlərinə əsasən bu cinayətlərin cəmi 10-15 faizinin müəyyən edilməsi mümkün olur.

«Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Birləşmiş Millətlər Təşkilatının 1988-ci il tarixli Konvensiyasında narkotik vasitələrin qanunsuz dövriyyəsi zamanı əldə olunmuş çirkli pulların yuyulmasına görə cəza tədbirlərinin müəyyən edilməsi, bu əməlləri törətmiş və digər ölkədə istintaqdan gizlənən şəxslərin verilməsi məsələləri, qarşılıqlı hüquqi yardım göstərilməsi, təşkilata daxil olan dövlətlərin əməliyyat xidmətləri arasında sıx əməkdaşlığın qurulması, narkotik vasitələr və psixotrop maddələrin hazırlanması və istehsalında istifadə olunan xammalın dövriyyəsinə nəzarət edilməsi və sair bu kimi hallarla bağlı müddəalar əks olunmuşdur.

Narkotik vasitələrin dövriyyəsini tənzimləyən qanunvericilik və normativ hüquqi aktların təkmilləşdirilməsi hazıradək davam edir. Belə olan halda narkotik vasitə və psixotrop maddələrin hazırlanması və istehsalında istifadə edilə bilən nəzarət edilən xammalın sayı artır. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllər nadir hallarda tək törədilir, yüksək latentliyi ilə fərqlənir və əsasən onlar əməliyyat axtarış tədbirləri nəticəsində ifşa olunur. Ona görə də bu kateqoriyadan olan cinayətlərin istintaqının aparılmasında müstəntiqin əməliyyat tədbirlərini həyata keçirən subyektlərlə effektiv əməkdaşlıq etməsi əsas şərtlərdən biridir.

Təcrübə göstərir ki, cinayətkarlığın dayanmadan artması bu qəbildən olan cinayətlərin açılmasında və qarşısının alınmasında kompleks elmi-metodiki təcrübənin formalaşdırılmasını zəruri edir. Qeyd olunan vəziyyət bu növ cinayətlərin istintaqının aparılmasında ilkin hərəkətlərin dəqiq müəyyənləşdirilməli olduğunu zəruri edir.

## 1. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin kriminalistik xarakteristikası

Narkotik vasitələrin qanunsuz dövriyyəsi haqqında Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddəsinə əsasən narkotik vasitələr - BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasında, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir;

Həmin Qanunun 1.0.2-ci maddəsinə əsasən isə psixotrop maddələr - BMT-nin 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır;

Qanunun 1.0.3-cü maddəsinə əsasən isə prekursorlar - narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır.

Hazırlanmasında istifadə olunan ilkin maddənin tərkibindən (bitki tərkibli və ya kimyəvi tərkibli), hazırlanma üsulundan (kustar və ya sənaye), onlardan sui-istifadə potensialının səviyyəsindən, orqanizmə olan fiziki və ya psixi təsirdən, ümumi kimyəvi tərkibdən asılı olaraq narkotik vasitələr müxtəlif qruplara bölünürlər. Orqanizmə olan farmokoloji təsirdən asılı olaraq narkotik vasitələr: opioid; çətənədən alınan narkotik vasitələr; stimulyator; hallusinogen; sakitləşdirici vasitələr və trankvillizatorlar və sair aiddir.

Hazırda narkotik vasitələrin sadə, əl çatan əşyalardan və vasitələrdən istifadə olunmaqla laborator və ev şəraitində hazırlanması hallarına tez-tez rast gəlinir. Bu proseslərdə narkotərkibli bitki və əl çatan dərman preparatlarından istifadə halları az deyildir. Birincilərin sırasına həşiş aiddir. Onun hazırlanması çətənə bitkisinin xüsusi emalından ibarətdir: tozcuğun və qatranın ayrılması, yarpaqların və çiçəklənmələrin parçalanması, sonradan isə nəmləndirilməsi və presslənməsi. Ev şəraitində həmçinin xaş-xaş samanının ekstraktı hazırlanır.

Qeyd olunduğu kimi narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri bir qayda olaraq əməliyyat-axtarış fəaliyyətinin nəticələrinə dair başlanır. Bu qəbildən olan cinayətlərin müəyyən edilməsi və istintaqının aparılmasını çətinləşdirən aşağıdakı halların qeyd edilməsi zəruridir:

1) ilk mənbəyə əsaslanan mühüm informasiyanın olmaması – zərərçəkmiş şəxsin (narkotik vasitələri əldə edən və onlardan istifadə edən özlərini zərərçəkən qismində hesab etmirlər) olmaması;

2) cinayətkarların hərəkətlərinin, narkotik vasitələrin satışı, daxil olma və qəbul mənbələrinin və məntəqələrinin xüsusi gizliliyi;

3) cinayətin iştirakçıları arasında rolların bölgüsü, gizli parollardan məharətlə istifadə edilməsi, mütəşəkkil dəstələr və cinayətkar birliklər tərəfindən isə bəzi hallarda cinayətkar əks-kəşfiyyatın mövcudluğu;

4) narkotiklərin hazırlanmasında istifadə olunan xammalın nisbətən asan tapılması və çoxluğu;

5) cinayətkar halqanın bütün gizli bəndlərinin müəyyən edilməsinin vacibliyi

Bu qəbildən olan bir çox işlərdə açılması çətinlik törədən mürəkkəb istintaq situasiyalarına rast gəlinir. Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət törətmiş şəxslər özünə məxsus qaydalar tətbiq olunan xüsusi narkomanlar cəmiyyətlərinin üzvü olurlar. Həmin cəmiyyətin nümayəndələri istənilən üsul və vasitələrlə istintaqın aparılmasına maneçilik törədir, ifadə verməkdən imtina edir, bilə-bilə yalan ifadələr verirlər və ya verdikləri ifadələrin məzmununu sonradan dəyişir, hadisə barədə məlumatı olan şahidləri hədələyir və ya onları bilə-bilə yalan ifadə verməyə məcbur edirlər.

Nadir hallarda cinayəti törədən, onun üsul və predmeti aşkar şəraitdə ola bilər. Bəzi hallarda isə bu növ cinayətləri törədən şəxslər barədə ümumiyyətlə məlumat olmur. Söhbət narkotik vasitələrin gizli yolla talanmasından gedir. Belə olan halda çətinliyi bu növ cinayətin müəyyən edilməsi deyil, onun açılması yaradır, çünkü cinayət hadisəsi, onu törədən şəxs, nəticələri və yeri qeyri-aşkar xarakter daşıyır. Həmçinin istintaqın gedişatında mürəkkəb (münaqişəli) vəziyyət aşağıdakı hallarda yarana bilər:

1) müdafiəçinin (vəkilin) işin halları barədə dəqiq və doğru məlumatı oluqda;

2) təqsirləndirilən şəxs cinayət işinin materialları ilə tanış olduqda;

3) bir sıra istintaq hərəkətlərinin aparılmasında (məsələn üzləşdirmə, tanınmaya təqdim etmə, dindirmə və ya axtarış istintaq hərəkətləri aparıldıqda).

İcra ediləsi istintaq hərəkətlərinin planı irəli sürülmüş versiyalardan asılıdır. Avropa və MDB ölkələrinin bir sıra hüquq ədəbiyyatında bu növ cinayətlərin araşdırılmasında alqoritmik yanaşmadan istifadə etmək tövsiyyə olunur. İstintaqla təhqiqat orqanının birgə alqoritm hərəkətləri aşağıdakı hərəkətlərin edilməsini ehtiva edir:

1) şübhəlilərin tutulması, tanınması və dərhal izahatlarının alınması;

2) onların və onlarla əlbir olması ehtimal olunan şəxslərin yaşadıqları və iş yerləri üzrə təxirəsalınmaz

axtarış istintaq hərəkətlərinin aparılması, gizli nəqliyyat vasitələrinin müəyyən edilməsi və sair;

3) götürülmüş əşya və sənədlərə baxış keçirilməsi;

4) şahidlərin dindirilməsi;

5) məhkəmə bioloji və kimyəvi ekspertizaların təyin edilməsi və rəylərin alınması;

6) dindirilmədə istifadə olunması üçün alınmış ekspertiza rəylərinin öyrənilməsi və işin hallarına uyğun təhlilinin aparılması;

Versiyaların qurulması və yoxlanılması yaranan problemli və mürəkkəb vəziyyətlərin həllinin əsas metodlarından biri hesab olunur. İstintaq versiyaları nəinki istintaqın istiqamətini, həmçinin onun aparılmasını məqsədyönlü etməklə, cinayətin tez və tam açılmasını təmin edir.



Narkotik vasitələrin satışı cinayətlərinin istintaqının aparılmasında onların mənbəyi, daxil olma kanalı, satış proqramı, daşınma üsulu (qaçaqmalçılıq), satanların şəxsiyyətləri, onların əlaqədə olduqları şəxslərin ehtimal olunan dairəsi, alışın məqsədi (şəxsi istehlak və ya yenidən satışını həyata keçirmək) və sair bu kimi məsələlərin və sualların ətrafında versiyaların qurulması vacibdir.

**Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı törədilən cinayətlərin istintaqının aparılmasının ilkin mərhələsi:**

Qeyd olunduğu kimi narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı törədilən cinayətlərin istintaqının aparılmasının ilkin mərhələsinə hadisə yerinə baxış, şahidlərin dindirilməsi, şübhəli şəxslərin tanınması və dindirilməsi, axtarış, götürmə, götürülmüş əşyalara və sənədlərə baxış istintaq hərəkətləri və məhkəmə-ekspertizalarının təyin edilməsi aiddir. Bir çox hallarda isə hadisə yerinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməkdaşlar gəlir və onların istintaq hərəkətləri aparmaq səlahiyyətləri olmadığı üçün istintaq və təhqiqat orqanının əməkdaşı gələnədək əsas vəzifələri aşkar etdikləri halların qorunub saxlanılmasını, hadisə yerinin mühafizəsini təmin etmək, narkotik vasitə olması ehtimal olunan şəxsin hadisə yerindən getməsinin qarşısını almaq, qaçan cinayətkarın isti izlərlə tutulması və saxlanılması üçün tədbirlər görməkdir. Narkotik vasitələri, onları əldə edən, saxlayan, daşıyan habelə satan şəxslərin ilkin olaraq əməliyyat axtarış subyektəri tərəfindən aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilməsi, lakin istintaq hərəkəti aparmaq səlahiyyətləri olmadığına görə onları dərhal rəsmiləşdirmək imkanlarının olmaması, habelə təhqiqat və istintaq orqanının əməkdaşlarının bir müddət keçdikdən sonra cinayətin müəyyən edildiyi yerə gəlməsi gələcəkdə şəxsə əsaslı ittihamın elan edilməsinə və işin məhkəmə perspektivinə çətinliklər yaradır. Məsələn əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən aparılmış əməliyyat axtarış tədbirləri nəticəsində üzərində narkotik vasitə olması şübhəsi ilə şəxs bu və ya digər yerdə saxlandıqdan sonra onun üzərinə şəxsi axtarışın aparılması zərurəti yaransa da, cinayət prosessual qanunvericiliyinə əsasən əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxsin hər hansı bir istintaq hərəkəti aparmaq səlahiyyəti olmadığı üçün o, ya istintaq və ya təhqiqat orqanının əməkdaşının cinayətin müəyyən edildiyi yerə gəlməsini gözləməli, ya da ki, həmin şəxsi istintaq və təhqiqatın aparıldığı yerə dəvət edib aparmalıdır. Faktiki olaraq praktikada narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli olan şəxs əməliyyat-axtarış fəaliyyətini həyata keçirən subyektlər tərəfindən saxlanıldıqdan sonra istintaq hərəkətlərinin aparıldığı (şəhər polis şöbəsinə və ya polis idarəsinə) yerə aparılır, müdafiə hüquqları təmin olunduqdan sonra isə şübhəli şəxs qismində tutulması rəsmiləşdirilərək üzərinə şəxsi axtarış keçirilir. Həmin hərəkətlərin nəticəsində üzərindən narkotik vasitə və ya psixotrop maddə aşkar olunan şəxs qeyd olunan maddələrin və vasitələrin ona məxsus olduğunu ilkin olaraq etiraf etsələr də, əksər hallarda istintaqın sonrakı mərhələsində üzərlərindən aşkar olunmuş narkotik vasitə və ya psixotrop maddələrin onlara məxsus olmadığını, polis əməkdaşlarının təzyiqləri nəticəsində üzərlərinə qoyulan narkotik vasitə və ya psixotrop maddənin özlərinə məxsus olduğunu etiraf etməyə məcbur qaldıqlarını bildirirlər. Onların belə ifadələri ilə də istintaqın sonrakı mərhələsində hesablaşmaq məcburiyyəti yaranır. Çünkü şübhəli şəxs və ya onun müdafiəçisi şübhəli şəxsin əməliyyat-axtarış fəaliyyətini həyata keçirən subyekt tərəfindən saxlandığı yerdən polis şöbəsinə və ya idarəsinə gətirilənədək olan müddəti istintaqın obyektivindən kənarda qaldığını vurğulamaqla, şəxsin üzərindən aşkar olunmuş narkotik vasitənin onun üzərinə məhz həmin müddət ərzində qoyulduğunu və ya qoyula biləcəyini qeyd etməklə, bu faktın istintaq sübutları ilə təkzib olunmasını tələb edirlər. Ona görə də bu kimi halların qarşısının alınması üçün əməliyyat tədbirləri məharətlə təşkil olunmalı, bu kateqoriyadan olan cinayətlərin açılması və ifşa olunmasını təmin etməkdən ötrü «insanların güdülməsi»,

«texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması», «nəzarətli göndəriş» və sair bu kimi əməliyyat-axtarış tədbirlərindən istifadə olunmalı, mümkün qədər narkotik vasitələrin əldə olunma, daşınma, gəzdirmə anı qeydə alınmalı, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində mümkün şahidlərin dairəsi müəyyənləşdirilməlidir.

Bundan başqa aparılmış təhlillər göstərir ki, bir sıra hallarda cinayət işlərinin başlanması, şübhəli şəxslərin üzərində şəxsi axtarış keçirilməsi, cinayət işləri üzrə şəxslərin tutulması və barələrində həbs qətimkan tədbirinin seçilməsinə dair məhkəməyə təqdimatla müraciət olunan zaman rayon polis idarələrinin təhqiqat və istintaq orqanlarının əməkdaşları tərəfindən cinayət prosessual qanunvericiliyinin tələblərinin, o cümlədən insan və vətəndaşların konstitusion hüquqlarının və azadlıqlarının pozulması hallarına yol verilir. Təcrübə göstərir ki, bir sıra hallarda narkotik vasitələrin aşkar edilib götürülməsi zamanı təhqiqat orqanı tərəfindən "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunun və cinayət prosessual qanunvericiliyinin tələblərinə tam riayət olunmur. Bunun nəticəsində də narkotik vasitələrin aşkar edilib götürülməsi zamanı yol verilmiş qanun pozuntularını istintaq zamanı aradan qaldırmaq mümkün olmur. Nəticədə, qeyd olunduğu kimi, cinayət işlərinə məhkəmədə baxılarkən ortaya ciddi problemlər çıxır. Belə problemlərlə üzləşməmək üçün narkotik vasitələrin aşkar edilməsinin ilkin mərhələsində qanunvericiliyin tələblərinə dönmədən və dəqiq əməl olunmalıdır. Eyni zamanda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar istintaqı aparılmış cinayət işlərinin təhlilləri göstərir ki, bəzi hallarda təhqiqat orqanları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbiri ilə bağlı əməliyyat-qeydiyyat işi başlanılıb həmin iş qeydiyyata alınmır. Bir qayda olaraq əməliyyat-axtarış tədbirinin keçirilməsinə dair qərar tədbirə bir gün qalmış və ya həmin gün qəbul olunur, qərarda konkret hansı əməliyyat-axtarış tədbirinin keçirilməsi göstərilmir, ümumi sözlərlə kifayətlənilir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı başlanmış və istintaq olunan cinayət işlərində tam və hərtərəfli araşdırmanın aparılmasını təmin edən istintaq hərəkətlərindən biri də şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsidir.

Şübhəli şəxsin dindirilməsi anınadək adətən aşağıdakı situasiyalardan biri yaranır:

1) Aparılmış əməliyyat-axtarış tədbirləri şübhəli şəxsin cinayətkar əlaqələri və fəaliyyəti barədə informasiya əldə etməyə imkan yaratmışdır;

2) şübhəli şəxsin dindirilməsi onun birbaşa cinayət başında yaxalanmasından bilavasitə sonra başladıqda onun özü və cinayətkar fəaliyyəti barədə hər hansı bir məlumat mövcud deyil.

Birinci halda dindirmədə istifadə edilməsi mümkünlüyü baxımından əməliyyat-axtarış tədbirləri zamanı əldə edilmiş məlumatı təhlil edib, qiymətləndirmək zəruridir.

İkinci halda isə tutulan şəxs məsuliyyətdən kənar qalmaq üçün bir çox hallarda yalan ifadələr verir, narkotik vasitələrin əldə etdiyi mənbəni, özü ilə bağlı məlumatları gizlətməyə çalışır və ya istintaqı çətinliyə aparan sair bu kimi hərəkətlərə yol verir.

Bu qəbildən olan cinayətlərin istintaqının aparılmasında, sübutların toplanılmasında keyfiyyətli axtarış və götürmə istintaq hərəkətinin aparılması xüsusi önəm daşıyır.

Cinayəti törədən və ya onun törədilməsində iştirak edən şəxslərin üzərlərində, yaşayış sahələrində, nəqliyyat vasitələrində axtarış istintaq hərəkətləri aparılarkən onların üzərlərində telefon danışıqlarına dair məlumatların olub-olmaması diqqətdən yayınmamalı, üzərlərində olan telefonlar götürülməli və onlara baxış keçirilməlidir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işlərinin istintaqı zamanı qanunvericiliyin tələbləri tam həcmdə nəzərə alınmalı, bu sahəyə nəzarət daha da gücləndirilməli, o cümlədən Azərbaycan Respublikası cinayət prosessual qanunvericiliyinin, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanununun tələblərinə dönmədən əməl edilməli, vətəndaşların konstitusion hüquq və azadlıqlarının qorunması təmin edilməlidir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. “Hüquq Yayın Evi”, Bakı, 2020.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.
3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / C.H. Mövsümovun redaktəsi ilə. Bakı, 2016.
4. İstintaq taktikası/K.Q. Sarıcalinskaya və başqaları. Bakı, 1991.
5. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının 28.06.2005-ci il tarixli Qanunu.
6. Müstəntiqin məlumat kitabı: V.N. Qriqoryev, A.V.Pobedkin, V.N.Yaşin, Y.V. Qavrilin. – M.: Eksmo, 2008.
7. Volınski A.F. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işlərinin istintaqı // Kriminalistika. M., 1999.
8. Savenko V.Q., Sergeyev A.N. və başqaları. Əsas yayılmış narkotik vasitələr – dərslik M., 1992.
9. Knyazkov A.S. Kriminalistika: Leksiyalara kursu / prof. N.T.Vedernikovanın redaktəsi altında. - Tomsk «TML-Press» nəşriyyatı 2008
10. Rusiya və Azərbaycan internet saytlarında yerləşdirilmiş məqalələr.



**Balahüseyn Şabanov,**
**Mingəçevir şəhər prokurorunun müavini**
**ədliyyə müşaviri**

# Hərbi xidmət Azərbaycan gəncinin şərəf işidir

*“Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük bir iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmət etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır. Azərbaycan Ordusu Azərbaycan xalqının, bütün dövlət orqanlarının, vətəndaşların diqqət və qayğısı ilə əhatə olunmalıdır”.*

*Ulu öndər Heydər Əliyev*

Çoxəsrlik dövlətçilik ənənələrinə malik Azərbaycanın hərb tarixi də kifayət qədər zəngindir. Düşmənə, yadelli işğalçılara qarşı həmişə mübarizliyi, qəhrəmanlığı ilə seçilən igid oğullarımızın yaratdığı hərb tariximiz şərəfli səhifələrlə doludur. Bu gün hər cür düşmənə layiqli cavab verməyi bacaran və verən Azərbaycan Silahlı qüvvələri 26 iyun 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılan ilk silahlı dəstələrin varisi olmaqla zamanında qarşısında duran vəzifələri layiqincə yerinə yetirmişdir. Müstəqil Respublikamızın Silahlı Qüvvələri Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və həyata keçirdiyi düşünülmüş strategiyası nəticəsində ölkəmiz aqrar respublikadan mükəmməl hərbi kadrlar hazırlayan, güclü maddi-texniki bazası olan, nəhayət hərbi sənayesini və qüdrətli müasir ordusunu yaratmış bir dövlətə çevrilmişdir. Azərbaycan regionda təkcə iqtisadi və siyasi gücü ilə deyil, eyni zamanda hərbi qüdrəti ilə də əsas söz sahibidir. Ordumuzun tərkibində ürəyi Vətən məhəbbəti ilə döyünən, düşmənə hər zaman layiqli cavab verməyi bacaran, mübariz gənclər xidmət edirlər.



Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən 30 ilə yaxın bir müddətdə torpaqlarımızın 20 faizinin işğal altında saxlanılması ilə barışmayan ordumuz ərazi bütövlüyümüzü hər an bərpa etməyə hazır olduğunu bildirmişdir. Sülh danışıqlarının səmərə vermədiyi, əksinə düşmən təxribatlarının daha da artdığı bir məqamda Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev “İrəli” komandası verildi və “Dəmir yumruq” əməliyyatı başladı.

2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə başlayan Vətən müharibəsində böyük Zəfərin qazanılmasında rəşadətli Azərbaycan Ordusunun şəxsi heyəti misilsiz qəhrəmanlıq, fədakarlıq nümunələri göstərərək 30 ilə yaxın müddətdə düşmən işğalında olan torpaqlarımızı azad etdi. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, yüksək diplomatik bacarığı, cəsarətli, qətiyyətli addımları nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan ordusunun nəyə qadir olduğunu göstərmək üçün cəmi 44 gün kifayət etdi. Ermənistan kapitulyasiya aktı imzalamağa məcbur oldu.

Dünya gördü ki, bu müddətdə Azərbaycan ordusu, Azərbaycan əsgəri bir addım belə geri çəkilmədi, bir nəfər belə fərarilik etmədi. Azərbaycan xalqı öz rəhbəri ətrafında daha sıx birləşərək ordusuna dəstək oldu. Böyük Zəfər Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdə qətiyyəti, Silahlı Qüvvələrimizin rəşadəti, əsgər və zabitlərimizin qəhrəmanlığı, şəhidlərimizin qanı və canı bahasına qazanıldı.

Bu tarixi Zəfərdə Azərbaycanın digər bölgələri kimi Salyan rayonunun igid və qəhrəman oğullarının da öz payı vardır. Silahlı Qüvvələrin sıralarında xidmət edən 2400 nəfər əsgər və zabitlərlə bərabər 859 nəfər gəncimiz vətənin çağırışına səs verərək döyüşən ordu sıralarına qoşulmuşdur. Onlar bir nəfər kimi Vətən qarşısında borclarını şərəflə yerinə yetirmişdir. 60 nəfər əsgər və zabitimiz isə şəhidlik zirvəsinə ucalmışdır. Torpaqlarımızın düşmən işğalından azad edilməsində müstəsna xidmətlərinə görə 5 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür. Digər şəhid və qazilərimiz, əsgər və zabitlərimiz Azərbaycanın yüksək orden və medallarına, fəxri adlarına layiq görülmüşlər.

Bu gün rəşadətli Azərbaycan Ordusunun işğaldan azad etdiyi torpaqlarda üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Ordumuz işğaldan azad edilən torpaqlarımızda



öz mövqelərini daha da möhkəmləndirərək, dövlətimizin başçısının rəhbərliyi ilə başlayan genişmiqyaslı quruculuq və bərpa işlərinə öz layiqli töhfələrini verir. Bəli, hərb tariximiz şərəf işimizdir. Ona görə də bu gün Azərbaycan ordusunda xidmət etmək hər bir gəncin şərəf işinə çevrilmişdir.

Bu istiqamətdə əsas institutional norma Azərbaycan Respublikasının Konstitusiyasının 76-cı maddəsidir. Həmin maddəyə əsasən, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Bununla belə Ali Qanunumuz vətəndaşların digər maddələrdə təsbit olunmuş hüquq və azadlıqlarının müdafiəsi baxımından yalnız bir əsasla hərbi xidmət keçilməsini məhdudlaşdırmışdır. Belə ki, həmin maddənin ikinci hissəsində göstərilmişdir ki, vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir.

Hərbi xidmətə çağırış və hərbi xidmət üzrə əsas sahəvi normativ-hüquqi akt "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli Qanunudur. Sözügedən qanun qəbul edildiyi gündən hazıradək daim təkmilləşdirilərək 36 dəyişiklik və əlavələr edilməklə, müasir dövrün tələblərinə uyğunlaşdırılmışdır. Qanunda sözügedən sahə üzrə münasibətləri ətraflı tənzimləməklə, həm vətəndaşlar, həm Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, həm də digər dövlət orqanları və onların vəzifəli şəxsləri üçün bir hüquq və vəzifələr müəyyənləşdirilmişdir.

Hərbi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının 18 yaşına çatmış və sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı hər bir kişi cinsli vətəndaşı Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməsi vəzifəsi vardır. Bununla yanaşı həmin vəzifələrin həyata keçirilməsi eyni zamanda müxtəlif dövlət qurumlarının da vəzifələrinin icrasını şərtləndirir.

Belə ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinə əsasən, vətəndaşlar ehtiyata keçirildikdən sonra 7 gün müddətində yaşayış yeri üzrə hərbi qeydiyyata alınmaq üçün Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə gəlməlidirlər. Hərbi vəzifəlilər və çağırışçılar yaşayış yerini dəyişərkən də 10 gün müddətində həmin quruma müvafiq məlumat verməlidirlər. Hərbi vəzifəlilər və çağırışçılar yaşayış yerini 3 aydan çox müddətə dəyişdirdikdə yaşayış yeri üzrə hərbi qeydiyyatdan çıxmalı və olduğu yer üzrə hərbi qeydiyyata durmalıdırlar.

Dövlət orqanları, yerli özünüidarə orqanları, təşkilatlar və vəzifəli şəxslər isə öz növbəsində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müraciətinə əsasən hərbi vəzifəlilərin və çağırışçıların müvafiq icra hakimiyyəti orqanına çağırılması barədə onlara məlumat verməli və onların çağırış üzrə vaxtında gəlməsinə köməklik göstərməlidirlər.

Belə ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi hərbi vəzifəliləri və çağırışçıları yalnız onların hərbi qeydiyyat sənədlərində hərbi qeydiyyata qəbul və ya hərbi qeydiyyatdan çıxarma barədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qeydləri olduğu təqdirdə yaşayış yeri üzrə qeydiyyata almalı və ya qeydiyyatdan çıxarmalı, vətəndaşların hərbi xidmətə (toplanışlara) çağırılmasında, vətəndaşların hərbi qeydiyyat qaydalarına əməl etməsinə nəzarət olunmasında və hərbi vəzifəlilər və çağırışçılar sırasından müəyyən edilmiş hərbi qeydiyyat qaydalarını pozan vətəndaşların aşkara çıxarılmasında sonuncu quruma köməklik göstərməli, habelə hərbi vəzifənin icrasından boyun qaçıran şəxsləri aşkar etməli və müddətli həqiqi hərbi xidmətə çağırılan Azərbaycan Respublikasının vətəndaşlarının məcburi dövlət daktiloskopik qeydiyyatını aparmalıdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin öhdəliyi isə hərbi vəzifəlilərin və çağırışçıların öz soyadının, adının, atasının adının dəyişdirilməsinin, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatında onların doğum tarixi və yeri haqqında dəyişikliklər edilməsində, habelə bu şəxslərin ölümünün qeydiyyatı barədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə 7 gün müddətində məlumat verilməsində ifadə olunur.

Cinayət təqibini həyata keçirən orqanlar isə barəsində cinayət işi başlanılmış çağırışçılara dair onların qeydiyyatda olduğu Azərbaycan Respublikası Səfərbərlik




və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə 7 gün müddətində məlumat verməlidir. Hərbi vəzifəlilər və çağırışçılar haqqında məhkəmənin qanuni qüvvəyə minmiş hökmü barədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti cəzanı icra edən müəssisə və orqanlar tərəfindən 7 gün müddətində bu barədə məlumatlandırılmalıdırlar.

Daha sonrakı mərhələdə vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Respublikasının Prezidentinin müvafiq aktı qüvvəyə mindikdən sonra müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən çağırışçılar yaşayış yeri və ya olduğu yer üzrə hərbi qeydiyyatda olduğu, hərbi qeydiyyatda olmayan çağırışçılar isə yaşayış yeri üzrə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə gəlməli, dövlət orqanları, yerli özünüidarə orqanları, təşkilatlar və vəzifəli şəxslər çağırışçıları ezamiyyətdən geri çağırmalı və müvafiq icra hakimiyyəti orqanına onların vaxtında gəlməsinə köməklik göstərməlidirlər.

Sevindirici haldır ki, vətənin müdafiəsini qanunla müəyyən edilmiş vəzifədən əlavə, özünə mənəvi borc bilən əksər vətəndaşlarımız ordu sıralarında hərbi xidmət keçməklə, bu vəzifəni layiqincə yerinə yetirirlər.

Ümumilikdə isə çağırışdan boyun qaçıran çağırış yaşlı vətəndaşların prokurorluq, hüquq-mühafizə və icra orqanlarının Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə əlaqəli fəaliyyəti nəticəsində müəyyən edilərək hərbi xidmətə göndərilməsi təmin olunsa da, bu sahədə bəzi çatışmamazlıqlar hələ də qalmaqdadır. Həmin hallardan biri olaraq çağırış yaşına çatmış vətəndaşların müxtəlif məqsədlərlə xarici ölkələrə gedərək hərbi xidmətdən yayınması göstərilə bilər.

Belə ki, qanunvericilik həmçinin, xaricdə yaşayan, habelə xarici dövlətin vətəndaşlığını qəbul etmiş, lakin qanunla müəyyən edilmiş qaydada vətəndaşlığına xitam verilməmiş Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması əsaslarını müəyyən edir.

Azərbaycan Respublikasının xaricdə yaşayan vətəndaşları müddətli həqiqi hərbi xidmətə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının Konsul Nizamnaməsi ilə müəyyən edilmiş qaydada çağırılırlar. Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin 30-cu maddəsinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən konsul Azərbaycan Respublikası vətəndaşlarının hərbi uçotunu aparır, Azərbaycan Respublikasının kişi cinsindən olan 18 yaşına çatmış vətəndaşlarının həqiqi hərbi xidmətə çağırılmaq üçün Azərbaycan Respublikasında daimi yaşayış yerlərindəki hərbi komissarlıqlara gəlməsini təmin edir. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş, lakin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verilməmiş çağırışçılar da həmçinin ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Bəzi hallarda çağırışçı xarici dövlətin ərazisində daimi yaşasa da, Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin 30-cu maddəsinə əsasən hərbi xidmətə çağırışa cəlb edilməsi üçün onun haqqında məlumatların Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim edilməsi təmin edilməmişdir. Bu isə özlüyündə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin işində müəyyən çətinliklər yaratmaqla yanaşı çağırışların hərbi xidmət keçməkdən kənarda qalmaları ilə nəticələnir.

Bundan əlavə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Salyan rayon şöbəsindən Salyan Rayon Prokurorluğuna daxil olmuş materialların araşdırılması zamanı bir çox hallarda müəyyən olunmuşdur ki, çağırışçılar çağırışdan əvvəl həkim mütəxəssislər tərəfindən tibbi müayinədən keçirilməyərək müddətli həqiqi hərbi xidmətə yararlı olub-olmamasına dair müvafiq qərar qəbul edilmədən və onlar barəsində toplanmış material müvafiq qərar olmadan rayon prokurorluğuna göndərilmişdir. Müvafiq həkim komissiyasından keçirilməmiş və tibbi müayinə nəticəsində müddətli həqiqi hərbi xidmətə yararlılığı haqqında qərar qəbul edilməmiş şəxslərin barəsində materialların prokurorluğa göndərilməsi prokurorluq qurumlarının lüzumsuz iş yükünün artmasına, habelə vətəndaşların haqlı olaraq narazılıqlarına səbəb olur.

**Ceyhun Quliyev**
**Salyan rayon prokurorluğunun böyük müstəntiqi kiçik ədliyyə müşaviri**

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə istintaqı tamamlanmış cinayət işləri üzrə çıxarılmış bəraət hökmlərinin təhlili və aşkar edilən nöqsanların aradan qaldırılması üçün görülmüş tədbirlər

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə istintaqı tamamlanmış cinayət işləri üzrə 2020-ci il ərzində bəraət hökmləri çıxarılmış işlər Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi tərəfindən təhlil olunmuşdur.

Həmin işlər üzrə bəraətə əsas olan hallar, həmçinin istintaq zamanı yol verilən digər prosessual pozuntular ətraflı təhlil edilərək nöqsanların aradan qaldırılması üçün konkret tədbirlər görülmüşdür.

Belə ki, 25 fevral 2020-ci il tarixdə saat 11 radələrində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Qərb Ərazi Baş Gömrük İdarəsinin “Mazımçay” gömrük postundan idarə etdiyi “Mercedes-Benz” markalı avtomobillə Gürcüstandan Azərbaycan Respublikasına gələn Gürcüstan vətəndaşı Khutsıshvılı Zazanın gömrük nəzarətindən keçərkən üzərinə keçirilmiş baxış zamanı gödəkcəsinin cibində olan portmanın içərisində 1 bükümdə 0,72 qram narkotik vasitə olan qurudulmuş marixuana aşkar edilərək götürülmüşdür.

Fakta görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə cinayət işi başlanmış, Khutsıshvılı Zaza həmin maddə ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Balakən rayon Məhkəməsinə göndərilmişdir.

Balakən rayon Məhkəməsinin hökmü ilə Khutsıshvılı Zazaya bəraət verilmiş və hökm onunla əsaslandırılmışdır ki, Khutsıshvılı Zazanın üzərində şəxsi yoxlama aparılan zaman qanunun tələbləri pozularaq sonuncu Azərbaycan dilini bilmədiyi halda, ona tərcüməçi təqdim edilməmiş, lakin tərtib edilmiş protokolda şəxsə üzərində yoxlama aparılacağı barədə məlumat verilməklə, ona hüquq və vəzifələrinin, məsuliyyətinin izah edildiyi, ondan yoxlama başlamazdan əvvəl üzərində gömrük nəzarətindən gizlədilmiş və ya gömrük orqanına bəyan olunmalı predmetin, o cümlədən narkotik vasitələrin olub-olmadığının soruşulduğu və müsbət halda həmin malların könüllü olaraq təqdim edilməsinin izah edildiyi göstərilmişdir. Lakin şəxs üzərində yoxlama aparılan vaxt ona tərcüməçinin xidmətindən istifadə etmək şəraiti yaradılmamış, bu barədə ona məlumat yoxlama başa çatdıqdan sonra verilmişdir.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 99-cu maddəsinə əsasən şəxsi yoxlama haqqında protokolda barəsində müvafiq hərəkət aparılan şəxsin və hərəkətin həyata keçirilməsində iştirak edən digər şəxslərin Azərbaycan Respublikasının dövlət dilində danışa bilib-bilməməsi, həmçinin onların hüquq və vəzifə, məsuliyyətinin izah edilməsi haqqında qeydlər edilməlidir.

Cinayət qanunvericiliyinə əsasən qaçaqmalçılıq cinayətinin subyekti vətəndaşlığından asılı olmayaraq 16 yaşına çatmış hər bir anlaqlı şəxs ola bilər. Bununla belə, təcrübədən görünür ki, əksər hallarda bu cinayətin subyekti əcnəbilər olur. Mövcud şəraitdə bütün gömrük sərhəd buraxılış məntəqələrində dünya ölkələrinin istifadə etdiyi bütün dilləri bilən tərcüməçilərin saxlanılması mümkün deyil.

Qaçaqmalçılıq cinayətini törətmiş əcnəbilərin hüquq və vəzifələrinin onların bildiyi dildə izah edilməsinin təmin edilməsi, gömrük və cinayət qanunvericiliyinin tələblərinin pozulmasının və eyni əsas ilə gələcəkdə bəraət verilməsinin qarşısının alınması məqsədilə tərcüməçi təqdim edilməsinin mümkün olmadığı hallarda üzərində şəxsi yoxlama aparılan şəxsə izah edilməli olan hüquq və vəzifələri, məsuliyyəti, yoxlamanın aparılması səbəbi və digər əhəmiyyət kəsb edən hallara dair bildirişlər müvafiq olaraq ingilis, rus, fars, gürcü və ya dünyada daha çox yayılmış digər dillər və əlifbalarda tərcümə olunaraq təsdiq edilmiş nüsxəsinin təqdim edilməsi barədə idarənin təklifi Baş Prokurorluğun rəhbərliyi tərəfindən məqbul hesab olunmaqla Dövlət Gömrük Komitəsinə müvafiq məktub göndərilmiş və qaldırılmış məsələnin icrası təmin edilmişdir.

**Nəticə:** Hazırda bütün gömrük sərhəd buraxılış məntəqələrində ingilis, rus, fars, gürcü və ya dünyada daha çox yayılmış digər dillər və əlifbalarda barəsində şəxsi yoxlama aparılan hüquq və vəzifələrinə dair bildirişlər hazırlanmış və bütün işlər üzrə barəsində şəxsi yoxlama aparılan əcnəbilərə onların bildiyi dildə hüquq və vəzifələrinin əks olunduğu bildirişlərin verilməsi təmin edilmişdir.

Nümunə (ixtisarla):

**იმ პირის , აზერბაიჯანის რესპუბლიკის საბაჟო კოდექსის შესაბამის მუხლებში გათვალისწინებული უფლება–მოვალეობები, რომლის მიმართაც განხორციელდა საბაჟო კონტროლის ღონისძიებები**

**შეტყობინება**

➢ 48.8. პირს (პირებს), ამ კოდექსის მე -10 თავის შესაბამისად უფლება აქვს გაასაჩივროს საბაჟო ორგანოს გადაწყვეტილება ადმინისტრაციული ან (ან) სასამართლო წესით;

➢ 51. დაინტერესებულ პირებს,საკუთარი უფლებების, თავისუფლებებისა და იურიდიულად დაცული ინტერესების დასაცავად, საბაჟო ორგანოების და მათი თანამდებობის პირების გადაწყვეტილებების, მოქმედებების ან და უმოქმედობების ამ კოდექსის, აზერბაიჯანის რესპუბლიკის ადმინისტრაციული საპროცესო კოდექსის, "ადმინისტრაციული აღსრულების შესახებ "აზერბაიჯანის რესპუბლიკის კანონისა და სხვა კანონების შესაბამისად, აქვთ გასაჩივრების უფლება;

➢ 52.5. მოსარჩლეს, კანონის შესაბამისად განსაზღვრული წესით უნდა ეცნობოს საბაჟო ორგანოს გადაწყვეტილების შესახებ. თუ გადაწყვეტილება განმცხადებლისთვის არახელსაყრელია, მისი მიღების მიზეზები უნდა იყოს წერილობითი ფორმით და პირს უნდა მიეწოდოს ინფორმაცია გადაწყვეტილების ზემდგომი საბაჟო ორგანოსა და ან სასამართლოში გასაჩივრების უფლებების შესახებ;

➢ 82.1 ყველა პირს, ამ კოდექსით გათვალისწინებული პროცედურის შესაბამისად, საქონლის საბაჟო ტერიტორიაზე შეტანისა და გატანის თანაბარი უფლება გააჩნია;

➢ 91.2. დეკლარანტს, საქონლის მეპატრონეს, საქონელზე და სატრანსპორტო საშუალებაზე უფლებამოსილ სხვა პირებს ან და მათ წარმომადგენლებს საკუთარი ინიციატივით უფლება აქვთ მონაწილეობა მიიღონ საბაჟო შემოწმებაში;

➢ 99.7. პირს, რომლის მიმართაც ხორციელდება შესაბამისი მოქმედება, მოწმეებს (მხოლოდ მოწმეების თანდასწრებით) და მოქმედებაში მონაწილე სხვა პირებს ოქმის შინაარსთან დაკავშირებით, უფლება აქვთ წარმოადგინონ განმარტებები და კომენტარები აგრეთვე განმარტონ ოქმის ხელმოწერაზე უარის თქმის მიზეზები . მათი განმარტებები და კომენტარები უნდა დაერთოს ოქმს;

➢ 99.8. ოქმის ასლი გადაეცემა პირს, რომლის მიმართაც ხორციელდება შესაბამისი ზომები;

➢ 131.4. ამ კოდექსის 131.1 მუხლით განსაზღვრული ინფორმაცია, ავტომობილზე პასუხისმგებელი პირების სახელით მათი წარმომადგენლის მიერაც შეიძლება წარედგინოს საბაჟო ორგანოებს;

➢ 135.1. სატრანსპორტო საშუალებებზე პასუხისმგებელ პირს, რომლის საბაჟო ტერიტორიიდან გამგზავრება არის გათვალისწინებული, შესაბამისი აღმასრულებელი ორგანოს მიერ დადგენილი წესით და ფორმით (მათ შორის ელექტრონული ფორმით) შეუძლია შესაბამისი ინფორმაცია წინასწარ წარუდგინოს საბაჟო ორგანოებს;

➢ 148.1. საბაჟო საზღვრის გადამკვეთი საქონლისა და სატრანსპორტო საშუალებების მფლობელი ან და საბაჟო ბროკერი, მასთან დადებული ხელშეკრულების საფუძველზე შეიძლება იყოს დეკლარანტი;

➢ 148.4 დეკლარანტს, ამ კოდექსით გათვალისწინებული უფლებების გარდა, საბაჟო დეკლარაციის წარდგენამდე შეამოწმოს და გაზომოს საქონლისა და სატრანსპორტო საშუალებების საბაჟო კონტროლის ქვეშ განსაზღვრა, აგრეთვე მათი გაზომვა და საბაჟო ორგანოების ნებართვით მათი ნიმუშებისა და სინჯების აღების უფლება აქვს;

➢ 158.2. დეკლარანტს, საქონლის მიმართ უფლებამოსილ სხვა პირებს ან მათ წარმომადგენლებს შეუძლიათ მონაწილეობა მიიღონ საბაჟო ორგანოების წარმომადგენლების მიერ საქონლის შემოწმების პროცესში, მათგან ნიმუშებისა და სინჯების აღებაში;

➢ 158.6. დეკლარანტს, საქონლის მიმართ უფლებამოსილ სხვა პირებს ან მათ წარმომადგენლებს უფლება აქვთ გაეცნონ აღებული ნიმუშებისა და სინჯების საექსპერტიზო გამოკვლევის შედეგებს;

➢ 324.1. საბაჟო შემოწმების დროს დეკლარანტს, საქონლის მიმართ უფლებამოსილ სხვა პირებს ან მათ წარმომადგენლებს აქვთ შემდეგი უფლებები:

➢ 324.1.1. ექსპერტის მიმართ დასაბუთებული პროტესტის გამოხატვა;

➢ 324.1.2. შეიტანოს განცხადება კონკრეტული ექსპერტის დანიშვნის შესახებ;

➢ 324.1.3. ექსპერტისთვის დამატებითი კითხვების დასმა და მათ შესახებ მოსაზრების გამოხატვა;

➢ 324.1.4. მონაწილეობა მიიღოს ექსპერტიზაში და მისცეს განმარტებები ექსპერტს;

➢ 324.1.5. საქონლიდან ნიმუშებისა და სინჯების აღება;

➢ 324.1.6. გაეცნოს ექსპერტის მოსაზრებას ან ინფორმაციას მისი აზრის გამოუცხადებლობის შესახებ და მიიღოს ამ მოსაზრების ან ინფორმაციის ასლი;

➢ 324.1.7. მიმართონ დამატებით ან განმეორებით გამოკვლევას.

**საბაჟო კონტროლის შესახებ**
**ღონისძიებების განმახორციელებელი პირი:** ___________________

(გვარი, სახელი, ხელმოწერა)

**თარიღი:** ___________________________

Bundan başqa, 26 dekabr 2019-cu il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Qərb Ərazi Baş Gömrük İdarəsinin "Mazımçay" gömrük postundan Gürcüstandan Azərbaycana idarə etdiyi

"SCANİA" markalı yük avtomobili ilə gələn Gürcüstan vətəndaşı Arakhamıa Davıtının gömrük nəzarətindən keçərkən üzərində aparılmış şəxsi yoxlama zamanı malların aşkar edilməsini çətinləşdirən üsullardan istifadə etməklə 2 ədəd kağız bükümdə qablaşdıraraq əynindəki gödəkcənin sol iç cibində gömrük nəzarətindən gizlətdiyi ümumilikdə təmiz çəkisi 1,21 qram təşkil edən qurudulmuş marixuana narkotik vasitəsi aşkar edilərək götürülmüşdür.

Fakta görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə cinayət işi başlanılmış və Arakhamıa Davıtı həmin maddə ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Balakən rayon məhkəməsinə göndərilmiş, Məhkəmənin hökmü ilə Arakhamıa Davıtına təqsirliliyinin sübuta yetirilməməsi əsası ilə bəraət verilmişdir.

Başqa bir misal, 02.12.2019-cu il tarixdə saat 12 radələrində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Qərb Ərazi Baş Gömrük İdarəsinin "Mazımçay" gömrük postundan Gürcüstandan Azərbaycan Respublikasına idarə etdiyi "VOLKSWAGEN Sharan" markalı nəqliyyat vasitəsi ilə gələn Gürcüstan vətəndaşı Orjonikidze Davıtını gömrük nəzarətindən keçərkən yoxlama zamanı nəqliyyat vasitəsinin salonundan 1 ədəd bükümdə ümumilikdə təmiz çəkisi 1,41 qram qurudulmuş marixuana narkotik vasitəsi aşkar edilərək götürülməsi faktına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə cinayət işi başlanmışdır.

Orjonikidze Davıtı Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Balakən rayon məhkəməsinə göndərilmiş, Məhkəmənin hökmünə əsasən Orjonikidze Davıtının əməlində cinayət tərkibi olmaması əsası ilə bəraət verilmişdir.

Bəraət hökmləri təhlil olunarkən müəyyən olunmuşdur ki, Gürcüstan vətəndaşları Arakhamıa Davıtının və Gürcüstan vətəndaşı Orjonikidze Davıtının Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə təqsirləndirilmələrinə dair cinayət işləri üzrə əsaslanılan dəlilər eyni və ya oxşar məzmunlu olmaqla, bəraətin əsası ibtidai araşdırma zamanı həmin işlər üzrə Gömrük və Cinayət-Prosessual məcəllələrinin əsasən eyni müddəalarının tələblərinin pozulması olmuşdur.

Həmin işlərin təhlili zamanı müəyyən olunmuşdur ki, gömrük nəzarət tədbiri kimi yoxlama həyata keçirilərkən, həmçinin mallar və ya sənədlər götürülərkən hal şahidlərinin iştirakının məcburi olması barədə tələblər pozularaq, hal şahidləri qanunsuz predmet aşkar edildikdən sonra dəvət edilməklə onların iştirakı formal həyata keçirilmiş, nəticədə hal şahidlərinin məhkəmə baxışı zamanı ziddiyyətli ifadələr verməsi keçirilən gömrük hərəkətinin mötəbərliyinin məhkəmələr tərəfindən şübhə altına alınmasına səbəb olmuşdur.

Gömrük Məcəlləsinin 57 və 58-ci maddələrinə əsasən istər nəqliyyat vasitələrinə daxil olma, nəqliyyat vasitələrinin saxlanılması və yoxlanılması zamanı, istərsə də həmin Məcəllənin 63-cü maddəsinə əsasən şəxsin ilkin yoxlanılması zamanı videoçəkilişdən istifadə edilməsi və ya hal şahidinin iştirakının məcburi olması tələb edilmir.

Gömrük Məcəlləsinin 63-cü maddəsinə müvafiq olaraq gömrük orqanlarının vəzifəli şəxsləri nəqliyyat vasitəsində olan şəxsin üzərində xidməti itlər, rentgen aparatı, surətçıxaran avadanlıq, mexaniki, elektrik, elektron cihazlar və digər vasitələrdən istifadə edilməklə ilkin yoxlama keçirmək hüququna malikdirlər. Məhz ilkin yoxlamadan sonra fiziki şəxsin qanunvericiliklə qadağan edilmiş, yaxud məhdudlaşdırılmış və gömrük işi üzrə digər qanunvericilik aktlarının müddəalarının pozulması faktını təsdiq edən əşyaları üzərində gizlətməsi və daşıması barədə əsaslı şübhə yarandıqda şəxsi yoxlama aparırlar.

Qanunvericiliyin tələbinə əsasən, gömrük orqanının səlahiyyətli şəxsləri tərəfindən şəxs üzərində ilkin yoxlama aparıldıqdan sonra şəxsi yoxlama aparılmasına zərurət yarandığı təqdirdə yoxlama başlamamışdan əvvəl videoçəkilişdən istifadə edilmədikdə hal şahidlərinin iştirakı təmin edilməlidir.

Cinayət işlərinin təhlilindən görünür ki, bəzi hallarda xidməti itlər və ya digər vasitələrdən istifadə etməklə ilkin yoxlama aparılaraq şəxsin üzərində və ya nəqliyyat vasitəsində qadağan edilmiş, yaxud dövriyyəsi məhdudlaşdırılmış və ya nəzarətdə olan əşyaların gizlətməsi və daşıması barədə əsaslı şübhə olduqda, hal şahidinin iştirakı olmadan yoxlama aparılır, gizlədilmiş əşya aşkar edildikdən sonra həmin əşyalar götürülərkən hal şahidləri dəvət edilir.

Qanunvericliyin tələbinə əsasən, həm şəxsi yoxlama aparılarkən, həm də mallar və ya sənədlər götürülərkən videoçəkilişdən istifadə edilmədikdə, işin nəticəsində maraqlı olmayan və yetkinlik yaşına çatmış azı 2 (iki) hal şahidinin iştirakı məcburidir.

Qeyd olunanlara əsasən, ilkin yoxlamadan sonra fiziki şəxsin qanunvericiliklə qadağan edilmiş, yaxud məhdudlaşdırılmış və gömrük işi üzrə digər qanunvericilik aktlarının müddəalarının pozulması faktını təsdiq edən əşyaları üzərində gizlətməsi və daşıması barədə əsaslı şübhə yarandıqda şəxsi və ya nəqliyyat vasitəsində yoxlama aparılmasında videoçəkilişdən istifadə edilmədikdə, hal şahidlərinin iştirakı aşkar edilmiş predmetin götürülməsi anından deyil, yoxlama başlamamışdan əvvəl təmin edilməlidir.

Bundan başqa, cinayət-prosessual qanunvericiliyindən fərqli olaraq gömrük qanunvericliyində eyni şəxsin bir neçə dəfə hal şahidi qismində iştirakına məhdudiyyət müəyyən edilməsə də, eyni şəxslərin dəfələrlə və ya bəzi hallarda gömrük orqanlarında xüsusi rütbələr nəzərdə tutulmayan vəzifələrdə işləyən dövlət qulluqçusu olmayan işçilərin hal şahidi kimi iştirak etməsi, Gömrük Məcəlləsinin 99-cu maddəsində hal şahidi üçün nəzərdə tutulan "işin nəticəsində maraqlı olmayan" şəxs olmasını şübhə altına alır.

Həmçinin, müəyyən edilmişdir ki, bəzi cinayət işləri üzrə videoçəkilişdən istifadə etməklə aparılmış

götürmə protokollarına əlavə edilmiş videoçəkilişlərə aid disklərə keçirilmiş baxış zamanı videoçəkilişlər səthi və keyfiyyətsiz aparılmış, gömrük yoxlaması prosesini tam əhatə etməmiş, gömrük hərəkətlərinin kim tərəfindən, harda və nə vaxt aparılması, qadağan edilmiş və ya bəyan edilməmiş predmetlərin haradan aşkar edilməsi, barəsində yoxlama aparılan şəxsə hüquq və vəzifələrinin izah edilməsi və yoxlamanın nəticələri ilə bağlı hallar görüntülərdə öz əksini tapmamışdır.

**Nəticə:** Hal şahidlərinin tapılması, məhkəmə baxışı zamanı onların iştirakının mübahisləndirilməsi kimi halların aradan qaldırılması üçün müvafiq gömrük idarələrinin nəzarət buraxılış məntəqələrindəki şəxsi müayinə üçün ayrılmış otaqların videoçəkiliş aparılması məqsədilə müvafiq aparatla təchiz edilməsi və şəxsin soyundurulması ilə aparılan yoxlamalar istisna olmaqla, yoxlamanın videoçəkilişdən istifadə edilməklə aparılmasına üstünlük verilməsi, videoçəkilişdən istifadə edildikdə videoçəkilişin yoxlama prosesini tam əhatə etməsi və keyfiyyətli aparılmasının təmin edilməsi üçün Baş Prokurorluğunun rəhbərliyi tərəfindən Dövlət Gömrük Komitəsinə müvafiq məktub göndərilmişdir.

Bundan başqa, Cinayət-Prosessual Məcəlləsinin 51-ci maddəsi və Gömrük Məcəlləsinin 99.2 və 99.6-cı maddələrinin mənasına görə istər cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin, istərsə də gömrük nəzarətinin həyata keçirilməsi üzrə hərəkətlərin yerinə yetirilməsi zamanı protokollar tərtib olunur. Protokolların tərtibi üçün vacib tələblərdən biri də konkret hərəkətlərin həyata keçirilməsinin yeri, tarixi və vaxtı, hərəkətin başlanması və başa çatmasının vaxtının protokolda dəqiq göstərilməsi və protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqinin müvafiq hərəkətin həyata keçirilməsində iştirak edən şəxslər tərəfindən imzalanmasıdır.

Lakin bəzi işlər üzrə iştirakçılar tərəfindən protokolun yalnız sonuncu səhifəsinin imzalanılması ilə kifayətlənilmiş, digər səhifələr imzasız tərtib edilmiş, bəzi hallarda isə gömrük hərəkətlərinin aparıldığı real vaxt protokollarda qeyd edilmədiyindən həmin iş üzrə aparılan digər gömrük hərəkətləri və ya prosessual hərəkətlərinin aparıldığı tarix ilə uyğunsuzluq yaranmışdır.

Belə ki, Gürcüstan vətəndaşı Arakhamıa Davıtının üzərində şəxsi yoxlamanın 03:20-03:40-dək aparıldığı qeyd edilsə də, Vahid avtomatlaşdırılmış idarəetmə sisteminə baxış zamanı həmin şəxsin 03:28-də sərhəddən keçdiyi göstərilmişdir.

**Nəticə:** Baş Prokurorluğun rəhbərliyi tərəfindən Dövlət Gömrük Komitəsinə müvafiq məktub göndərildikdən sonra hazırda bu problem öz həllini tapması üçün Vahid avtomatlaşdırılmış idarəetmə sistemi həmin məlumatı qəbul etməməmsi üçün müvafiq proqram təminatına düzəlişlər edilməsi nəzərdə tutulmuşdur.

Bundan başqa, təhlillər zamanı müəyyən edilmişdir ki, təqsirləndirilən şəxs aşkar edilən predmetin( xüsusən narkotik vasitə, psixotrop və güclü təsir edən maddə) ona aid olmadığını bildirsə də, istintaq zamanı götürülmüş predmet və ya həmin predmetin gizlədildiyi əşyanın üzərində təqsirləndirilən şəxsin əl-barmaq izlərinin olub-olmamasının yoxlanılması üçün məhkəmə-daktiloskopik ekspertizası keçirilməmiş, maddi sübut kimi götürülmüş narkotik vasitənin qablaşdırılması üzərində onun hansı işlə bağlı və kimdən götürüldüyü qeyd edilməmiş və ekspertiza rəyində həmin narkotik vasitənin məhz istintaq olunan konkret iş üzrə olduğu göstərilməməsi aşkar edilən narkotik vasitənin məhz barəsində istintaq aparılan təqsirləndirilən şəxsə aidliyinə dair şübhələr yaranmasına səbəb olmuşdur.

Bundan başqa, bəraət hökmlərində ilkin yoxlama zamanı aşkar edilən narkotik vasitənin çəkisi ilə məhkəmə-kimyəvi ekspertizasının rəyində göstərilən çəki arasında kəskin fərqin olmasına baxmayaraq, həmin fərqin hansı səbəbdən yaranması istintaq zamanı aydınlaşdırılaraq hüquqi qiymət verilməmişdir.

Həmçinin, bir sıra hallarda daxil olmuş əməliyyat məlumatı əsasında gömrük əməkdaşları tərəfindən yoxlama həyata keçirilsə də, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” 28 oktyabr 1999-cu il tarixli Qanunun tələblərinə əsasən əməliyyat-qeydiyyat işi başlanılmamış, buna görə də əməliyyat-axtarış tədbirlərinin nəticələri əməliyyat-qeydiyyat işində əks edilməmişdir. CPM-137-ci maddəsinə əsasən əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və CPM-nin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

Qeyd edilənlər, daxil olmuş əməliyyat məlumatlarının vaxtında qeydiyyata alınması, əməliyyat-qeydiyyat işinin “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun tələblərinə uyğun aparılması və bu sahədə digər zəruri tədbirlər görülməsi zərurəti yaradır.

**Nəticə:** Bütün qeyd olunanlara əsasən, əməkdaşlar tərəfindən yuxarıda göstərilən nöqsanlara gələcəkdə yol verilməməsi, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumat və materialların qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməsi, nəqliyyat vasitəsində və ya şəxsin üzərində aşkar edilən predmetlər götürülərkən əl-barmaq izlərinin silinməməsi üçün götürmənin kriminalistik qaydalara uyğun həyata keçirilməsi, zərurət olduğu təqdirdə məhkəmə-daktiloskopik ekspertizasının keçirilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülməsi məqsədlə Dövlət Gömrük Komitəsinin Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin birgə təlim kursları təşkil edilərək gömrük əməkdaşları təlimlərə cəlb edilmişdir.

**Xəyalə Aslanova**
**Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru kiçik ədliyyə müşaviri**

# Prokurorluğun veteranı Firudin Məmmədov 85 illik yubileyini qeyd edir

Firudin Nəsrəddin oğlu Məmmədov 1937-ci il yanvar ayının 2-də Göyçay rayonunun Qarabaqqal kəndində anadan olmuşdur. Orta təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra o, 1953-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş, 1958-ci ildə bu təhsil ocağını bitirmişdir. Əmək fəaliyyətinə Laçın rayon milis şöbəsində müstəntiq kimi başlasa da, o, 1962-ci ildə partiya komitəsinin qərarı və öz xahişi ilə prokurorluq orqanlarına keçirilərək peşəkar fəaliyyətini burada davam etmişdir.



Xüsusi olaraq vurğulanmalıdır ki, əmək fəaliyyətinə başladığı gündən peşəsinə sonsuz məhəbbətlə yanaşan Firudin Məmmədov seçdiyi peşənin vurğunu olmaqla, gərgin iş şəraitindən bezmədən, yorğunluğun nə olduğunu bilmədən peşəsinin incəliklərinə yiyələndikcə, çətin və məsuliyyətliliyi qədər də maraqlı olan hüquqşünas sənətini daha çox sevmiş və bu sahədə çalışmaqdan sonsuz qürur duymağa başlamışdır.

Prokurorluq qurumlarında əmək fəaliyyətinə gəldikdə isə o, 1962-1967-ci illərdə Şamaxı və Bakı şəhəri Binəqədi rayon prokurorluqlarında müstəntiq vəzifəsində işləmiş, ağır və xüsusilə ağır cinayətlərə dair bir çox cinayət işlərinin istintaqını müvəffəqiyyətlə aparmışdır. 1967-1971-ci illərdə Bakı şəhər Prokurorluğunun İstintaq şöbəsinin prokuroru vəzifəsində işləyərkən də cinayətlərin açılması, cinayət işlərinin istintaqının keyfiyyətinin yaxşılaşdırılması, istintaq müddətlərinin qısaldılması sahəsində tabe prokurorluqlara əməli kömək göstərmişdir.1971-1973-cü illərdə Respublika Prokurorluğunun məhkəmələrdə baxılan cinayət işlərinə nəzarət şöbəsinin prokuroru kimi fəaliyyəti zamanı isə bir çox mürəkkəb, çox epizodlu cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ona həvalə edilmiş və o, həmin vəzifələrin öhdəsindən bacarıqla gəlmişdir.

Artıq peşəkar prokurorluq işçisi kimi formalaşdığından o, 1973-cü ildə Saatlı rayonunun prokuroru vəzifəsinə təyin olunmuş və həmin vəzifədə olduğu müddətdə milis, məhkəmə orqanları, ictimaiyyətlə sıx əlaqədə cinayətkarlıqla və qanun pozuntuları ilə barışmaz mübarizə apararaq böyük müsbət nəticələr əldə etmişdir. Eyni müsbət nəticəni o, 1978-1980-ci illərdə Salyan rayon prokuroru kimi işləyərkən də əldə etmişdir.

1980-ci ildən o, səmərəli fəaliyyətini Respublika Prokurorluğunun məhkəmələrdə baxılan cinayət işləri üzrə nəzarət şöbəsinin prokuroru və 1983-cü ildən islah əmək müəssisələrində qanunların icrasına nəzarət şöbəsinin prokuroru kimi davam etmişdir. Eyni peşəkarlığı Firudin Məmmədov 1984-cü ildən Respublikası Prokurorluğunun islah əmək müəssisələrində qanunların icrası üzrə nəzarət şöbəsinin rəisi, 1987-ci il tarixdən Şəki rayon prokuroru, 1992-ci il tarixdən Respublikası Prokurorluğunun Yetkinlik yaşına çatmayanların işləri üzrə qanunların icrasına nəzarət şöbəsinin rəisi və 1993-cü ildən etibarən təqaüdə çıxdığı müddətədək Respublika Prokurorluğunun Cinayət işləri üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsinin böyük prokuroru, həmin şöbənin rəisi, təsərrüfat xidmətinin rəisi, şöbə prokuroru vəzifələrində işləyərkən davam etdirmişdir.

Firudin Məmmədov bütün fəaliyyətini cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına və ədalətin bərpasına sərf etmişdir. Cinayət törədənin kimliyindən asılı olmayaraq o, həmişə insanların taleyinə həssaslıqla yanaşmış, təqsirsizin cəzalandırılmasına imkan verməmiş, cinayətkarları isə cəzasız qoymamışdır. Məhz bütün göstərdiyi yüksək xidməti nəticələrə görə də Firudin Məmmədova SSRİ Baş Prokuroru tərəfindən 1983-cü ildə ona baş ədliyyə müşaviri rütbəsi verilmiş, habelə işlədiyi müddətdə o, Respublika Prokurorluğunun rəhbərliyi tərəfindən dəfələrlə həvəsləndirilmişdir. Son dərəcə məsuliyyətli və çətin peşənin daşıyıcısı olmaqla yanaşı, respublikanın ictimai-siyasi həyatında da fəal iştirak etdiyindən, o, 1990-cı ildə Azərbaycan SSRİ Ali Sovetinin deputatı seçilmişdir.



Firudin müəllim peşəkar hüquqşünas, səmimi dost, gözəl insan olmaqla yanaşı həm də sədaqətli həyat yoldaşı, mehriban atadır. Onun peşəsinə qəlbən bağlılığı, vurğunluğu övladlarına da sirayət etmişdir. Övladları da onun kimi hüquqşünas peşəsinə yiyələnməklə işlədikləri sahədə vicdanla çalışırlar.

Firudin Məmmədov 10 aprel 1998-ci il tarixdə 40 illik səmərəli fəaliyyətdən sonra yaşa görə pensiyaya çıxsa da, uzun illər yüksək vəzifələrdə fədakarcasına çalışdığı, doğmalaşdığı prokurorluq orqanlarını, o cümlədən sabiq həmkarlarını bir an belə unutmamış, onlarla əlaqəni kəsməmişdir. Eyni zamanda prokurorluq orqanları tərəfindən də hər zaman böyük sevgi və hörmətlə qarşılanan Firudin Məmmədov müxtəlif tədbirlərə dəvət olu-







naraq onun verdiyi əvəzsiz tövsiyələri maraqla dinlənilmişdir.

Təsadüfi deyildir ki, 2 yanvar tarixində 85 yaşını qeyd edən Firudin Məmmədov Baş Prokurorluğun əməkdaşları tərəfindən yad edilmişdir. 85 illik yubileyi ilə yanaşı yubilyarın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ili Baş Prokurorluğun rəhbərliyi adından təbrik edilmiş, ona uzun ömür, möhkəm can sağlığı arzulanmışdır. Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daim prokurorluq orqanlarına hərtərəfli diqqət və qayğının göstərildiyi vurğulanmaqla qurumun fəaliyyətində səmərəliliyin artırılması istiqamətində görülən işlər, cəmiyyətimizin və dövlətçiliyimizin maraqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərdən söhbət açılmışdır.

Təbriklərə görə təşəkkürünü bildirən Firudin Məmmədov uzun illər xidmət keçmənin prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət keçmənin qürurverici olduğunu bildirərək ona göstərilən diqqət və qayğıya görə öz dərin minnətdarlığını bildirmişdir.





# Prokurorluğun veteranı Qənimət Səfərovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



*Səfərov Qənimət İbad oğlu 14 avqust 1955-ci ildə Ermənistan SSR Sisiyan rayonunda anadan olmuşdur. 1982-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) hüquqşünaslıq ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə 1973-cü ildə Ermənistan SSR Sisiyan rayonu Şəki kəndi Əzizbəyov adına kolxozda kolxozçu kimi başlamış, 1976-cı ildən 1981-ci ilədək 10 saylı Təmir Tikinti İdarəsində rəngsaz, "Azərbaycanfilm" kinostudiyasında kuryer və elektrik-montyor işləmişdir. Ali təhsil aldığı 1976-1982-ci illərdə eyni zamanda Azərbaycan Dövlət Universitetinin Kriminalistika kafedrasında laboratoriya müdiri (1981-1982) kimi əmək fəaliyyətinə davam etmiş, 1982-1985-ci illərdə həmin universitetin aspirantı, 1985-1986-cı illərdə isə həmin universitetin Sovet cinayət prosesi kafedrasında baş laborant olmuşdur.*

*Qənimət Səfərov 1986-cı ildə Azərbaycan SSR Prokurorluğu orqanlarına qulluğa qəbul olunaraq 1986-1991-cu illərdə Dağlıq Qarabağ Muxtar Vilayəti prokurorluğunun baş müstəntiqi vəzifəsi üzrə stajoru, həmin prokurorluğunun baş müstəntiqi və rayon prokurorunun köməkçisi kimi vəzifələrdə işləmişdir. 1991-1993-cü illərdə fəaliyyətini Balakən rayon prokurorluğunda müstəntiq və rayon prokurorunun köməkçisi kimi davam etdirmişdir. Daha sonra vəzifədə irəli çəkilərək 1993-2000-ci illərdə Bakı şəhəri Suraxanı rayon prokurorunun müavini və Baş Prokurorluğun İstintaqa nəzarət idarəsinin rəis müavini işləmişdir. 2000-ci ildə Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi, bir ildən sonra isə Bakı şəhər prokurorunun müavini vəzifələrinə təyin olunmuş və sonuncu vəzifədə 10 ildən çox müddətdə xidmət etmişdir. Daha sonra 2011-ci ildə Abşeron rayon prokuroru təyin edilmiş, eyni zamanda 2014-2015-ci illərdə Zəngilan rayon prokuroru vəzifəsini icra etmişdir. 2015-cil ildə prokurorluqda qulluqda olmanın son yaş həddinə çatdığına görə prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilmişdir. Xidməti vəzifələrinin nümunəvi icrasına, uzun müddətli qüsursuz fəaliyyətinə və digər xidmətlərinə görə Qənimət Səfərov barəsində müxtəlif illərdə təşəkkür və iki dəfə vaxtından əvvəl növbəti xüsusi rütbə növündə həvəsləndirmə tədbirləri tətbiq edilmişdir.*

**Sual: Ilk öncə redaksiya heyəti adından "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı ilə müsahibəyə razılıq verdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm. Qənimət müəllim, uzun illər ərzində prokurorluq orqanlarında işlədiyiniz müddətdə qanunun aliliyini rəhbər tutmaqla dövlətimizə sədaqətlə xidmət etmisiniz. Prokurorluq orqanlarında xidməti dövrünüz xatirənizdə necə qalmışdır?**

– Qeyd etmək istəyirəm ki, bütün təhsil sisteminə və hər bir peşəyə dərin hörmət və ehtiramımın olmasına baxmayaraq, mənə görə yalnız 2 müqəddəs təhsil ocağı və peşə sahəsi vardır. Bu müqəddəs ocaqlar təhsil aldığım Azərbaycan Dövlət Universiteti (indiki Bakı Dövlət Universiteti) və işlədiyim Azərbaycan Prokurorluğudur. Hər zaman fəxr edirəm ki, bu təhsil ocağında təhsil almışam və bu müqəddəs peşə ocağında fəaliyyətimi 30 ilə yaxın davam etdirmişəm.

Azərbaycan Prokurorluğu hər zaman cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi və əsas insan və vətəndaş hüquqlarının qorunması sahəsindəki fəaliyyətini hər zaman davam etdirmiş, bütün məqsəd və məramı millətinə, dövlətinə xidmət etməkdən ibarət olmuşdur. Ölkədə baş vermiş hər hansı ötəri ictimai-siyasi hadisələr belə onu öz məqsəd və məramından döndərə bilməmişdir.

**Sual: Məlum olduğu kimi, peşəkar hüquqşünas hüquq elmləri üzrə əldə etdiyi nəzərə biliklərini və xidməti fəaliyyətində topladığı mürəkkəb praktiki bacarıqlarının vəhdətini uğurla tətbiq edən şəxsdir. Bakı Dövlət Universitetinin aspiranturansında təhsilinizi tamamlayıb, həmin universitetin cinayət prosesi kafedrasında elmi fəaliyyətinizdən sonra bilavasitə prokurorluğun baş müstəntiqi kimi işə başlamağınız peşə fəa-**



– Bu sualla əlaqədar ilk olaraq qeyd edim ki, Dağlıq Qarabağ Muxtar Vilayəti əvvəllər inzibati ərazi vahidi kimi mövcud olmamışdır. Həmin ərazinin inzibati status almağı isə Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Stalin, Ordzjonikidze və erməni separatçılarının ideyaları olmuş, məqsədləri isə Azərbaycan ərazisində bu separatizmin kökünü qoymaq və gələcəkdə bundan Ermənistanın xeyrinə istifadə edib Azərbaycan torpaqlarını işğal etmək olmuşdur.

**liyyətinizdə hansı üstünlüklərə səbəb olmuşdur?**

– Cavab müəyyən mənada sualın özündədir. Belə ki, mən Azərbaycan Dövlət Universitetinin (hazırkı Bakı Dövlət Universiteti) hüquq fakültəsinin axşam şöbəsini fərqlənmə diplomu ilə bitirmişəm. Həmçinin, təhsil aldığım dövrdə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinin Kriminalistika kafedrasında Kriminalistika laboratoriyasının müdiri vəzifəsində işləmişəm. Məhz bu dövrlərdən mənim nəzəri və praktiki biliklərimin vəhdətinin bünövrəsi qoyulmuşdur ki, fikrimcə nəzəri biliklərin praktiki çalarlarla doldurulmasının vəhdət təşkil etməsi həqiqətən çox vacib şərtdir. Bu da müəyyən qədər mənə nəsib olmuş, nəzəri və praktiki biliklərimin vəhdəti mənim fəaliyyətimdə əsas meyar kimi çıxış etmişdir. Nəticə etibarı ilə nəzəri biliklərimin təcrübədə tətbiqi olduqca məhsuldar olmaqla peşə fəaliyyətimə böyük müsbət təsiri olmuşdur.

**Sual: Xidməti fəaliyyətinizə 1987-ci ildə Vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağ bölgəsində, hazırda ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Xankəndi şəhərində başlamısınız. Məhz həmin dövrdə Mixail Qorbaçovun Heydər Əliyevin getdikcə artan nüfuzuna, populyarlığına qarşı gizli, məkrli və daim qızışdırılan paxıllıq hissinin nəticəsi olaraq, Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ dövlətinin idarəçiliyindən uzaqlaşdırıldı. Məhz Heydər Əliyev siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra anti-Azərbaycan qüvvələrin Qarabağ məsələsində aktiv hərəkətlərinə rəvac verilməklə, Kərkicahan, Qaradağlı, Meşəli, Xocalı faciələri yaşandı və ümumilikdə Xalqımız Qarabağ münaqişəsinin qanlı-qadalı cənginə keçdi. Həmin dövrdə xidməti fəaliyyətinizi və ümumilikdə həmin bölgənin kriminal durumunu necə xatırlayırsınız?**

Məhz həmin dövrdə, Qarabağı iki yerə bölərək dağlıq hissəsinə muxtar vilayət statusu veriləndə erməni separatizmi artıq mövcud olmuşdur. Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi və inzibati cəhətdən Ermənistana verilməsi mövzusu dəfələrlə, hətta Nikita Xruşşovun dövründə belə qaldırılmış, qəribə olsa da bu təkliflər çox sərt qarşılanmış və sonda N.S.Xruşov “axırda elə edəcəksiniz ki, mən Dağlıq Qarabağda olan erməniləri Ermənistana köçürəsi olacam” kimi ifadə işlətmişdir.

Təqribən 1967-68-ci illərdə separatizmlə bağlı ermənilərin cinayətkar fəaliyyəti daha da aktivləşmişdir. Belə ki, onlar tərəfindən Qarabağ mehmanxanasında azərbaycanlılara qumbara atılmış, 3 nəfər azərbaycanlı isə erməni uşağının öldürülməsində sözün əsl mənasında şərlənmiş, onlar məhkəməyə aparıldıqları zaman vilayət mərkəzində avtomobildən düşürdülüb yandırılmışlar. Erməni şovinizminə və vəhşiliyinə başqa bir misal olaraq digər hadisəni nəzərinizə çatdırmaq istərdim. Qeyd elədiyim cinayət işinin istintaqını aparan mərhum müstəntiq Ağaverdi müəllim tərəfindən istintaq zamanı poçt yazışmaları üzərinə həbs qoyulmuş, 10-cu sinif şagirdi erməni qız uşağının İrəvana yazdığı məktub əldə edilmişdir. Məktubda şagird “insanlar yandırılarkən onların qoxusu mənə xoş təəssürat bağışladı” kimi cümlələr qeyd etmişdir. Məktub hər kəsdə sadəcə dəhşət yaratmışdır.

Mərhum, prezidentimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldiyi dövrdə onun nüfuzundan, bacarığından, qabiliyyətindən və cəsarətindən irəli gələrək bu məsələ qapanmışdır. Xatırlayıram ki, işlədiyim dövrdə hər kəs, hətta ermənilər belə guya fəxr edirdilər ki, Qafqazdan olan bizim həmyerlimiz – azərbaycanlı, SSRİ-nin idarəçiliyində yüksək vəzifə tutub. Halbuki Heydər Əliyev həmin vəzifədən getdikdən dərhal sonra yenə erməni separatizmi təkrarən alov-

lanmışdır. Həmin fəaliyyətin maliyyələşdirilməsi üçün müəyyən erməni təşkilatları fəaliyyət göstərirdilər. Məsələn, mən işlədiyim dövrdə fəaliyyət göstərən direktorlar şurası həmin vaxtlar lampa zavodunda işləyən və ilk partiya təşkilat katibi olan Robert Koçaryanın rəhbərliyi ilə aktiv şəkildə separatizmlə məşğul olurdu. Sonra həmin qurumun adını dəyişib "KRUNK", yəni erməni dilində tərcümədə durna, rus dilində tərcümədə açması isə Dağlıq Qarabağın inqilabi idarəetmə komitəsi (Комитет революционного управления Нагорного Карабаха) idi. Hər tərəfdən baş qaldırmış kriminal ünsürlər belə kriminal hadisələr törətməkdən daha çox separatizmə xidmət edirdilər.



**Sual: Silahlı Qüvvələrin Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin qətiyyətinin, dahi Sərkərdə qabiliyyətinin, mübariz Xalqımızın vəhdətinin, Müzəffər Azərbaycan Ordusunun rəşadət və peşəkarlığının təzahürü olaraq Vətən Müharibəsində şanlı zəfər əldə etdik. Hesab edirsinizmi bu şanlı Zəfərimiz Vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağ bölgəsində ötən əsrin 80-90-cı illərində xidməti fəaliyyətiniz dövründə qarşılaşdığınız və obyektiv səbəblərdən cəzasız qalan milli, dini, ekstremist zəmində törədilmiş minlərlə cinayətə görə ən ədalətli mühakimədir?**

– Xalq dilində bir deyim var: ürəyimdən tikan çıxdı. Həqiqətən da cənab Prezident, Ali baş komandanımız o dövrdə baş vermiş və hüquqi qiymətini tapmamış milli, ekstremist, dini hadisələrə beynəlxalq qanunlar çərçivəsində və o cümlədən, hərbi siyasi yolla bütün bunların ədalətli mühakiməsini təşkil və təmin etmişdir.

**Sual: Xidməti fəaliyyətiniz dövründə bir sıra mühüm vəzifələrdə, o cümlədən Baş Prokurorluğun İstintaqa nəzarət idarəsinin rəis müavini, Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi, Bakı şəhər prokurorunun müavini və Abşeron rayon prokuroru işləmisiniz. İstər xidmət illərinizdə, istərsə də bu gün Sizi ədalətli, prinsipial, qanunun aliliyini rəhbər tutan, cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe sərgiləyən və eyni zamanda humanist prokuror kimi tanıyırlar. Bəs fikrinizcə hazırki dövrün müasir prokuror əməkdaşı hansı keyfiyyətlərə sahib olmalıdır?**

– Hazırkı prokurorluğun sıraları kifayət qədər gəncləşmiş, ən əsası isə prokurorluğa həqiqətən savadlı, vətənpərvər kadrlar qəbul edilmişdir. Müasir prokurorluğun fəaliyyəti və dövlətimizin bu sahədəki siyasəti isə çox qənaətbəxşdir.

Gənc prokurorluq işçilərinə Sultan Süleymanın dövlət idarəçiliyi üçün mühüm olaraq göstərdiyi dörd ünsürü, yəni hikmət, iffət, cəsarət və ədaləti özlərində bir mayak kimi, stimul kimi tutmağı arzu edərdim.

Hikmət ağlın müdrik formasıdır, yəni hər hansı qərarın qəbul edilməsindən öncə dəfələrlə ölçüb-biçilməsi, iffət isə zərərli vərdişlərdən çəkinməkdir. Prokurorluq əməkdaşı çox şeyi özünə qadağa qoymalı, könlü istəyən hər şeyi etməməli, çox şeydən çəkinməlidir. Qaldı ki, cəsarətə, gənclərimiz qərarlar qəbul edərkən tərəddüdə yol verməməlidir. Amma bu cəsarətin arxasında mütləq ədalət olmalıdır.

Zənnimcə əgər onlar qeyd etdiyim ünsürləri özlərində birləşdirsələr bu həm cinayətkarlığa qarşı amansız bir mübarizə olar, həm də heç bir cinayət cəzasız qalmaz, təqsirsiz şəxslər isə cəzalandırılmazlar.

**Sual: Əminəm ki, oxuculara Sizin xidməti fəaliyyətiniz dövründə qarşılaşdığınız və hər zaman xatirladığınız ən mürəkkəb cinayət hadisəsi, habelə xidməti fəaliyyətinizin ən çətin dövrlərini bilmək maraqlı olardı. Həmin hadisə və ya dövrləri necə xatırlayırsınız?**

– İşlədiyim dövrdə istintaq baxımından kifayət qədər maraqlı, eyni zamanda mürəkkəb cinayət işləri təcrübəmizdə çox olmuşdur. Amma daha çox yadda qalan, bir azərbaycanlı kimi beynimdə həkk olunan erməni separatizmi ilə bağlı bir cinayət işindən danışmaq istərdim. Həmin hadisələr baş verərkən Dağlıq Qarabağ Muxtar Vilayətinin ayrılıb Ermənistana birləşdirilməsini özündə ehtiva edən arqerssiv erməni





separatizmində mühüm rol oynayanlardan, hətta bu cinayətkar fəaliyyətə rəhbərlik edənlərdən biri Stepanakert, hazırki Xankəndi şəhərinin tikinti materialları kombinatının müdiri Manuçarov adlı erməni idi.

Manuçarovun rəhbəri olduğu kombinat digər işlərlə yanaşı başqa kombinatları qəbir üstü daşlar ilə təchiz edirdi. Bu daşların ən keyfiyyətlisi Hadrut ərazisində çıxan yaşıl qranit və harov mərməri idi. Bu daşlar azərbaycanlılara şişirdilmiş qiymətlərlə satılırdı.

Erməni separatizminin artıq cərəyan etdiyi dövrdə prokurorluğa həmin kombinatda baş verən qanunsuz hərəkətlər barədə Şuşa şəhərindən kollektiv ərizə daxil oldu. Səmimi desəm isə həmin ərizə həqiqətlərin aşkar edilməsi üçün bizim tərəfimizdən təşkil edildi və araşdırılması mənim icraatıma verildi. Doğrudur, həmin vaxt artıq SSRİ Prokurorluğunun mühüm işlər üzrə baş müstəntiqi 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Maydanyuk Konstantin Karloviçin rəhbərliyi ilə Moskvada istintaq qrupu da fəaliyyət göstərirdi. Bununla belə cinayət işinin başlanması üçün ilkin materialların toplanması mənə həvalə edilmişdi.

Araşdırma zamanı məzar daşlarının 500-1000 rubldan artıq məbləğə satılması müəyyən olunsa da, Respublika Prokurorluğunun rəhbərliyinin tapşırığı ilə mən Stepanakert (indiki Xankəndi) şəhərinin özündə və ətrafında olan ərazilərdə, yəni Ağcabədi, Fizuli rayonlarında yerləşən qəbiristanlıqları gəzib bir-bir fotoaparatla həmin materialdan hazırlanmış məzar daşlarının şəkillərini çəkir, müvafiq sübutlar toplayırdım. Bu proses özlüyündə uzun müddət çəksə də, mən heç bir nəqliyyat vasitəsi ilə də təmin olunmamışdım. Avtobusla Ağdamda yerləşən Qarağacı qəbiristanlığını, Ağcabədi, ona yaxın Malıbəyli, Quşçular və digər kəndləri gəzərək vətəndaşların, sifarişçilərin külli miqdarda ziyan vurulmaqla aldadılması faktlarını üzə çıxartdım. Məhz topladığım sübutlara əsasən fakta görə həmin dövrdə qüvvədə olan Azərbaycan SSR Cinayət Məcəlləsinin alıcıların və sifarişçilərin qabaqcadan sövdələşən bir qrup şəxs tərəfindən külli miqdarda ziyan vurmaqla aldadılmasını nəzərdə tutan 154-cü maddəsi ilə cinayət işi başlanıldı və istintaqın aparılması Moskvadan gəlmiş istintaq qrupuna tapşırıldı. İstintaq zamanı Manuçarovu həbs etmək istəsək də, qaçırıldığına görə ilk öncə bu mümkün olmamış, sonradan o, İrəvanda həbs edilərək Bakı şəhərinə, buradan isə Ağdam şəhərinə və sonda Şuşa səhərinə gətirilərək Şuşa həbsxanasına yerləşdirilmişdir. Bir müddət sonra o, Qorbaçov kimilərinin sayəsində bizim istintaqdan yayındırıldı, hətta İrəvandan deputat seçildi və sonda isə, xatırladığım qədər, Moskvada barəsində olan cinayət işi ilə əlaqədar ona ya məhkəmə tərəfindən şərti cəza verildi, ya da ki həmin cinayət işinə xitam verildi.

Həmin dövrdə onun ətrafında olan digər şəxslər, məsələn, Hadrutdakı qranit karxanasının başçısı Suren Dadamyan və digər separatistlər barəsində cinayət işlərinin istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərildi. Mənə fəaliyyətimdə yeganə təsəlli verən Manuçarov haqqında tərəfimdən toplanmış materiallar əsasında fakta görə cinayət işinin başlanması olmuşdur.

Çünki bizim üzdə görünən məqsədimiz Stepanakert (indiki Xankəndi) tikinti materialları kombinatının vəzifəli şəxslərinin qanunsuz əməllərini ifşa etmək olsa da, əsas və azərbaycanlı olaraq şəxsi məqsədimiz Manuçarovu ifşa edərək törətdiyi separatizmə qarşı mübarizə aparmaq olmuşdur.

Odur ki, prokurorluq orqanlarında xidmət etdiyim dövrdə ən yadda qalan cinayət işi məhz Manuçarov barəsində olan cinayət işidir.

**Sual: Çətin və şərəfli xidməti fəaliyyətiniz illərində ən yüksək nailiyyət kimi nəyi görürsünüz?**

– Həmkarlarımın, istər cavan, istərsə də yaşlı nəslin nümayəndələrinin, o cümlədən respublikamızın hüquq mühafizə orqanları əməkdaşlarının mənim barəmdə olan fikirləri əldə etdiyim ən böyük nailiyyətimdir.

**Sual: Övladlarınıza münasibətdə onların sizin kimi prokurorluq əməkdaşı olmağını istəmisinizmi?**

– Mən bütün peşə sahiblərinə, daha doğrusu peşələrə dərin hörmət və ehtiram bəsləyirəm. Özüm isə hər zaman övladlarıma peşə seçimində və yaxud təhsildə bu peşənin mahiyyətini anlatmağa çalışsam da, heç vaxt onlara seçimlə bağlı fikir bildirməmiş və ya təzyiq etməmişəm. Övladlarımın prokurorluq orqanlarına işləməsini arzulasam da, hazırda qızım hakim, oğlum isə məhkəmə sistemində hakim vəzifəsində dövlətimizə xidmət edirlər.

**Sual: Artıq təqaüddəsiniz, maraqlıdır, asudə vaxtınızı necə keçirirsiniz və ya hər hansı hobbiniz vardırmı? Uzun illər prokurorluq orqanlarına xidmət etmiş bir şəxs kimi indiki gənc əməkdaşlara asudə vaxtlarını səmərəli və faydalı keçirtmələri üçün nə kimi tövsiyələriniz var?**

– Səmimi olaraq bildirim ki, təqaüd dövründə prokurorluğun fəaliyyəti üçün çox darıxmışam. Bununla belə çalışmışam ki, bundan sonra hansı sahədə işləmək nəsib olacaqsa, yalnız hüquqşünaslıqla bağlı olsun. Odur ki, hazırda hüquqşünas kimi fəaliyyətimi “Aqrartikinti” Səhmdar Cəmiyyətində hüquq şöbəsinin rəisi vəzifəsində davam etdirirəm. Hobbiyə gəldikdə kitab oxumağı, xüsusən peşə fəaliyyətimə yaxın olan detektiv janrda olan əsərləri mütaliə etməyi çox sevirəm.

Gənc əməkdaşlarımıza tövsiyələrə gəldikdə isə, hazırda internet əsri olsa belə onlara çoxlu mütaliə etmələrini arzulayıram. Mənə görə ən böyük sərvət, ən böyük dövlət elə kitabdır. Bundan əlavə onlara indiyədək bir əsrdən çox şərəfli yol keçmiş Azərbaycan Prokurorluğunun əldə etdiyi nailiyyətləri qorumaqla milli dəyərlərə ziyan gətirmədən müasir dövrün nailiyyətlərini də vəhdət şəklində öz fəaliyyətlərində cəmləmələrini, vətənpərvərliyi, həm də obyektivliyi ehtiva etməyi, milli köklərdən uzaq düşməməyi tövsiyə edirəm.

**Sual: 2020-ci il prokurorluq orqanlarında müasir dövrün tələblərindən irəli gələn tam və hərtərəfli islahatlar dövrü kimi yadda qaldı. Hər zaman xidməti fəaliyyəti ilə fərqlənmiş sabiq prokurorluq əməkdaşı və hazırda prokurorluğun veteranı kimi Sizin bu müsbət dəyişikliklərə münasibətiniz necədir, bu islahatların prokurorluq təsisatına və ümumilikdə cəmiyyətimiz təsirini necə təsvir edə bilərsiniz?**

– Prokurorluq orqanlarında hazırda həyata keçirilən dəyişikliklərə, o cümlədən kadr islahatına və prokurorluğun fəaliyyət dairəsinin yerli və beynəlxalq istiqamətlərdə genişləndirilməsinə olduqca müsbət yanaşıram. Eyni zamanda, prokurorluq orqanlarının fəaliyyətini digər hüquq mühafizə orqanları ilə konsolidasiya etməsi, birgə nəşrlər, praktiki konfranslar və ya disputlarının keçirilməsi bu inkişafı yalnız şərtləndirə bilər.



Əlavə olaraq bildirmək istəyirəm ki, qeyd olunan dəyişikliklər cəmiyyətimizə də müsbət təsir bağışlamışdır. Düşünürəm ki, hər bir fəaliyyət inandırıcı olmalıdır, əksinə əgər fəaliyyətin arxasında obyektivlik, inam dayanmırsa, hər hansı səmərədən söhbət gedə bilməz.

Bir sözlə, yenilikləri müsbət qiymətləndirərəm və eyni zamanda veteranlara göstərdiyiniz diqqət, qayğıya görə, yəni bizi o axından kənarda qoymadığınıza görə prokurorluğun rəhbərliyinə və sizə dərin təşəkkürümü bildirirəm.

**“Azərbaycan Prokurorluğu”**
**elmi-praktiki jurnalın redaksiya heyəti**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## «Araz Vadisi İqtisadi Zonası» Sənaye Parkının yaradılması haqqında

Ölkəmizin ərazi bütövlüyü təmin olunduqdan sonra Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yaranmışdır. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadə regional iqtisadi-ticarət əlaqələrini genişləndirəcəkdir.

Nəzərdə tutulan strateji istiqamətlərin uğurla həyata keçirilməsi üçün bölgədə logistika, ticarət və digər xidmətlərin göstərilməsi, həmçinin qabaqcıl texnologiyalara və «yaşıl enerji» konsepsiyasına əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalının dəstəklənməsi olduqca mühümdür.

İşğaldan azad olunmuş Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və həmin bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması sənaye parkının yaradılması üçün əlverişli şəraiti təmin edir. Şərqi Zəngəzur iqtisadi rayonunun cənubunda — Cəbrayıl rayonu ərazisində yerləşən tarixi Xudafərin körpülərinin olduğu istiqamətdə sərhəd-gömrük keçid məntəqəsinin açılması da sənaye parkının fəaliyyətə başlaması ilə daha səmərəli olar. Eyni zamanda, Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması işğaldan azad edilmiş digər rayonların da bərpasında faydalı olacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində «Araz Vadisi İqtisadi Zonası» Sənaye Parkı yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. «Araz Vadisi İqtisadi Zonası» Sənaye Parkı (bundan sonra — Sənaye Parkı) sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, logistika işinin təşkili, müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı (təkrar emalı) və satışı, habelə xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli çalışmasına və inkişafına kömək edən ərazidir;

2.2. Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra — Agentlik) həyata keçirir.

3. Sənaye Parkının fəaliyyətinin təşkili və onun ərazisində infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulmuş vəsaitdən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Sənaye Parkının fəaliyyəti üçün Cəbrayıl rayonunun Soltanlı kəndi yaxınlığında 200 (iki yüz) hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Sənaye Parkının ərazisində infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması, həmin ərazidə görüləcək işlərin təşkili və dəstəklənməsi, logistika sisteminin qurulması, sənaye məhsullarının istehsalı, emalı (təkrar emalı) və satışı, habelə sahibkarlıq fəaliyyətinin səmərəli qurulması üçün digər xidmətlər göstərilməsi məqsədilə Agentliyə kömək etsin;

5.2. Sənaye Parkında göstərilən xidmətlər, istehsal və emal (təkrar emal) olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsini təmin etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Aidiyyəti dövlət orqanları (qurumları) Sənaye Parkının yaradılması və orada işin təşkili, o cümlədən onun ərazisinin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi, eləcə də bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan infrastrukturun yaradılması ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə zəruri kömək göstərilməsini fəaliyyət istiqamətlərinə uyğun olaraq təmin etsinlər.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 4 oktyabr 2021-ci il
№ 1453

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**
**№ 15/23**

**Bakı şəhəri** **20 dekabr 2021-ci il**

**"Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat"ıı təsdiq edilməsi haqqında**

Yaxın dövrlərədək prokurorluq orqanlarının fəaliyyəti barədə məlumatlar ictimaiyyətə əsasən dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri kimi media vasitələrilə çatdırılsa da, müasir dövrdə dünyada, o cümlədən ölkəmizdə informasiya texnologiyalarının inkişafı, internet xidmətlərinin tətbiqi dairəsinin genişlənməsi prokurorluq orqanlarında da dəyişən kommunikativ texnologiyalara müvafiq olaraq ictimaiyyətlə qarşılıqlı əlaqələrin, dialoqun qurulması, vətəndaşların iştirakçılığının təşviqi üçün yeni kommunikasiya texnologiyalarından istifadə edilməsini şərtləndirmişdir.

Hazırda Baş Prokurorluğun "Faceebook; 'Twitter'* kimi sosial şəbəkələrdə, "İnstagram", "Telegram" "Youtube" kimi media paylaşım şəbəkələrində hesabları mövcud olmaqla, bu hesablar təsdiqlənmiş mavi nişanlar almışlar.

Prokurorluq orqanlarının sosial media siyasətinin vahid qaydada həyata keçirilməsi, bu sahədə fəaliyyət göstərən struktur qurumların iş prinsiplərinin normalaşdırılması və işin daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair təlimatın qəbul edilməsi zəruridir.

Prokurorluğun sosiai mediada fəaliyyəti üzrə platformaların düzgün seçilməsi, sosial mediada monitorinq və təhlillərin aparılması, məzmun yaradılması, ictimaiyyət ilə birbaşa və qarşılıqlı əlaqələrin qurulması, "Fake news"la mübarizə işinin təkmilləşdirilməsi, böhran vəziyyətlərində sosial mediadan istifadə, sosial media platformalarından istifadə zamanı təhlükəsizlik tədbirlərinin, habelə bu sahədə fəaliyyətin qiymətləndirilməsinin düzgün təşkili, prokurorluq işçiləri tərəfindən fərdi sosial media hesablarından istifadənin tənzimlənməsi məqsədi ilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat" təsdiq edilsin *(əlavə olunur).*

2. "Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat" ın icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

3, Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu elmi-praktiki jurnalında dərc edilsin yə "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestrinə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**
**№ 15/24**

**Bakı şəhəri** **21 dekabr 2021-ci il**

**Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin keçirilməsi haqqında təlimatların təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1 may 2020-ci il tarixli göstəriş və tövsiyələrinin icrası ilə əlaqədar qısa müddət ərzində prokurorluq orqanlarında aparılan islahatlarla dövlətin əsaslarının möhkəmləndirilməsi, insan və vətəndaş hüqud və azadlıqlarının daha etibarlı qorunması, cinayət təqibi və məhkəmələrdə dövlət ittihamının müdafiəsi proseslərində qanunçuluğun təmin edilməsi üzrə uğurlu nəticələr əldə olunmuşdur.

Milli qanunvericiliyin və beynəlxalq təcrübənin tələbləri nəzərə alınmaqla peşəkarlıqla hazırlanmış Baş Prokurorluğun "İşin Təşkili Qaydaları" prokurorluğun ibtidai istintaqın aparılması, məhkəmələrdə dövlət ittihamının müdafiəsi, məhkəmə qərarlarının icrası qaydasında icraatda iştiraka məsul olan qurum və vəzifəli şəxslərinin səlahiyyətlərini, prosessual müstəqilliklərini dəqiq müəyyənləşdirməklə, həmin sahələrdə işin yüksək standartlara və müasir tələblərə uyğun təşkili üçün münbit zəmin yaratmışdır.

Prokurorluq orqanlarının ibtidai istintaq, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və məhkəmə qərarlarının icrası qaydasında icraatda iştirak üzrə fəaliyyətinin keyfiyyətinin daha da yaxşılaşdırılması, işin səmərəliliyinin artırılması, prokurorluq işçilərinin peşəkarlıqlarının, motivasiyalarının yüksəldilməsi, müsbət iş təcrübəsinin yayılması, kadr ehtiyatının formalaşdırılması məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı müstəntiqi" müsabiqəsinin keçirilməsi haqqında Təlimat" təsdiq edilsin (əlavə olunur).
2. "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqəsinin keçirilməsi haqqında Təlimat" təsdiq edilsin (əlavə olunur).
3. Baş Prokurorluğun İstintaq idarəsi, Prokurorluqda istintaqa nəzarət idarəsi, Dövlət ittihamının müdafiəsi üzrə idarə, Cinayət təqibindən kənar icraatlar idarəsi, Kriminalistika və informasiya texnologiyaları idarəsi, Elm-Tədris Mərkəzi, Maddi-texniki təminat şöbəsi, Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsi, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, tabe rayon, şəhər və ərazi hərbi prokurorluqları qeyd olunan təlimatların icrasından irəli gələn məsələləri həll etsinlər.
4. Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsi hər iki müsabiqənin keçirilməsi ilə əlaqədar Müsabiqə komissiyalarının üzvlüyünə namizədlərlə bağlı təkliflərini təqdim etsin.
5. Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.
6. Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**
**№ 15/27**

**Bakı şəhəri** **23 dekabr 2021-ci il**

**“Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat"dan irəli gələn vəzifələrin icrası barədə**

İnformasiya texnologiyalarının qlobal informasiya cəmiyyətində mühüm rolu nəzərə alınmaqla, prokurorluq orqanlarının da sosial media platformalarında aktiv iştirakının təmin edilməsi və bu sahədə yaranmış münasibətlərin hüquqi tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun 20 dekabr 2021-ci il tarixli 15/23 nömrəli əmri ilə “Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat” (bundan sonra – Təlimat) təsdiq edilmişdir.

Təlimatın tələblərinin prokurorluq orqanlarında icrasını təmin etmək məqsədilə “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

1. Təlimatın 4.1-ci bəndində nəzərdə tutulmuş sosial media heyətinin üzvləri aşağıdakı tərkibdə müəyyən edilsin:

Əfəndiyeva Aynur Vüsət qızı – Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin prokuroru;

Əliyeva Mələk Vasif qızı – Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin prokuroru.

2. Təlimatın 4.5-ci bəndində nəzərdə tutulmuş məsul şəxs kimi Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin böyük prokuroru Zeynalov Kənan Fikrət oğlu müəyyən edilsin.
3. Təlimatm 4.5-ci bəndində nəzərdə tutulmuş səlahiyyətli şəxs kimi Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri Səlimzadə Günay Həşən qızı müəyyən edilsin.
4. Azərbaycan Respublikası Baş Prokurorluğunun, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi, Bakı şəhər prokurorluqlarının idarə və şöbələrinin prokurorlarından, tabe rayon (şəhər) və ərazi hərbi prokurorlarının köməkçilərindən Təlimatm 4.3-cü bəndində nəzərdə tutulmuş daimi monitorinq qruplarının üzvləri müəyyən edilərək, müvafiq qurumların rəhbərləri tərəfindən həmin şəxslər barədə məlumatlar Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin rəhbərinə təqdim edilsin.
5. Sosial media heyətinin və daimi monitorinq qrupunun üzvləri, məsul və səlahiyyətli şəxslər qarşılıqlı əlaqəli fəaliyyət göstərməklə, Təlimatdan irəli gələn vəzifələrin icrasını təmin etsinlər.
6. Əmrin icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri, Baş Prokurorluğun Təşkilat və icraya nəzqrət idarəsinə həvalə edilsin.
7, Əmr elan və İcra olunması üçün Baş Prokurorluğun bütün qurumlarına, tabe rayon (şəhər) və ərazi hərbi prokurorluqlarına göndərilsin. "Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalında dərc edilsin və Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestrinə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**
**№ 15/28**

**Bakı şəhəri** **30 dekabr 2021-ci il**

## "Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya təhlükəsizliyinin təminatı üzrə Təlimat"ın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya təhlükəsizliyinin təmin edilməsi və informasiya məkanında potensial təhdidlərin qarşısının alınması məqsədilə prokurorluğun qurumları və əməkdaşları üçün informasiya təhlükəsizliyi sahəsində riayət edilməsi zəruri olan tələblərin müəyyən edilməsi ilə əlaqədar, ''Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya təhlükəsizliyinin təminatı üzrə Təlimat" (bundan sonra – təlimat) təsdiq edilsin *(əlavə olunur).*

2. Təlimatın icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri, Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları və Təşkilat və icraya nəzarət idarələrinə həvalə edilsin.

3. Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

*Azərbaycan Respublikası Ba.} prokurorunun 30 dekabr 2021-ci il tarixli 15/28 nömrəli əmri ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya təhlükəsizliyinin təminatı üzrə**

## T Ə L İ M A T

### 1. Ümumi müddəalar

1.1. Bu Təlimat Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya təhlükəsizliyinin təmin edilməsi və informasiya məkanında potensial təhdidlərin qarşısının alınması məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Təlimat Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya təhlükəsizliyinin təmini və təşkili qaydalarını, habelə struktur qurumlar və əməkdaşlar üçün informasiya təhlükəsizliyi sahəsində məcburi tələbləri müəyyən edir.

### 2. Əsas anlayışlar

2.1. **İnformasiya təhlükəsizliyi** - informasiya və ona xidmət edən infrastrukturun sahibinə və ya istifadəçilərinə ziyan vurmağa səbəb ola bilən təbii və ya süni xarakterli, təsadüfi baş verən və ya qəsdən törədilən təsirlərdən informasiya və ona xidmət edən infrastrukturun mühafizə olunması;

2.2. **Məxfi məlumat** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən, məlumat daşıyıcısının özündə və ya ona qoşulan sənədlərdə məxfilik qrifi qoyulan və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlar;

2.3. **Konfidensial informasiya** - vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə olunmasına məhdudiyyət qoyulan məlumatlar, habelə peşə (həkim, \ ək i I, notariat və s.), kommersiya, istintaq və məhkəmə sirləri və s.;

2.4. **HTTPS (HyperText Transfer Protocol Secure) protokol** - istifadəçilər ilə server arasında xüsusi tunelin yaradılması ilə istifadəçi trafikini 3-cü tərəflərin dinləməsindən/müdaxiləsindən qoruyan "SSL'" şifrləmə protokulu ilə təchiz olunmuş şifrləmə mexanizmi;

2.5. **VPN (Virtual Private NetWork) xidmət** - trafıkin 3-cıı tərəflərin dinləməsindən/müdaxiləsindən

qorunmaqla xüsusi tunel vasitəsi ilə şifrələnərək ötürülməsi;

2.6. **Xidmət sahəsi** - əməkdaşın xidməti fəaliyyətini həvata keçirdiyi yer;

2.7. **P2P (peer-to-peer) şəbəkəsi** - mərkəzi server olmadan istifadəçi resurslarını bir-birinə bağlayan məlumat ötürmə protokolu;

2.8. **Qoruyucu divar (fırewall)** - internetdən gələn təhlükələrə qarşı müdafiə üçün informasiya sisteminə və şəbəkəyə girişi məhdudlaşdıran və ya əngəl ləyən təhlükəsizlik sistemi;

2.9. **Qısaldılmış, dəyişdirilmiş keçid** - uzun keçidlərin (URL) göndərilməsini və yadda saxlanılmasını asanlaşdırmaq məqsədilə onların qısaldılması (Hakerlər bu metoddan saxta və zərərli keçidlərin əsl adlarını gizlətmək/dəyişdirmək məqsədi ilə istifadə edir. Nümunə; bit.İy, tiny.url, goo.gl və s.);

2.10. **Dayanıqlı şifrə** - böyük hərf, kiçik hərf, simvol və rəqəmlərdən ibarət olan və 12 simvoldan az olmayan şifrə;

2.11. **Simsiz texnologiya** - bluetooth, infrared, simsiz kompüterlər və periferiya qurğuları (printerlər, klaviatura, siçan, ağıllı saat, simsiz qulaqlıq və s.) həmçinin ağıllı avadanlıqlar kimi soyuducular və sair simsiz texnologiyalar;

2.12. **Ransomware** - Tayllarin və ya kompüterin şifrlənməsi yolu ilə zədələnmiş və ya şifrlənmiş faylların bərpası üçün ödəniş tələb edən xüsusi zərərverici növü;

2.13. **Sosial mühəndislik** - xüsusi bilik və texniki vasitələrdən istifadə etmədən insanların manipulyasiya edilməsi, aldadılması və ya danışdırılması yolu ilə fərdi, xidməti, məxfi, konfıdensial məlumatların əldə olunması metodu (Sosial mühəndislik daha çox telefon zəngi ilə anketlərin doldurulması (bank və sığorta şirkətlərindən gələn zənglər ola bilər), e-mail vasitəsilə daxil olan elektron formaların doldurulması və ya hədəfin hansısa mövzu ətrafında fikir mübadiləsinə cəlb edilməsi yolu ilə həyata keçirilir.);

2.14. **Ağıllı mobil telefon** - istifadəçilər tərəfindən tətbiqlərin yazılmasını mümkün edən Android, İOS, Windows, Blackberry və digər əməliyyat sistemlərinə malik mobil cihaz;

2.15. **Fərdi məlumat** - şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat;

2.16. Kibergigiyena - təşkilatın rəqəmsal sağlamlığının qorunması, kiber hücumların qarşısının alınması, proqram təminatının və şəbəkənin təhlükəsizliyinin təmin olunması, əhəmiyyətli məlumatların təhlükəsiz emal edilməsi üçün mütəmadi həyata keçirilən əsas kiber təhlükəsizlik tədbirləri (şitrənin qorunması, proqram təminatının yenilənməsi, antivirusdan istifadə).

### 3. İnformasiyanın mühafizəsi ilə bağlı qadağalar

İnformasiya təhlükəsizliyi ilə əlaqədar aşağıdakılar qadağandır:

3.1. Məxfi və ya konfidensial məlumatın icazəsiz əldə edilməsi və ya ələ keçirilməsi;

3.2. Əməkdaşın xidməti istifadəsi üçün zəruri olmayan məxfi, konfidensial məlumatla tanış olması, məlumatın əldə edilməsi, saxlanması və ya digər məqsədlər üçün istifadə edilməsi;

3.3. Buraxılışına xüsusi nəzarət olan, elektron avadanlıqların istifadəsi qadağan olunmuş ərazilərə ağıllı telefon, kompüter və s. elektron avadanlıqlarla daxil olması;

3.4. Məxfi məlumatın daxili vahid şəbəkəsindən və ya kompüterdən yaddaş ötürücülərinə icazəsiz yazılması:

3.5. Xidməti, məxfi və ya konfidensial informasiyanın təhlükəsizlik səviyyəsi və kanalları müəyyən edilməmiş faks aparatları ilə göndərilməsi;

3.6. Məxfi şəbəkəyə qoşulmuş, eləcə də məxfi sənədlər hazırlanan kompüterlərin və digər qurğuların hər hansı internet bağlantısı olan şəbəkəyə qoşulması;

3.7. Məxfi şəbəkədən internet bağlantısı olan kompüterə və ya əksinə məlumatın daşınması;

3.8. Məxfiləşdirilmiş şəbəkə avadanlığının açıq və daha aşağı səviyyəli şəbəkəyə birləşdirilməsi;

3.9. Xidməti istifadə üçün ayrılmış avadanlığın təyinatından kənar, o cümlədən şəxsi məqsədlər üçün istifadə edilməsi;

3.10. Ağıllı mobil qurğuların Kriminalistika və informasiya texnologiyaları idarəsi ilə razılaşdırılmadan xidməti şəbəkəyə qoşulması.

### 4. Rabitə vasitələrindən istifadə

4.1. Təhkim olunmuş rabitə vasitələrindən yalnız xidməti məqsədlər üçün istifadə edilməlidir.

4.2. Xüsusi dövlət rabitəsindən yalnız xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslər istifadə etməlidir.

4.3. Rabitə xətlərini icazəsiz konsentratorlar və ya başqa kommutasiyalı qurğulara, həmçinin telefon aparatına cütləşmə və ya xüsusi keçirinə açarı ilə əlavə telefon aparatının qoşulması qadağandır.

4.4. Xüsusi şifrləmə ilə təmin olunmamış rabitə vasitələrilə məxfi danışıqların aparılması qadağandır.

4.5. Xidməti, konfidensial və ya məxfi danışıqları rabitə vasitəsinin "ucadan danışma" ("speaker") funksiyasından istifadə etməklə aparılması qadağandır.

4.6. Xidməti rabitə vasitələrində olan ölkədaxili və beynəlxalq danışıq limitlərindən şəxsi məqsədlər üçün istifadə edilməsi qadağandır.

4.7. Rabitə kanalları yalnız xidməti istifadəyə zəruri olan kanal sayı ilə, minimum imtiyaz siyasəti ilə təchiz edilməlidir.

4.8. Təhkim olunmuş rabitə vasitəsini müvəqqəti istifadəsi və ya saxlanması üçün digər şəxsə verilməsi və ya söndürülməsi qadağandır.

4.9. Rabitə vasitələrinin düzgün istifadəsi daim nəzarətdə saxlanılmalı və pozuntu halları aktlaşdırılmahdır.

4.10. Rabitə vasitəsinin itirilməsi, 3-cü şəxslər tərəfindən ələ keçirilməsi və s. kimi neqativ hallarda dərhal Kriminalistika və informasiya texnologiyaları idarəsinə məlumat verilməlidir.

### 5. Kompüterdən istifadə

5.1. Təhkim olunan kompüterdən xidməti zərurətdən kənar məqsədlə istifadə edilməsi qadağandır.

5.2. Xidməti fəaliyyətlə bağlı olmayan məlumatların təhkim olunan kompüterə köçürülməsi qadağandır.

5.3. Təhkim olunmuş kompüterin konfiqurasiyalarına (reestr, idarəetmə paneli, sistem fay1lari və s.) Kriminalistika və informasiya texnologiyaları idarəsi ilə razılaşdırılmadan müdaxilə edilməsi qadağandır.

5.4. Şəxsi istifadədə olan "USB" avadanlıqları (mobil telefon, sərinkeş və s.) təhkim olunmuş kompüterə hər hansı məqsəd (istifadə və ya enerji toplanması) üçün qoşulması qadağandır.

5.5. Kompüter lisenziyalı əməliyyat sistemi və digər lisenziyalı proqram təminatları ilə təchiz edilməlidir.

5.6. Lisenziyasız proqram təminatlarının kompüterdə istifadəsi qadağandır.

5.7. Kompüterin əməliyyat sisteminə məxsus yeniləımələr ("update") miitəmadi şəkildə həyata keçirilməli və əməliyyat sisteminin yeniləımələr ("update") fıınkisyası aktiv saxlanılmalıdır.

5.8. Kompüter, o cümlədən istifadə olunan digər informasiya sistemləri lisenziyalı antivirus proqram təminatı ilə təchiz olunaraq mərkəzləşdirilmiş antivirus sisteminə qoşulmalı və daimi yenilənməsi təmin olunmalıdır.

5.9. Kompüterlər, informasiya daşıyıcıları mütəmadi olaraq antivirus proqramları vasitəsilə ("scanning") yoxlanılmalıdır.

5.10. Kompüterin "fırewall" müdafiəsi daiın açıq (aktiv) olmalıdır.

5.11. İstifadə edilən kompüterdən aralanarkən ekran kilid vəziyyətinə keçirilməlidir və kilid vəziyyəti dayanıqlı şifrə ilə təmin edilməlidir.

5.12. Kompüterin zərərvericilərə, xüsusən də "Ransoınware" yoluxması halında, zərərvericinin digər şəbəkə elementlərinə yayılmasının qarşısının alınması üçün həmin kompüter dərhal internet, habelə daxili şəbəkədən ayrılmalı və Kriminalistika və informasiya texnologiyaları idarəsi bu barədə ınəluınatlandırı İmalıdır.

5.13. Kompüter "Ransoınware" zərərvericisinin yoluxması halında, zədələnmiş faylların bərpası üçün haker tərəfindən tələb olunan ödənişin həyata keçirilməsi və ya hər hansı digər tələbin icrası yolverilməzdir.

5.14. Kompüterlərin əməkdaşlara təhkim olunması, istifadələrinə verilməsi zamanı istifadəçinin xidməti fəaliyyətini təmin edəcək minimum imtiyazlı konfiqurasiya (istifadəsinə ehtiyac olmayan portların bağlanması, inzibatçı səlahiyyətlərin məhdudlaşdırılması və s.) təyin edilməlidir.

### 6. Daxili şəbəkə və internetdən istifadə

6.1. "AzSateNet" (dövlət) şəbəkəsindən istifadə etməklə zərərverici proqram təminatlarını ("rootkit", "troyan" və s.) yaymaq və ya digər bir istifadəçiyə göndərmək qadağandır.

6.2. Qeydiyyata alınmamış və razılaşdırılmamış Wi-Fi qurğularını, o cümlədən "sınart tv" və "smart tv box"-ları şəbəkəyə qoşmaq qadağandır.

6.3. Razılaşdırılmamış"P2P" əlaqəsi istifadə edən sistem və tətbiqlərdən ("Torrent", "Flashget", "Tor" və s.), habelə xidmət üçün istifadəsi təsdiqlənməmiş VPN xidmətlərindən istifadə etmək qadağandır.

6.4. Dövlət internet şəbəkəsindən və ya təhkim olunmuş kompüterdən istifadə etməklə online/offline oyunlar, xüsusən də qumar və idman mərc oyunları və •'18'-" kontentə malik informasiya resurslarından istifadə etmək qadağandır.

6.5. Xidməti istifadə üçün nəzərdə tutulmamış proqram təminatlarının internetdən yükləməklə və ya hər hansı daşıyıcıdan istifadə etməklə təhkim olunmuş kompüterə quraşdırılması qadağandır.

6.6. Zərərli kontentdən müdafiə məqsədi ilə saytlara onların təhlükəsizliyi https://blacklist.gov.az saytı vasitəsilə yoxlanmadan daxil olmaq qadağandır.

6.7. Bank kartları ilə ödənişlər, elektron poçt ünvanlarına girişlər yalnız "HTTPS" protokolu aktiv olduğu zaman həyata keçirilməlidir.

6.8. Xidməti tapşırıqların yerinə yetirilməsi üçün zəruri olan bütün proqram təminatları Kriminalistika və informasiya texnologiyaları idarəsi ilə razılaşdırıldıqdan sonra qeydiyyata alınmaqla və yalnız idarənin tövsiyə etdiyi resurs və ya vasitələrdən istifadə edilməklə təhkim olunmuş kompüterə quraşdırılmalıdır.

6.9. Dövlət internet şəbəkəsindən və ya təhkim olunmuş kompüterdən maddi mənfəət əldə etmək və ya digər məqsədlər üçün kompüterin əməliyyat gücündən, tutumundan və s. imkanlarından üçüncü tərəflərə istifadə səlahiyy əti verən sistem və ya tətbiqlərdən istifadə etmək qadağandır.

6.10. Xidməti vəzifələrinə və işinə birbaşa aidiyyəti olmayan internet informasiya resurslarına daxil olmaq qadağandır.

6.11. "URL qısaltma" (dəyişmə) xidmətlərindən istifadə edərək əsas domeni gizlədən informasiya resurslarından və ya keçidlərindən istifadə etmək qadağandır.

6.12. Məlumatların dövlət qurumunun xidməti istifadəsi üçün nəzərdə tutulmamış bulud xidmətində ("google drive", "offlce 365". "dropbox", "icloud", "onedrive", "boxca" və s.) saxlanılınası qadağandır.

6.13. Xidmət sahəsində, xidməti avadanlıqların kənar internet ("Mİ-Fİ", "Data kart", "ADSL", "Mobile Hotspot" və s.) bağlantı vasitələrinə qoşulması qadağandır.

6.14. Xidməti şəbəkədə Kriminalistika və informasiya texnologiyaları idarəsi ilə razılaşdırılmamış avadanlıqların (klaviatura və siçan istisna olmaqla) istifadəsi aşkarlanarsa, bu avadanlıqlar aktlaşdırılaraq istifadədən kənarlaşdırılmalıdır.

### 7. "Simsiz texnologiyarın" istifadəsi

7.1. Simsiz texnologiyadan istifadə edərkən həmin texnologiya vasitəsi ilə ötürüləcək məlumatın konfidensiallıq səviyyəsi müəyyən edilməlidir.

7.2. Daxili vahid şəbəkəyə qoşulmuş bütün kompüter və digər avadanlıqların ikinci simsiz əlaqə interfeysi söndürülməlidir.

7.3. Simsiz rabitə ilə təchiz olunmuş printerlərin və bu kimi digər avadanlıqların istismarında "Wi-Fi" funksiyası söndürülməlidir.

7.4. Daxili şəbəkəyə müdaxilə etmək imkanı yaratdığına görə bina xaricinə şəbəkəni çatdıran və razılaşdırılmamış yerlərdə "Wi-Fi" ötürücü və gücləndiricilərin daxili şəbəkəyə

qoşulması qadağandır. - müraciətlərdəki hadisə. Eyni zamanda kənar qurğuların qoşulması qadağandır.

7.5. Kompütərə simsiz, şifrlənınəiniş. Kriminalistika və informasiya texnologiyaları idarəsi ilə razılaşdırılmamış avadanlıqların (klaviatura və siçan istisna olmaqla) qoşulması qadağandır.

**8. Elektron poçt ünvanlarından istifadə və təhlükəsizliyə dair tələblər**

8.1. Prokurorluq əməkdaşlarının xidməti istifadəsi üçün elektron poçt ünvanlarının yaradılması və onların qurulması Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfindən həyata keçirilir.

8.2. Xidməti istifadə üçün yalnız (aiprosecutor.gov.az elektron poçt ünvanından istifadə olunmalıdır.

8.3. Xidməti və rəsmi yazışmalarda şəxsi elektron poçt ünvanından istifadə edilməsi qadağandır.

8.4. Xidməti elektron poçt ünvanından istifadə etməklə xidməti fəaliyyətlə əlaqəsi olmayan məlumatların və sənədlərin göndərilməsi və ya onların yayılmasında istifadə edilməsi qadağandır.

8.5. Kənar internet informasiya ehtiyatlarında qeydiyyat zamanı xidməti elektron poçt ünvanından istifadə edilməsi qadağandır ("hesab.az", "turbo.az", "facebook", "google" və s.).

8.6. Elektron poçt vasitəsi ilə naməlum şəxslər tərəfindən göndərilmiş sorğulara, linklərə keçid edilməsi və elektron poçta cavab verilməsi qadağandır.

8.7. Elektron poçt vasitəsi ilə vədverici məktubların (pul uduşları, mükafatlandırmalar, əmanətin ötürülməsi, təyyarə bileti, bank hesabının açılması, pul köçürmə əməliyyatları, faktura ödənişi və s.) alınması zamanı həmin məktubdakı keçidlərə daxil olmadan (klik etmədən) və elektron poçta cavab vermədən şübhəli daxilolma barədə Kriminalistika və informasiya texnologiyaları idarəsinə məlumat verilməlidir.

8.8. Elektron poçt və ya telefon zəngi vasitəsi ilə adların saxtalaşdırılması ilə hansısa əməkdaşın və ya idarənin (şöbənin, xidmətin) adından göndərilən texniki əməliyyatlardan ibarət tapşırıqlar (poçt qutusu ilə bağlı əməliyyatlar, şifrələrin dəyişdirilməsi, elektron poçt həcminin artırılması, kompüterdə, bütün baxış proqramlarında ("browser ') və ya hansısa proqram təminatında yenilənməni tələb edən və s.) elektron poçtu göndərən tərəflə texniki tapşırığın saxta olub-olmadığı zəng və ya digər alternativ əlaqə vasitələri ilə yoxlanılmalıdır.

8.9. Xidməti və konfidensial məlumatların yalnız "gov.az" doınen zonasında olan elektron poçt ünvanları arasında mübadiləsinə icazə verilir. Bu kiıni məlumatların elektron poçtla göndərilən zaman xüsusi şifrələmə metodları ilə əlavə şifrələnməsi tövsiyə olunur.

8.10. Elektron poçt və ya digər elektron sorğular vasitəsilə 3-cü tərəflərə fərdi, xidməti və ya maliyyə məlumatlarının göndərilməsi qadağandır.

8.11. Qəbul edilməsi gözlənilməyən şübhəli elektron poçtların açılmasından imtina edilməlidir.

8.12. Antivirus yoxlamasından keçirilməmiş qoşma fayllarin elektron poçt vasitəsilə göndərilməsi qadağandır.

**9. İnformasiyanın "sosial mühəndislik" yolu ilə əldə edilməsindən müdafiə**

9.1. Əməkdaşların hər hansı sorğu, naməlum tərəflərin zəngləri ilə verilən sual-cavab və ya fikir mübadiləsində iştirakı qadağandır.

9.2. Hər hansı şübhəli sorğu, anket və məlumat mübadiləsində iştiraka cəlb olunma hallarında, eləcə də qeyd olunanlar elektron vasitələrlə aparıldıqda həmin xoşagəlməz halın araşdırılması üçün Kriminalistika və informasiya texnologiyaları idarəsinə məlumat verilməlidir.

9.3. Prokurorluğun kompüter və şəbəkə haqqındakı texniki, arxitektur, İP və digər parametrlər üzrə məlumatların 3-cü tərəfə ötürülməsi qadağandır.

9.4. 3-cü şəxslər tərəfindən göndərilmiş hər hansı texniki tapşırığın razılaşdırılmamış icrası qadağandır.

9.5. 3-cü tərəflərin hər hansı məlumat barədə sorğusu, yalnız 3-cli tərəfin kimliyi müəyyənləşdirildikdən və bu məlumatın hansı məqsədlə istifadə olunacağı dəqiqləşdirildikdən sonra cavablandırılmalıdır.

**10. Sosial şəbəkə platformalarından təhlükəsiz istifadə**

10.1. Sosial şəbəkə platformalarından istifadə ilə əlaqədar məxfiliyin qorunması və informasiya təhlükəsizliyi bu Təlimatla yanaşı, Azərbaycan Respublikası Baş prokurorunun 20.12.2021-ci il tarixli 15/23 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair" Təlimatın tələblərinə uyğun təmin edilməlidir.

10.2. Fərdi məlumatların, xüsusilə də şəxsiyyəti müəyyən etməyə imkan verən sənədlərdə, əmək haqqı kartında və digər bu kimi sənədlərdə olan məlumatların sosial şəbəkə platformalarında paylaşılması yolverilməzdir.

10.3. Səlahiyyəti olmadan prokurorluğun adından danışma, məlumat yayma, xüsusi geyim formasında və ya xidmət yerində çəkilən şəkil paylaşma qadağandır.

10.4. Sosial şəbəkə platformalarında qeydiyyat zamanı xidməti məlumatlardan (telefon, ünvan və s.) istifadə qadağandır.

10.5. Dostluq dəvətləri göndərən naməlum şəxslərin kimliyinə əmin olmadan onların dostluğa qəbulu, şübhəli məqam kimi qiymətləndirilməlidir.

**11. Şifrə təhlükəsizliyi**

11.1. Təhkim olunan kompüter, telefon, planşet. noutbuk və ya fərdi kompüterlər dayanıqlı şifrələrlə təmin olunmalıdır.

11.2. Hər hansı bir kompüterin bir neçə istifadəçisi olarsa hər bir istifadəçiyə ayrı ayrılıqda hesab və fərdi şifrələr təyin edilməlidir.

11.3. Bütün kompüter, hesab və ya hər hansı informasiya sistemi təhlükəsiz, təxmin edilməsi mümkün olmayan, "dayanıqlı şifrələr" ilə təmin edilməlidir.

11.4. Dövlət internet şəbəkəsində, təhkim olunmuş kompüterlərdə və ya istifadə olunan hər hansı hesab və informasiya sistemində susmaya görə ("default") olan şifrələrin istifadəsi qəti qadağandır.

11.5. Şifrələrin təyini zamanı ad. soyad, ata adı. doğum tarixi, avtomobil seriyası və ya nömrəsi, telefon nömrəsi və s. kimi ictimai məlum məlumatlardan, onların qısaldı imalarında istifadə yolverilməzdir.

11.6. Funksional olaraq mümkün olan bütün hesab və sistemlərdə ikili autentifikasiyadan istifadə olunmalıdır.

12. İnformasiya daşıyıcılarından istifadə

12.1. İstənilən məxfi məlumat daşıyıcısı (elektron və ya kağız) yalnız xüsusi bağlı vasitələrdə və ya seyflərdə saxlanılmalıdır.

12.2. İşdən azad olunduqda və ya vəzifəsi dəyişdikdə prokurorluq əməkdaşları onlara təhkim olunmuş informasiya daşıyıcısını təhvil verməlidir.

12.3. Bütün informasiya daşıyıcıları nişanlanmalı və aidiyyəti üzrə istifadə olunmalıdır.

12.4. Xarici (daşman) yaddaş qurğularının şifrləmnədən ("encrypt") istifadə edilməsi qadağandır.

12.5. Sərgi, nümayiş, konfrans, yığıncaq, görüş və bənzəri tədbirlərdən götürülmüş, hədiyyə edilmiş və ya təsadüfən tapılmış yaddaş daşıyıcılarının xidməti kompüterlərə qoşulması və xidməti məqsədlər üçün istifadə edilməsi qadağandır.

12.6. Kompüterlərdəki məlumatların "ənənəvi yollarla" (delete. shift+delete, format və s.) silinmədiyini nəzərə alaraq, vəzifə dəyişikliyi və ya xidməti kompüterin yenilənməsi kimi hallarda, köhnə kompüterlərin digər əməkdaşlara təhkim edilməsi zamanı kompüterdə işlənilən əvvəlki məlumatların digər əməkdaşlar tərəfindən istifadə edilməsinin qarşısının alınması üçün müvafiq qurumun rəhbəri tərəfindən Kriminalistika və informasiya texnologiyaları idarəsinə məlumat verilməklə həmin idarə tərəfindən kompüterdəki məlumatlar xüsusi məhvetmə (silinmə) standartına (Gutmann, The DoD 5220.22-M, NAVSO P5239-26, PRNG və s.) uyğun təmizlənməli, imtiyazlar azaldılmalı, internetə çıxış qeydiyyatı yenilənməli və yalnız bundan sonra növbəti əməkdaşa təhkim edilməlidir.

12.7. Kağız informasiya daşıyıcıları aidiyyəti şəxslərin istifadəsi üzrə kargüzarlıq qaydalarına uyğun qeydiyyata alınmalıdır.

12.8. İstifadəsiz kağız informasiya daşıyıcıları xüsusi qaydalar və qurğularla (şreder və s.) məhv edilməlidir.

## 13. Buraxılış üzrə təhlükəsizlik

13.1. Xidmət sahələrinə buraxılış tanınma vasitələri ilə (vəsiqə, buraxılış kartı, döş nişanı və s.) həyata keçirilməlidir.

13.2. Buraxılışı məhdudlaşdırılmış xidmət sahələrinə (server, şəbəkə otaqları və s.) səlahiyyəti olmayan şəxslərin keçməsi yolverilməzdir.

13.3. Xidmət sahəsinə buraxılışı olmayan əməkdaşın həmin ərazidə icazəsiz fəaliyyəti qadağandır.

## 14. Ezamiyyət, məzuniyyət və işə xitam zamanı informasiya təhlükəsizliyi

14.1. Ezamiyyət zamanı informasiya təhlükəsizliyinə daha çox risk yaradan aeroport, kafe, otel və s. ictimai "Wi-Fi" olan ərazilərdə xidməti istifadə üçün ayrılmış kompüter, sınartfon, planşet tipli avadanlıqlardan yalnız zərurət yarandığı təqdirdə, təhlükəsizlik tələbləri (kibergigiyena) gözlənilməklə istifadə edilməlidir.

14.2. Ezamiyyət zamanı internetdən istifadə yalnız təhlükəsizliyi təmin edilən, xüsusi şifrli kanal yaradan, Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfndən istifadəsinə icazə verilmiş "VPN xidməti" vasitəsi ilə həyata keçirilməlidir.

14.3. Xidməti istifadədə olan avadanlıqların oğurlanmaması üçün xüsusi səy göstərilməlidir.

14.4. Avadanlıqlardan ictimai yerlərdə istifadə zamanı ekranının arxadan izlənməməsi üçün səy göstərilməlidir.

14.5. Xarici səfərlərə aparılan informasiya daşıyıcıları daha ciddi və dayanıqlı şifrələr ilə qorunmalıdır.

14.6. İnternetdən istifadə zamanı avtorizasiya (qeydiyyat, qaydaların qəbul edilməsi və s. məqsədlər) üçün hər hansı bir səhifəyə yönləndirilmə varsa bu, avadanlığın izlənməsinə və kompromentasiyasına yol açacağından, belə internetdən istifadədən imtina edilməlidir.

14.7. Ezamiyyət zamanı internet klublardan və ya otelin kompüterlərindən xidməti məqsədlər üçün (e-mail ünvanının yoxlanılması, hansısa sənədin hazırlanması və s.) istifadə edilməsi qadağandır.

14.8. Zərurət olmadığı təqdirdə xidməti avadanlıqların ezamiyyətə aparılması qadağandır.

14.9. Prokurorluq əməkdaşının xidməti fəaliyyətinə xitam verildikdə və ya xidmət sahəsi dəyişdirildikdə (elektron poçt ünvanının ləğv edilməsi, kompüterə aid İP ünvanının dəyişdirilməsi və sair işlərin həyata keçirilməsi üçün) Kadrlar idarəsi tərəfindən Kriminalistika və informasiya texnologiyaları idarəsinə məlumat verilir.

14.10. İşinə xitam verilən əməkdaşın informasiya sistemləri, portalları, elektron poçt xidmətinə giriş və bu kimi digər imtiyazları dərhal dayandırılmalı, şəbəkəyə giriş imkanları və VPN qoşulmaları (əgər varsa) məhdudlaşdırılmalıdır.

## 15. Texniki təhlükəsizlik

15.1. Bütün texniki avadanlıqlar nişanlanmalı, nömrələnməli və dəqiq inventarizasiya olunmalıdır.

15.2. Bütün informasiya sistemlərinin arxitektur dizaynı və texniki sənədləri hazırlanmalı və sistemə cavabdeh şəxslər tərəfindən qorunmalıdır.

15.3. Bütün kritik sistemlərin dayanıqlı alternativi olmalı, eyni zamanda məlumatların mütəmadi olaraq təhlükəsiz formada ehtiyat nüsxəsi çıxarılıb qorunmalıdır.

15.4. İş vaxtı bitdikdən sonra tərk edilən xidməti otaqda 24/7 fəaliyyəti nəzərdə tutulmayan bütün avadanlıqlar (kompüterlər, printerlər və s.) söndürülməlidir.

## 16. Yekun müddəalar

16.1. İnformasiya sızmasının qarşısının alınması üçün təhkim olunmuş xidməti kompüter, mobil telefon və digər avadanlıqlardan istifadə zamanı bu Təlimatda göstərilən tələblərə riayət olunmalıdır.

16.2. Təhkim olunmuş rəqəmsal qurğulardan informasiya sızması ilə bağlı dərhal Kriminalistika və informasiya texnologiyaları idarəsinə məlumat verilməlidir.

16.3. Bu təlimatın tələblərinin pozulması qanunvericiliklə nəzərdə tutulmuş müvafiq məsuliyyətə səbəb olur.

**Azərbaycan Respublikasının Baş Prokurorluğu**